AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

SAMUDƏ ELDAR QIZI EYYUBOVA

# İSLAM KONFRANSI TƏŞKİLATI BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ

(1969-2007-ci illər)

- 14495 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı - Elm - 2009

AMEA A.A.Bakıxanov adına Tarix institutunun Dissertasiya Şurasının qərarı ilə çapa məsləhət görülmüşdür.

**Elmi redaktoru:** t.e.d.,prof.**Fətəliyev M.B.**

**Rəyçilər:** t.e.d.,prof.**Əlibəyli H.C.**
t.e.d.,prof.**Qasımlı M.C.**

**S.E.Eyyubova.** İslam Konfransı Təşkilatı beynəlxalq münasibətlər sistemində (1969-2007-ci illər). Monoqrafiya. – Bakı: 2009. 174 səh

**İSBN 5-8066-1756-4**

Monoqrafiyada İslam Konfransı Təşkilatının beynəlxalq münasibətlər sistemində mövqeyi və rolu araşdırılır. Müəllif Təşkilatın yaranma tarixini izləyir, quruluşunu, məqsəd və vəzifələrini verir, beynəlxalq və regional münaqişələrin həllində yerini müəyyən edir. Monoqrafiyada həmçinin Azərbaycan – İKT əlaqələri də tədqiq olunur.

Monoqrafiya tarixçilər, diplomatlar, beynəlxalq münasibətlər tarixini örnən tələbələr və aspirantlar, həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

$S\frac{0801000000}{655(07)-2009}$

©. «Elm» – 2009
©. **S.E.Eyyubova**

MÜNDƏRİCAT

**GİRİŞ** ........ 4
**I FƏSİL. İKT-nin təşkilatı əsasları və beynəlxalq münasibətlərdə yeri**
1.1. İslam Konfransı Təşkilatının yaranma tarixindən ........ 22
1.2. İKT-nin Nizamnaməsi, quruluşu, məqsəd və vəzifələri ........ 35
1.3. İKT-nin müasir beynəlxalq təşkilatlar sistemində yeri ........ 55
**II FƏSİL. İKT və Ərəb dünyası**
2.1. İslam Konfransı Təşkilatı və İslam ziyarətgahlarının qorunması məsələləri.. ... 63
2.2 Fələstin Ərəb dövlətinin yaradılması problemi və İKT ........ 78
2.3. Ərəb ölkələrinin birliyi və İKT ........ 97
**III FƏSİL. İKT – regional konfliktlər və dövlətlərarası münasibətlər**
3.1. İKT: İraq-İran müharibəsi, Sovet ordusunun Əfqanıstana hərbi təcavüzü və Kəşmir problemi ........ 108
3.2. İKT-nin siyasətində Azərbaycan Respublikası ........ 130
3.3. İKT və xarici ölkələrdə məskunlaşmış müsəlman icmaları ........ 142
**NƏTİCƏ** ........ 152
**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT** ........ 161

## GİRİŞ

**Mövzunun aktuallığı.** İslam dünyasının keçdiyi tarixi inkişaf yolu göstərir ki, onunla əvvəllər beynəlxalq imperializm, İkinci dünya müharibəsindən sonra isə yeni müstəmləkəçilər arasında qarşıdurma davam etmişdir. İslam dünyasını müstəmləkəyə çevirmək və asılı vəziyyətdə saxlamaq üçün böyük dövlətlərin diplomatiyası müxtəlif üsul və vasitələrə əl atmış, o cümlədən hələ qədim Romada geniş tətbiq edilən "parçala və hökmranlıq et" (divide et impera) prinsipindən istifadə olunmuşdur.

XIX əsrin sonuna kimi Avropa dövlətlərinin diplomatiyasında müsəlman ölkələrinin yerini əsasən bu dövlətlərin hərbi-strateji maraqları müəyyən etmişdir. Lakin neftin bu regionda aşkar olunması və bu qiymətli təbii sərvətin beynəlxalq ticarət dövriyyəsinə cəlb olunması ilə müsəlman ölkələri qüdrətli dövlətlərin istismar və ekspansiya hədəfinə çevrilir. XX əsrdə baş vermiş cahanşumal siyasi, iqtisadi hadisələrin və xüsusilə Birinci dünya müharibəsinin əsas səbəblərindən biri də məhz müstəmləkə və yarımmüstəmləkə halına salınmış müsəlman ölkələrini yenidən bölüşdürmək, bu ölkələrin təbii sərvətlərindən və ucuz işçi qüvvəsindən maksimum bəhrələnmək siyasəti olmuşdur.

İkinci dünya müharibəsindən sonrakı dövrdə inkişaf etmiş dövlətlərin strategiyasında müsəlman ölkələrindən əsasən xammal mənbəyi, sərfəli kapital qoyuluşu obyekti, ucuz işçi qüvvəsi məkanı və artıq qalmış sənaye və kənd təsərrüfatı mallarının əlverişli satış bazarı kimi istifadə edilmişdir. Soyuq müharibə dövründə isə müsəlman ölkələri iki aparıcı qütb Sovet İttifaqı ilə Amerika Birləşmiş Ştatları arasında dünya hegemonluğu uğrunda gedən mübarizə orbitinə cəlb olunmuşdu. Bu dövrdə müsəlmanların birliyini və milliyyətindən asılı olmayaraq bərabərliyini nəzərdə tutan "İslam ümməti" prinsipi ciddi aşınmaya məruz qaldı, İranda və ərəb ölkələrində baş qaldıran və çox vaxt xarici qüvvələr tərəfindən qızışdırılan "paniranizm" və "panərəbizm" millətçilik meylləri



yeni müstəmləkəçiliyə qarşı kəsərli vasitə ola bilən müsəlman xalqlarının vahid cəbhəsinin təşəkkülünə qarşı çevrilmiş bir proses idi. Hətta 1945-ci ildə İngiltərənin xarici işlər naziri Antoni İdenin tövsiyəsilə "Ərəb Ölkələri Liqasının" yaranması, 1949-cu ildə Suriya xristianlarından olan Mişel Əflak tərəfindən Ərəb Sosialist Dirçəliş Partiyasının (BƏƏS) təsisi, 1950-ci ildə İranda "Paniranistlər" millətçi partiyanın yaradılması, 1975-ci ildə İran şahı tərəfindən "İran millətinin dirçəlişi" partiyasının təsis edilməsi və s. bu kimi partiyaların siyasi fəaliyyətə başlamaları da İslam dünyasının birliyinin təmin edilməsi üçün deyil, ciddi münaqişələrin və qarşıdurmaların, müsəlman ölkələri arasında ixtilafların yaradılması işində istifadə edilirdi. Məhz belə siyasətin nəticəsi idi ki, İkinci dünya müharibəsindən sonra Yaxın Şərq böhranı baş verdi, BMT-nin 1947-ci il məlum qərarı ilə Fələstin ərəb dövlətinin yaradılması üçün nəzərdə tutulan torpaqlar yəhudilər tərəfindən zəbt edildi, sovet qoşunları Əfqanıstanı işğal etdi, İraq əvvəl İrana, sonra isə Küveytə təcavüz etdi, Azərbaycan torpaqları Ermənistan tərəfindən işğal olundu.

Bu kimi hadisələrin baş verməsi, İslam dünyasında birliyin və səmərəli əməkdaşlığın olmamasına dəlalət edirdi. Nifaq və qarşıdurma toxumu nəinki milli mənşəcə müxtəlif müsəlman xalqları arasında, hətta ərəb ölkələrinin özləri arasında belə cücərirdi. Dövrün səciyyəvi xüsusiyyətlərindən biri də bu idi ki, İslam dünyasında başlanan parçalanma və qarşıdurmalar getdikcə dərinləşərək kəskinləşirdi. Müsəlman ölkələrinə məxsus milli sərvətlərin yeni müstəmləkəçi dövlətlər və onlara məxsus transmilli korporasiyalar tərəfindən talan olunması nəticəsində, müsəlman xalqları zəngin təbii sərvət sahibi olsalar da yoxsulluq girdabından xilas ola bilmirlər. İslam dünyasının bu acınacaqlı sosial-iqtisadi vəziyyəti və müsəlmanların daima böyük dövlətlərin diplomatiya hədəfində olması, müsəlman ölkələrinin vətənpərvər və milli qüvvələrini narahat etməyə bilməzdi. Bu qüvvələrin fikrincə, asılılıq boyunduruğundan və iri dövlətlərin diplomatiya hədəfindən xilas olmağın əsas və başlıca yollarından biri müsəlman dövlətlərinin siyasi

birliyinə nail olmaq yoludur. Bu birlik məqsədilə atılan addımların və yaradılan təşkilatların tarixinin tədqiqi Azərbaycan tarixşünaslığı qarşısında duran mühüm vəzifələrdən biri kimi aktuallıq kəsb edir.

Müstəqillik yoluna qədəm qoymuş ölkəmiz İKT-nin üzvüdür və bu təşkilatın müxtəlif toplantılarında yuxarıda qeyd edilmiş problemlərlə bağlı müzakirələr və fikir mübadiləsi aparır. Bu problemlərlə əlaqədar İKT-nın fəaliyyətinin tədqiqi maraq doğurur və aktualdır. Bu problemin əhatəli və sistemli tədqiqi bir də ona görə aktualdır ki, hazırda Qərbin bir sıra rəsmi dairələrində və bəzi strateji araşdırma mərkəzlərində beynəlxalq ictimaiyyətə belə bir uydurma və heç bir əsası olmayan fikir aşılanır ki, gələcəkdə əgər üçüncü dünya müharibəsi baş verərsə, bu iri dövlətlərin bir-birilə deyil, sivilizasiyalar, başqa sözlə desək müsəlmanlarla xristianlar arasında baş verəcəkdir. 2001-ci ilin sentyabrın 11-də Nyu-Yorkda törədilən terror hadisəsindən sonra müsəlmanlara qarşı "səlib yürüşü" yenidən gündəmə gətirildi və antiislam meyllər Qərbin bir sıra ölkələrində dövlət siyasəti səviyyəsinə qaldırıldı. Dünya siyasətində bir sıra qüdrətli dövlətlər tərəfindən antiislam meyllərinin gücləndirilməsi şəraitində müsəlman dövlətlərinin birliyini nəzərdə tutan İslam Konfransı Təşkilatının yaranma tarixi və fəaliyyətinin hərtərəfli və dərindən öyrənilməsi aktualdır, mühüm elmi-praktik əhəmiyyət kəsb edir.

İslam Konfransı Təşkilatının nəzəri-konseptual baxımdan öyrənilməsi bir də ona görə zəruridir ki, bu təşkilat beynəlxalq münasibətlər sisteminin təşəkkülündə və formalaşmasında iştirak edən elementlərdən biri kimi İslam dünyasında beynəlxalq münasibətlərin axarına təsir göstərir. İKT hökumətlərarası bir təşkilat kimi Nizamnaməsində nəzərdə tutulmuş fəaliyyət formaları ilə islam dünyasında beynəlxalq hüquq normalarının formalaşması prosesinə dinamik ruh verilməsinə istiqamət verir, üzvü olduğu dövlətlərin beynəlxalq münasibətlər sistemində mövqeyinə təsir göstərir. 57 dövlətin iştirakı və ciddi fəaliyyəti nəticəsində dini əsasda yaradılan və 1,2 mlrd. əhalini birləşdirən bu qurum geniş bir ərazidə



beynəlxalq münasibətlərin inkişafında fəal iştirak edir. İKT həm də dünya siyasətinin əsas ağırlı və ciddi məsələləri kimi təzahür edən tərksilah və silahlar üzərində nəzarət, ekoloji tarazlığın pozulması, demoqrafik proseslər, regional münaqişələr, inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasında münasibətlər, beynəlxalq bazarda ədalətli qiymət sisteminin formalaşması və s. problemlərin həllində və nizama salınması uğrunda mübarizə aparır. İslam Konfransı Təşkilatı qlobal və regional səviyyədə baş qaldırmış böhranlı vəziyyətləri və münaqişələri diplomatik vasitələrlə, güc tətbiq etmədən nizama salınmasına üstünlük verir. Bu da Qərbin bir sıra rəsmi dairələri və strateji araşdırma mərkəzləri tərəfindən irəli sürülmüş "sivilizasiyaların toqquşmasının" labüd olmasını aşılayan doktrinanın saxta olmasını sübut edən amillərdən biridir.

Bu prinsipial cəhətlər təşkilatın üzvü olan bütün dövlətlər üçün həlledici amil olduğu kimi, Azərbaycan üçün də böyük əhəmiyyət kəsb edir, onun dünya problemlərinin həllində iştirakına imkan yaradır. Məhz ona görə də hazırda Azərbaycanın xarici siyasətinin əsas vəzifəsi və həm də başlıca problemi müstəqilliyimizi qorumaq, ölkəmizin ərazi bütövlüyünü bərpa etmək və milli iqtisadiyyatımızın inkişafı üçün xarici ölkələrlə əlverişli iqtisadi əlaqələr yaratmaqdır. Dövlətimiz bu təşkilatın beynəlxalq münasibətlər sistemində və dünyada gedən ictimai-iqtisadi proseslərə nüfuzundan və geniş iqtisadi imkanlarından istifadə etməklə, xarici siyasətimizin və iqtisadi həyatımızda mövcud problemlərini həll etmək və nizama salmaq imkanları əldə edir. Məhz İKT yeganə beynəlxalq təşkilatdır ki, torpaqlarımızı qəsb etdiyinə görə Ermənistanı təcavüzkar bir dövlət kimi tanımış, erməni işğalı altında olan rayonların qeyd-şərtsiz azad olunmasını təkidlə tələb edir. Ermənistanın respublikamıza qarşı hərbi təcavüzü ilə bağlı beynəlxalq ictimai rəyin formalaşdırılmasında bu təşkilatın ədalətli və obyektiv mövqeyinin açıq bəyan edilməsi və bu hərbi təcavüzlə bağlı həqiqətlərin dünya birliyinə çatdırılmasının respublikamız üçün beynəlxalq əhəmiyyəti var. Bu baxımdan da İslam Konfransı Təşkilatının məqsəd və

vəzifələrinin, fəaliyyət formalarının öyrənilməsi elmi və siyasi aktuallıq kəsb edir.

Problemin öyrənilməsi zərurəti həmçinin dövlətimizin müxtəlif beynəlxalq təşkilatlarla əlaqələr yaratmaq və əməkdaşlıq etməsi ilə bağlıdır. Xarici siyasətimizin bu istiqamətini həyata keçirən əlaqədar dövlət orqanları üçün İKT-nın tarixinin və fəaliyyətinin tədqiqi praktik əhəmiyyət kəsb edir. Bundan başqa, respublikamız dünya birliyinə çox geniş inteqrasiya olmaq dövrünü yaşayır. Beynəlxalq münasibətlərdə və bütövlükdə dünya siyasətində baş verən ictimai-siyasi və iqtisadi proseslər elmi-tədqiqat və təhsil müəssisələrində araşdırılır və tədris olunur. Lakin bu sahədə ayrıca əsərlərin, dərslik və dərs vəsaitlərinin çatışmazlığı müəyyən çətinlik və problem yaradır. Bu boşluğun doldurulması baxımından da mövzunun öyrənilməsi faydalı və aktualdır.

**Tədqiqatın xronoloji çərçivəsi** 1969-2007-ci illəri əhatə edir. Bu dövrdə bütövlükdə İslam dünyasında, xüsusən Yaxın və Orta Şərqdə vəziyyət son dərəcə kəskinləşmişdir. Belə ki, 1967-ci ildə İsrailin hərbi təcavüzü nəticəsində ərəb ölkələrinə məxsus geniş ərazilər işğal olunmuş, sərhəd-ərazi problemlərilə bağlı Hindistanla Pakistan arasında müharibə baş vermiş, müsəlmanlar üçün müqəddəs ziyarətgah sayılan əl-Əqsa məscidi yandırılmış, həmişə sabit daxili vəziyyətilə seçilən Əfqanıstanda 1973 və 1978-ci illərdə dövlət çevrilişi edilmiş, 1979-cu ildə İranda İslam inqilabı qələbə çalmış, İsrail-Ərəb müharibələri nəticəsində (1973 və 1982-ci illərdə) Yaxın Şərqdə vəziyyət yenə də kəskinləşmiş, 1979-cu ildə sovet qoşunları Əfqanıstanda hərbi təcavüzə əl atmış, İranda inqilabi hərəkatdan sonra yaranmış vəziyyətdən istifadə edən İraq bu ölkəyə qarşı hərbi əməliyyatlara əl atmışdır. 1990-cı ildə Səddam hökuməti Küveyti İraqa ilhaq etmiş və nəticədə Körfəz müharibəsi başlanmışdır, bir ərəb dövləti (Küveyt) başqa bir ərəb dövlətindən (İraqdan) özünü qorumaq üçün Amerika Birləşmiş Ştatları başda olmaqla Qərbdən kömək istəmiş, Azərbaycan torpaqları Ermənistan tərəfindən işğal olunmuşdur və s.



Bir-birinin ardınca baş verən bu hadisələr bütün İslam dünyası üçün həyəcanlı siqnallar idi, İslama etiqad edən insanları, xüsusilə bu ölkələrin ziyalılarını düşündürməli idi. Beynəlxalq aləmdə və xüsusilə müsəlman ölkələrində cərəyan edən belə gərginliklə müşayiət olunan burulğanlı hadisələrdən çıxmağın əsas və başlıca yolu, İslam birliyini təmin edən vahid cəbhədə birləşməyi tələb edirdi. Bu hadisələrin başlanğıcında siyasi səhnəyə qədəm qoyan İslam Konfransı Təşkilatı, müsəlmanlara məxsus ziyarətgahları təxribatdan və təhqirdən qorumaq məramı ilə yarandığını bəyan etsə də, həm də müsəlman dövlətlərinin beynəlxalq aləmdə baş verən münaqişələrlə bağlı vahid cəbhədən çıxış etmələrinin təminatçısı olmalı idi.

**Problemin öyrənilmə vəziyyəti.** Beynəlxalq aləmdə gedən proseslər, o cümlədən də ölkələr və xalqlar arasında yaranmış və hökm sürən münasibətlər ictimai həyatın bütün inkişaf mərhələlərində humanitar elm nümayəndələrinin daimi diqqət mərkəzində olmuşdur. Bu proses bizim tədqiq etdiyimiz xronoloji çərçivə daxilində və Azərbaycanın beynəlxalq aləmdə həyata keçirdiyi xarici siyasət fəaliyyətinin araşdırılması istiqamətində də baş vermişdir.

Qeyd etməliyik ki, bütövlükdə Azərbaycanın beynəlxalq aləmdə həyata keçirdiyi xarici siyasət sahəsində toplanmış tarixi təcrübəsinə həsr edilmiş bir sıra monoqrafik əsərlər, kitablar nəşr olunmuş, namizədlik və doktorluq dissertasiyaları yazılaraq müdafiə edilmişdir. Bu tədqiqat işlərində Azərbaycanın SSRİ tərkibində xarici dövlətlərlə iqtisadi, siyasi, mədəni və humanitar əlaqələrinin bir çox aspektləri öz əksini tapmışdır. Bundan başqa Azərbaycan Respublikasının beynəlxalq fəaliyyəti ölkəmiz müstəqillik əldə etdikdən sonra da tədqiqatçılar tərəfindən tədqiq edilmiş, mühüm elmi-tarixi əsərlər yazılmış və çap olunmuşdur, o cümlədən Azərbaycan Respublikasının Müsəlman Şərqilə münasibətlərinin qurulması və inkişafı haqqında tədqiqatlar ərsəyə gəlmişdir. Bu dövrdə respublikamızın göstərilən tarixi mərhələlərdə formalaşan və inkişaf edən xarici əlaqələri barədə ölkəmizin tanınmış tarixçi-alimlərinin –

R.Orucovun, Y.Mahmudovun, S.Sayadovun, O.Sayadovun, E.Sayadovun, S.Qəndilovun, H.Əlibəylinin, M.Fətəliyevin, M.Qasımlının və başqalarının maraqlı və ciddi elmi əsərləri çapdan çıxmışdır.

Monoqrafiya üzərində işləyərkən müəllif Azərbaycan tarixşünaslıq məktəbinin bu görkəmli nümayəndələrinin əsərlərindən bəhrələnmiş, onların tədqiqat işlərində öz əksini tapmış dəyərli fikir və mülahizələrdən istifadə etmişdir. Baxmayaraq ki, Azərbaycan tarixşünaslığında beynəlxalq problemlərə aid fundamental əsərlər işıq üzü görmüşdür, bizim tədqiq etdiyimiz mövzu diqqətdən qaçmış və ciddi təhlil edilib öyrənilməmişdir, bu günə qədər İslam Konfransı Təşkilatı Azərbaycan alimlərinin xüsusi tədqiqat obyekti olmamışdır, bu təşkilatın yaranmasına səbəb olan amillər və fəaliyyəti barədə dolğun və əhatəli fikir söylənilməmişdir. Bildiyimiz kimi, hər hansı beynəlxalq təşkilatın siyasi səhnəyə qədəm qoyması beynəlxalq münasibətlərdə cərəyan edən proseslərlə və regional müstəvidə baş verən müəyyən ictimai-siyasi hadisələrlə şərtlənir. İslam Konfransı Təşkilatı dini zəmində yaranan regional təşkilat kimi müsəlmanların müqəddəs məkanlarını təxribatlardan qorumaq adı altında fəaliyyətə başlasa da, onun əsas məqsəd və məramı, həm də müsəlman ölkələri arasında əlaqələri möhkəmlətməklə yanaşı, İslam dünyasında baş qaldıran və çox zaman xarici qüvvələr tərəfindən qızışdırılan münaqişələrin həlli yollarını aramaq və beynəlxalq aləmdə müsəlman dövlətlərinin vahid mövqedən çıxışlarını təşkil etməkdir. Odur ki, həmin təşkilatın bu fəaliyyəti diqqəti cəlb etməyə bilməzdi. Təsadüfi deyil ki, təşkilatın quruluşu və fəaliyyəti barədə əhatəli monoqrafik əsərlər olmasa da, onun hədəf dairəsinə daxil olan problemlərlə bağlı müxtəlif dillərdə bəzi mövzular qələmə alınmışdır.

Problemin tədqiqilə bağlı Azərbaycanda ilk təşəbbüs hüquqşünas Vəfaddin İbayev tərəfindən edilmişdir (11). Onun 1998-ci ildə nəşr edilmiş kiçik həcmli kitabında İslam Konfransı Təşkilatının fəaliyyətinə beynəlxalq hüquq normaları baxımından yanaşılaraq qiymət verilmişdir. Müəllif



Azərbaycanla bu təşkilat arasında əlaqələrin işıqlandırılmasına geniş yer vermiş, lakin bu əlaqələrin yaradılması və genişləndirilməsində Qafqaz Müsəlmanları Ruhani İdarəsinin rəisi A.Paşazadənin fəaliyyətinin şərhində heç şübhəsiz mübaliğəyə yol vermişdir (1, s.29-30). Kitabda yol verilmiş bu kiçicik qüsura baxmayaraq İbayevin əsəri İslam Konfransı Təşkilatı ilə bağlı ilkin addım olduğundan təqdirə layiqdir.

Məhsuldar tarixçi, professor Musa Qasımlı İslam Konfransı Təşkilatı ilə bağlı araşdırmalardan yan keçməmiş, bu təşkilatın yaranması və ölkəmizlə əlaqələri məsələsinə toxunmuşdur (7). Respublikamızın bu təşkilatla əlaqələri şərh edilərkən bu müəllifin də kitabından istifadə edilmişdir. Azərbaycanın beynəlxalq aləmlə çoxtərəfli əlaqələrinin araşdırılması yolunda fundamental tədqiqatları ilə seçilən tarixçi Ə. Həsnovun «Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti» əsərini xüsusi qeyd etmək olar. Adı çəkilən müəllif tədqiq etdiyimiz mövzu ilə bağlı əsərində böyük faktik material verir və analitik təhlillər edir. Monoqrafiyanın yazılmasında bu əsərdən geniş istifadə olunmuşdur.

İslam Konfransı Təşkilatının yaranması, ölkəmizin bu təşkilatla əlaqələri barədə Elçin Əhmədovun "Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar" adlı monoqrafiyasında maraqlı fikirlər söylənilmişdir (9). Müəllif haqlı olaraq qeyd edir ki, "İKT Ermənistanı birmənalı və qəti şəkildə təcavüzkar adlandıran yeganə beynəlxalq təşkilatdır" (9, s.98).

Təşkilatın yaranma tarixi və Mərakeşin paytaxtı Rabatda keçirilən təsis konfransının nəticələri İran tarixçisi Homayon Əsədin "Rabat İslam Konfransının nəticələri" adlı kitabında ətraflı şərh edilmişdir (117). Bu əsər vasitəsilə işıq üzü görmüş faktik materiallar problemin tədqiqi prosesində istifadə olunmaqla bir sıra qaranlıq məqamlara aydınlıq gətirməyə kömək etmişdir. Lakin bununla belə Homayon Əsədin əsərində Qərbpərəst şahın mövqeyi o dövrdə ərəb dünyasının lideri kimi tanınan Camal Əbdul Nasirin mövqeyilə müqayisədə mübaliğəyə yol verilir, Məhəmməd Rza Pəhləvi İslam

dünyasının birliyinə can atan bir şəxs kimi qələmə alınır və onun İKT-la bağlı fəaliyyəti müsbət qiymətləndirilir (142, s.27-28). Əslində isə Məhəmməd Rza Pəhləvi İsraillə əməkdaşlıq etməklə özünü İslam dünyasından təcrid etmiş bir şəxs kimi tanınırdı.

Problemin tədqiqində beynəlxalq təşkilatların elmi-nəzəri əsaslarını işıqlandıran, beynəlxalq hüququn nəzəri müddəalarını şərh edən ədəbiyyatdan da istifadə edilmişdir (106, 16, 51, 71). Bu ədəbiyyat nümunələrində mövcud olan faktik materialdan istifadə olunması beynəlxalq təşkilatların yaranma qanunauyğunluqlarının dərk olunması və şərhində faydalı olmuşdur. Müsəlman ölkələri müəlliflərinin beynəlxalq hüququn ümumi prinsiplərini işıqlandıran əsərlərindən istifadə edildiyindən, İKT-nin beynəlxalq hüquq normalarına uyğun fəaliyyəti barədə sistemli mühakimə yürütmək mümkün olmuşdur (132, 141 və s.). Lakin bu sahəyə aid yazılmış kitablarda səthilik onların elmi dəyərinə xeyli xələl gətirir.

İslam Konfransı Təşkilatı dünyada baş verən ictimai-siyasi hadisələrdən və beynəlxalq münasibətlərdən təcrid olunmuş şəkildə fəaliyyət göstərmir, beynəlxalq münasibətlər sisteminə inteqrasiya olunmaqla, İslam dünyasında təzahür edən problemlərə öz münasibətini prinsipial mövqedən bildirir və bu problemləri nizama salmağa səy göstərir. Buna görə də bu təşkilatın fəaliyyəti yalnız müasir dövrün beynəlxalq münasibətlərində baş verən ictimai-siyasi proseslər fonunda şərh edilərək qiymətləndirilə bilər. Regional münaqişələr formasında müsəlman ölkələrində təzahür edən bir sıra problemlərin münaqişə və hətta silahlı toqquşma həddinə çatmasında, İslam dünyasına mənsub olmayan bir sıra qüdrətli dövlətlər birbaşa və dolayısı yolla təsir göstərərək iştirak etdiklərindən, bu problemlərin işıqlandırılması Şərqlə Qərbin elmi məktəblərinin nümayəndələri tərəfindən qələmə alınmış əsərlərdə mənsub olduqları dövlətlərin maraqları baxımından yanaşılıb. Bu kitablar soyuq müharibə dövrünün məhsulu olduğundan onlarda İslam dünyasının problemləri qərəzli, birtərəfli şərh edilmiş, müsəlman ölkələrində cərəyan edən hadisə



və proseslərin səbəb və mahiyyətinin işıqlandırılmasında təhrif və qeyri-obyektivliyə yol verilmişdir. Buna görə də İslam dünyasının problemlərinin tədqiqində sözügedən ədəbiyyatdan tənqidi istifadə edilmiş, hadisə və proseslərin şərhinə ideoloji tələbatlardan yan keçməklə yanaşılmışdır. Müxtəlif elmi məktəblərə məxsus müəlliflər tərəfindən qələmə alınmış ədəbiyyatdan tənqidi-müqayisə metodu ilə istifadə edilməsi, İKT-nin fəaliyyətilə bağlı obyektiv gerçəkliyə əsaslanan elmi nəticələr çıxarmağa imkan vermişdir.

İslam Konfransı Təşkilatının diqqət mərkəzində olan məsələlərdən biri də beynəlxalq münasibətlərə ciddi təsir göstərən Yaxın Şərq böhranıdır. Təşkilatın müxtəlif səviyyədə çağırılmış toplantılarında bu problem dəfələrlə müzakirə obyekti olmuş, müvafiq qərar və qətnamələr qəbul edilmişdir. Yaxın Şərq böhranı ilə bağlı istər Avropada, ABŞ-da və istərsə də keçmiş Sovet İttifaqında nəşr edilmiş ədəbiyyatda problemin mahiyyətinə, yaranması və həlli yollarına Şərqlə Qərbin maraqları mövqeyindən yanaşıldığından, münaqişənin indiyə kimi nizama salınmamasının həqiqi səbəbləri qələmə alınmamışdır. Sovet İttifaqında yazılmış əsərlərdə "beynəlxalq imperializm" Yaxın Şərq böhranının düyünə düşməsinin səbəbkarı kimi göstərilir, İsrailin "sionist rejimi" kəskin tənqid hədəfinə çevrilir (17, 26, 93, 94, 110, 75, 43, 49, 46, 47, 67 və s.). Bu çoxsaylı ədəbiyyatda Sovet İttifaqının və digər sosialist dövlətlərinin problemlə əlaqədar mövqeyi şərh edilərkən, sosialist ölkələri ərəblərin dostu və hamisi kimi şərh edilmişdir. Halbuki 1947-ci ildə Fələstində İsrail dövlətinin yaradılması haqqında BMT Təhlükəsizlik Şurasının Qətnaməsinin qəbul olunmasına Sovet İttifaqı da səs vermiş və nəticədə ərəb ölkələrinin əhatəsində İsrail dövlətinin yaradılmasına yaşıl işıq yandırılmışdır. Sovet-İsrail münasibətləri sonrakı illərdə isə heç də hamar xətt üzrə inkişaf etməmiş, ziddiyyətlər və ixtilaflar müstəvisindən keçmişdir. Bəzi ərəb dövlətlərinin Qərbə qarşı müdafiə olunmasında sovet diplomatiyasının əsas taktikası, Yaxın və Orta Şərq regionunda Qərbin aparıcı dövlətlərilə mübarizədə qalib gəlmək və bu regiondan Amerika

Birləşmiş Ştatlarını və bütövlükdə Qərbin aparıcı dövlətlərini sıxışdırmaq olmuşdur.

Sovet şərqşünasları tərəfindən yazılmış əsərlər dövrün məhsulu olduğundan problemlə bağlı bu əsərlərdən tənqidi yanaşma üsulu ilə istifadə edilmiş, bu əsərlərdə mövcud faktiki materiallardan bəhrələnmək daha çox diqqət mərkəzində olmuşdur. Bu məktəbin nümayəndələri tərəfindən qələmə alınmış əsərlərin dəyəri bir də onunla ölçülür ki, müəlliflərin bir çoxu diplomat və ya sovet kütləvi informasiya vasitələrinin nümayəndəsi sifətilə müsəlman ölkələrində işləmiş, burada baş verən ictimai-siyasi prosesləri yaxından müşahidə etmiş və bir çoxu isə bu hadisələrin iştirakçısı olmuşdur.

Müasir dövrdə beynəlxalq münasibətlərin ən ağrılı və beynəlxalq sülh üçün ən təhlükəli problemlərindən biri də Əfqanıstanda baş verən hadisələrdir. Bu ölkədə yaşayan insanların faciəsi 1973-cü ildə baş vermiş dövlət çevrilişindən və 1979-cu ilin dekabrında sovet qoşunlarının buraya təcavüzündən sonra başlandı. Xarici işğalçılara heç zaman boyun əyməyən, ingilis müstəmləkəçiləri ilə mübarizədən həmişə qalib çıxan əfqanlar sovet ordusunun bu ölkəyə hərbi təcavüzdən sonra silaha sarılaraq öz ölkəsini qorumaq əzmini nümayiş etdirdi. Sovet tarixşünaslığında "Əfqan sindromu" adı ilə tanınan bu problemin əsl mahiyyəti təhrif olunmuş şəkildə dünya ictimaiyyətinə təqdim edilmişdir. Müəlliflər kollektivi tərəfindən hazırlanan "Əfqan inqilabının aktual problemləri" adlı iri həcmli kitabda (16) Əfqanıstanda gedən ictimai-siyasi proseslərə qərəzli yanaşılır. Kitabda əfqan hadisələrilə bağlı Amerika Birləşmiş Ştatlarının o dövrdə prinsipial mövqeyi "imperialist təxribatı" kimi qiymətləndirilir (16, səh.300-303). Bu ölkədə gedən hadisələrin təhrif olunmasının başqa kitablarda da şahidi oluruq (108).

Problem üzərində işləyərkən İslam ölkələrində nəşr edilən müsəlman müəlliflərinin əsərlərindən imkan daxilində istifadə edilmişdir. Tədqiqatın tarixşünaslıq bazasını zənginləşdirən bu əsərlərin əsas məziyyəti bundan ibarətdir ki, müəlliflər hadisələrin şərhinə obyektiv yanaşmağa cəhd göstərir, milli mövqedən çıxış edir, obyektiv nəticələr əldə etməyə çalışırlar. Əfqan-Sovet problemi ilə bağlı hadisələr əfqan tarixçisi Həqşenasın "Rusların Əfqansıtanda fitnə-fəsadı və cinayətləri" adlı əsərində Rusiyanın bu ölkə ilə bağlı siyasəti faktik materiallar əsasında təhlil edilir (142). Kitabda indiyədək şərqşünaslıq sahəsində çalışan alimlərə bəlli olmayan bir sıra hadisələrə aydınlıq gətirilir, Rusiyanın və sonralar Sovet İttifaqının bu ölkə ilə münasibətlərinin məqsəd və əsl mahiyyəti aşkarlanır. İKT-nin Əfqan problemilə bağlı mövqeyi tədqiq edilərkən bu kitabda verilmiş faktik materiallardan istifadə edilmişdir. Sovet İttifaqının Əfqanıstana qarşı hərbi təcavüzü, ölkənin azad edilməsi və xalqın milli-müqavimət hərəkatı başqa əfqan müəllifləri tərəfindən qələmə alınmış əsərlərdə də ətraflı şərh edilmişdir (117, 118, 109 və s.).

İslam dünyasının beynəlxalq əlaqələri, regional münaqişə formasında təzahür edən və çox zaman xarici qüvvələr tərəfindən siyasi, hərbi-strateji və iqtisadi ekspansiya məqsədlərində istifadə olunan problemlər, bəzi müəlliflərin əsərlərində obyektiv şərh edilərək qeyd edirlər ki, istər Yaxın Şərq böhranının və istərsə də digər problemlərin əsl səbəbi iri dövlətlərin bu regionla bağlı siyasəti olduğundan, bu problemlər yenə də Qərblə-Şərqin bir sıra qüvvələri tərəfindən qızışdırılır və müxtəlif məqsədlər üçün istifadə olunur (134).

İslam dünyasında cərəyan edən ictimai-siyasi proseslər, müsəlman dövlətlərinin xarici siyasət problemləri Qərbin elmi, ictimai-siyasi dairələrinin də tədqiqat obyekti olmuşdur. Bu əsərlərdə soyuq müharibənin təsiri qabarıq formada özünü göstərir. Belə səpkili tədqiqat işlərində islam dünyasının düyünlü problemlərinin yaranması və nizama salınması "kommunizmin təxribatı" kimi qələmə alınır, Qərbin müsəlman ölkələrilə bağlı siyasətinə isə "demokratiya" və "insan hüquqlarının qorunması" donu geyindirilir. Əslində iki fövqəldövlət arasında beynəlxalq səviyyədə gedən kəskin ideoloji qarşıdurma və soyuq müharibə, Qərbdə tarixşünaslığın təşəkkülü və formalaşması prosesindən yan keçməmiş, müsəlman ölkələrilə bağlı yazılmış əsərlərin obyektivliyinə təsir etmişdir. Belə

səpkili əsərlər müsəlman xalqlarının mənafeyindən daha çox Qərbin dövlətçilik maraqlarına xidmət edir.

Bu mövqedən çıxış edən müəlliflərdən biri beynəlxalq aləmdə yaxşı tanınan, ABŞ-ın keçmiş dövlət katibi H.Kissincerdir. Yaxın Şərq böhranının amerikasayağı nizama salınmasından ötrü tətbiq edilən "məkik diplomatiyası"nın müəllifi və həm də icraçısı olan H.Kissincer, eyni zamanda tanınmış tarixçi və politoloqdur. Bu müəllifin "Diplomatiya" (69) adlı kitabında diplomatiyanın keçdiyi tarixi yol icmal şəklində şərh edilir. Əsərdə Yaxın və Orta Şərqlə bağlı hadisələrin tədqiqinə də geniş yer verilir. Əlavə edək ki, ABŞ-ın məxfi diplomatik sənədlərindən istifadə etmək imkanı olan müəllif, bu kitabda bir sıra hadisələrin mahiyyətinə aydınlıq gətirir. Kitabda Sovet İttifaqının Yaxın və Orta Şərqlə bağlı mövqeyi nüfuz dairəsinin genişləndirilməsi uğrunda mübarizə kimi qiymətləndirilir, Vaşinqtonun beynəlxalq siyasətinə isə "demokratiyanın" və "insan hüquqlarının hamisi" donu geyindirilir. Müəllif ABŞ xarici siyasət doktrinasının qlobal səviyyədə qayda-qanuna, azad ticarətə və beynəlxalq hüququn prinsiplərinə söykəndiyini qeyd edir (69, s.10).

İslam Konfransı Təşkilatının maraq dairəsində olan problemlərlə birbaşa və ya dolayısı yolla bağlı olan ictimai-siyasi proseslərin Qərbdə öyrənilməsinə, qeyd olunduğu kimi çoxlu əsərlər həsr edilmişdir (122, 123, 124, 127, 129, 42 və s.). Bu əsərlərin hamısına "qərəzli" və "qeyri-obyektiv" damğası vurmaq, düzgün olmazdı. Sovet xarici siyasətinin əsas məqsədi Yaxın və Orta Şərqdən "beynəlxalq imperializm"i sıxışdırıb çıxarmaq və bu regionu Sovet İttifaqının xarici siyasət orbitinə çəkmək olmuşdur. Buna nail olmaq üçün Sovet dövləti bütün vasitələrdən, o cümlədən birbaşa hərbi müdaxilələrdən də istifadə etmişdir. Mahiyyətcə Qərb ekspansiyasından heç də fərqlənməyən bu siyasət, rus ekspansionizminin mahiyyətini qabarıq şəkildə dünya ictimaiyyətinə çatdırdı. Sovet İttifaqının Əfqanıstana hərbi təcavüzü bu dövlətin əsl mahiyyətini aşkar etdi. Əfqanstan faciələrilə bağlı bir sıra Qərb müəlliflərinin əsərlərindən də tənqidi istifadə edilmişdir (66).



Ümumiyyətlə istər İKT-nin yaranma tarixi və istərsə də bu təşkilatın diqqət mərkəzində olan problemlər İslam dünyasında cərəyan edən ictimai-siyasi proseslərin məhsulu olduğu kimi həm də, beynəlxalq münasibətlər sisteminin məhsulu kimi təzahür edərək, dünya siyasətilə əlaqəli olmuşdur. Buna görə də problemin tədqiqi və araşdırılmasında Şərqdə, Qərbdə və müsəlman ölkələrində işıq üzü görmüş əsərlərdən imkan daxilində tənqidi yanaşmaqla müqayisəli şəkildə istifadə edilmişdir.

**Tədqiqatın mənbə bazası.** Monoqrafiyada əksini tapmış problemlərin tədqiqi zəngin mənbəşünaslıq bazasına söykənir. Tədqiqat işinin yazılmasında istifadə olunmuş mənbələri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Müsəlman ölkələrinə məxsus mənbələr əsasən ərəb və fars dillərində olub, müəllif tərəfindən tərcümədə istifadə edilmişdir (142, 139, 138). Elmi dövriyyəyə ilk dəfə cəlb edilmiş bu mənbələrin dəyəri, İranın və Səudiyyə Ərəbistanının xarici işlər nazirliklərinin arxiv sənədləri əsasında tərtib olunmaları ilə ölçülür. İlkin mənbə kimi istifadə olunan bu qaynaqlar, İslam Konfransı Təşkilatının fəaliyyətilə bilavasitə bağlı olan hadisə və proseslər barəsində dolğun təsəvvürlər yaradır, bu təşkilatın İslam dünyasının düyünlü problemləri və ayrı-ayrı müsəlman dövlətlərinin bu məsələlərlə bağlı mövqelərinə aydınlıq gətirir, İKT-nın istər beynəlxalq universal təşkilatlarla və istərsə də regional birliklərlə əlaqələri barədə dolğun və obyektiv mühakimə yürütməyə imkan verir.

İstər İranda və istərsə də Səudiyyə Ərəbistanında nəşr edilmiş mənbələrdən tənqidi yanaşma üsulu ilə istifadə olunmuşdur. Bu ölkələrin hər ikisi İKT-ın yaradılmasında fəal rol oynasalar da, istər ideoloji zəmində və istərsə də Yaxın və Orta Şərqdə cərəyan hadisələrə yanaşmaq baxımında bu iki dövlətin mövqeyində müəyyən ixtilaflar mövcuddur. Bu da hər iki ölkədə İKT-la bağlı çap edilmiş əsərlərdə özünü göstərir. İran İslam Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən bu idarənin rəsmi sənədlərindən geniş istifadə olunmaqla çap edilmiş qaynaqda Səudiyyə Ərəbistanın İKT-ın fəaliyyətində ərəb fak-

torunun güclənməsinə çalışması göstərilir və İKT-ın təsisində İran şahının əsas rol oynaması qabardılır (132, s.10). Halbuki bu təşkilatın yaradılmasında ilk addım o dövrdə Səudiyyə Ərəbistanının kralı Feysəl tərəfindən atılmışdır. İranın bu təşkilatda fəaliyyəti və xüsusilə İraq-İran münaqişəsilə bağlı mövqeyi Riyazda çap olunmuş qaynaqda tənqid olunur (124, s.103).

2. Rus dilində olan qaynaqlar əsasən ensiklopedik-məlumat xarakterli mənbələrdir (64, 29, 50, 78, 116, 91, 72). Sovet ideologiyası əsasında tərtib olunduğundan bu mənbələrdən tənqidi yanaşma üsulu ilə istifadə edilmişdir. Bu qaynaqların elmi dəyəri onlarda təşkilatın fəaliyyətilə bağlı zəngin faktların olmasındadır. Adı çəkilən mənbələrdən götürülmüş faktlar, başqa dillərdə olan analoji məlumatlarla müqayisə və tutuşdurmaq yolu ilə istifadə olunmuşdur.

3. Azərbaycan Respublikası ilə İKT arasında əlaqələrin tədqiqi dilimizdə və xarici dillərdə olan mənbələrdən geniş istifadə olunmaqla həyata keçirilmişdir. Bu qaynaqlar sırasından Ümummilli liderimiz H.Əliyevin İKT-nin zirvə toplantılarında çıxışlarını əks etdirən sənədlər toplusu və Azərbaycanın Xarici İşlər Nazirliyinin cari arxivi daha qiymətli mənbələr hesab olunur (4, 1, 8, 3, 5). Bu qaynaqlardan istifadə olunması ölkəmizin İKT ilə əlaqələrinin təşəkkülü və inkişafının dolğun işıqlandırılmasına imkan yaratmışdır.

4. Monoqrafiyanın yazılmasında müxtəlif dillərdə olan dövrü mətbuatdan da problemlə bağlı faktların yığılması məqsədilə bir mənbə kimi istifadə edilmişdir. Mətbuatın xüsusiyyətini nəzərə almaqla qəzet və jurnal səhifələrində dərc edilmiş material və məlumatlardan istifadə etmək diqqətli olmağı tələb edir, çünki bu tipli materiallar konyuktura təsirindən heç də xali deyildir. Buna görə də mətbuatdan bir mənbə kimi istifadə edərkən, burada dərc edilmiş materiallara tənqidi yanaşılmış, müqayisə metodundan geniş istifadə edilmişdir.

5. İslam Konfransı Təşkilatının rəsmi saytı (http://www.oic-oci.org) və bu saytda toplanmış sənədlər xüsusi – ayrıca qrupu təşkil edir. Bu saytda (saytın dili ingilis, fransız və ərəb



dilləridir) təşkilatın yaranma tarixi, bütün işçi orqanları, komissiya və altkomissiyaları, o cümlədən İslam İnkişaf Bankı haqqında geniş məlumatlar toplanmışdır. Saytda, həmçinin bütün Zirvə toplantıları, konfranslar və yığıncaqlar haqqında rəsmi məlumatlar var. Təşkilatın rəsmi saytının bir mənbə kimi əhəmiyyəti isə, heç şübhəsiz, burada öz əksini tapmış sənədlər, bəyannamələr, birgə komminikelər və d. bu tip materiallardır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Monoqrafiyanın başlıca məqsədi müsəlman ölkələrini özündə birləşdirən ilk hökumətlərarası təşkilat olmaq etibarilə, İslam Konfransı Təşkilatının yaranması zərurətini və fəaliyyətinin əsas istiqamətlərini sistemli tədqiq etməkdən ibarətdir. Lakin nəzərə almalıyıq ki, İKT-nin beynəlxalq aləmdə həyata keçirdiyi fəaliyyət çoxşaxəli və geniş sahələri əhatə edir və onu bir monoqrafiyada kompleks şəkildə əks etdirmək imkan daxilindən kənardadır. Müəllif aşağıdakı konkret elmi vəzifələri qarşıya qoyaraq həll etmişdir:

- İslam Konfransı Təşkilatının yaranmasına səbəb olan amillər tədqiq edilib müəyyənləşdirilmişdir;
- Təşkilatın quruluşu və Nizamnamə qayda-qanunlarının, məqsəd və vəzifələrinin təhlili verilmişdir;
- Ərəb dünyasının başlıca problemləri ilə bağlı İKT-nin mövqeyi şərh edilmişdir. Bu baxımdan Yaxın Şərq böhranı, İraqın Küveytə hərbi təcavüzü, ərəb ölkələri arasında ziddiyyətlərin mahiyyət və səbəbləri kimi məsələlərin yaranması işıqlandırılmışdır;
- İslam Konfransı Təşkilatının üzvü olan bəzi dövlətlərin xarici siyasət problemləri ətraflı araşdırılmışdır. Bu baxımdan Sovet İttifaqının Əfqanıstana hərbi təcavüzünün, Kəşmir və Kipr problemlərinin, Balkanlarda vəziyyətin elmi təhlili verilmişdir;
- Xarici ölkələrdə məskunlaşan müsəlmanların vəziyyətilə bağlı Təşkilatın mövqeyi tədqiq edilmişdir;
- Azərbaycan Respublikası ilə İKT arasında əlaqələrin əsas istiqamətlərinin forma və metodları göstərilmişdir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları:** Tarixi hadisələrə obyektiv yanaşma, müasir dövrdə beynəlxalq münasibətlərin inkişafı və reallıqlarını olduğu kimi əks etdirmə metodu və üsulu təşkil edir. Bundan başqa əsərdə müasir dövr beynəlxalq münasibətlərdə geniş istifadə olunan ümumi elmi-nəzəri, faktların müqayisəli təhlili, hadisələrin şərhinə dialektik mövqedən və milli dövlətçilik ideologiyası prinsipi nəzərdən yanaşma və əldə olunan nəticələri düzgün qiymətləndirməyə imkan verən metodlardan istifadə edilmişdir. Monoqrafiyanın yazılmasında istifadə olunan mənbələrlə iş zamanı, habelə təşkilatın fəaliyyətilə bağlı ictimai-siyasi hadisə və proseslərin şərhində induktiv və deduktiv metodlardan da istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi** ilk növbədə ondan ibarətdir ki, Azərbaycan tarixşünaslığında ilk dəfə İslam Konfransı təşkilatının yaranması, quruluşu, fəaliyyəti və İslam dünyası problemlərinin həllində mövqeyi və beynəlxalq münasibətlər sistemində rolu tədqiq edilir.

- İlk dəfə göstərilir ki, təşkilatın yaranması tarixi zərurətdən irəli gəlmiş, onun təşəkkülünə XX əsrdə bütövlükdə beynəlxalq münasibətlərdə, xüsusilə Yaxın və Orta Şərqdə cərəyan edən ictimai-siyasi proseslər təkan vermişdir.
- İlkin mənbələr və zəngin tarixşünaslıq bazası əsasında bu təşkilatın İslam dünyasının problemlərinin nizama salınmasında səmərəli fəaliyyəti sistemli yanaşma yolu ilə *təhlil* edilir və qeyd edilir ki, bu problemlərin zor tətbiq etmədən həll olunması və nizama salınması ilə bağlı İKT-ın mövqeyi bütövlükdə beynəlxalq münasibətlərin sağlamlaşdırılmasına xidmət edir.
- Tədqiqat işində aparılmış təhlillər belə bir qənaətə gəlməyə imkan verir ki, İslam dünyasının bir çox problemləri heç də daxili səbəblər üzündən baş verməmişdir. Bu problemlərin yaranması və vaxtaşırı qabardılaraq baş qaldırmasında xarici amillərin və onlarla əlaqəsi olan daxili ünsürlərin rolu böyükdür.
- Hərtərəfli təhlil etməklə əsaslandırılır ki, İKT-nin faliyyəti beynəlxalq hüquq normalarına tam uyğundur, qəbul etdiyi qərar və qətnamələr beynəlxalq münasibətlərdə qarşılıqlı



faydalanma prinsipi əsasında əməkdaşlığın bərqərar olunmasını nəzərdə tutduğundan, bütövlükdə dünya səviyyəsində və beynəlxalq münasibətlərdə gərginliyin azalmasına xidmət edir.

- Qeyd edilir ki, bu təşkilat heç də imkanları səviyyəsində fəaliyyət göstərə bilmir. Buna səbəb bir tərəfdən təşkilata üzv olan ölkələrin müxtəlif ictimai-iqtisadi inkişaf səviyyəsində olmaları, digər tərəfdən də bəzi müsəlman ölkələrinin hakim təbəqələrinin Qərbin inkişaf etmiş dövlətlərilə açıq və üstüörtülü bağlılığıdır. Məhz bu asılılıq təşkilatın fəaliyyətinə mənfi təsir göstərir, vahid müsəlman cəbhəsinin yaranması yolunda ciddi maneəyə və əngələ çevrilir.
- Monoqrafiyada ilk dəfə göstərilir ki, təşkilata üzv olan bəzi ölkələr arasında İKT-nin Nizamnaməsinə uyğun olmayan və İslam qanunlarına söykənməyən qeyri-sağlam münasibətlərin olması, bu təşkilatın səmərəli fəaliyyəti yolunda ciddi maneəyə çevrilir, onun nüfuzuna xələl gətirir.
- Azərbaycanın bu təşkilatla əlaqələrini təhlil edəndə belə bir nəticəyə gəlinir ki, İslam dünyasının bir parçası kimi İKT-yə üzv olmaq xalqımızın milli mənafeyinə uyğundur və dövlətimizin maraqlarına cavab verir və bu əlaqələrin daha da genişləndirilməsi Azərbaycan diplomatiyasından çevik addımlar atmağı tələb edir.

**Tədqiqatın elmi-praktik əhəmiyyəti** ondan ibarətdir ki, burada əldə edilmiş elmi nəticələr və ümumiləşdirmələr, dövriyyəyə cəlb edilmiş mənbələr və ədəbiyyat Azərbaycanın xarici siyasətini və əlaqələrini həyata keçirən dövlət orqanları tərəfindən istifadə oluna bilər, beynəlxalq aləmdə baş verən ictimai-siyasi proseslərin mahiyyətini dərk etməklə, müxtəlif beynəlxalq təşkilatlarla, xüsusilə İKT ilə xalqımızın milli mənafeyi nəzərdə tutulmaqla səmərəli əməkdaşlıq yaradıla bilər. Monoqrafiyadan həmçinin Azərbaycanın xarici siyasəti tarixi, dərsliklər və dərs vəsaitləri hazırlanarkən istifadə oluna bilər. Monoqrafiya ali məktəblərdə beynəlxalq təşkilatların tarixi və fəaliyyətinin tədrisində, ixtisas kursları və mühazirələrin hazırlanmasında zəruri ədəbiyyat ola bilər.

# I FƏSİL

# İKT-NİN TƏŞKİLATİ ƏSASLARI VƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ YERİ

## 1.1. İslam Konfransı Təşkilatının yaranma tarixindən

Bəşəriyyətin keçdiyi tarixi siyasi mübarizə yolu göstərir ki, dünyanın siyasi sistemində meydana çıxan bu və ya digər siyasi qüvvə, siyasi təşkilat zamanın və ictimai inkişafın tələbi ilə bağlı olmuş onun qarşıya qoyduğu bu və ya digər həyati problemin həllini təmin etmək üçün irəli çıxmışdır. İKTdə məhz belə bir tələbin məhsuludur. O İslam dünyasının həyati problemlərinin, inkişaf istiqamətləri ilə irəli çıxan vəzifələrin həyata keçirilməsi ilə əlaqədə meydana gəlmiş və inkişaf etməkdədir.

Bildiyimiz kimi, İslam dünyanın ən cavan və həm də ən perspektivli dinidir. Xristianlıq və buddizmlə yanaşı İslam Yer kürəsinin aparıcı dinlərindəndir. Hazırda Asiyanın, Avropanın və Afrikanın 56-sı müsəlman ölkəsi sayılır. Bundan başqa dünyanın 120 ölkəsində çoxsaylı müsəlman icması - - diasporu yaşayır. İslam dininə etiqad edən insanların sayı təxmini hesablamalara görə 1 mlrd. 250 mln. nəfərə yaxındır. Göründüyü kimi yer kürəsinin 56 ölkəsində İslamı özlərinin əqidəsi və həyat tərzi sayan və icma halında başqa ölkələrdə yaşayan çoxsaylı insanlar beynəlxalq münasibətlərin təşəkkül və inkişafına və həmçinin dünyada baş verən ictimai-siyasi proseslərə təsir etmək baxımından geniş imkanlara malikdir.

Alman filosofu Hegel İslam barədə mühakimə yürüdərkən belə bir ifadə işlətmişdir ki, "İslam çoxdan tarixin səhnəsindən uzaqlaşmış və yenə də Şərq "ətalətinə" və mürgüləməsinə qayıtmışdır." Lakin bu "ətalətə" XIX əsrin sonlarından etibarən dirçəliş və təşkilatlaşma meyllərilə son qoyuldu. Müsəlman ölkələrinə qarşı Avropanın qüdrətli dövlətlərinin ekspansiya və müstəmləkəçilik siyasəti bu ölkələrdə milli-müqavimət hərəkatına və dirçəlişə təkan verdi və nəticədə müsəlmanların birliyini təbliğ edən oyanış meylləri siyasi səhnəyə gəlməklə İslam dünyasında yeni təbəddülatın əsasını qoydu. Bu dirçəlişin carçısı Cəmaləddin Əfqani (Əsədabadi), o dövrün müstəmləkəçilərinə və antiislamçılara qarşı mübarizənin real və təsirli yolunu müsəlman ölkələrinin birləşməsində görürdü. İslam birliyi yolunda atılan bu ilk addım uğursuzluqla və Cəmaləddinin özü üçün faciə ilə bitsə də, müsəlmanların ümumi oyanış və dirçəlişində izsiz qalmadı.



Müsəlmanların oyanışı istiqamətində növbəti addım 1928-ci ildə Misirin İsmailiyyə şəhərində tarix müəllimi şeyx Həsən əl-Bənna tərəfindən atıldı. Şeyx tərəfindən 1928-ci ildə əsası qoyulan "Əl-İxvan əl-Müslimin" (ərəbcədir, "müsəlman qardaşları" deməkdir) adlanan cəmiyyətin ilk gündən şüarı "Allah bizim idealımızdır, peyğəmbər - rəhbərimiz, cihad - məqsədə çatmaq üçün vasitəmiz, Allah yolunda ölmək - müqəddəs arzumuzdur" idi. Cəmiyyətin yaradıcısı Həsən Bənna qeyd edirdi ki, "İslam həm Vətəndir və həm də vətəndaşlıq deməkdir". Çıxışlarının birində cəmiyyətin məqsədlərini şərh edən Bənna demişdir: "Bizim iş metodumuz - çağırış və məsləhətdir, əgər bu kömək etməzsə, zorla kənarlaşdırmaq lazımdır" (80, s.36-37). Aydın məsələdir ki, terrorun məqsədə çatmaq üçün bir vasitə kimi qəbul edilməsi düzgün mübarizə yolu deyildi və bu, cəmiyyətin nüfuzuna xələl gətirməyə bilməzdi.

Ərəb dünyasını əsarətdə saxlayan xarici qüvvələrə qarşı radikal mövqedən çıxış edən "Müsəlman qardaşları" cəmiyyəti ingilislərin ölkədən qovulmasını tələb edir və bu sahədə atılan ilk addım kimi Süveyş kanalı hövzəsində yerləşən ingilis ordu hissələrinə qarşı partizan mübarizəsinə əl atır. Ümumən İslam dünyasının və xüsusilə ərəb ölkələrinin birliyi yolunda əzmlə çalışan Həsən Bənna müsəlman xalqlarının bütün bədbəxtlik və faciələrinin əsl səbəbini Avropa dövlətlərinin fitnə-fəsadlı siyasətində və istilaçılıq planlarında görürdü. Cəmiyyətin Avropanın o dövrdə aparıcı dövlətlərinə qarşı əvvəllər ideoloji və sonralar silahlı mübarizə aparması tezliklə Misirin hüdudlarından kənara çıxaraq tədricən bəzi müsəlman ölkələrində də əks-sədaya səbəb oldu.

"Qardaşların" aktiv mübarizəyə qoşulması 1948-49-cu illərdə birinci İsrail-ərəb müharibəsi zamanı qabarıq formada təzahür etdi. Bu müharibədə ərəblərin məğlub olmasının səbəblərini cəmiyyət Avropa dövlətlərinin yəhudilərə hərtərəfli yardımında gördükləri kimi, bu məğlubiyyətin digər səbəblərini isə mühafizəkar ərəb rejimlərinin Qərbin aparıcı dövlətlərilə əməkdaşlığında və bir sıra ərəb liderlərinin milli mənafeni şəxsi maraqlara qurban verməlcrində görürdülər. Heç də təsadüfi deyil ki, Qərbin rəsmi dairələrilə yaxından əlaqədə olan Misir kralı Faruqun devrilməsində "qardaşlar" yaxından iştirak etmişdilər. Bu dövrdə "qardaşların" əsas məqsədi Misirdə İslam dövlətini bərqərar etmək və tədricən bütün islam dünyasında dövlətin idarə olunmasında təməlçiliyə qayıtmaq idi. Lakin "qardaşların" bu planı 1952-ci ildə Faruq rejiminin devrilməsinə rəhbərlik edən Camal Əbdül Nasir tərəfindən qətiyyətlə rədd edildi və beləliklə, "qardaşlarla" 1952-ci il dövlət çevrilişi hazırlayan və həyata keçirən "Azad zabitlər təşkilatı" arasında ziddiyyətlər baş qaldırdı (ətraflı bax: 26). Faruqa qarşı vahid cəbhədə birləşən müttəfiqlər bundan sonra bir-birinə qarşı əks mövqedən çıxış edirdilər. Beləliklə bu dəfə "qardaşların" təbliğat silahı yenicə hakimiyyətə gəlmiş "Azad zabitlər təşkilatının" rəhbərliyinə, xüsusilə Nasirə qarşı yönəldi. Başlanan repressiyadan can qurtarmaq üçün "qardaşlar" 1955-ci ildə öz qərargahlarını Misirdən Səudiyyə Ərəbistanına köçürməyə məcbur oldular. Bu dövrdən etibarən cəmiyyət Səudilərin maddi və mənəvi yardımı ilə ərəb dünyası hüdudlarından kənara çıxaraq, bəzi müsəlman ölkələrində də öz filiallarını yaratmağa müvəffəq oldu. Lakin bu təşkilat hökumətlər səviyyəsində təşkil olunmadığından bütün müsəlmanların vahid təşkilatına çevrilə bilmədi.

Yeni müstəmləkəçilərin müsəlman ölkələrinə qarşı ekspansiya siyasəti genişləndikcə İslam dünyasında da vəhdət və birliyə doğru meyllər güclənir, müsəlmanların milli-azadlıq hərəkatı və oyanışı yeni çalarlar və mahiyyət kəsb edirdi. Milli-azadlıq hərəkatına məqsədyönlü istiqamət vermək, bu hərəkatı səviyyəli idarə etmək üçün yeni cəmiyyətlər və təşkilatlar, o cümlədən 1962-ci ildə Səudiyyə Ərəbistanının kralı ibn-Səudun təşəbbüsü ilə Ümumdunya İslam Konqresi adlı təşkilat təsis edildi. Bu təşkilatın məhz Səudiyə Ərəbistanında yaradılması təbii idi, çünki İslam bu ölkədə meydana gəlmiş, bura Məhəmməd peyğəmbərin Vətəni və müsəlmanların müqəddəs saydıqları ziyarətgahların yerləşdiyi diyar idi. Buna görə də bu ölkə indiyədək özünü ümumdunya islam hərəkatının öndəri sayır. Bu təşkilatın yaradılması 1962-ci ildə elan edilsə də, əslində onun əsası hələ 1949-cu ildə Karaçidə çağırılan ilk konfransda qoyulmuşdu (80, s.34). Hazırda 40 müsəlman ölkəsini özündə birləşdirən konqresin fəaliyyətinə hər il Məkkə ziyarətindən sonra toplaşan Ali Şura yekun vurur və əslində bu Şura tərəfindən konqresə rəhbərlik həyata keçirilir. Şuranın toplantısında dini məsələlərlə yanaşı, İslam dünyasında mövcud ictimai-siyasi vəziyyət müzakirə edilir, müsəlmanlarla əlaqəsi olan regional və qlobal problemlər ətrafında əsaslı və geniş fikir mübadiləsi aparılır. Bu təşkilat islamın tarixi, İslam mədəniyyəti, İslamda ehkamçılıq, ictimai elmlərin dinlə bağlı sahələrinə aid elmi-tədqiqat işlərinin aparılmasını təşkil edir, nəşr edilmiş kitablar həm müsəlman ölkələrində və həm də müsəlmanların icma halında yaşadıqları ölkələrin qeyri-müsəlmanları arasında yayılır. Konqres "İslam aləmi" adlı jurnal nəşr edir, "İslamın səsi" radioverilişlərini təşkil edir (5, s.134-135). XX əsrdə ikinci İslam təşkilatı kimi fəaliyyətə başlayan Konqres, müxtəlif səbəblər üzündən bütün müsəlmanları öz ətrafında vahid cəbhədə birləşdirə bilmədi. Əslində Konqres belə bir məqsədi açıq şəkildə qarşısında qoymamışdı, digər tərəfdən də bu təşkilat həyata vəsiqə alan zaman bir çox müsəlman ölkələri hələ də müstəqil deyildir.

1964-cü ildə Səudiyyə Ərəbistanında hakimiyyətə gələn kral Feysəl İslamın dirçəlişinə meyl göstərdiyi üçün "Müsəlman qardaşları" cəmiyyətilə sıx əlaqədə idi. O, islam həmrəyliyi prinsipləri əsasında müsəlman ölkələrilə əlaqələrin genişləndirilməsini dövlət siyasəti səviyyəsinə qaldırmışdı, dindən xarici siyasətdə bir vasitə kimi istifadə etmək xəttinə üstünlük verirdi. 1965-ci ildə Feysəl bütün müsəlman dövlətlərini özündə

birləşdirən "İslam paktı" adlı hərbi-siyasi bir təşkilatın yaradılması təklifi ilə çıxış etdi. Feysəlin bu təşəbbüsü əslində sosializm sisteminə qarşı, kommunizmin müsəlman ölkələrində yayılmasının qarşısında sədd çəkməyi nəzərdə tutduğundan, Qərbin rəsmi və diplomatik dairələri tərəfindən razılıqla qarşılandı. Lakin Feysəlin bu təklifi İran şahından başqa digər müsəlman ölkələrinin liderləri tərəfindən bəyənilmədi və birmənalı rədd edildiyindən, müsəlmanların vahid cəbhədə bir araya gəlmələri, bu dəfə də baş tutmadı.

O dövrdə müsəlman ölkələrinin əksəriyyəti hərbi-siyasi paktlarda iştirak etməkdən imtina edir, bloklara qoşulmamaq hərəkatında iştirak etməyə üstünlük verirdilər. XX əsrin 60-cı illərində bütövlükdə dünya siyasətində, xüsusilə Yaxın və Orta Şərqdə baş verən hadisələr, müsəlman dövlətlərini bir daha birliyə doğru, vahid cəbhədə birləşməyə sövq edirdi. Yaxın və Orta Şərqin beynəlxalq vəziyyətində təzahür edən bu proses, Şərqlə Qərb arasında gedən mübarizə ilə bağlı idi.

60-cı illərin ikinci yarısında İslam dünyası, xüsusilə bu dünyanın ən qaynar regionu olan Yaxın və Orta Şərq iki fövqəldövlətin - Sovet İttifaqı və ABŞ-ın diplomatik-siyasi qarşıdurma səhnəsinə çevrilmişdi. Hər iki tərəf müsəlman dövlətlərinin birliyə doğru yönəlmiş meyllərindən özlərinin hərbi-strateji, siyasi və iqtisadi maraqları naminə istifadə etməyə çalışırdı. Vaşinqton bütün müsəlmanları Qərbyönlü bloklara cəlb etməyə can atır, Moskva isə guya İslam dünyasını Qərbin ekspansiya hədəfindən qorumaq xəttini həyata keçirirdi; Bu məqsədə çatmaq üçün müsəlman dövlətlərilə texniki-iqtisadi əməkdaşlığa üstünlük vermək taktiki xətt kimi qəbul edilir və nəticədə Sovet İttifaqının qərbpərəst siyasət yeridən İran, Türkiyə və Pakistanla soyuq münasibətlərində "istiləşmə" meyllərinə rəvac verilir. Beləliklə, 60-cı illərin əvvəllərindən etibarən bu əlaqələrin normal məcraya qaytarılması istiqamətində əməli addımlar atılır. Nəticədə SSRİ-nin Ərəb Şərqinin bəzi ölkələrilə əlaqələri də getdikcə genişlənir. Beləliklə bir sıra müsəlman ölkələri Sovet hərbi texnikasının və silahlarının da sərfəli bazarına çevrilir. Bununla da müsəlman



ölkələri həm də Şərqlə Qərb arasında silah satışı bazarları əldə etmək uğrunda gedən rəqabət meydanına çevrilir. Müsəlman dövlətlərinə silah satmaqla Şərqlə Qərb bir tərəfdən küllü miqdarda qazanc əldə edir, digər tərəfdən də bu ölkələr üçün hərbi mütəxəssis kadrları hazırlamaq yolu ilə müsəlman ölkələrində yaranmaqda olan ordunun asılı vəziyyətə salınmasına nail olurdular.

Qeyd edildiyi kimi, 60-cı illərdə bütövlükdə beynəlxalq münasibətlərdə baş verən əsaslı dəyişikliklər İslam dünyasından da yan keçmədi. Bir sıra ərəb ölkələrinin Sovet İttifaqı ilə yaxınlaşması xüsusilə Qahirə ilə Moskva arasında bir çox sahələrdə əməkdaşlıq, Ağ evi narahat etməyə bilməzdi. Sovet-Amerika qarşıdurması Yaxın və Orta Şərq regionunda yeni məcraya daxil oldu.

ABŞ strateqlərinin fikrincə, sovet təmayüllü xarici siyasət yeridən bəzi ərəb dövlət başçıları siyasi səhnədən uzaqlaşdırılmalı idi. Bu dövrdə hədəfdə əsasən müstəqil xarici siyasət yeridən və ərəb dünyasının milli lideri səviyyəsinə yüksələn Misirin prezidenti Camal Əbdül Nasir idi. 1967-ci ilin iyununda İsrailin ərəb ölkələrinə qarşı növbəti müharibəyə başlamasının səbəblərindən biri də bu idi (ətraflı bax: 26, 77, s.67-103). Tarixə "altı günlük" müharibə kimi daxil olan bu hərbi toqquşma nəticəsində İsrail ordusu tərəfindən Misirin, Suriyanın, İordaniyanın və Fələstin Azadlıq Təşkilatının hərbi birləşmələri darmadağın edildi *. Bu məğlubiyyət Ərəb

* Qəfildən ərəblərə qarşı hərbi əməliyyatlara başlayan İsrail ordusu Sina yarımadasını, Qəzza bölgəsini, Süveyş kanalının şərq sahillərini, Suriyanın Colan təpələrini və İordan çayının qərb sahillərini işğal etdi. İsrail tərəfindən ərəb ölkələrinə məxsus təxminən 60 min kv. km. ərazi qəsb edildi. İsrail ordusunun bu qəfil zərbəsi nəticəsində təkcə Misir 800 tank itirdi, hərbi-hava qüvvələri tamamilə sıradan çıxdı. Misirin 21 generalı və 3000 zabiti əsir götürüldü. Bu müharibəyə ciddi hazırlaşan İsrail ordusunun itkisi isə bir neçə min canlı qüvvə, 200-ə yaxın tank və 100 təyyarə idi. Yaxın Şərqdə müharibənin beynəlxalq sülh üçün ciddi təhlükə yaratmasını nəzərə alaraq BMT Təhlükəsizlik Şurası 1967-ci ilin noyabrın 22-də 242 nömrəli Qətnamə qəbul etdi. Bu sənəddə İsraildən

dünyasında yeni qüvvələr nisbətini yaratdı, bütövlükdə İslam dünyasında birmənalı qarşılanmadı. Hətta Qərbin müttəfiqi sayılan İran, Türkiyə və Pakistanda da ərəblərin bu məğlubiyyəti və İsrailin zor tətbiq etməklə yeni torpaqlar əldə etməsi rəğbətlə qarşılanmadı. Bu müharibədə məğlubiyyətin bütün məsuliyyətini öz üzərinə götürən prezident Nasir istefa verdi. Lakin misirlilərin təkidilə Nasir tərəfindən istefa ərizəsinin geri götürülməsi, İsrail və onun havadarları üçün gözlənilməz oldu. Qeyd etmək lazımdır ki, bu müharibəyə başlamaqda İsrail hakim dairələrinin öz planları vardı. Təl-Əviv bir tərəfdən ərəb ölkələrinin hərbi potensialını məhv etməklə onları danışıqlar masası arxasında əyləşdirməyə çalışır, digər tərəfdən də işğal edilmiş yeni torpaqlarla İsrail ətrafında təhlükəsizlik qovşağı yaratmaq istəyirdi. "Altı günlük müharibədə" ərəblərin məğlubiyyətindən sonra Yaxın Şərqdə baş vermiş ikinci bir hadisə 1969-cu ilin avqustun 21-də İslam dünyasında müqəddəs ziyarətgah sayılan əl-Əqsa məscidinin yandırılması nəinki ərəb ölkələrində, həm də bütün müsəlman ölkələrində ciddi narazılıqla qarşılandı. İsrailin işğalçılıq planlarında Qüds şəhərinin də ələ keçirilməsi nəzərdə tutulmuşdu. Dünyanın üç aparıcı dini sayılan — İslamın, Xristianlığın və İudaizmin müqəddəs yerləri bu şəhərdə yerləşdiyindən bura hər üç dinə sitayiş edən insanların daima diqqət mərkəzində olmuşdur.

Müsəlmanların Məkkə və Mədinədən sonra ən müqəddəs saydıqları əl-Məscid əl-Əqsa (*ərəbcədir, ucqar və ya uzaq məscid deməkdir*) burada yerləşir.*

tələb edilirdi ki, «altı günlük müharibə» nəticəsində işğal etdiyi ərəb torpaqlarını qeyd-şərtsiz azad etsin. Lakin ABŞ və digər Qərb dövlətlərinə söykənən İsrail tərəfindən bu qətnamə yerinə yetirilmədi.

* Quranda bu məscidlə bağlı hədis var (5, s.54). Məhəmməd peyğəmbərin adı ilə bağlı olduğundan əl-Əqsa Məscidi islamı qəbul edən insanlar tərəfindən ən müqəddəs yerlərdən sayılır. VII əsrin axırlarında inşa edilən bu məscid memarlıq baxımından bir o qədər də seçilməyən bir tikili olub. Sonralar Xəlifə Validin zamanı (705-715-ci illər) məscid bərpa edilərək əsaslı dəyişiklik edilməklə möhtəşəm görkəm alıb. Məscid zəlzələ nəticəsində ciddi zədə alsa da (780 və 1035-ci illərdə)



Qeyd edildiyi kimi, "altı günlük" müharibədə ərəb ölkələrinin məğlubiyyəti, müsəlmanlar tərəfindən təşvişlə qarşılandı. Müsəlman dövlətlərini ciddi düşünməyə vadar edən səbəblərdən biri də bu idi ki, İsrail təkbaşına çətin ki, belə "parlaq qələbəyə" nail ola bilərdi. Deməli bu ölkənin arxasında qüdrətli dövlətlər dayanmışdı. Vaşinqtonun hərbi-siyasi və iqtisadi köməyindən və xarici ölkələrdə məskunlaşan varlı yəhudilərin maliyyə dəstəyindən bəhrələnən İsrail, ərəb ölkələrinə qarşı meydan oxuyurdu. İsrailə qarşı İslam dünyasının vahid cəbhəsinin yaradılması ideyası bir sıra müsəlman dövlətləri tərəfindən gündəmə gətirildi. Bu məqsədlə həyata keçirilən tədbirlərdən biri 1969-cu ilin aprelində Malayziyanın paytaxtı Kuala-Lumpurda Beynəlxalq İslam Konfransının çağırılması oldu. Burada Qüdsün İsrail tərəfindən işğalı ətrafında geniş fikir mübadiləsi aparıldı və ərəblərin təkidilə yaranmış vəziyyəti müzakirə etmək üçün müsəlman ölkələri dövlət başçılarının zirvə toplantısının çağırılması barədə qərar qəbul edildi.

"6 günlük müharibədən" sonra İsrail hakim dairələri tərəfindən Qüds şəhərinin yəhudiləşdirməsi siyasəti yeridilirdi. Buraya dünyanın müxtəlif ölkələrindən yəhudi mənşəli insanların mütəşəkkil axını təşkil olundu. Bu şəhərdə yəhudilər məskunlaşdıqca müsəlmanlara məxsus müqəddəs yerlər dağıdılır, onların yerində yəhudi sinaqoqları inşa edilirdi. 1967-ci ilin avqustunda İsrail hökumətinin qərarı ilə Xəlifə Ömərin göstərişilə inşa edilən "Kubat əs-Səhra" məscidi Solomon sinaqoquna çevrilməli idi. Lakin beynəlxalq ictimai

bərpa edilmiş, özünün möhtəşəmliyini və əvvəlki görkəmini saxlaya bilmişdir. XII əsrin əvvəllərində bu məscid Qüds xristian krallarının sarayına çevrilir. Sonralar İslam dünyasının bu müqəddəs məkanı səlibçilər tərəfindən işğala məruz qalır. Qüds kralı II Balduin 1128-ci ildə əl-Əqsanı səlibçilərə hədiyyə etdi. Bu işğalla razılaşmayan müsəlmanlar kafir səlibçilərdən Qüdsün azad olunmasını özlərinin müqəddəs borcu sayırdılar. Səlibçiləri darmadağın edən Səlahəddin 1187-ci ildə Qüdsdə olan müqəddəs yerləri, o cümlədən əl-Əqsanı səlibçilərdən azad etməklə onu İslam dünyasına qaytardı.

təzyiqdən ehtiyat edən İsrail belə bir addımı atmasa da, gələcəkdə onun təkrar olunması ehtimalı vardı.

Qeyd edildiyi kimi 1969-cu ilin avqustunda yəhudi mənşəli bir avstraliyalı tərəfindən əl-Əqsa məscidi yandırıldı. Bu hadisə müsəlman ölkələrində ciddi narazılıq, qəzəb və nifrətlə qarşılandı. Məscidin yandırılmasından razılığını gizlətməyən İsrail ordusunun baş ravvini Şlom Qoren çəkinmədən bildirdi ki, bu məscidin yerində "yəhudi sinaqoqunun ucaldılmasının vaxtı çoxdan çatmışdır" (47, s.187).

Məscidin yandırılması və onun ardınca İsrailin rəsmi və dini dairələrinin işğalçılıq ruhunda yayılmış bəyanatları, bir sıra müsəlman ölkələrinin, xüsusilə Səudiyyə Ərəbistanının və bütövlükdə İslam dünyasının ruhani dairələrinin kəskin etirazına səbəb oldu. O zaman İraqda sürgündə olan ayətulla Xomeyni İsrail əleyhinə bəyanatla çıxış edərək bildirdi ki, "nə qədər ki, işğal olunmuş Fələstin azad olunmayıb, müsəlmanlar əl-Əqsanı təmir etməməlidirlər. Qoyun sionistlərin cinayətləri daimi olaraq müsəlmanların gözləri önündə təcəssüm etsin və Fələstinin azad olunması yolunda hərəkatın başlanğıcı olsun" (10, s.124). Səudiyyə Ərəbistanının kralı Feysəl bu hadisəyə dərhal münasibət bildirərək, müqəddəs islam ziyarətgahlarını yəhudilərdən qorumaq üçün cihad elan etdi (34, s.108). Feysəlin bu tələsik təşəbbüsü bir sıra ərəb ölkələri tərəfindən bəyənilmədiyindən deklarativ xarakter aldı.

Həmişə olduğu kimi bu dəfə də İsrail mütəşəkkil ərəb müqavimətilə rastlaşmadı. 1967-ci il müharibəsində məğlub olaraq hərbi potensialı darmadağın edilmiş Misir və Suriya Feysəlin cihad təklifinə qoşula bilməzdilər. Cihad müharibə demək idi. "6 günlük savaş" zamanı bu iki ərəb dövlətinin qeyd olunduğu kimi hərbi potensialı məhv edildiyindən onlar təbii ki, cihadda iştirak edə bilməzdilər. Fələstin Azadlıq Təşkilatı hələ təşəkkül dövrünü keçirdiyindən, hərbi baxımdan ümumi ərəb müqavimət hərəkatında iştirak etmək imkanlarına malik deyildi. İordaniya həmişə olduğu kimi yaranmış vəziyyətdən bəhrələnmək istəyirdi: Feysəlin cihad planına tərəfdar



çıxmaqla əsas məqsədi, Şərqi Qüds torpaqlarını ələ keçirmək idi. 1968-ci ildə İraqda hakimiyyətə gələn Bəəs hökuməti hələlik öz yerini möhkəmlətməklə məşğul idi. Göründüyü kimi, ərəb dünyasında mövcud olan bu dağınıqlıq və pərakəndəlik, müxtəlif yönümlü dairələrin iqtidarda olmaları, İsrailə qarşı milli-müqavimət hərəkatının təşəkkülü və formalaşması yolunda ciddi maneə idi. Bu maneənin dəf olunması bütün İslam dünyasının vahid bir təşkilatda birləşməsi şəraitində mümkün ola bilərdi. Belə vahid bir təşkilat yarandıqdan sonra onun çərçivəsində ərəblərin özləri arasında da birliyə nail olmaq imkanları yarana bilərdi.

Cihad çağırışı bir çox ərəb dövlətləri tərəfindən soyuq qarşılanmasına baxmayaraq, Feysəl bütün müsəlman dövlətlərinə məktubla müraciət etdi. Feysəlin məktubunda deyilirdi: "Sionizm özünün təcavüzündə inadkarlıq göstərir, heç bir humanist və insani dəyərlərə məhəl qoymur, keçmişdə olduğu kimi yenə də zora üstünlük verir, belə bir şəraitdə də BMT İsrailin cinayətlərinin qarşısını almaqda acizdir" (134, 24.VIII.1969). Feysəl qeyd edirdi ki, belə halda vəziyyətdən yeganə çıxış yolu bütün müsəlmanların cihada qoşulmasıdır. Səudiyyə kralının bu təşəbbüsü Məkkə ruhaniləri tərəfindən müdafiə olundu. Məkkə üləmalarının mətbuatda dərc olunmuş bəyanatında qeyd edilirdi ki, "əl-Əqsa məscidinin yandırılması, İslam sivilizasiyasının məhv ola biləcəyi barədə bir siqnaldır. Ancaq cihad yolu ilə müsəlmanlar gələcək nəsillərə qalan bu rüsvayçı ləkəni yuya bilərlər" (137, 27.VIII.1969).

Məscidin yandırılması İranda və Türkiyədə müəyyən əks-sədaya səbəb oldu. İsrail dövlətilə hərtərəfli əlaqəsi olan şah rejimi ərəb dünyasından təcrid olunmuşdu. Bu vəziyyətdən çıxmaq üçün İran Xarici İşlər Nazirliyi əl-Əqsanın yandırılması ilə bağlı xüsusi bəyanatla çıxış etdi. "Şah və bütün İran milləti başqa müsəlmanlar kimi bu yanğının nəticələrinin aradan qaldırılması kampaniyasında öndə gedirlər... Müsəlmanların ikinci qibləsi sayılan bu məscidin təmiri və bərpasını İran məmnuniyyətlə öz öhdəsinə götürür" (124, s.290). Məhəmməd Rza Pəhləvinin bu bəyanatı şah rejimilə müxali-

fətdə olan qüvvələr tərəfindən kəskin tənqidlə qarşılandı. Xomeyni İraqın "Əl-Cümmhuriyyə" qəzetinin müxbiri ilə müsahibəsində bildirdi ki, "şahın əl-Əqsanı tezliklə təmir etdirmək qərarı, İsrailin cinayətlərini ört-basdır məqsədi güdür" (sitat Rəcəbinin Zendeginameye siyasi... əsərindən götürülüb - 131, s.289-290). Müsahibənin başqa yerində deyilirdi ki, "şah rejimi hesab açır, ianə toplamaq üçün kassa qoyur, əl-Əqsanı təmir etmək adı altında xalqdan pul yığır... cibini doldurur və həm də bu yolla İsrailin günahlarının izini itirmək istəyir" (134). Lakin bu hadisə və şahın ona tələsik münasibət bildirməsi heç də İranla İsrail arasında əlaqələrin kəsilməsinə gətirib çıxartmadı. İran şahı yenə də İsrailin strateji tərəfdaşı kimi qalmaqda idi (54, s.187). Türkiyə müsəlmanları isə məscidin yandırılmasına öz münasibətlərini küçə nümayişləri və antiisrail şüarları ilə bildirdilər. Mersin şəhərində təşkil olunmuş mitinqdə Qüdsün İsrail işğalından azad olunması tələbi irəli sürüldü. Lakin xalq kütlələri səviyyəsində təşkil olunan bu etiraz kampaniyaları heç də Türkiyə rəsmilərinin fikrini ifadə etmirdi.

Bu hadisə ilə bağlı kəskin mövqedən çıxış edən ölkələrdən biri Malayziya oldu. Hakim partiya olan "Birləşmiş Malayziya Milli Partiya" dövlətdən bu məsələyə hərbi müdaxilə olunmasını tələb etdi. Problemlə bağlı qəbul edilmiş bəyanatda Qüdsün İsrail işğalından azad edilməsi üçün güc tətbiq etmək təklif olunurdu.

Beləliklə, İslam Konfransı Təşkilatının həyata vəsiqə alması üçün münasib tarixi şərait yaranmışdı. Bu şəraitin bünövrə daşını təkcə "6 günlük müharibədə" ərəblərin məğlubiyyətində və əl-Əqsa məscidinin qəsdən yandırılmasında axtarmaq düzgün olmazdı. Yaxın və Orta Şərq özünün təbii sərvətləri və geosiyasi mövqeyinə görə həmişə böyük dövlətlərin diplomatiya hədəfində olmuşdur və olmaqdadır. Müsəlmanların dini zəmində birləşmək meyllərindən isə Qərb diplomatiyası daima siyasi məqsədlər üçün istifadə etməyə can atmışdır. Faktlara müraciət edək: Hələ 30-cu illərdə Əfqanıstan, İraq, İran və Türkiyənin Səədabad adlı paktda birləşməsindən ingilis diplomatiyası istifadə etməyə çalışmışdı. II dünya müharibəsindən sonra ABŞ müsəlman ölkələrini vahid cəbhədə birləşdirməklə kommunizmə qarşı mübarizəni bu birlikdə iştirak edə bilən üzvlər vasitəsilə həyata keçirmək siyasətində idi. Heç də təsadüfi deyil ki, müsəlmanların yeni bir təşkilatda birləşmələrilə bağlı Feysəlin planı qərbpərəst müsəlman dövlətləri tərəfindən rəğbətlə qarşılandı. Feysəl İran şahının razılığını əldə etmək üçün təcili Tehrana gəldi. Bu səfərdə əsas məqsəd İslam dünyasının hiddət və qəzəbini səngitmək, partlayış həddinə çatmış antiisrail əhval-ruhiyyəni nisbətən başqa səmtə yönəltmək idi. Feysəllə şahın görüşündə marağı olan Qərb diplomatiyası, yaradılması nəzərdə tutulan islam təşkilatından sosializmə qarşı istifadə etmək niyyətində idi.

1969-cu ilin sentyabrın əvvəllərində, ərəb dövlətləri xarici işlər nazirlərinin Qahirə görüşündə müsəlman dövlətlərini birləşdirən beynəlxalq təşkilatın yaradılması ilə bağlı məsələlər müzakirə olundu. Həmin ilin sentyabrın ilk həftəsində isə İslam ölkələri dövlət başçılarının zirvə toplantısını keçirmək məqsədilə təşkilat komitəsi yaradıldı. Təşkilat komitəsinə İranın, Pakistanın, Somalinin, Malayziyanın, Nigeriya və Mərakeşin xarici işlər nazirləri seçildilər. XX əsrdə İslam dünyasının birliyi yolunda hökumətlər səviyyəsində atılan bu ilk addım təqdirə layiq bir hadisə idi. Beləliklə ciddi hazırlıq işləri görüləndən sonra 1969-cu ilin sentyabrın 22-25-də Mərakeşin paytaxtı Rabatda müsəlman ölkələri dövlət başçılarının ilk zirvə toplantısı keçirildi (124, s.159).

Konfransın gedişi bir çox xarici dövlətlər tərəfindən diqqət və maraqla izlənilirdi. ABŞ diplomatiyası bu konfransın baş tutmasında və müsəlman dövlətlərinin vahid bir təşkilatda birləşmələrində maraqlı idi və gələcəkdə bu qurumun fəaliyyətini antisovet məcraya yönəldib, sosializm ideyalarının Yaxın və Orta Şərqə doğru irəliləməsinin qarşısında çəpər çəkmək məqsədini güdürdü. Buna görə də Rabat görüşünə daha çox dini don geyindirməyə çalışan Vaşinqton, bu görüşün həm də kəskin antiisrail istiqamətə yönəlməsinin qarşısını almağa çalışırdı. Konfransın gedişində ABŞ-ın bu

xətti mühafizəkar ərəb rejimləri və İran şahı tərəfindən məharətlə həyata keçirildi. Səudiyyə Ərəbistanının nümayəndəsi və onunla bir mövqedən çıxış edənlər, iştirakçıların diqqətini əsasən İslamın müqəddəs ziyarətgahlarının qorunmasına cəlb edir, Qüdsün İsrail işğalından azad olmasını tələb edirdilər. Əks qütbdən çıxış edən bir sıra nümayəndələr, o cümlədən Misirin nümayəndəsi məsələni daha geniş qoyur, "6 günlük müharibədən" sonra Yaxın Şərqdə ərəblərin ziyanına formalaşan vəziyyətin yaranmasını müzakirə edib bu məsələ ilə bağlı müvafiq qərarın qəbul olunmasına çalışırdı.

Qızğın müzakirələrdən sonra qəbul edilmiş yekun sənədində Qərb dövlətlərilə əməkdaşlıq edən mühafizəkar rejimlərin xətti qalib gəldi. Belə ki, qəbul edilmiş qətnamədə Qüdsün şərq bölməsinin İsrail tərəfindən işğal edilməsi kəskin pislənildi, lakin yəhudi dövlətinə qarşı "cihad" elan etmək barəsində konkret qərar qəbul edilmədi. Belə mötədil bir qərarın qəbul edilməsi əslində İsraili və onun arxasında duran dövlətləri qane edirdi. Zirvə toplantısının ən mühüm nəticəsi bu oldu ki, bütün müsəlman dövlətlərini özündə birləşdirən "İslam Konfransı Təşkilatı" adlı bir beynəlxalq qurum həyata vəsiqə aldı. İslam tarixində ilk dəfə idi ki, bütün müsəlman dövlətləri vahid bir təşkilatda birləşir, daxili və xarici siyasətlərini əlaqələndirməklə yekdil olacaqlarını bəyan edirdilər. Qeyd etmək lazımdır ki, istər Şərq və istərsə də Qərb həm də müsəlmanların bir araya gəlməsinə, təlatümlü dünyada və getdikcə gərginləşən beynəlxalq münasibətlərdə vahid mövqedən çıxış edəcəklərinə ehtiyatla yanaşırdılar. Belə bir təşkilatın yaradılması müsəlmanların oyanışına səbəb ola bilərdi.

Beləliklə, müsəlman dövlətlərinin, həmin dünyada fəaliyyətdə olan ictimai-siyasi qüvvələrin uzun müddətli gərgin siyasi, təşkilati işləri nəticəsində 1969-cu ildə islam dünyasına lazım olan, onların beynəlxalq aləmdə milli və mənəvi, iqtisadi və mədəni manafeləri uğrunda mübarizə apara bilən bir ciddi regional birlik – «İslam Konfransı təşkilatı» meydana gəldi və hal-hazırda məqsədyönlü fəaliyyətdədir.



## 1.2. İKT-nin Nizamnaməsi, quruluşu, məqsəd və vəzifələri.

İslam Konfransı Təşkilatı böyük regional birlik kimi meydana gəlib ciddi fəaliyyətə başlaması ilə həmin təşkilatın üzv dövlətlərinin ictimai – siyasi həyatında yeni bir tarixi mərhələ başlandı. Bu mahiyyətdə təşkilatın özünü inkişafında da hərəkət baş verdi. İKT daxili təşkilatı problemləri həll etməyə yönəldilən təşkilati işlər, daxili qanunlarının, quruluşunun və qarşısında duran əsas vəzifələrin yerinə yetirilməsi istiqamətində tədbirlər müəyyənləşdirib həyata keçirilməsi uğrunda ciddi mübarizəyə atıldı. Bu işdə İKT-nin konfransları çox böyük rol oynadı və indi də oynayır. Bu istiqamətdə gedən işdə 1970-ci ilin mart ayının 25-də keçirilən təşkilatın birinci konfransının əhəmiyyətini qeyd etmək vacibdir. Bu regional birliyin ilk konfransı "İslam ölkələrinin həmrəyliyi", "qarşılıqlı anlaşma" və "əməkdaşlıq" kimi cəlbedici şüarlar altında keçdi. Söhbət beynəlxalq həyatın qlobal və islam dünyasında baş qaldıran regional problemlərinin həllindən, İslam ümmətinin sıx əməkdaşlığının və həmrəyliyinin zəruriliyindən gedirdi. Bu məqsədlərə nail olmaq üçün təşkilatın hüquqi əsasları yaradılmalı və mühüm sənədi olan nizamnaməsi qəbul olunmalı idi. Konfransın qəbul etdiyi qərarlarda islam ölkələrinin həmrəyliyi və onlar arasında siyasi, iqtisadi, ictimai və mədəni sahələrdə hərtərəfli əməkdaşlığın bərqərar olunması və inkişaf etdirilməsi əsas vəzifə kimi müəyyən olundu. Bu mühüm və həm də mürəkkəb vəzifələri icra etmək və dövlət başçılarının ilk sammitinin qəbul etdiyi qərarları yerinə yetirmək üçün əsaslı hüquqi zəmin yaradan nizamnamə qəbul edildi, təşkilatın quruluşu təsdiq edildi.

Bütün beynəlxalq təşkilatlarda olduğu kimi İKT-nin Nizamnaməsi də bu qurumun əsas və mötəbər sənədi sayılır. Bu sənəd 14 mart 1972-ci ildə Ciddə şəhərində çağrılmış xarici işlər nazirlərinin üçüncü konfransında qəbul olundu və o

gündən də qüvvəyə mindi.* Giriş və 14 maddədən ibarət nizamnamədə təşkilatın quruluşu, üzv dövlətlərin vəzifə və hüquqları təsbit edilmiş, nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsinin zəruriliyi qeyd edilmişdi. Nizamnamədə təşkilatın vəzifələri aşağıdakı kimi müəyyən edilirdi:

1. Müsəlman dövlətləri arasında əbədi həmrəylik.

2. Üzv ölkələr arasında həyatın bütün sahələrində - iqtisadi, siyasi, mədəni, elmi və sairə sahələrdə səmərəli və faydalı əməkdaşlıq yaratmaq.

3. Hökumətlər (dövlətlər) səviyyəsində yaradılmış beynəlxalq təşkilatlarla əlaqələr yaratmaq, onların xəttilə müsəlman ölkələrinin müzakirə olunan problemlərinin nizama salınmasında fəal və yaxından iştirak etmək. Bu baxımdan BMT ilə mütəmadi və səmərəli əməkdaşlığı diqqət mərkəzində saxlamaq.

4. Hər cür irqi ayrıseçkilik və müxtəlif formada təzahür edən istismara qarşı dönmədən və ardıcıl mübarizə aparmaq.

5. Ədalətli sülh və beynəlxalq əmin-amanlığı qorumaq və müdafiə etmək məqsədilə lazımi tədbirlər proqramı hazırlamaq və icrasını nəzarətə götürmək.

6. İslamın müqəddəs məkanları və ziyarətgahlarında sülhün və əmin-amanlığın qorunmasına səy göstərmək və bu məqsədlə müsəlman dövlətlərinin fəaliyyətini əlaqələndirmək. İslam dəyərlərinin mühafizəsi bütün müslmanların müqəddəs borcu olduğuna görə buna diqqəti artırmaq.

7. Fələstin ərəb xalqının ədalətli mübarizəsinə kömək etmək, onların haqq işini müdafiə etmək. Fələstin xalqının torpaqları üzərində yiyəlik hüququnu bərpa etmək hüququ var və bu işdə bütün dünya müsəlmanlarınının himayəsindən və təsirli yardımından bəhrələnməlidir.

8. Bütün müsəlmanların milli mənlik, istiqlaliyyət və milli hüquqlarının qorunması yolunda mübarizələri daima diqqət mərkəzində saxlanılmalı və bu işdə İslam dünyası ancaq özünə söykənməlidir.

9. Üzv dövlətlərin bir-birlərilə və həmçinin onlarla başqa dövlətlər arasında qarşılıqlı anlaşmanın bərqərarı üçün əlverişli və münasib şərait yaratmaq (140, s.24-25; 11, s.15).

Nizamnamənin II maddəsinin A bəndində qeyd olunmuş bu ümumi müddəalarda, müsəlman dövlətlərinin əməkdaşlığını nəzərdə tutan vacib və zəruri vəzifələr müəyyən edilmişdir. Bu vəzifələr beynəlxalq hüquq normalarından irəli gələn əsas normalara və BMT Nizamnaməsinin prinsiplərinə söykənirdi, çünki bu vəzifələr dövlətlərarası münasibətlərdə qarşıdurma və münaqişə əvəzinə, hamılıqla qəbul edilmiş faydalı əməkdaşlığı nəzərdə tuturdu. Belə əməkdaşlıq beynəlxalq və regional sülhə və əmin-amanlığa xidmət etdiyindən, BMT Nizamnaməsinin tələblərinə tam uyğun idi. Məhz buna görə də belə bir təşkilatın beynəlxalq həyata qədəm qoyması bütövlükdə dünya birliyinin narazılığına səbəb olmadı. Amma bu yeni qurumun yaradılmasına iki fövqəldövlətin - Sovet İttifaqı və ABŞ-ın münasibəti müxtəlif oldu. ABŞ Dövlət departamenti öz mövqeyini açıq bildirmədi, lakin mətbuatda dərc olunmuş məqalələrdən belə bir nəticəyə gəlmək olardı ki, bu təşkilatın yaradılması Amerikanın rəsmi dairələrinin ciddi narazılığına səbəb olmamışdı. Moskva isə İKT-nin yaradılmasını sükutla qarşıladı. Sovet diplomatiyası çox yaxşı bilirdi ki, 40-cı illərin sonunda başlayan bloklaşma kampaniyası dövründə ABŞ və onun müttəfiqləri dəfələrlə "İslam paktı" çətiri altında müsəlman dövlətlərini də bir yerə yığmağa təşəbbüs göstərmiş və bu birlikdən "dinsiz" Moskvaya qarşı kəsərli bir ideoloji silah kimi istifadə etməyə cəhd göstərmişdir.

Nizamnamənin 2-ci maddəsinin B bəndinə təşkilatın islam dəyərlərinə söykənən fəaliyyət prinsipləri verilirdi. Bunları aşağıdakı kimi xülasə etmək olar:

I. Bütün beynəlxalq təşkilatların əsas fəaliyyət prinsipi üzv dövlətlərin tam bərabər hüquqa malik olmalarının təmin olunmasıdır. Hər hansı beynəlxalq təşkilatın normal işləməsi və uzunömürlü olması həmin prinsipə ciddi əməl olunmasın-

* Tədqiqatın xronoloji çərçivəsindən kənar olsa da, qeyd etmək vacibdir ki, İKT-nin Dakarda (Seneqal) keçirilən sammitində (2008-ci ilin martı) təşkilatın Yeni Nizamnaməsi qəbul olunmuşdur.

dan asılıdır. Nizamnamənin II maddəsinin 5-ci paraqrafında bu prinsip təsbit edilmiş və ona sözsüz əməl olunması bütün üzv dövlətlərdən tələb olunur.

II. Üzv dövlətlərin müqəddəratını təyin etmə hüququna ehtiramla yanaşmaq, heç bir müsəlman dövlətinin daxili işlərinə qarışmamaq.

III. Üzv dövlətlərin suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə hörmət etmək.

IV. Üzv dövlətlər arasında baş verə biləcək hər hansı ixtilafı, mübahisələri danışıqlar, müzakirələr, vasitəçilik, barışıq və arbitraj yolu ilə, zor tətbiq etmədən nizama salmaq, həll etmək. Müsəlman dövlətləri bir-birləri ilə zor dililə danışmaqdan çəkinməlidirlər.

V. Üzv dövlətlər bir-birinin ərazi bütövlüyünə, toxunulmazlığına və siyasi müstəqilliyinə hörmət etməli, hədələməkdən çəkinməlidirlər.

Göründüyü kimi, Nizamnamədə təsbit edilmiş bu prinsiplər üzv dövlətlərin suverenliyinə hörmət etməyi, bərabərliyin qorunmasını və daxili işlərə qarışmamaq kimi beynəlxalq hüququn əsas prinsiplərindən sayılan tələbləri İKT-nin fəaliyyəti üçün əsas vəzifə kimi qəbul olunmuşdur. Bu da beynəlxalq münasibətlərin sağlamlaşdırılması, bütövlükdə dövlətlərarası əlaqələrin qarşılıqlı hörmət və faydalanmaq prinsipi əsasında qurulması, hüquq bərabərliyi və ümumbəşəri dəyərlərin qorunması və insan hüquqlarına hörmət kimi universal prinsiplərin əldə rəhbər tutulması deməkdir. Yarandığı ilk gündən bu təşkilat dövlətlərarası əlaqələrdə baş qaldıran mübahisə və münaqişələrin nizama salınması üçün gücdən bir vasitə kimi istifadə etməyi rədd etmişdir. İKT-nin bu mövqeyi İslam dininin mahiyyətindən, sülhpərvərliyindən irəli gəlir.

İKT-nin yaradılması və nizamnaməsinin qəbulu bir neçə mərhələdən keçmişdir. Bu mərhələlərdə əsas təsisçi kimi 1969-cu ilin sentyabrın 22-25-də Mərakeşin paytaxtı Rabatda çağırılmış zirvə toplantısında iştirak etmiş aşağıdakı ölkələrin dövlət və hökumət başçıları çıxış etmişlər: Əfqanıstan, İordaniya, Əlcəzair, Türkiyə, Tunis, Yəmən Ərəb Respublikası,



Çad, Seneqal, Somali, Sudan, Səudiyyə Ərəbistanı, Küveyt, Qvineya, Livan, Liviya, Malayziya, Mali, Mərakeş, Yəmən Demokratik Respublikası, Pakistan. İslam Konfransı Təşkilatının ilk yaradıcıları və təşkilatçıları bu ölkələr olmuşdur. Onlar həqiqətən İslam dünyasının hüquqlarının keşiyində duran bu qurumun həyata vəsiqə almasına çalışmış və bu yolda dönməzlik göstərmişlər.

1970-ci il martın 25-də Səudiyyə Ərəbistanının Ciddə şəhərində Təşkilatın xarici işlər nazirləri səviyyəsində ilk konfransının işində isə aşağıdakı ölkələrin nümayəndələri iştirak edirdi: Əfqanıstan, Əlcəzair, Qvineya, İndoneziya, İran, Səudiyyə Ərəbistanı, İordaniya, Küveyt, Livan, Pakistan, Nigeriya, Seneqal, Somali, Tunis, Yəmən Ərəb Respublikası.

Nizamnamənin VIII maddəsinə əsasən İKT-yə ancaq müsəlman ölkəsi üzv ola bilər. Bununla əlaqədar Təşkilatın zirvə toplantısı zamanı və həmçinin xarici işlər nazirlərinin müşavirəsində "hansı ölkə müsəlman ölkəsi sayıla bilər?" sualı ətrafında müzakirə aparıldı və bu məsələ ilə bağlı aşağıdakı meyarlar əsas götürüldü:

1. Müsəlman ölkəsi o ölkəyə deyilir ki, orada din dövlətdən ayrı deyil və islam dini həmin ölkənin Konstitusiyasında rəsmi din kimi təsbit edilmiş olsun.

2. Bəzi ölkələrdə əhalinin əksəriyyəti müsəlman olsa da din dövlətdən ayrıdır. Bəzi ölkələrdə əhalinin əksəriyyətinin müsəlman olmasına baxmayaraq, dövlət başçısı qeyri-müsəlman olur. Belə ölkələr də müsəlman ölkəsi sayılır və İKT-yə üzv ola bilərlər.

Nizamnamənin VIII maddəsinə əsasən təşkilata üzv olmaq üçün Katibliyə ərizə ilə müraciət edən dövlət, Nizamnaməni qəbul etdiyini rəsmən bəyan edir və ona riayət edəcəyini öhdəsinə götürür. Bu müraciət xarici işlər nazirlərinin növbəti konfransında müzakirə olunur və müvafiq qərar qəbul edilir. İclasda iştirak edənlərin üçdə iki hissəsi lehinə səs verdikdə, həmin dövlət təşkilatın üzvlüyünə qəbul olunur. Təşkilatdan xaric olmaq üçün üzv dövlət Baş Katibə nota ilə müraciət edərək təşkilatdan çıxmasının səbəblərini əsaslandırır. Bu

qərar haqqında Katiblik tərəfindən digər üzv dövlətlərə məlumat verilir. Nizamnamənin X maddəsi tələb edir ki, üzvlükdən çıxmaq istəyən hər hansı bir dövlət təşkilatla maliyyə hesablamaları aparmalıdır və yalnız bütün borclarını (əgər varsa) ödəyəndən sonra İKT-nin sıralarını tərk edə bilər.

İKT Nizamnaməsinin 3-cü maddəsinə əsasən təşkilatın aşağıdakı orqanları yaradılmışdır:

- Dövlət və hökumət başçılarının konfransı;
- Xarici işlən nazirlərinin konfransı;
- Baş katiblik.

Təşkilatın ali orqanı dövlət və hökumət başçılarının konfransıdır. Nizamnaməyə görə dövlət başçılarının zirvə konfransı üç ildən bir çağırılır. Fövqəladə hadisələr baş verdiyi təqdirdə növbədənkənar zirvə toplantısı çağrıla bilər. Nizamnamənin IV maddəsinə əsasən zirvə konfransı ali orqandır və onun vəzifə və səlahiyyətləri genişdir. Konfrans gündəliyə çıxarılan məsələlərlə bağlı üzv dövlətlərin siyasətini əlaqələndirir, təşkilatın mövqeyini və siyasi xəttini İslam dünyasının mənafeyinə uyğun müəyyən edir. Zirvə toplantısında müxtəlif məsələlər, o cümlədən İslam dünyasının dini-ideoloji məsələləri müzakirə olunur, beynəlxalq münasibətlərin müsəlman ölkələrilə bağlı problemləri barədə müvafiq qərarlar qəbul edilir. Sammitin qərarları qətnamələr formasında toplantının sonunda elan edilərək, dünya ictimaiyyətinə və müvafiq beynəlxalq təşkilatlara çatdırılır. Zirvə toplantısında müzakirə olunan məsələlər Nizamnamənin tələbləri çərçivəsindən kənara çıxmır. İstər islam dünyası ilə bağlı mövzular və istərsə də beynəlxalq aləmin hər hansı bir məsələsinin zirvə toplantısının gündəliyinə çıxarılması Baş katibliyin səlahiyyətində olsa da gündəliyin tutulmasında üzv dövlətlərin də iştirak etməlri məqbul sayılır.

Tədqiq etdiyimiz illərdə təşkilatın aşağıdakı zirvə konfransları çağırılmışdır:

- I konfrans, Rabat (Mərakeş),22-25 sentyabr 1969-cu il.
- II konfrans, Lahor (Pakistan), 22-23 fevral 1974-cü il.



- III konfrans, Taif və Məkkə (Səudiyyə Ərəbistanı), iyul 1981-ci il.
- IV konfrans, Kasablanka (Mərakeş),16-19 yanvar 1984-cü il.
- V konfrans, Küveyt, 26-28 yanvar 1987-ci il.
- VI konfrans, Dakar (Seneqal), 5-8 dekabr 1991-ci il.
- VII konfrans,Kasablanka(Mərakeş),13-15 dekabr 1994-cü il.
- VIII konfrans, Tehran (İran), 1997-ci il.
- IX konfrans, Doha (Qətər),12-13 noyabr 2000-ci il.
- X konfrans, Putrajava (Malayziya), 16-17 oktyabr 2003-cü il
- Növbədənkənar konfrans, Məkkə (Səudiyyə Ərəbistanı), 7-8 dekabr 2005-ci il
- XI konfrans, Dakar (Seneqal), 13-14 mart 2008-ci il.*

Zirvə toplantısının qərar və qətnamələri konsensus əsasında qəbul edilir və tövsiyə xarakteri daşıyır.

Tədqiq etdiyimiz illərdə İKT-nin ikinci orqanı sayılan xarici işlər nazirlərinin toplantısı, Nizamnamənin V maddəsinin A bəndinə uyğun olaraq ildə bir dəfə cari və zəruri hallarda növbədənkənar konfransları çağırılır. Bu konfranslarda təşkilatın fəaliyyətilə bağlı cari məsələlər müzakirə edilir və müvafiq qərarlar qəbul olunur. Xarici işlər nazirlərinin konfransı səs çoxluğu ilə təşkilata yeni üzvlər qəbul edir, bir illik maliyyə fəaliyyəti haqqında Maliyyə komissiyasının hesabatını dinləyir, növbəti il üçün büdcəni təsdiq edir. Birləşmiş Millətlər Təşkilatının illik sessiyasından əvvəl üzv dövlətlərin xarici işlər nazirlərinin Nyu-Yorkda müşavirəsi keçirilir və burada BMT Baş Məclisinin gündəliyində duran məsələlərlə bağlı məsləhətləşmələr və fikir mübadiləsi aparılır. Bu tədbirlər BMT-nin gündəliyində duran və islam dünyası ilə əlaqəsi olan məsələlərin müzakirəsinə və müvafiq qərarın qəbul edilməsinə istiqamət vermək məqsədi daşıyır. Xarici işlər nazirlərinin konfransı zirvə toplantısının nə zaman və harada çağırılması barədə təkliflə çıxış edir. Sammitin keçirilməsi barədə razılıq, xarici işlər nazirləri tərəfindən irəli sürülmüş təklifin üzv

* Sonuncu Zirvə toplantısı tədqiqatın xronoloji çərçivəsindən kənara çıxsa da, qeyd etməyi lazım bildik.

dövlətlərin nəzərinə çatdırılması yolu ilə əldə edilir. Tədqiq etdiyimiz illərdə xarici işlən nazirlərinin aşağıdakı konfransları çağırılmışdır (ətraflı bax: 138, s.31-32 və 143-144):
- 1970-ci il, 23-25 mart, Ciddə (Səudiyyə Ərəbistanı).
- 1970-ci il, 26-28 dekabr, Kəraçi (Pakistan).
- 1973-cü il, 29 fevral-4 mart, Ciddə.
- 1973-cü il, 24-29 mart, Benqazi (Liviya).
- 1974-cü il, 21-25 iyun, Kuala-Lumpur (Malayziya).
- 1975-ci il, 12-15 iyul, Ciddə.
- 1976-cı il, 12-15 may, İstanbul.
- 1977-ci il, 11-14 may, Trablis (Liviya).
- 1978-ci il, 24-28 aprel, Dakar (Seneqal).
- 1979-cu il, 8-12 may, Fəs (Mərakeş).
- 1980-ci il, 17-22 may, İslamabad (Pakistan).
- 1981-ci il, 1-5 iyun, Bağdad.
- 1982-ci il, 22-26 avqust, Niyami (Nigeriya).
- 1983-cü il, 6-11 dekabr, Dakka (Banqladeş).
- 1984-cü il, 18-22 dekabr, Sana (Şimali Yəmən).
- 1986-cı il, 18-22 yanvar, Fəs (Mərakeş).
- 1988-ci il, 21-25 mart, Əmman (İordaniya).
- 1989-cu il, 13-16 mart, Ciddə.
- 1990-cı il, 1-6 avqust, Ciddə.
- 1991-ci il, 4-8 avqust, İstanbul.
- 1993-cü il, 25-29 aprel, Kəraçi.
- 1994-cü il, 10-11 dekabr, Darülbəyza (Mərakeş).
- 1995-ci il, 9-12 dekabr, Konakri (Qvineya).
- 1996-cı il, 9-13 dekabr, Cakarta (İndoneziya).
- 1998-ci il, 15-17 mart, Doha (Qətər).
- 1999-cu il, 28 iyun-1iyul, Quaqaduqu (Burkina Faso).
- 2000-ci il, 27-30 iyun, Kuala-Lumpur (Malayziya).
- 2001-ci il, 25-29 iyun, Bamako (Mali).
- 2002-ci il, 25-27 iyun, Xartum (Sudan).
- 2003-cü il, 28-30 may, Tehran (İran).
- 2004-cü il, 14-16 iyun, İstanbul (Türkiyə).
- 2005-ci il, 28-30 iyun, Səna (Yəmən).
- 2006-cı il, 19-21 iyun, Bakı (Azərbaycan).



- 2007-ci il, 15-17 may, İslamabad (Pakistan).
- 2008-ci il, 18-20 iyun, Kampala (Uqanda).

Təşkilatın Nizamnaməsində xüsusi hallarda xarici işlər nazirlərinin növbədənkənar konfransının çağırılması da nəzərdə tutulmuşdur. Fövqəladə konfrans xarici təcavüzə məruz qalan dövlətin xahişilə, Baş katibin tövsiyəsi və üzvlərdən üçdə iki hissəsinin razılığı əsasında çağırıla bilər. Aşağıdakı fövqəladə konfranslar çağırılıb:
- 1980-ci il 27-28 yanvar, İslamabad (Pakistan).
- 1980-ci il 11-12 iyul, Əmman (İordaniya).
- 1980-ci il 18-20 sentyabr, Fəs (Mərakeş).
- 1980-ci il 26 sentyabr, Nyu-York (ABŞ).
- 1992-ci il 17-18 iyun, İstanbul (Türkiyə).
- 1992-ci il 1-2 dekabr Ciddə (Səudiyyə Ərəbistanı).
- 1994-cü il 6-9 sentyabr İslamabad (Pakistan).
- 2001-ci il, 26 may, Doha (Qətər).
- 2001-ci il, 10 oktyabr, Doha (Qətər).
- 2001-ci il, 10 dekabr, Doha (Qətər).
- 2002-ci il, 1-3 aprel, Kuala-Lumpur (Malayziya).
- 2007-ci il, 22 fevral, Ciddə (Səudiyyə Ərəbistanı).
- 2008-ci il, 3 fevral, Ciddə (Səudiyyə Ərəbistanı).

Fövqəladə iclaslarda müzakirə olunan məsələlər İslam dünyasını dərindən düşündürən problemlərdir. Məsələn, birinci iclasda sovet qoşunlarının Əfqanıstana hərbi təcavüzü müzakirə edilmişdi. Məlum 2001-ci il 11 sentyabr hadisələri ilə bağlı İKT xarici işlər nazirlərinin fövqəladə iclası 2002-ci il aprelin 1-3-ü arası Kuala-Lumpurda çağrılmışdı.

Zirvə toplantıları və xarici işlər nazirlərinin müşavirələrinin səlahiyyətləri aşağıdakılardan ibarətdir:

1. Bu konfranslar yardımçı qurumların hesabatlarını dinləyib təsdiq edir.
2. Təşkilata üzv olan ölkələrin üçdə iki hissəsinin razılığı ilə İKT-nin Nizamnaməsinin dondurulması haqqında qərar qəbul edirlər.
3. İkinci dərəcəli və tabeli orqanların yaradılması haqqında təqdim edilmiş layihəni rədd və ya təsdiq edir.

4. Təşkilata üzv olan dövlətlərin üzvlüyünü dondurur və ya ləğv edir.

Göründüyü kimi, istər zirvə konfransı və istərsə də xarici işlər nazirlərinin müşavirələri, təşkilatın geniş səlahiyyətə malik olan əsas orqanlarıdır.

İKT-nin ali strukturları içərisində maliyyə, ticarət, informasiya, mədəniyyət nazirlərinin nizamlı keçirilən konfransları da əhəmiyyətli sayılmalıdır.

İKT informasiya nazirlərinin konfransları:
I – Ciddə (Səudiyyə Ərəbistanı),11-12 oktyabr 1988-ci il.
II – Qahirə (Misir), 15-16 yanvar 1992-ci il.
III – Dəməşq (Suriya), 24-25 may 1995-ci il.
IV – Dakar (Seneqal), 29-30 noyabr 1997-ci il.
V – Tehran (İran), 1-2 dekabr 1999-cu il.
VI – Qahirə (Misir), 11-12 mart 2003-cü il.
VII – Ciddə (Səudiyyə Ərəbistanı), 13-14 sentyabr 2006-cı il.

İKT Mədəniyyət Nazirlərinin konfransları:
I – Dakar (Seneqal), 25-26 yanvar 1989-cu il.
II – Rabat (Mərakeş), 12-14 noyabr 1998-ci il.
III – Doha (Qətər), 29-31 dekabr 2001-ci il.

İKT Turizm nazirlərinin konfransları:
I – İsfahan (İran), 3-4 oktyabr 2000-ci il.
II – Kuala-Lumpur(Malayziya),12-13 oktyabr 2001-ci il.
III – Ər-Riyad (Səudiyyə Ərəbistanı), 7-9 oktyabr 2002-ci il.
IV – Dakar (Seneqal), 28-30 mart 2005-ci il.
V – Bakı (Azərbaycan), 11-12 sentyabr 2006-cı il.
VI – Dəməşq (Suriya), 1-2 iyul 2008-ci il (143;144).

İKT-nin strukturunda mühüm yerlərdən biri Baş Katibliyə məxsusdur. Baş Katiblik İslam Konfransı Təşkilatının əsas icra orqanı kimi xarici işlər nazirlərinin birinci konfransının qərarı ilə yaradılmışdır. Bu orqanın vəzifələri Nizamnamədə təsbit olunmuşdur. Baş Katiblik özünün cari fəaliyyətini həm də ona ali orqanlar tərəfindən həvalə edilmiş göstərişlər əsasında qurur. Dakarda çağırılmış sammitin qərarına əsasən katiblik 4 il müddətinə təyin olunur. Lakin bu müddət uzadıla bilər. Katiblik iş prosesində üzv dövlətlərlə əlaqə saxlayır, on-



larla təşkilatın cari həyatı ilə bağlı qarşıya çıxan məsələləri müzakirə edir və razılaşdırır. Katibliyin mühüm vəzifələrindən biri ali orqanların qəbul etdikləri qərar və qətnamələrin icrasını nəzarətə götürmək və bu barədə konfransa vaxtaşırı hesabatlar təqdim etməkdir. Baş Katibliyin hüquq və vəzifələri Nizamnamənin VI maddəsinin 1,4,5,6 və 7-ci bəndlərində təsbit edilmişdir.

Birinci zirvə toplantısının qərarına əsasən, Qüds şəhəri İsrail işğalından azad olunana qədər Baş Katibliyin mənzil qərargahı Səudiyyə Ərəbistanının Ciddə şəhərində yerləşir. İKT-nin rəsmi dili ərəb dilidir. Fransız və ingilis dilləri isə işçi dil kimi qəbul edilmişdir.

Katibliyə Baş Katib rəhbərlik edir. O, təşkilatın idarə olunmasında geniş səlahiyyətləri olan yüksək rütbəli rəsmi şəxsdir. Onun əsas vəzifəsi istər zirvə müşavirələrində və istərsə də xarici işlər nazirlərinin konfranslarında qəbul edilmiş qətnamə və qərarların yerinə yetirilməsinə nəzarət etmək və təşkilatın ali orqanları tərəfindən Katibliyə vaxtaşırı həvalə edilmiş işlərin icrasını təşkil etməkdir. Baş Katib İKT-nin iclaslarında iştirak edərək, qərar və qətnamələrin icrası haqqında toplantıda məlumat verir, hesabat dövründə katibliyin rastlaşdığı problem və çətinliklərdən ətraflı bəhs edir və onların həlli yollarını müzakirəyə çıxarır. Katib, həmçinin, katibliyin ştat cədvəlini hazırlayır və bu cədvələ uyğun olaraq üzv dövlətlərin vətəndaşlarından işə qəbul etməklə katibliyi formalaşdırır. Baş Katib, onun müavinləri və həmçinin katibliyin bütün əməkdaşları ancaq konfransın göstəriş və sərəncamlarını yerinə yetirməlidir (Nizamnamə, VI maddə, 1,2,3-cü bəndlər). Nizamnaməyə görə Baş Katib heç bir üzv dövlətin və ya hökumətin təsiri altına düşməməli, yalnız zirvə konfransına tabe olmaqla müstəqil fəaliyyət göstərməlidir.

Müəyyən səbəblər üzündən Baş Katib iş başında olmadığı təqdirdə onun vəzifəsini müavinlərindən biri icra edir. Baş Katib vəzifəsini həmişəlik tərk etdikdə, daha çox iş stajı olan müavinlərindən biri onun vəzifəsini həyata keçirir.

Müavinlərin hamısı eyni staja malik olduqda, yaşına görə ən sinli müavin yeni Baş Katib seçilənə qədər bu vəzifəni icra edir.

Qeyd edildiyi kimi, Baş Katib konfranslarda, komitələrin iclaslarında şəxsən iştirak edir, sorğu və suallarla bağlı lazımi izahatlar, tövsiyə və təkliflərlə çıxış edir. Əsas məsələ təşkilatın işini səmərəli qurmaq və fəaliyyətini məqsədyönlü istiqamətə yönəltməkdir. Baş Katib konfransların və komitə iclaslarının keçirilməsinə nəzarət edir, müzakirə olunan məsələlərin, qətnamə və qərarların layihəsini hazırlayır. Baş Katib zirvə toplantısında gizli səsvermə yolu ilə seçilir.

Baş Katibliyin əməkdaşları müxtəlif millətlərin nümayəndələrindən seçilərək işə götürülür və Baş Katibin rəhbərliyi altında fəaliyyət göstərirlər. Katibliyin əməkdaşları diplomatik hüquq və imtiyazlardan istifadə etmək hüququna malikdirlər. Diplomatik hüquqlar Nizamnamənin VI maddəsində şərh edilmişdir. Orada deyilir: "Üzv dövlətlərin nümayəndələri vəzifə borclarını yerinə yetirmək üçün diplomatik hüquq və imtiyazlara malikdirlər". Katibliyin vəzifələri 4 dərəcəyə bölünür:

1. Əsas və məsuliyyətli vəzifələr.
2. Peşə və ixtisasa görə seçilən işçilər.
3. İnzibati işçilər.
4. Xidmət sahələri.

İşçilərin seçilməsi və işə qəbul olunmaları üçün əsas şərt onların müsəlman* və üzv dövlətlərdən birinin vətəndaşı olmasıdır (130, s.16-17).

Baş Katibin təqdimatı ilə onun aşağıdakı müavinləri təyin olunurlar:

- Siyasi məsələlər üzrə müavin.
- Müqəddəs Qüds və Fələstin məsələləri üzrə müavin.
- Mədəniyyət, ictimai işlər və İslam İnkişaf Bankı üzrə müavin.

Müavinlər də etiqadlarına görə müsəlman olmalıdır və mənsub olduqları ölkənin xarici işlər naziri tərəfindən Baş Katibə göndərilmiş rəsmi təqdimat əsasında işə götürülə bilərlər.

* Əgər evlidirsə, arvadı da müsəlman olmalıdır.



İslam Konfransı Təşkilatına üzv olan ölkələr bu təşkilatın fəaliyyətində aşağıdakı qruplar halında iştirak edirlər:

- Ərəb ölkələri qrupu.
- Asiya ölkələri qrupu.
- Afrika ölkələri qrupu.

Baş Katibin müavinlərindən hər biri yuxarıda göstərilən qruplardan birini təmsil etdiklərindən müavinlər əvvəl bu qruplarda keçirilən yığıncaqlarda seçilir və xarici işlər nazirlərinin konfransında təsdiq edildikdən sonra rəsmən fəaliyyətə başlayırlar. Tam demokratik əsasda aparılan bu seçkilər təşkilatın çevik və işlək strukturunun yaradılmasına imkan verir. Bu idarə sistemi operativ idarəetmə strukturuna malik olmaqla bərabər həm də peşəkar insanlardan təşəkkül tapdığından İKT-nin müasir beynəlxalq münasibətlər sistemində nüfuz və hörmət qazanmasına imkan yaradır.

İKT-nin aşağıda qeyd olunmuş 6 əsas komitəsi var:

**1. Qüds Komitəsi.** Bu Komitə xarici işlər nazirlərinin 1975-ci il iyun tarixli 6-cı konfransında yaradılıb. Qəbul olunmuş qətnamədə Komitənin vəzifələri aşağıdakı kimi müəyyən edilmişdir:

- Qüdslə bağlı baş vermiş hadisələri izləmək və nəzərdən keçirmək;
- İKT və digər beynəlxalq təşkilatlar tərəfindən İslam dünyası ilə bağlı qəbul edilmiş qətnamə və qərarların icrasına nəzarət etmək;
- Sionizmlə mübarizə aparmaq məqsədilə qəbul edilmiş qərar və qətnamələrin yerinə yetirilməsinə nəzarət etmək;
- Müqəddəs Qüdsün azad olunmasına köməklik edən beynəlxalq təşkilatlarla əlaqələr yaratmaq;
-Bir il ərzində görülən işlər barədə hesabat hazırlayıb xarici işlər nazirlərinin konfransına təqdim etmək.

Komitənin üzvləri üç ildən bir seçilirlər. Mərakeş kralının sədrliyi ilə keçirilən ilk iclasda bir illik fəaliyyətə yekun vurulur və cari il üçün yeni vəzifələr müəyyən edilir.

**2. Maliyyə məsələləri üzrə daimi komitə.** Maliyyə məsələləri üzrə komitə Nizamnamənin 7-ci maddəsinin 3-cü

bəndi əsasında xarici işlər nazirlərinin 4-cü iclasında təsis edilib. Bütün üzv dövlətlər bu Komitənin işində iştirak edir. İldə bir dəfə keçirilən toplantıda cari il üçün təsdiq edilmiş büdcənin yerinə yetirilməsi haqqında təqdim edilmiş hesabat müzakirə və təsdiq edilir və gələn il üçün büdcə qəbul edilir. Yetərsay üzv dövlətlərinin üçdə ikisinin iştirakıdır. Komitənin iclası Baş Katib tərəfindən açılır. Mənzil qərargahı Ciddə şəhərindədir.

**3. İqtisadi, ictimai və mədəniyyət məsələləri üzrə komissiya.** Bu Komissiya xarici işlər nazirlərinin İstanbulda keçirilən 7-ci iclasın zamanı yaradılıb. Komissiyanın əsas vəzifəsi müsəlan dövlətləri arasında iqtisadi, ictimai və mədəni əlaqələrin inkişafına yardım etməkdir. Komissiyanın yığıncaqları ildə bir dəfə çağırılır. Xarici işlər nazirlərinin konfransının keçirilməsilə bağlı sənədlər məhz bu komissiyada hazırlanır. Bu komissiyanın ilk iclası 1972-ci ilin yanvarında Məkkə şəhərində çağırılıb.

**4. Elmi-texniki əməkdaşlığa dair daimi komitə.** Bu komitə dövlət başçılarının 3-cü zirvə toplantısında yaradılıb. Onun əsas vəzifəsi dynyanın qabaqcıl sənaye dövlətləri səviyyəsində İslam ölkələrində elm və texnikanın inkişafını nəzərdə tutan əsas istiqamətləri müəyyən etməkdir. Komitənin birinci və ikinci iclasları 1983-cü ilin may və dekabr aylarında İslamabadda (Pakistan) keçirilib. Burada müsəlman ölkələrində elmin və texnologiyanan dünya standartları səviyyəsinə uyğun inkişafını nəzərdə tutan "İslamabad bəyannaməsi" adlı bir sənəd qəbul edilib. Bu komitənin iclaslarının İslamabadda çağırılması heç də təsadüfi hal deyildir, çünki Pakistan hələlik yeganə müsəlman ölkəsidir ki, nüvə silahına və onu hazırlayan texnologiyaya malikdir.

**5. İqtisadiyyat və ticarət məsələləri üzrə daimi komitə.** Bu Komitə zirvə toplantısının 1981-ci ildə çağırılmış üçüncü iclasında yaradılmışdır. Əsas vəzifələri aşağıdakılardan ibarətdir:

- Üzv dövlətlər arasında iqtisadi əlaqələr və ticarətə dair qəbul edilmiş qərar və qətnamələrin icrasına nəzarət etmək.



- Müsəlman dövlətləri arasında iqtisadi və ticarət əlaqələrinin inkişaf etdirilməsi yollarını araşdırmaq və bu məsələ ilə bağlı təşəbbüslə çıxış etmək.

Dövlət başçılarının Kasablankada çağırılmış 4-cü iclasında bu komitəyə sədrlik etmək Türkiyənin prezidentinə həvalə edilmişdir. Komitənin iclaslarına Türkiyə Respublikasının prezidenti sədrlik edir. İslam ölkələri arasında əlaqələrin inkişafında, heç şübhəsiz, bu komitə çox iş görə bilər. Beynəlxalq praktika göstərir ki, iqtisadi əlaqələrin vüsəti çox zaman siyasi münasibətlərin inkişafı üçün əlverişli zəmin yaradır.

**6. İnformasiya və mədəniyyət üzrə daimi komitə.** Komitə zirvə konfransının 1981-ci ildə çağırılmış üçüncü iclasında təsis edilmişdir. Komitənin əsas vəzifələri:

- Müsəlman ölkələrinin müxtəlif elmi, tədris, dini və mədəniyyət mərkəzləri arasında əlaqələr yaratmaq;
- İslam dünyasının mədəniyyət məsələlərinə dair ümumi strategiyasını hazırlamaq, bu layihənin yerinə yetirilməsilə bağlı elmi proqram tərtib edərək müzakirə və təsdiq üçün üzv dövlətlərin nəzərinə çatdırmaq;
- Müsəlman ölkələrində İslam mənəviyyatı və irsinin qorunması yolunda baş qaldıran problemlərin həllinə yardım etməkdir.

Komitənin nəzərdə tutulmuş vəzifələri və fəaliyyəti İslam mənəviyyatının qorunması və müsəlmanların təhlükəsizliyinin mühafizəsilə bağlı olduğundan olduqca əhəmiyyətlidir. Çünki İslama düşmən qüvvələr onu parçalamaq və beynəlxalq aləmdə müsəlman dövlətlərinin mövqeyini zəiflətmək üçün hər şeydən əvvəl mənəvi təxribata əl atırlar.

Yuxarıda qeyd edilmiş əsas komitələrdən başqa təşkilatın yardımçı qurumlar şəbəkəsi də mövcuddur. Bu qurumlar Baş Katibliyin nəzarəti altında işləyir və onların fəaliyyət göstərmələri Baş Katibin maliyyə yardımından asılıdır. Bu qurumlar zirvə toplantıları və ya xarici işlər nazirlərinin müşavirələri zamanı ehtiyac olduğu təqdirdə yaradılırlar. Yardımçı qurumların əsas işi müsəlman dövlətləri arasında siyasi, iqtisadi, mədəni, texniki və s. sahələrdə əlaqələrin

inkişafına yardım etmək, bu əlaqələrin genişləndirilməsilə bağlı təklif və tövsiyələr hazırlayıb Baş Katibliyə təqdim etməkdir. Yardımçı qurumlar öz işini təşkilatın Nizamnaməsi əsasında qurur, İKT-nin məqsəd və məramlarına xidmət edirlər. Bu orqanların büdcəsi qeyd edildiyi kimi Baş Katiblik tərəfindən təmin olunduğundan, onların işinə nəzarət və istiqamət də Katiblik tərəfindən həyata keçirilir. Əsas yardımçı qurumlar aşağıdakılardan ibarətdir:

**Ekspertlərdən ibarət qurumlar.** Bu qurumlarda çalışan işçilər müxtəlif ixtisas sahibi olub öz vəzifə borclarını yüksək səviyyədə icra edən peşəkarlardır. Bu qurumlar müxtəlif məsələlərlə bağlı tövsiyə, rəy və təkliflərini Baş Katibliyə təqdim edirlər.

**İslam Elm, Texnologiya və İnkişaf Mərkəzi.** Bu mərkəz xarici işlər nazirlərinin 6-cı konfransının qərarı ilə yaradılıb. Əsas vəzifələri aşağıdakılardan ibarətdir:

- Bəzi müsəlman ölkələri arasında mövcud ixtilafları həll etmək məqsədilə bu ixtilafların kökünün obyektiv açılmasına kömək etmək, problemlə bağlı elmi axtarış işlərini təşviq etmək;
- Elm və texnika sahəsində əməkdaşlığı təşviq etməklə müsəlman xalqları arasında əlaqələrin inkişafına yardım etmək;
- Elmi və texniki nailiyyətlərdən istifadə etməklə müsəlman ölkələrinin iqtisadi və ictimai inkişafına xidmət edən layihələrin hazırlanmasına diqqəti artırmaq.

**Tarix və Mədəni İrsin Tədqiqat Mərkəzi.** Bu Mərkəz xarici işlər nazirlərinin 7-ci konfransında yaradılıb. Vəzifəsi aşağıdakı işlərin yerinə yetirilməsindən ibarətdir:

- Müsəlman ziyalıları üçün elmi araşdırmalar aparmaq məqsədilə ayrıca mərkəz yaratmaq. Burada İslam irsilə, mədəniyyətilə bağlı müştərək elmi-tədqiqat işləri aparmaqla, müsəlmanlar arasında etimada və qarşılıqlı anlaşmanın daha da dərinləşdirilməsinə nail olmaq;
- İslam dünyası ilə bağlı əcnəbi tarixçilərin qərəzli araşdırmalarının qarşısını almaq məqsədilə müsəlman ölkələrinin tarixçiləri və ziyalıları arasında səmərəli əməkdaşlığı bərqərar etmək üçün lazımi şərait yaratmaq;
- Tədqiqat və araşdırmaların nəticələrini kitab və broşüra formasında çap etmək;
- Müsəlman ölkələrinin elmi-tədqiqat mərkəzləri arasında əlaqələrin yaradılmasını, əməkdaşlığını və kitab mübadiləsini təşviq etmək;
- Elmi konfranslar, dəyirmi masa və seminarlar keçirmək;
- İslam dininin tarixi və mədəniyyətinə dair əsaslı və dəyərli əsərlər hazırlayıb nəşr etdirmək.

Mərkəzin 10 nəfərdən ibarət Elmi Şurası müsəlman ölkələrinin görkəmli alim və ziyalılarından təşkil olunur və xarici işlər nazirlərinin konfransında üç il müddətinə seçilir. Mərkəzin büdcəsi üzv dövlətlər tərəfindən ödənilmiş üzvlük haqqı, İslam Həmrəylik Bankı və müsəlman ölkələrindən daxil olan ianələr hesabına formalaşır. Mərkəz İstanbulda yerləşir.

**İslam İrsinin Beynəlxalq Mühafizə Mərkəzi.** Mərkəz xarici işlər nazirlərinin 11-ci konfransında yaradılıb. Mərkəzin əsas vəzifələri aşağıdakılardan ibarətdir:

- İslam dünyasının tarixi abidələri, şəhərləri, əlyazmaları və incəsənət abidələrindən təşəkkül tapmış mədəniyyət irsinin qorunmasını nəzərdə tutan konsepsiya hazırlamaq;
- İslam mədəniyyət irsinin mühafizəsi və qorunması məqsədilə bu irsin bütün sahələri üzrə geniş tədqiqat işləri aparmaq və bu sahədə fəaliyyəti genişləndirmək;
- İslam mədəni irsi ilə bağlı əməkdaşlığın və məlumatların genişləndirilməsinə diqqəti artırmaq və bu işlə bağlı fəaliyyəti genişləndirmək;
- İslam mədəni irsinin kataloqunu və məlumat kitabını hazırlayıb çap etdirmək. Müqəddəs Qüdsün, islam mədəni irsinin qorunmasına və öyrənilməsinə diqqəti artırmaq.

Mərkəzin islam mədəni irsi üzrə Komissiyası 18 nəfərdən ibarətdir. Komissiyaya İslam dünyasının tanınmış elm və mədəniyyət xadimləri seçilirlər.

**Ticarətin İnkişafı üzrə İslam Mərkəzi.** Zirvə toplantısının 1981-ci ilin yanvarında keçirilmiş 3-cü iclasında bu mərkəzin yaradılması barədə qərar qəbul edilmişdir. Mərkəzin əsas vəzifəsi aşağıdakı kimi təsdiq edilib:

- Üzv dövlətlər arasında əmtəə mübadiləsini və ticarət əlaqələrini daim genişləndirmək;
- İslam ölkələri arasında qarşılıqlı faydalanma prinsipi əsasında əmtəə mübadiləsini təşviq etmək;
- Ticarətin inkişafı məqsədilə statistik məlumatları toplamaq və təhlil etmək;
- Üzv dövlətlərin xarici ticarət siyasətini əlaqələndirmək;
- Ticarət mübadiləsini genişləndirmək məqsədilə kapital qoyuluşunu təşviq etmək.

Bu sadaladığımız mərkəzlərdən əlavə, İKT-nin üzv dövlətləri arasında iqtisadi və mədəni əlaqələri nizamlayan «İslam ticarət-sənaye palatası», «İslam inkişaf fondu», «İslam paytaxtları təşkilatı», «İslam Ədalət Məhkəməsi», «İslam Xəbərlər Agentliyi», «İslam ölkələrinin radioyayım və televiziya xidməti təşkilatı» da fəaliyyət göstərir.

**İslam İnkişaf Bankı.** Beynəlxalq maliyyə qurumu kimi fəaliyyət göstərən bu Bank, 1973-cü ilin dekabrında islam ölkələrinin maliyyə nazirlərinin iştirakı ilə Ciddə şəhərində keçirilmiş müşavirənin qərarı ilə yaradılıb. 1975-ci ildən fəaliyyətə başlayıb. Bu Banka üzv olmağın əsas şərti müraciət etmək istəyən dövlətin İslam Konfransı Təşkilatının üzvü olmasıdır. Müəssisənin İcra Şurasının qərarı ilə Banka sərmayə qoymaq olar. Bankı 11 nəfərdən ibarət Müdirlər Şurası idarə edir. Əsasnaməyə görə 11 nəfərdən 5-i daimi, 6 nəfəri isə müəyyən müddətə seçilir. Coğrafi bölgüyə görə 2 nəfər Asiyadan, 2 nəfər Afrikadan və 2 nəfər isə ərəb ölkələri qrupundan seçilirlər. Bankın İcra Şurasının 5 daimi üzvü bu müəssisənin idarə olunmasında, kredit verilməsi, maliyyə yardımı və s. kimi məsələlərin həllində əsas rol oynayırlar. Adətən Bankdan yardım istəyənlər Asiya və Afrika ölkələridir. Aşağıdakı cədvəldə İslam İnkişaf Bankının fəaliyyətində iştirak edən



dövlətlərin 70-ci illərin sonlarında kapital qoyuluşunun miqdarı verilmişdir.

*Cədvəl 1 1*

70-ci illərin sonlarında İslam İnkişaf Bankının fəaliyyətində iştirak edən dövlətlərin kapital qoyuluşu (Cədvəl İslam dinarı* ilə hesablanıb)

| № | Ölkələrin adları | Kapital qoyuluşunun miqdarı | Ümumi məbləğə görə faizlər |
|---|---|---|---|
| 1 | Səudiyyə Ərəbistanı | 506,3 | 25,8 |
| 2 | Liviya | 315,3 | 16,1 |
| 3 | Küveyt | 252,2 | 12,8 |
| 4 | Birləşmiş Ərəb Əmirlikləri | 194,6 | 9,4 |
| 5 | Türkiyə | 160 | 8,1 |
| 6 | Malayziya | 20 | 0,2 |
| 7 | Pakistan | 63,1 | 3,33 |
| 8 | İordaniya | 10,1 | 0,52 |
| 9 | Tunis | 5 | 0,25 |
| 10 | Qabon | 7,5 | 1,38 |
| 11 | Əlcəzair | 63,1 | 3,22 |

Cədvəldən göründüyü kimi bankda ərəb ölkələri qrupuna məxsus kapitalın miqdarı daha çox olduğuna görə, əsasən bu qrup tərəfindən də idarə olunur. Bankın mənzil qərargahı Ciddə şəhərində yerləşir. Bir sıra müsəlman ölkələrində bankın şöbələri və nümayəndəlikləri yaradılmışdır. Bankın pul vahidi irəlidə qeyd edildiyi kimi islam dinarıdır. Rəsmi dili - ərəb dilidir, ingilis və fransız dilləri isə işçi dillər kimi qəbul olunub. Bankda kapital qoyuluşunun həcminə görə Səudiyyə Ərəbistanı birinci yerdədir. Bütün hallarda bu ölkə Bankın fəaliyyətinə istiqamət verən əsas donordur. İslam İnkişaf Bankının bayrağı altında Qərbdəki «Böyük səkkizlər»ə alternativ olaraq «Böyük İslam səkkizliyi»nin gerçəkləşdirilməsi yolunda da addımlar atılır. 1997-ci ildə əsası qoyulmuş bu birliyə ən iri

* Hər İslam dinarı 1,3 ABŞ dollarına bərabərdir.

müsəlman ölkələri: Türkiyə, Malayziya, Misir, Pakistan, İndoneziya, Banqladeş, Nigeriya və İran daxildir. Bu 8 ölkə son 4 ildə (2004-2008) daxili əmtəə mübadiləsini ikiqat artırmış və 14,5 mlrd. dollardan 21,5 mlrd. dollara çatdırmışlar. (143)

Yuxarıda göstərilmiş qurum və müəssisələrdən başqa İKT nəzdində aşağıdakı mütəxəssis qurumları da fəaliyyət göstərir:

- Beynəlxalq islam xəbərlər agentliyi;
- İslam ölkələri radio və televiziya verilişləri təşkilatı;
- İslam elm, tədris və mədəniyyət təşkilatı;
- Beynəlxalq İslam Qızıl Aypara Komitəsi.

İKT-nin xarici işlər nazirlərinin konfranslarının qərarına əsasən aşağıdakı xüsusi qurumları yaradılmışdır:

- İslam Armatur Birliyi;
- İslam Sement Birliyi;
- İslam Ticarət, Sənaye və Mal Mübadiləsi Palatası;
- İslam Paytaxtlar Birliyi;
- İslam İdman Yarışları Federasiyası;
- Beynəlxalq Ərəb-İslam Məktəbləri Birliyi;
- Beynəlxalq İslam Bankları Birliyi (142, s.25-29; 11, s.24-25).

Göründüyü kimi İslam Konfransı Təşkilatının quruluşu əhatəli və çoxşaxəlidir. Burada İslam ölkələrinin ictimai-siyasi həyatının bütün sahələri əhatə olunub, elə bir məsələ yoxdur ki, diqqətdən kənarda qalmış olsun. Əsas vəzifə – müsəlman ölkələri arasında həmrəyliyin dərinləşdirilməsi, əməkdaşlığı genişləndirməklə islam dünyasının problemlərini nizama salmaq və həmçinin qlobal məsələlərin həllində müsəlman dövlətlərinin vahid cəbhədən çıxışını təmin etməkdir. Beynəlxalq münasibətlərin hazırkı inkişaf mərhələsində müsəlman dövlətlərinin birliyinin təşəkkülü və formalaşması zəruridir və bu iş olduqca aktual məsələdir. Bu məqsədlə yaradılan İKT qarşısındakı vəzifələrin əhəmiyyətinə görə, islam tarixində ən mühüm hadisələrdən biri kimi dəyərləndirilməlidir. Müsəlman dövlətlərini öz ətrafında birləşdirən belə bir qurumun həyata vəsiqə alması, tarixi zərurətdən doğan bir hadisə kimi təzahür



etmişdir. Bu təşkilatın yaradılması beynəlxalq münasibətlərdə İslam amilinin getdikcə fəal rol oynamaq istəyinə dəlalət edir.

## 1.3. İKT-nin müasir beynəlxalq təşkilatlar sistemində yeri.

İKT-nin fəaliyyətində mühüm istiqamətlərdən biri beynəlxalq təşkilatlarla əlaqələr qurmaq və inkişaf etdirilməklə müasir dünya siyasətinin aktual problemlərinin həllində fəal iştirak etməkdir. Çünki bu təşkilatlar beynəlxalq münasibətlər sisteminin əsas ünsürləri kateqoriyasına daxil olmasalar da, istər qlobal və istərsə də regional problemlərin nizama salınması və həllinə birbaşa və ya dolayısı yolla təsir göstərə bilirlər. Buna görə də bu qurumların beynəlxalq münasibətlər sistemində müəyyən çəkiyə malik olmalarını nəzərə alan İKT, onlarla əlaqələrin qurulmasına və bu əlaqələrin inkişafına xüsusi əhəmiyyət verir. Hüquqi şəxs kimi beynəlxalq münasibətlərin inkişafında nisbətən müstəqil fəaliyyət göstərən bu təşkilatlar, həm də beynəlxalq hüququn subyekti hesab olunurlar. Beynəlxalq təşkilatlar haqqında fikir və mülahizələri aşağıdakı kimi xülasə etmək olar:

- bu təşkilatların fəaliyyəti zaman baxımından qeyri-məhduddur;
- müstəqil qərar qəbul etmək hüququna malik olduqlarından öz fəaliyyətlərində nisbətən sərbəstdirlər;
- bu təşkilatların hüquq və vəzifələri qəbul etdikləri Nizamnamədə təsbit olunur;
- beynəlxalq qanunlara tabe olmaq və onlara əməl etmək baxımından onlar, müəyyən təcrübəyə malikdirlər.

İslam Konfransı Təşkilatı da göstərilən bütün bu keyfiyyətlərə malikdir və beynəlxalq hüququn subyekti kimi fəaliyyət göstərir. Digər beynəlxalq təşkilatlardan İKT-nin əsas fərqi ondan ibarətdir ki, bu təşkilat dini əsasda yaranaraq İslam dünyasının problemlərilə məşğul olan yeganə beynəlxalq qurumdur. Digər fərqli cəhəti bundan ibarətdir ki, İKT-nin strukturunda hökumət (dövlət) başçıları, xarici işlər nazirləri

iştirak edir və onların konfransları Nizamnamədə qurumun ali orqanı kimi təsbit edilmişdir. Birləşmiş Millətlər Təşkilatı kimi İKT-nin də fəaliyyəti zaman baxımından müəyyən çərçivə ilə məhdudlaşmır. BMT-nin və İKT-nin Nizamnaməsində fəaliyyətlərinə xitam vermək müddəti göstərilmədiyindən, bu təşkilatların hər ikisinin yaşaması zaman baxımından məhdud deyildir. İKT da dövlət başçıları tərəfindən yaradılmasına baxmayaraq, müstəqil fəaliyyət göstərmək hüququna malik olub, daşınan və daşınmaz əmlak sahibidir.

İslam Konfransı Təşkilatını yaradan müsəlman dövlətləri eyni zamanda BMT-nin üzvü olduqlarından bu təşkilat Nizamnaməsindən irəli gələn vəzifələrə sözsüz və ciddi riayət etməli, sənədlə ziddiyyət təşkil edən hər hansı əməllərə yol verməməlidir. Buna görə də İKT-nin fəaliyyəti öz Nizamnaməsindən əlavə həm də BMT-nin Nizamnaməsinə uyğun qurulmalıdır. Məqsəd və vəzifələrinə görə hər iki təşkilatın əsas qayəsi, beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq, dövlətlərarası münasibətlərdə ədalətli prinsiplərə söykənən əməkdaşlığın bərqərar olmasına hərtərəfli kömək etmək, ölkələrin ərazi bütövlüyünə və dövlətlərin suverenliyinə hörmət etmək, münaqişəli məsələləri güc tətbiq etmədən, diplomatik vasitələrlə nizama salmaqdan ibarətdir.

Beynəlxalq münasibətlər sistemində xüsusi çəkisi olan bu iki təşkilat arasında qurulan səmərəli əməkdaşlıq regional və qlobal problemlərin həllində faydalı ola bilər. Deyilənləri nəzərə alan İKT beynəlxalq və regional təşkilatlarla, xüsusilə BMT ilə əməkdaşlığa böyük əhəmiyyət verir. Beynəlxalq təşkilatlarla əlaqələrin yaradılması həm də İKT-nin beynəlxalq səhnəyə çıxmasına kömək edir və bu da təşkilatın beynəlxalq səviyyədə dünya birliyində də tanınmasına xidmət edir. Buna görə də BMT ilə əlaqələrin yaradılması təsadüfi olmayıb, zərurətdən doğan bir haldır. İKT tərəfindən atılan bu addım BMT Nizamnaməsinin 102-ci maddəsinin 1-ci bəndində öz ifadəsini tapmışdır. Orada qeyd edilir ki, BMT-nin üzvü olan dövlətlər ikitərəfli və çoxtərəfli müqavilələr imzalamaq hüququna malikdirlər və bağlanmış bu sənədlər BMT Katibliyində qeydiyyatdan keçməlidir. Buna görə də İKT-nin Nizamnaməsi 1974-cü ilin fevralın 1-də BMT Katibliyində qeydə alınmışdır. Bu tarixdən də iki təşkilat arasında rəsmi əlaqə yaranmışdır. Əlavə edək ki, BMT ilə əlaqələrin bərqərarı İKT-nin beynəlxalq həyatda nüfuzlu bir təşkilata çevrilməsində müəyyən rol oynamışdır.



Qeyd edildiyi kimi, İslam Konfransı Təşkilatı müsəlman ölkələrilə bağlı regional problemlərin həllinə yardım məqsədilə BMT ilə əməkdaşlığa ciddi əhəmiyyət verir. Belə bir əməkdaşlığa hüquqi zəmin yaratmaq üçün xarici işlər nazirlərinin 16-cı konfransında İslam Konfransı Təşkilatı ilə beynəlxalq və regional təşkilatlar arasında əməkdaşlığa dair R/16/31 saylı Qətnamə qəbul edilmişdir. Bu sənədin preambulasında İKT-nin BMT-nin müxtəlif orqanları ilə əməkdaşlığının əhəmiyyəti və bunun beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında rolu qeyd olunaraq, tərkisilaha nail olmaq və müstəmləkəçiliyin tamamilə ləğvi, insan hüquqlarına hörmət, ədalətli beynəlxalq iqtisadi əlaqələrin yaradılması və s. bu kimi mühüm beynəlxalq problemlərin həllində iki təşkilatın əməkdaşlığı zəruri sayılır. Qeyd edilmiş qətnamənin əsas müddəalarını aşağıdakı kimi xülasə etmək olar:

- Xarici işlər nazirlərinin Konfransı İKT-nin Baş Katibinin BMT ilə əməkdaşlığa dair həyata keçirdiyi tədbirləri razılıqla qarşılayır;
- Üzv dövlətlər, inkişaf etməkdə olan ölkələrin problem və çətinliklərini həll etmək məqsədilə iki təşkilat arasında yaradılmış əməkdaşlığa tərəfdar olduqlarını bəyan edirlər;
- Üzv dövlətlər iki təşkilat arasında əməkdaşlıq barədə 15 iyul 1975-ci il tarixli Cenevrə Qətnaməsinin icrasını nəzərdə tutan müqavilənin həyata keçirilməsini zəruri sayırlar;
- Üzv dövlətlər Baş Katibə tövsiyə edirlər ki, iki təşkilat arasında ictimai-siyasi, iqtisadi və mədəni sahələrdə əlaqələrin genişləndirilməsinə diqqəti artırsın;
- Üzv dövlətlər BMT ilə İKT-nin müştərək müşavirəsinin keçirilməsini zəruri sayır və bu tədbirin harada və nə zaman keçirilməsinin tezliklə dəqiqləşdirilməsini məsləhət görür.

Xarici işlər nazirlərinin toplantısında qəbul edilmiş bu qətnamənin tələblərinə uyğun olaraq, 1983-cü ilin iyulun 15-də İKT ilə BMT arasında əməkdaşlığa dair müqavilə imzalanmışdır.

1985-ci ilin iyulun 30-31-də aparılmış danışıqlar zamanı əldə edilmiş razılaşmaya əsasən İKT-nin Katibliyi və BMT-nin əsas orqanları arasında əməkdaşlığın beş əsas istiqamətləri müəyyən edildi. Bu razılaşma hər iki təşkilat arasında beynəlxalq münasibətlərin bir çox sahələrində əməkdaşlıq üçün imkan yaratdı. Bu əlaqələr hər iki təşkilatın xeyrinə idi. İKT çalışırdı ki, BMT-nin imkanlarından və nüfuzundan müsəlman dövlətlərinin xarici siyasət problemlərinin həllində istifadə etsin. BMT-nin rəhbərliyi isə öz növbəsində yaxşı dərk edirdi ki, İKT ilə əməkdaşlıq etmədən Asiya və Afrikanın bir çox problemlərinin həlli əslində qeyri-mümkündür. Buna görə də bu əməkdaşlıq və əlaqələrin bərqərar olması hər iki təşkilatın maraqlarına cavab verirdi.

Məlum olduğu kimi Birləşmiş Millətlər Təşkilatının əsas vəzifəsi beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasıdır. Bu vəzifənin Asiya və Afrika ölkələrində yerinə yetirilməsi İslam Konfransı Təşkilatının yaxından iştirakı olmadan ciddi çətinliklərlə rastlaşa bilər. Qeyd edilmiş regionlarda İslam dünyasına daxil olan ölkələrin nüfuzu güclü, iqtisadi və siyasi imkanları genişdir. Bu fakt BMT-nin diqqətindən yayınmır və İKT ilə əlaqələr yaratmaqda əsas məqsədlərdən biri bu təşkilatın müsəlman dövlətlərinə təsir mexanizmindən istifadə etməkdir Yuxarıda qeyd edildiyi kimi, İKT də öz növbəsində BMT kimi universal və nüfuzlu bir qurumla əməkdaşlıq etməklə beynəlxalq səviyyədə öz nüfuzunu artırmaqla yanaşı, Nizamnaməsində təsbit edilmiş problemlərin həllində bu təşkilatın imkanlarından istifadə etməyə can atır.

İKT-yə üzv olan ölkələrin mənafeyini BMT xətti ilə də müdafiə etmək üçün bu əlaqələr zəruridir. Müsəlman ölkələrinin əksəriyyəti inkişaf etməkdə olan ölkələr cərgəsinə daxil olduqlarından, onların mənafelərinin BMT xəttilə qorunması bu təşkilatla əməkdaşlıqda güdülən əsas məqsədlərdən biridir.



Dünyanın 120 ölkəsində icma və səpələnmiş halda yaşayan müsəlmanlar bəzi ölkələrdə müxtəlif təzyiqlərə və irqi ayrıseçkiliyə məruz qalırlar. BMT-nin müxtəlif kanal və təsir vasitələrindən istifadə edən İslam Konfransı Təşkilatı, müsəlman ümmətinin şərəf və ləyaqətinin, onların hüquqlarının qorunmasına bu universal təşkilat xəttilə də səy göstərir.

İslam Konfransı Təşkilatı həm də BMT-nin yardımçı qurumları ilə yaxından əməkdaşlıq edir, Nizamnamədə nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsində onların imkanlarından istifadə etməyə çalışır. Bu baxımdan UNESCO ilə daha səmərəli əlaqələr yaradılmışdır. Bu istiqamətdə ilk addım Mərakeşin Fes şəhərində xarici işlər nazirlərinin 16-cı konfransında atıldı. Burada "UNESCO-ya himayədarlıq etmək tədbirləri haqqında"* adlı qətnamə qəbul edildi. Bu sənədin preambulasında İslam mədəni irsinin mühafizəsində UNESCO-nun xidmətləri sadalanaraq qeyd edilirdi ki, Müqəddəs Qüdsün qorunmasında BMT-nin bu qurumunun müstəsna xidmətləri olmuşdur. Qətnamədə daha sonra göstərilirdi ki, İKT UNESCO-nu və xüsusilə onun humanist işlər sahəsində fəaliyyətini bəyənir və BMT-yə üzv olan bütün dövlətlərdən xahiş edir ki, bu qurumun daha fəal və səmərəli fəaliyyət göstərməsi üçün onunla yaxından əməkdaşlıq etsinlər.

Müasir beynəlxalq münasibətlərin mühüm problemlərindən biri müxtəlif sivilizasiyalara məxsus maddi-mədəniyyət abidələrinin qorunmasıdır. Bu problem müharibə və münaqişə bölgələrində daha qabarıq bir formada özünü göstərir. Belə hadisələr İslam dəyərləri və mədəni irsindən də yan keçməmişdir. Fələstin torpaqlarında müsəlmanlara məxsus müqəddəs abidələr dəfələrlə dağıntı və təhqirlərə məruz qalmışdır. İslam abidələrinə və müqəddəs məkanlarına belə düşmən və həqarətli münasibətə Dağlıq Qarabağda və Qərbi Azərbaycan torpaqlarında, Bosniya və Hersoqovinada, Kəşmirdə, Filippində və s. yerlərdə də rast gəlirik. Bunların mühafizəsi İslam Konfransı

* Bu qətnamə UNESCO-nun maliyyələşdirilməsilə bağlı yaranmış çətinliklərlə əlaqədar qəbul edilmişdi.

Təşkilatının əsas vəzifələrindən biri kimi Nizamnamədə qeyd olunmuşdur. Lakin bu təşkilat beynəlxalq bir qurum kimi suveren dövlətlərə qarşı hər hansı sanksiya tətbiq etmək hüququna malik olmadığından, belə məsələlərin həllində BMT-nin imkan və səlahiyyətlərindən istifadə edir. Bu məqsədlə də UNESCO-nun nümayəndəsi İslam Konfransı Təşkilatının ali orqanlarının toplantılarına dəvət olunur və bu yığıncaqlarında iştirak edir. İKT-nin nümayəndəsi də BMT Baş Məclisinin illik sessiyalarında müşahidəçi sifətilə iştirak edir (91, c. 1, s.680).

BMT ilə əməkdaşlıq və əlaqələrin faydalı cəhətlərindən biri də ondan ibarətdir ki, beynəlxalq problemlərin müzakirə və həll olunma yollarının axtarılıb tapılmasında zəngin təcrübə toplamış bu təşkilatın iş üslubundan və idarəetmə metodlarından İKT səmərəli istifadə edir.

Qeyd edildiyi kimi, 1975-ci ildən İKT Birləşmiş Millətlər Təşkilatında daimi müşahidəçi qismində təmsil olunub. Lakin son illərdə BMT-nin özü də ciddi problemlərlə rastlaşmışdır, bu universal təşkilatın fəaliyyətində müəyyən passivlik özünü göstərir. Bunu nəzərə alan İKT BMT ilə bağlı yeni təkliflə çıxış etmişdir. Belə ki, 1997-ci ildə Tehranda dövlət başçılarının 8-ci Konfransında İran prezidenti Hatəmi İslam Konfransı Təşkilatının BMT Təhlükəsizlik Şurasının daimi üzvlüyünə qəbul olunması barədə təklif irəli sürdü. Bu təşəbbüs BMT Təhlükəsizlik Şurasının işində yenilik yaratmaqla, onun fəaliyyətini canlandırmaq məqsədi güdürdü, amma digər dövlətlər tərəfindən laqeyd qarşılandı.

Ümumiyyətlə, İslam Konfransı Təşkilatı ilə regional beynəlxalq təşkilatlar arasında əlaqələr iki yolla həyata keçirilir:

Birinci yol müxtəlif məsələlərə dair protokol və müqavilələrin imzalanmasıdır, ikinci yol isə regional və beynəlxalq təşkilatların tədbirlərində iştirak etmək üçün nümayəndə heyətlərinin ezam olunmasıdır. İmzalanmış sənədlər bu qurumlarla əlaqə və əməkdaşlıq üçün hüquqi zəmin yaradır. Ezam edilmiş nümayəndə heyətləri isə əsasən tədbir keçirən təşkilatla əlaqələr yaradır, müzakirə və fikir mübadiləsi aparmaqla İKT ilə həmin qurum arasında münasibətlərin hansı istiqamətdə və sahələrdə aparılmasını konkretləşdirir. Hər halda bu kanalların hər ikisindən geniş istifadə olunduğundan, regional və beynəlxalq qurumlarla əlaqələr səmərəli olub, öz bəhrəsini verir. Belə təşkilatlar sırasında Ərəb Ölkələri Liqası və Afrika Birliyi təşkilatı ilə əlaqələr daha genişdir. Hər iki təşkilatın nümayəndələri İKT-nin xarici işlər nazirlərinin konfranslarında müşahidəçi qismində iştirak edirlər (91, c. 1, s.680).



İslam Konfransı Təşkilatı ilə bir sıra regional və beynəlxalq təşkilatlar arasında əlaqələrin yaranmasına və inkişafına təsir edən amillərdən biri də, bu qurumlara üzv olan ölkələrin əhalisilə İKT-yə daxil olan ölkələrdə yaşayan əhali arasında mənəvi birlik və yaxınlıqdır. Ərəb Ölkələri Liqası ilə İslam Konfransı Təşkilatına üzv olan ölkələri birləşdirən din amili, tale oxşarlığı, bu qurumların üzvü olan ölkələrin üçüncü dünya ölkələri zümrəsinə daxil olmaları, bu əlaqələrin inkişafı üçün əsaslı zəmin yaradır. Məsələn, Ərəb ölkələri birliyinə daxil olan 21 ərəb dövləti, İslam Konfransı Təşkilatında nüfuzlu Ərəb qrupunu təşkil edir (138, s.327). Bu Təşkilatın yaradılmasında, idarə olunmasında və maliyyələşdirilməsində neft ixrac edən ərəb dövlətləri aparıcı və fəal rol oynamış və hazırda da oynayırlar. İKT ilə Ərəb Ölkələri Liqası arasında münasibətlərin formalaşması və inkişafında hər iki təşkilatda ərəb dövlətləri aparıcı rol oynayırlar. Qeyd etmək lazımdır ki, Ərəb Ölkələri Liqasının yaradılmasında və ərəb dövlətlərinin vahid bir təşkilatda bir araya gəlməsində panərəbizm amili əsas rol oynamışdır. Ərəb Ölkələri Liqasının yaradılması İkinci Dünya müharibəsindən sonra Ərəb dünyasında tədricən özünə yol açan və təşəkkül dövrünü keçirən milli oyanış prosesinin məhsulu olsa da, bir sıra xarici dövlətlər də bu qurumdan öz maraqları naminə istifadə etmək istəmişlər. İrəlidə göstərildiyi kimi, bu birliyin yaradılmasına rəvac verən ingilis diplomatiyasının əsas məqsədi, heç də ərəbləri yeni müstəmləkəçilik ekspansiyasından qorumaq və ya onlar arasında birlik yaratmaq niyyəti olmamışdır. İngilislərin bu məsələdə əsas və başlıca hədəfi bir tərəfdən "ümməti" "millətlə" əvəz etməklə dünya

müsəlmanları arasında parçalanmanı dərinləşdirmək, digər tərəfdən də Yaxın Şərqə doğru irəliləyən Sovet İttifaqı qarşısında ərəb birliyi vasitəsilə sədd yaratmaq olmuşdur. Bütün bunlara baxmayaraq, İKT ilə Ərəb Ölkələri Liqası arasında əlaqələr hər iki təşkilatın bir-birilə məsləhətləşmələri və keçirilən toplantılarda təmsil olunması formasında davam edir.

Beləliklə, İKT öz siyasi və praktik fəaliyyətində islam dünyası problemlərinin həllinə təsir göstərmək imkanına malik və İKT-nin məqsəd və vəzifələrinə, məqam və arzularını bölüşdürən hər bir beynəlxalq və regional təşkilat və birliklərlə əlaqə yaratmağa səy göstərmiş və onların mövqelərindən bəhrələnməyə çalışmışdır.



# II FƏSİL

# İKT VƏ ƏRƏB DÜNYASI

## 2.1. İslam Konfransı Təşkilatı və islam ziyarətgahlarının qorunması məsələləri.

Tədqiq etdiyimiz dövrdə İKT-nin müqəddəs vəzifələrindən biri, əslində isə çox vacibi islam ziyarətgahlarının qorunması və saxlanılması problemi idi. Tarixdən məlumdur ki, dünyada islamın müqəddəs yerləri çox böyük imkanlara malik olmuş və müsəlmanların həyatında mühüm tərbiyəvi rol oynamışlar, indi də oynayırlar. Müsəlmanlar tərəfindən müqəddəs məkan kimi tanınan və ziyarətgah sayılan yerlər xüsusi statusa və toxunulmazlıq hüququna malikdirlər. Müqəddəs məkanlara belə bir statusun verilməsi milyonlarla müsəlmana hörmətin, onların əqidəsinə ehtiramla yanaşmağın təzahürüdür. İslamı başqa dinlərdən fərqləndirən cəhətlərdən biri də budur ki, bu din insanlar arasında nifaqı yox, qarşılıqlı anlaşmanı və dözümü təbliğ edir və müqəddəs sayılan yerlərə hər hansı hörmətsizliyi qətiyyətlə rədd edir. Müqəddəs yerlərə ehtirama başqa dinlərdə də rast gəlirik. Xristian ölkələrində kilsə ən uca yerdə inşa edilir. Xristian əqidəsinə görə kilsədən hündürdə duran başqa bina olmamalıdır.

İslam dininin yaranması ilə məscidlər də inşa edilmiş və müsəlmanların hər gün toplandığı yer kimi dini ayinlərin icrası məkanına çevrilmişdir. "Allahın evi" kimi tanınan məscidlər müqəddəs və pak bir məkan hesab edilir, dindarların yanında xüsusi hörmətə malikdir. Məsələn, Səudiyyə Ərəbistanında Məkkə və Mədinənin ətrafında 60 kilometr radius boyu əraziyə qeyri-müsəlmanların daxil olmaları qadağandır. Əfqanıstanda müsəlman olmayanların məscidə daxil olmasına icazə verilmir. İranda məscidlərdən sığınacaq kimi istifadə etmək 1925-ci ildə Pəhləvilər sülaləsi hakimiyyəti ələ alana qədər geniş yayılmışdı. Siyasi motivlərə görə təqib olunan insanlar Allahın evi kimi tanınan bu məscidlərə pənah aparırdılar.

Burada bəzən aylarla "bəstdə" əyləşərək sığınacaq əldə edirdilər. Məscidlərdə insanların həbs edilməsi Allaha və dinə hörmətsizlik kimi qiymətləndirilir və bu əməl küfr sayılırdı. Məscidlərin bu hüququndan istifadə edən ruhanilər burada yeri düşəndə antişah söhbətlər də aparırdılar. 1978/79-cu il İran İslam inqilabının hazırlıq mərhələsi məhz məscidlərdə həyata keçirilmişdir.

Hazırda İslam dünyasının ən müqəddəs məkanları və milyonlarla müsəlmanın ziyarətgahları Məkkə, Mədinə və Qüds şəhərlərindədir. Şiələr də bu yerləri müqəddəs yer kimi qəbul edir və eyni zamanda 12 imamla bağlı Kərbəlanı, Nəcəfi (İraq), Məşhədi və Qumu (İran) müqəddəs məkanların yerləşdiyi yer sayırlar. İslam dünyasının ən hörmətli və müqəddəs yerlərindən biri də Qüds şəhəri və burada peyğəmbərin adı ilə bağlı inşa edilmiş əl-Əqsa məscididir. Qüdsi Şərifin dünyanın yeganə müqəddəs dini məkan sayılmasını səciyyələndirən cəhətlərdən biri də bu şəhərdə, irəlidə göstərildiyi kimi dünyanın üç aparıcı dininin – İslamın, Xristianlığın və İudaizmin müqəddəs məkanlarının yerləşməsidir. Məhz buna görə tarix boyu bu şəhər üç dinə sitayiş edən insanların diqqət mərkəzində olmuşdur. Burada məskunlaşan və daimi yaşayan insanlar bir-birlərilə münasibətdə dini dözümlülük göstərir, əlaqələrini qarşılıqlı hörmət və etiqadlarına ehtiram ruhunda qura bilmişlər. Səlib yürüşü illərini və Birinci Dünya müharibəsindən sonrakı dövrü çıxmaq şərtilə qalan vaxtlarda burada yaşayan insanlar arasında münasibətlər irqi və dini ayrıseçkilik əsasında deyil, dözüm və qarşılıqlı anlaşma ruhunda olmuşdur. Məhz buna görə də bu şəhər dünya birliyi və BMT tərəfindən xüsusi statusa malik bir yer kimi qəbul edilmişdir.

Qüds müqəddəs və şərəfli bir şəhər sayılmasına baxmayaraq, tarix boyu əldən ələ keçdiyindən burada olan dini məkan və ziyarətgahlar təxribat və dağıntılara məruz qalmışdır. Lakin bununla belə bu şəhər yenə də müqəddəs məkan statusundan məhrum edilməmiş, dindar insanlar arasında müqəddəs adını qoruyub saxlaya bilmişdir.



Hələ eradan əvvəl Qüds Babil hökmdarı Navuxodonosorun, sonralar İran şahı Kuruşun və Misir padşahı Ptolemeyin və b.-nın hücumuna məruz qaldığından xarabazara çevrilmişdir. Eramızın 70-ci illərində isə bu şəhər Roma imperatorlarının tamah hədəfinə çevrilir. Nəticədə müqəddəs Süleyman məbədi dağıdılır. IV əsrin əvvəllərindən etibarən Qüds Bizans hökmdarlarının diqqətini özünə cəlb edir. İmperator Konstantinin dövründə bura xristianların müqəddəs şəhəri elan edilir və bu dövrdən etibarən Qüdsün dini həyatında xristianlıq elementi aparıcı mövqeyə çıxır.

Qüdsün müsəlmanların müqəddəs şəhərinə çevrilməsi Məhəmməd peyğəmbərin adı ilə bağlıdır. Müsəlmanlar arasında yayılan rəvayətə görə, Məhəmməd peyğəmbər əfsanəvi qanadlı atı Buraqa minib Məkkədən Qüdsə uçmuş, burada İsa və Musa peyğəmbərlərlə görüşüb Allaha birgə dua etmişdir. İslam Peyğəmbəri Qüdsdə namaz qılmış və oradan da merac edərək səmaya uçmuşdur. Məhəmməd peyğəmbərin burada olması və əl-Əqsa məscidində namaz qılması, Qüdsün müsəlmanlar tərəfindən müqəddəsləşdirilməsi üçün əsas vermişdir. Xəlifə Ömər hakimiyyətdə olarkən 638-ci ildə Qüds islam qoşunları tərəfindən azad edilir və burada Xəlifə Ömərin namaz qıldığı yerdə Qübbət əs-Səhra məscidi inşa edilir. Bu dövrdən başlayaraq Qüdsdə tədricən müsəlmanların mövqeyi güclənir, iudaizm və xristianlıq arxa plana keçir. Lakin səlib yürüşləri nəticəsində Qüdsdə vəziyyət dəyişir. 1099-cu ildə bura Avropalı cəngavərlər tərəfindən işğal edilir. Əl-Əqsa məscidi dini ibadət yerindən saraya çevrilir. Yalnız 1187-ci ildə Qüds görkəmli islam sərkərdəsi Səlahəddin Əyyubi tərəfindən azad edilir, əl-Əqsa məscidinə müqəddəslik statusu qaytarılır və Suriyadan gətirilən gülabla müsəlman məscidlərinin içəri və bayır divarları yuyularaq pak olunur. Bu dövrdən etibarən Qüdsdə yenə də müsəlmanlar sayca birinci yerə çıxır və əslində şəhər müsəlmanların müqəddəs şəhəri kimi tanınır. Bu vəziyyət Birinci Dünya müharibəsi qurtarana kimi davam edir.

Fələstində İsrail dövlətinin yaradılması planları ingilislər tərəfindən müdafiə olunandan sonra Qüdsdə də vəziyyət tədri-

cən dəyişilməyə başlayır. Bir sıra Avropa dövlətlərinin himayəsilə Qüdsdə tədricən yəhudi elementi gücləndirilir. Yeri gəlmişkən qeyd edək ki, XIX əsrin ortalarında yəhudilərin Fələstində sayı cəmi 11 minə yaxın idi. O dövrdə Fələstin torpaqları Osmanlı imperiyasının tərkibində idi. Birinci Dünya müharibəsində osmanlıların məğlubiyyətindən sonra Fələstin İngiltərənin mandatlığı elan edilir və bu dövrdən etibarən burada yəhudilərin sayı tədricən çoxalmağa başlayır. Nəticədə 1947-ci ildə Fələstində yəhudilərin sayı artıq 499.020 nəfərə çatır. Yəhudi mənşəli insanların Fələstində sayca çoxalması Qüdsdən də yan keçmir, burada da tədricən yəhudilər sayca çoxalır, ərəblər isə azalır.

Fələstinə ingilis mandatlıq sistemi tətbiq ediləndən sonra yəhudilərlə müsəlmanlar arasında qarşıdurma toxumu cücərməyə başladı. İsrail dövlətinin yaranması ilə bu qarşıdurma düşmənçiliyə çevrildi və yenə də Avropanın bir neçə yəhudipərəst dövlətlərinin razılığı ilə Qüds şəhəri də iki hissəyə bölündü: Qərb hissəsini İsrail işğal etdi, Şərq bölməsində Fələstin Ərəb dövləti yaradılmadığından bura İordaniya tərəfindən zəbt edildi. Qüdsün iki yerə bölünməsi burada yaşayan insanların faciəsi idi və Fələstin Ərəb dövlətinin yaradılmaması Fələstin ərəblərinin hüquqlarının kobudcasına pozulması demək idi. Bu hadisələr Yaxın Şərq münaqişəsinin başlanğıcı oldu. 1967-ci ildə "6 günlük müharibə" nəticəsində Qüds şəhəri İsrail tərəfindən tamamilə işğal edildi. İsrail hakim dairələrinin bu addımı ərəb və bütövlükdə bir çox müsəlman ölkələrində qəzəb və nifrətlə qarşılandı. İsrail hakim dairələrinin əsas məqsədi – müqəddəs Qüdsdən müsəlmanları tədricən sıxışdırıb buranı yəhudiləşdirmək, əlverişli şərait yarandığı təqdirdə, bu şəhəri İsrailin paytaxtı elan etmək idi. Təbii ki, belə bir planın həyata keçirilməsi Yaxın Şərqdə ədalətli sülhün bərqərar olunmasını qeyri-mümkün edirdi. Vəziyyəti daha da gərginləşdirən həm də onda idi ki, İsrail millətçiləri tərəfindən ərəblərə məxsus müqəddəs tikililər dağıdılır, yerlərində sinaqoqlar inşa edilirdi. Belə qəsbetmə kampaniyası 1967-ci il müharibəsindən sonra daha geniş planda aparılmağa başlandı.



Müsəlmanlara məxsus müqəddəs yerlərin viran edilməsi əl-Əqsa məscidindən də yan keçmədi. Qeyd edildiyi kimi, 1969-cu il avqustun 21-də Denis Mikael adlı yəhudi mənşəli bir avstraliyalı əl-Əqsa məscidini yandırdı.(71, s.80) İnsan tələfatı ilə müşayiət olunan bu hadisə zamanı məscidə çoxlu ziyan dəydi, hələ Səlahəddin Əyyubi tərəfindən qiymətli ağac növündən inşa edilən mehrab da yandırıldı. Denis Mikaelin* şəxsiyyəti barədə İsrail hökuməti tərəfindən ətraflı araşdırma aparılmadı və o "ruhi xəstə" adı altında azad edildi. Əslində bu "dəli" İsrail xüsusi orqanlarının sifarişini yerinə yetirmişdi. İslam dünyasının ən müqəddəs məscidlərindən sayılan əl-Əqsanın yandırılmasında əsas məqsəd bir tərəfdən Qüds şəhərinin yəhudiləşdirilməsi üçün şərait yaratmaq, digər tərəfdən də ərəblərlə yəhudilər arasında münasibətləri daima gərgin vəziyyətdə saxlamaq idi. Məscidə od vuran Denis Mikaelin ekstremist yəhudi təşkilatı kimi tanınan "Yəhudilər missiyası" və "əl-Əqsanı qaytarmaq hərəkatı" adlı təşkilatlarla əlaqəsi vardı. Bu qurumlar qarşılarına Qüdsdəki müsəlman müqəddəs məkanlarını dağıdıb yerində sinaqoqlar inşa etmək məqsədi qoymuşdular.

Göründüyü kimi, əl-Əqsa adi bir məscid deyil, islam dünyasının müqəddəs məkanlarından hesab olunduğundan, onun yandırılmasına dünya müsəlmanları tərəfindən kəskin münasibət bildirildi. Bu hadisənin ciddi və mürəkkəb olması bir də onunla izah olunurdu ki, belə təxribatların gələcəkdə təkrar olunmamasına zəmanət vermək qeyri-mümkün idi.

Bu hadisədən sonra İslam dünyasında antiisrail əhval-ruhiyyə son həddə çatdı. Hətta qərbpərəst mövqelərilə tanınan İran şahı Məhəmməd Rza Pəhləvi və Səudiyyə kralı Feysəl Yaxın Şərqdə yeni müharibənin başlanmasının qarşısını almaq və partlayış həddinə çatmış vəziyyəti nisbətən yumşaltmaq məqsədilə əlbir hərəkət etmək barədə razılığa gəldilər (65, cild 1, s.569). Onlar vəziyyətdən çıxış yolunu ictimaiyyətin diqqə-

---

* Bəzi ədəbiyyatda əl-Əqsanın kim tərəfindən yandırılmasının məlum olmadığı barədə fikir söylənilir və bu hadisə terror aktı kimi qiymətləndirilir bax: 37, s.79.

tini İsraildən yayındırmaqda görürdü. Müsəlman ölkələrinin diqqəti əl-Əqsa məscidinə yönəlməli idi. Problemin mürəkkəbliyi bütün müsəlmanların beynəlxalq bir təşkilatda birləşmələrini tələb edirdi. Beləliklə İslam Konfransı Təşkilatı həyata vəsiqə aldı.

İslam dünyasının mühafizəkar rejimləri İKT-yə dini don geyindirib onun fəaliyyət istiqamətini həm də antikommunizm məcrasına yönəltmək məqsədi güdürdülər. Lakin təşkilata sırf dini don geyindirmək cəhdləri, kəskin antiqərb radikal mövqedən çıxış edən bir sıra müsəlman ölkələrinin müqaviməti ilə rastlaşdı. Bu ölkələr bütün dünya müsəlmanlarının vahid cəbhədə birliyindən yeni müstəmləkəçiliyə qarşı birgə mübarizəni təşkil etmək niyyətində idilər. Bu təbii proses idi, çünki yeni müstəmləkəçi dövlətlər tərəfindən daha çox hüquqları tapdanan, milli sərvətləri talan olunan, mənəviyyatı aşınmalara məruz qalan məhz müsəlman xalqları idi. İKT-yə üzv olan dövlətləri təmsil edən bəzi nümayəndələrin fikrincə müsəlmanların birliyi İslam dünyasında təşəkkül tapmaqda olan cəbhənin qüdrəti və gücü demək idi. Bu birliyin yaradılması baxımından belə bir qurumun təsisi, təbii ki, müsəlman ölkələrinin milli qüvvələri tərəfindən mütərəqqi bir hadisə hesab olunurdu. İslam Konfransı Təşkilatının yaradılmasına əl-Əqsanın yandırılması əsas səbəb olduğundan, bu məscidin və bütövlükdə islam dünyasının müqəddəs ziyarətgahlarının mühafizəsi, İKT-nin mühüm vəzifələrindən biri kimi gündəmə çıxarıldı.

Əlavə edək ki, əl-Əqsa məscidinin yandırılmasından ciddi təşviş keçirən ərəb ölkələrinin liderləri bu hadisə ilə bağlı heç də yekdil mövqedən deyil, müxtəlif cinahdan çıxış edirdilər. Məsələn, Misir prezidenti Nasir və İordaniya kralı Hüseyn ərəb ölkələri dövlət başçılarının növbədənkənar konfransını çağırıb bu məsələni yalnız ərəblərin iştirakı ilə müzakirə etməyi irəli sürdülər. Səudiyyə Ərəbistanının kralı Feysəl isə əl-Əqsanın bütün islam dünyasına aidiyyatı olduğuna əsaslanaraq bu məsələnin müzakirəsinin müsəlman ölkələrinin dövlət başçılarının iştirakı ilə keçirilməsini təklif edirdi. Bu problemlə bağlı Nasirlə Feysəlin fikir ayrılığı həm də onların arasında ərəb



ölkələrində liderlik uğrunda gedən mübarizədən irəli gəlirdi. Feysəlin təklifi keçsə də bir sıra müsəlman dövlətləri ümumiyyətlə bu tədbirin baş tutacağına şübhə ilə yanaşırdılar. Məsələn, Türkiyə ilə Nigeriya dünyəvi dövlət olduqlarını dəlil göstərib konfransda ancaq xarici işlər nazirləri səviyyəsində iştirak edəcəklərini bildirdilər. Bu tədbirin keçirilməsi yolunda yeni problemlər də baş qaldırdı. Belə ki, konfransa bir neçə gün qalmış Liviyada dövlət çevrilişi edildi, Səudiyyə Ərəbistanında isə hökumət əleyhinə sui-qəsd aşkar olundu. Bütün bunlara baxmayaraq belə mürəkkəb bir şəraitdə konfrans öz işinə başlasa da, bu hadisələr zirvə konfransının təşkilində izsiz qalmadı. Belə ki, toplantıya dəvət olunmuş 35 ölkədən konfransda yalnız 25-i iştirak edirdi. Sammitdə yalnız 10 ölkə dövlət başçısı səviyyəsində təmsil olunmuşdu. Konfransa Hindistanın dəvət olunması Pakistan nümayəndə heyəti tərəfindən narazılıqla qarşılandı (36, s.452-453).

Qarşıya çıxan bu problemlərə baxmayaraq, 1969-cu ilin sentyabrında Mərakeşin paytaxtı Rabatda işə başlayan zirvə toplantısında bir sıra müsəlman ölkələrinin liderləri ilk dəfə birlikdə İslam dünyası ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi apardılar. Toplantıda əl-Əqsa məscidinin yandırılması kəskin pisləndi (133, 25.IX.1969). Bu məsələ ilə bağlı qəbul edilmiş qətnamədə deyilirdi ki, "əl-Əqsanın yandırılması və ümumiyyətlə Fələstinin işğal altında olan ərazilərində müsəlmanlara məxsus müqəddəs tikililərin viran edilməsi müsəlmanların təhqir olunması deməkdir və bu hadisələr Yaxın Şərqdə vəziyyəti daha da kəskinləşdirəcəkdir. Zirvə toplantısında iştirak edən hökumət və dövlət başçıları belə hesab edirlər ki, dinə məxsus müqəddəs məkanlara və ziyarətgahlara hörmət edilməlidir. Bu yerlərdə ziyarət sərbəst olmalı, süni maneələr aradan qaldırılmalıdır. Müqəddəs Qüdsə gediş-gəliş isə 1967-ci il hadisələrinə qədər, yəni 1300 il müddətində olduğu kimi təmin olunmalıdır" (133, 26.IX.1969).

Konfrans iştirakçıları Fransa, İngiltərə, Sovet İttifaqı və ABŞ dövlət başçılarına ünvanlanmış müraciətdə qeyd edirdilər ki, müsəlmanların Qüdslə möhkəm bağlılığının əsası və qədim

tarixi kökləri var. 1967-ci ildə İsrail tərəfindən Qüdsün işğalı ilə bağlı BMT-nin məlum Qətnaməsinin yerinə yetirilməməsinə "müsəlmanlar laqeyd qala bilməz və bu məsələ ilə bağlı müsəlman dövlətləri öz dərin nifrət və qəzəblərini bir daha bəyan edirlər" (134. 27.IX.1969). Müşavirə iştirakçıları dünyanın bir sıra dövlət başçılarına, Birləşmiş Millətlər Təşkilatına göndərilmiş müraciətdə təkidlə tələb edirdilər ki, "İsrail tərəfindən 1967-ci ildə işğal edilmiş bütün ərəb torpaqları qeyd-şərtsiz azad olunmalıdır" (133, 26.IX.1969). Lakin bu Qətnamədə Qüdsün 1967-ci ildən əvvəlki statusunun bərpası haqqında məsələ qaldırılmadı. Zirvə toplantısında mühafizəkar ərəb dövlətləri və Qərb dövlətlərilə əməkdaşlıq edən ölkələrin nümayəndələri İsrailə qarşı radikal mövqedən çıxışın əleyhinə olub müşavirənin diqqətini yalnız "müqəddəs ziyarətgahların qorunmasına" yönəltməklə, yəhudilərə qarşı kəskin ittihamları yumşaltmağa çalışırdılar. Kəskin antiisrail mövqedən çıxış edənlər İKT-nin Nizamnaməsinin "A" bəndinin 5-ci paraqrafının 2-ci maddəsinə istinad edərək qeyd edirdilər ki, təşkilatın vəzifəsi müqəddəs yerlərin mühafizəsi və Fələstinin azadlığı uğrunda hərəkatın əlaqələndirilməsidir. Konfrans iştirakçıları bütün dünya müsəlmanlarının diqqətini müqəddəs ziyarətgahların birgə qorunmasına cəlb etməklə yanaşı, 1967-ci ildə işğal olunmuş ərəb torpaqlarından İsrailin geri çəkilməsinə nail olmaq üçün Qərbin aparıcı dövlətlərinə və SSRİ-yə müraciət qəbul etdilər.

Rabat konfransının iştirakçılarından biri də İran şahı idi. Zahirən özünü müsəlman kimi aparan, əslində isə ABŞ və İsraillə yaxından əməkdaşlıq edən Məhəmməd Rza Pəhləvi, Səudiyyə kralı Feysəllə birlikdə konfransın gedişinə Qərbin maraqları baxımından istiqamət vermək, müşavirəyə dini don geyindirməklə İsrailə tərəf tuşlanmış radikal çıxışları yumşaltmaq mövqeyindən çıxış edirdi. Konfransda çıxış edən şah deyirdi: "...Arzu edirəm ki, bütün müsəlmanlar arasında etimad və əməkdaşlıq bərqərar olsun. Arzu edirəm ki, bütün bu ölkələr (müsəlman – S.E.) ağıl, zəka və vüqarlı bir mühitdə inkişaf etsinlər" (137, s.506). Konfransın Qətnaməsini hazırlayan 11 ölkənin xarici işlər nazirlərindən ibarət komissiyanın üzvlərindən biri də 50-ci illərdə İranın xarici işlər idarəsinin başçısı olmuş, sonra isə bu ölkənin ABŞ-da səfiri işləmiş şahın keçmiş kürəkəni Ərdəşir Zahidi idi. Komissiyanın iclasında radikal mövqedən çıxış edənlərə cavabında o bildirdi ki, "Rabat konfransı müsəlmanları təmsil edən müşavirədir, buna görə də bu yığıncağı ərəb-İsrail qarşıdurma meydanına çevirmək olmaz. Konfrans öz işini ancaq müsəlman xalqlarının birliyini təmin etmək istiqamətində aparmalıdır" (142, s.19).

İslam ölkələri dövlət başçılarının bu konfransı beynəlxalq aləmdə əks-sədaya səbəb oldu. Zirvə toplantısı ilə bağlı Sovet mətbuatı susmağa üstünlük verdi. Qərbin kütləvi informasiya vasitələrində isə bu hadisə geniş şərh olundu. Londonun "Economist" jurnalı bu müşavirə ilə bağlı çap etdirdiyi məqaləsində yazırdı: "Xəstə yatağından konfransa göndərdiyi müraciətində Nasir imperialistləri və sionistləri məhkum etmişdir. O, qeyri-ərəb ölkələrinin rəhbərlərini təhrik etmək niyyətində idi. Lakin buna nail ola bilmədi..." (iqtibas götürülmüşdür: 137, s.27-28). İran şahı Rza Pəhləvi, Marakeş kralı II Həsən, Səudiyyə Ərəbistanının dövlət başçısı kral Feysəl mötədil mövqedən çıxış edərək bildirdilər ki, "...elə etmək lazımdır ki, bu konfrans müsəlman dövlətlərinin birinci və sonuncu toplantısı olmasın, davamlı olsun və müsəlman xalqlarının ittihad və birliyini təmin etsin" (iqtibas götürülmüşdür: 137, s.27-28). Vaşinqtonda nəşr olunan "Evening star" qəzeti qətnamə ilə bağlı qeyd edirdi ki, "qeyri-ərəb ölkələrindən olan müsəlmanlar çalışacalar ki, qəbul olunan qətnamə məhdud olsun" (128a, 22.IX.1969). ABŞ-ın nüfuzlu qəzeti sayılan "Washington Post" isə yazırdı: "Əbdül Nasir ümid edirdi ki, mötədil qeyri-ərəb ölkələrini də İsrail əleyhinə kampaniyaya cəlb edəcəkdir, lakin onun bu ümidi boşa çıxdı" (128b, 23.IX.1969).

İlk zirvə toplantısında qərbpərəst siyasətlərilə tanınan İran şahının, Mərakeş və Səudiyyə Ərəbistanının dövlət başçılarının fəal iştirakı, Milli-müqavimət cəbhəsinin fəal üzvləri olan Suriyanın və İraqın konfransda iştirak etməmələri və

Misirin vitse-prezidenti Ənvər Sadatın yığıncaqda passivliyi, zirvə toplantısının yekun sənədi olan qətnamənin məzmununa da təsir göstərdi. İslam dünyasının müqəddəs məkanları, xüsusilə əl-Əqsa ilə əlaqədar qeyri-müəyyən və yumşaq ibarələr bu sənədin kəskin antiisrail mahiyyətini dəyişdirdi. Əslində bu qətnamənin BMT tərəfindən bu problemlə bağlı qəbul edilmiş sənədlərlə o qədər də fərqi yox idi. Qətnamənin belə məzmunu ilə razılaşmayan bəzi nümayəndələr çıxışlarında vurğulayırdılar ki, İKT müsəlman ölkələrini birləşdirən bir qurum olduğundan qətnamədə öz əksini tapmış vəzifələr islam dünyasının nəinki dini-mənəvi, həm də dövlətçilik maraqlarına cavab verməli, müsəlmanların milli mənafeinə tam uyğun olmalıdır.

Qüdsün İsrail tərəfindən işğal altında saxlanılmasına görə, bu məsələ II Zirvə toplantısının gündəliyinə çıxarıldı. Məsələ ilə bağlı mübahisələrin qızğın olmasına baxmayaraq, Qüdsün və buradakı müqəddəs ziyarətgahların azad olunmasını nəzərdə tutan radikal qərar qəbul edilmədi. 1974-cü ilin fevral ayında Pakistanın Lahor şəhərində çağırılmış zirvə toplantısında qəbul edilmiş Bəyannamədə qeyd edilirdi ki, işğal olunmuş ərəb torpaqlarında İsrail tərəfindən tikinti işlərinin aparılması dayandırılmalıdır (139, 25.II.1974; 141, s.309-310). Bəyannamənin Qüdslə bağlı hissəsində yazılmışdı ki, "Qüdsü azad etmək üçün islam dövlətləri birgə səy göstərməlidirlər" (126, 26.II.1974). Lakin bu qərarın necə icra olunması ilə bağlı mexanizmin olmaması onun hüquqi qüvvəsini heçə endirirdi. Ümumiyyətlə icra mexanizmi ilə təmin olunmamış belə məzmunlu qərarların qəbul edilməsi, İKT-nin Nizamnaməsindən irəli gəlirdi. Çünki bu qurum beynəlxalq universal bir təşkilat olmadığından, İsrailə qarşı hərbi sanksiya tətbiq etmək hüququna malik deyildi. Buna görə də onun qəbul etdiyi qərar və qətnamələr əsasən tövsiyə xarakterli idi və ictimai rəyin formalaşdırılması çərçivəsindən kənara çıxa bilmirdi.

1981-ci ilin yanvarında Ərəbistanın Məkkə-Taif şəhərlərində III Zirvə toplantısı işə başladı. Burada islam dünyasının müxtəlif aktual məsələlərilə yanaşı, Qüdsün İsrailin işğalından azad edilməsi problemi də müzakirə edildi. Qəbul edilmiş Qətnamədə qeyd edilirdi ki, "müqəddəs Qüds şəhərini işğaldan azad etmək üçün cihad elan edilməlidir" (138, 68-77; 24, s.302). Lakin bu sənəd də dumanlı, qeyri-müəyyən məzmunlu idi. Qərarda konkret olaraq cihadda hansı ölkələrin və hansı vasitələrlə iştirak edəcəkləri bəlli deyildi. Bu sənəd də keçmişdəki qərarlar kimi yalnız İsrailə və onu himayə edən dövlətlərə təsir etmək məqsədi daşıyırdı və hüquq baxımından icra mexanizmilə təmin olunmamışdı.



80-ci illərin əvvəllərindən etibarən Yaxın Şərqdə vəziyyət yenə də böhran həddinə çatdı. ABŞ dövlət katibi H.Kissincer tərəfindən həyata keçirilən "mərhələli diplomatiya" bu regionda vəziyyətin sabitləşməsinə və Fələstin dövlətinin yaradılmasına gətirib çıxarmadı. İsrail əvvəlki illərdə olduğu kimi yenə də Fələstin ərəb dövlətinin yaradılmasına bütün imkanlarından istifadə edərək mane olur, Qüds problemini birtərəfli qaydada öz xeyrinə həll etmək siyasəti yeridirdi. Belə bir siyasət öz ifadəsini onda tapdı ki, İsrail parlamenti (Knesset) 1980-ci ilin avqustunda qəbul etdiyi qərarda Qüdsü İsrailin "bölünməz və əbədi paytaxtı" elan etdi (73, s.98). İsrailin bu addımına cavab olaraq ərəb dövlətləri İKT-nın Məkkə-Taifdə keçirilən sammitində Qüdsün azad edilməsi və buranın Fələstin Ərəb dövlətinin paytaxtı elan olunması haqqında qərarın qəbul edilməsinə nail oldular. İsrail hakim dairələri Qüdsü İsrailin "bölünməz və əbədi" paytaxtı elan etməklə, yəhudi-ərəb qarşıdurmasını daha da kəskinləşdirdilər. Belə bir qərarın qəbul edilməsilə Yaxın Şərq böhranının nizama salınması yolunda daha ciddi bir manеə yarandı.

Yaxın Şərqdə vəziyyətin kəskinləşməsilə bağlı 1980-ci ilin sonunda İKT-nin fövqəladə konfransı çağırıldı. Toplantıda qəbul edilmiş Qətnamədə qeyd edilirdi ki, Qüds istər tarixilik və istərsə də mənəviyyat baxımından ərəb şəhəridir və onu Fələstindən heç zaman ayırmaq olmaz. Məsələnin hər hansı başqa formada həlli Fələstin xalqının hüquqlarının kobudcasına pozulması deməkdir (34, s.85). Göründüyü kimi, Yaxın Şərqdə vəziyyət müharibə həddinə çatmışdı. Münaqişədə iştirak edən tərəflərin kompromisə getmələri ərəblərlə yəhudilər

arasında növbəti silahlı toqquşmanın baş verəcəyi ehtimalını artırırdı.

Londonda İsrailin səfiri Şlom Arqovna qarşı 1982-ci ilin iyunun 6-da terror edilməsi beşinci İsrail-Ərəb müharibəsi üçün detonator rolunu oynadı. İsrailin növbəti zərbə hədəfi üçün Livan ərazisi seçildi. Səfirin qətlindən dərhal sonra İsrail ordusu Livanın cənub rayonlarını işğal etdi (Ətraflı bax: 109). Bu savaşda Təl-Əvivin əsas məqsədi Livanın həmsərhəd bölgələrini işğal etməklə İsrail ətrafında yeni təhlükəsizlik qovşağı yaratmaq, Qüdsün ərəblərdən təmizlənməsini sürətləndirmək və Fələstin Azadlıq Təşkilatının hərbi birləşmələrini darmadağın etmək idi. Bu yeni qanlı toqquşmadan sonra müsəlmanlara məxsus ziyarətgahların dağıdılması və bu yerlərin yəhudiləşməsi prosesi geniş miqyasda daha sürətlə davam etdirildi. İş o yerə çatdı ki, özünün kəskin antiərəb mövqeyilə tanınan və o zaman İsrailin müdafiə naziri işləyən general Ariyel Şaron sonralar əl-Əqsa məscidinin gümbəzinə İsrailin bayrağını sancmaq əmrini verdi. Əslində bu açıq fitnəkarlıq nəinki ərəblərə, həm də bütün islam dünyasına qarşı meydan oxumaq demək idi.

Qüdsün statusunda birtərəfli qaydada aparılan hər hansı bir dəyişiklik İKT-nin, xüsusilə bu təşkilatın nəzdində hələ 1975-ci ildən fəaliyyət göstərən Qüds Komitəsinin güclü müqavimətilə rastlaşırdı. Bu komitənin əsas vəzifəsi İKT-nin Qüdslə bağlı tədbirlərini əlaqələndirmək idi. Qüds Komitəsinin yaradılması haqqında qərar xarici işlər nazirlərinin 1975-ci il iyul ayında çağırılmış VI konfransında qəbul edilmişdi. Qərarda bu qurumun vəzifələri aşağıdakı kimi müəyyən edilmişdi:

1. Beyt ül-Müqəddəslə əlaqədar baş vermiş bütün hadisə və dəyişiklikləri diqqətlə izləmək və ona operativ münasibət bildirmək;

2. İKT-nin Qüdslə bağlı qəbul etdiyi qərar və qətnamələrinin icrasını nəzarətdə saxlamaq və bu problemlə bağlı beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq etmək və təşkilatın fəaliyyətini onlarla əlaqələndirmək. Qüdslə və orada olan islam dəyərləri ilə bağlı təklif və tövsiyələr hazırlamaq və üzv dövlətlərin nəzərinə çatdırmaq. Bu təkliflər paketində regionda



baş verən hadisələrlə bağlı yaranmış yeni vəziyyət və cari vəziyyət öz əksini tapmalıdır;

3. İslam Konfransı Təşkilatının sionizmə qarşı mübarizəsinin forma və metodlarını nəzərdə tutan qərar və qətnamələr qəbul etmək və onların icra mexanizmini hazırlamaq. Bu işin həyata keçirilməsinə nəzarəti gücləndirmək;

4. Qüdsün azad olunmasına kömək etmək arzusunda olan və nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələr yaratmaq, oanların diqqətini islam dünyasının bu mühüm probleminin həllinə cəlb etmək. Beynəlxalq təşkilatların ictimai rəyin formalaşmasında imkan və təsir gücünü nəzərə alaraq, onları problemlə bağlı dəqiq və operativ informasiya ilə təmin etmək.

Komitə gördüyü işlər haqqında illik hesabat hazırlamalı və təsdiq üçün xarici işlər nazirlərinin növbəti konfransına təqdim etməli idi. Bu Konfransda həm də növbəti ildə görüləcək işlərin planı müzakirə olunaraq təsdiq edilməli idi.

Göründüyü kimi Qüds Komitəsinin vəzifə və səlahiyyətləri geniş idi. Bunların yerinə yetirilməsi üçün məqsədyönlü işlə yanaşı, böyük əzm və problemə məsuliyyətlə yanaşmaq tələb olunurdu. İşin mürəkkəbliyi bir də onunla ölçülürdü ki, İsrailin fəaliyyəti və diplomatik səyləri ABŞ və Avropanın bir sıra böyük dövlətlərilə əlaqələndirilirdi. Buna görə də bu komitə Yaxın Şərqin siyasi həyatında baş verən dəyişiklikləri və bu regionda beynəlxalq münasibətlərin görünməyən cəhətlərini diqqətlə izləməli idi.

Komitənin 1980-ci ilin dekabrında hazırladığı Qətnamənin layihəsində üzv dövlətlərdən xahiş olunurdu ki, Qüdsün azad olunması ilə bağlı fəaliyyətlərini gücləndirsinlər, əl-Əqsa faciəsinin həqiqətlərini imkan daxilində bütün vasitələrlə beynəlxalq ictimaiyyətə çatdırsınlar. Qərar layihəsinin sonunda qeyd edilmişdi ki, İKT-nin üzvü olan dövlətlər, Qüdsün İsrailin paytaxtı elan etməsilə əlaqədar öz səfirliklərini Tel-Əvivdən bu şəhərə köçürmək niyyətində olan dövlətlərlə diplomatik əlaqələri kəssinlər.

Qüdsün yəhudi dövlətinin paytaxtı elan edilməsini İsrailin təkbaşına qəbul etdiyi qərar kimi izah etmək məsələyə bir

tərəfli yanaşmaq olardı. Bu kəskin antiərəb addım, əvvəlcədən İsraili dəstəkləyən dövlətlərin paytaxtlarında razılaşdırıldıqdan sonra atılmışdı. Qüds Komitəsinin belə bir qərar qəbul etməkdə məqsədi İsrailə dünya birliyi, xüsusilə onun strateji tərəfdaşı kimi söykəndiyi dövlətlər vasitəsilə təsir göstərmək və bu qərardan yayındırmağa nail olmaq idi. Milli müqavimət hərəkatında iştirak edən ərəb dövlətlərinin fikrincə, bu təsir o zaman bəhrə verə bilərdi ki, müsəlman dövlətləri vahid cəbhədən birgə çıxış etsinlər, aralarında mövcud mübahisələrə xitam vermiş olsunlar.

Lakin Qüds Komitəsinin təşəkkül tapdığı mərhələdə İran diplomatiyasının addımı İslam dünyasının birliyindən deyil, didişmələrindən xəbər verirdi. Belə ki, Qüds Komitəsinə Mərakeş kralı II Həsənin sədr seçilməsi (27a, s.302) İranın* müqaviməti ilə rastlaşdı və Komitənin dəfələrlə iclasları bu ölkənin nümayəndələri tərəfindən boykotla üzləşdi. İranın belə mövqedən çıxışının səbəbi mətbuatın verdiyi məlumata görə, 1973-cü ildə dördüncü İsrail-ərəb müharibəsindən bir neçə ay əvvəl II Həsənin İsrailin məsul şəxsləri ilə gizli görüşmələri və İsrail-Ərəb münaqişəsinin nizama salınmasına barışdırıcı mövqedən yanaşması olmuşdur. Əlavə edək, II Həsəni belə mövqedən çıxış etməyə ABŞ diplomatiyası sövq etmişdi. İran qaynaqlarının yazdığına görə o 1972-ci ildə Beynəlxalq Yəhudi Konfransının keçmiş rəhbəri Naum Qravinlə dəfələrlə görüşərək, ərəblərlə yəhudilərin barışdırılması məsələlərini müzakirə etmişdi. Bu məxfi görüşləri davam etdirən II Həsən 1978-ci ildə İsrailin o zamankı baş naziri İshaq Rabinlə, 1979-cu ildə bu ölkənin xarici işlər naziri Moşe Dayanla və elə həmin il əmək naziri Şimon Pereslə müzakirələr aparmış, Yaxın Şərq böhranının nizama salınmasına səy göstərmişdir. Bundan başqa II Həsən həm də İsrailin Ərəb dövlətləri tərəfindən tanınmasını nəzərdə tutan "Fes layihəsi"nin əsas müəlliflərindən biri kimi tanınırdı. Tehranı qıcıqlandıran məsələlərdən biri də Mərakeşin ABŞ-la yaxınlığı idi. ABŞ-ın Çevik əməliyyatlar

* İran Qüds Komitəsinin ən fəal üzvlərindən sayılır.



qrupunun* 5 hərbi bazası Mərakeş ərazisində (133, 26.X.1983) yerləşmişdi. Bütün bunlar İran İslam hökuməti tərəfindən Mərakeş kralının Komitəyə sədr seçilməsinin əleyhinə istifadə olunan dəlillər idi. II Həsənin bu addımları onun ümumislam mövqeyindən çıxış etməsini şübhə altına almağa əsas verirdi.

İranın səylərinə baxmayaraq, Zirvə Konfransının qərarı ilə Komitəyə rəhbərlik II Həsənə həvalə edildi. Bu qurumun ildə bir dəfə çağırılan iclasları II Həsənin sədrliyilə Mərakeşdə keçirilirdi. Bununla belə dövlət başçısının sədrliyilə belə bir Komitənin yaradılması və fəaliyyət göstərməsi, İKT-nin bu məsələnin həllinə böyük əhəmiyyət verdiyinə dəlalət edirdi.

Qüds və burada yerləşən müqəddəs ziyarətgahların mühafizəsi İKT Zirvə toplantılarında daim müzakirə olunaraq müvafiq qətnamələr qəbul edilmişdir. Bu sənədlərdə Qüdsün yəhudiləşdirilməsi pislənmiş, beynəlxalq birlikdən İsrailin bu işğalçılıq siyasətinə qarşı etiraz etmək xahiş olunmuş, xarici işlər nazirlərinin ilk iclasında isə əl-Əqsa məscidinin yandırıldığı gün - 21 avqust dünya müsəlmanlarının həmrəyliyi günü elan edilmişdir (138, s.126-129). Məscidi Əl-Əqsaya qarşı İsrailin təcavüzü məsələsi İKT xarici işlər nazirlərinin fövqəladə yığıncaqlarında dəfələrlə müzakirə edilmiş, tədqiq etdiyimiz xronoloji çərçivədə sonuncu müzakirə 22 fevral 2007-ci ildə Ciddədə keçirilən yığıncağın əsas məsələsi olmuşdur (143).

Göründüyü kimi, İslam Konfransı Təşkilatı öz prinsiplərinə, beynəlxalq öhdəçiliyinə və dünya sistemində həyata

* "Çevik əməliyyatlar qrupu" 1973-cü ildə OPEK dövlətləri tərəfindən neft sənayesinin milliləşdirilməsi ilə bağlı yaradılmışdı. Əsas məqsəd Asiya və Afrikada ABŞ maraqlarına zidd baş vermiş hər hansı bir hadisəni sürətlə, hərbi müdaxilə etməklə qarşısını almaq idi. Bu hərbi birləşmələrin qarşısında hətta Fars körfəzi rayonunda zəruri hallarda neft quyularının işğal olunması vəzifəsi də qoyulmuşdu. Bu hədə-qorxuya cavab olaraq Səudiyyə Ərəbistanı bildirdi ki, Vaşinqton tərəfindən belə zorakılığa əl atılarsa, bütün neft quyuları partladılacaq. Belə hadisənin baş verməsi həm iqtisadi və həm də ekoloji fəlakət demək idi. Neftin milliləşdirilməsinin qəti tərəfdarı olan Səudiyyə Ərəbistanının kralı Feysəl 1975-ci ilin martın 21-də müəmmalı şəkildə qətlə yetirildi.

keçirdiyi siyasi xəttinin məzmun və mahiyyətinə sadiq qalaraq İslam dünyasının simasını, şöhrətini və ənənələrinin tarixi köklərini əks etdirən beynəlxalq xarakterli islam ziyarətgahlarının qorunması işində mühüm addımlar atmış və bü istiqamətdə dəyərli siyasi və praktiki işlər görmüşdür.

## 2.2. Fələstin Ərəb dövlətinin yaradılması problemi və İKT.

İslam Konfransı Təşkilatının 1969-2007-ci illərdə beynəlxalq münasibətlər sistemində göstərdiyi fəaliyyətinin əsas istiqamətlərindən biri də Fələstin Ərəb dövlətinin beynəlxalq hüquq normaları fundamentində yaradılması problemi olmuşdur. Tarixi faktlar göstərir ki, Fələstin problemi milyonlala insanın taleyilə bağlı olan mürəkkəb və ziddiyyətli bir məsələdir və onun indiyə kimi nizama salınmamasının səbəbi, bir tərəfdən yəhudilərlə ərəblərin qarşılıqlı güzəştə getməmələri, digər tərəfdən də bu regionda hərbi-strateji, iqtisadi-siyasi maraqları olan nüfuzlu böyük qüvvələrin məsələyə öz maraqları baxımından yanaşmalarıdır. Problemin həllinin uzadılması nəticəsində Yaxın Şərq böhranı* müasir beynəlxalq münasibətlərin ən ziddiyyətli, faciəli, düyünlü probleminə çevrilmişdir. İkinci Dünya müharibəsindən sonra Yaxın Şərqdə təzahür edən bu faciə nəticəsində ən çox zərər çəkən, adi insani hüquqlardan belə məhrum edilən və haqqı tapdalanan Fələstin ərəbləri olmuşdur. Milyonlarla fələstinli ərəb yurd-yuvasından, qərinələrlə yaşadıqları doğma torpaqlarından qovulmuş, çoxsaylı insan fiziki məhvə məruz qalmışdır. Bu problemin həllinin düyünə düşməsi beynəlxalq münasibətlər sisteminin mükəmməl bir struktura malik olmamasını göstərir. Bu problemin hələ də davam etməsi nəinki Yaxın və Orta Şərqdə ya-

* Yaxın Şərq böhranı aşağıdakı komponentlərdən ibarətdir: Ərəb-İsrail münasibətləri; Fələstin ərəb dövlətinin yaradılması; Müqəddəs Qüdsün statusu; İslamın müqəddəs ziyarətgahlarının mühafizəsi.



şayan xalqlar üçün, eyni zamanda bütövlükdə qlobal səviyyədə beynəlxalq sülh və təhlükəsizlik üçün real təhlükə mənbəyidir. Problemin bu aspektini göz qarşısına gətirdikdə aydın olur ki, belə siyasi məsələnin həlli hər iki tərəfin radikal addımları ilə olmalıdır, hər iki dövlət biri birini başa düşüb, kompromis variant tapıb ortada olan inamsızlığı aradan qaldırmalıdır.

Qeyd etmək lazımdır ki, belə yollar həm ərəblər tərəfindən, həm də İsrail tərəfindən irəli sürülməli və problem sülh, danışıqlar yolu ilə həll edilməlidir. Bu barədə artıq bu və ya digər tərəfin görkəmli şəxsiyyətləri fikirlər irəli atmışlar. Bu baxımdan dünya şöhrətli yəhudi fizik A. Eynşteynin dediklərini önə gətirsək məsələ çox yaxşı aydınlaşar. O, Fələstində yaranmış vəziyyətlə bağlı belə demişdir: "Fələstində sülhə güclə deyil, ancaq qarşılıqlı anlaşma şəraitində nail olmaq olar". Albert Eynşteyn kimi dünyanın zəkalı insanları Fələstin probleminin həllini ancaq qarşılıqlı dözüm və kompromis şəraitində mümkün saymışlar.

Yaxın Şərq böhranının İslam Konfransı Təşkilatının yaranması ilə birbaşa bağlılığını nəzərə alaraq, bu böhranın yaranma tarixi köklərinə ötəri nəzər salmaq lazımdır. Problemin tədqiqində sistemli yanaşma üsulundan istifadə onun obyektiv və hərtərəfli araşdırılmasına imkan yaradır. Yaxın Şərq böhranı təkcə ərəb-yəhudi qarşıdurması nəticəsində təzahür edən problem deyil, onun şaxələnmiş kökləri XX əsr beynəlxalq münasibətlərində aparıcı rol oynayan böyük dövlətlərin diplomatik manevr və dövlətçilik maraqları ilə perçimlənmişdir. XX əsrdə bir çox xalqlar uzun müddət bu maraqların qurbanı olmuş, bəzi xalqlar isə şəraitin dəyişilməsinə baxmayaraq, indi də bu maraqların daşıyıcısı olan böyük dövlətlərin diplomatik hədəfinə çevrilmişlər.

İkinci Dünya müharibəsi başa çatdıqdan sonra Yaxın və Orta Şərqin beynəlxalq vəziyyətində əsaslı dəyişikliklər baş verdi. Müharibədən sonra dünya hegemonluğu uğrunda Şərqlə Qərb arasında gedən mübarizə, Yaxın və Orta Şərqdən də yan keçmədi. Belə ki, Yaxın və Orta Şərqin ictimai-siyasi həyatına yeni bir qüvvə - dünyanın ən mühüm güc və maliyyə mərkəzlə-

rindən sayılan ABŞ daxil oldu. Müharibədə zəifləyən Böyük Britaniya özünün keçmiş qüdrətini əldən vermiş, ikinci dərəcəli dövlətlər səviyyəsinə enmişdi. Belə bir şəraitdə Böyük Britaniya Fələstin üzərində mandatından əl çəkməli oldu və bununla da Fələstində yəhudi dövlətinin - İsrailin yaradılması üçün real şərait yarandı. Fələstinin taleyi yenicə yaradılmış Birləşmiş Millətlər Təşkilatına tapşırılıdı. Bu təşkilat Fələstinin hansı dövlətin idarəsində olması və ya bu ərazidə hansısa müstəqil dövlətin yaradılması məsələsini həll etməli idi. Onu da əlavə edək ki, o dövrdə Birləşmiş Millətlər Təşkilatı əsasən Qərb dövlətlərinin təsiri altında olduğundan, müsəlman ərəblərinin mənafeyinə uyğun hansısa bir qərarın qəbul olunması əvvəlcədən şübhə altında idi. Fələstində İsrail dövlətinin yaradılması planı nəinki ABŞ, həm də Sovet İttifaqı tərəfindən dəstəklənirdi. Hər iki fövqəldövlət Fələstindən və burada yaradılması nəzərdə tutulan dövlət qurumlarından özlərinin maraqları baxımından istifadə etmək niyyətində idilər. Deyilənləri nəzərə alan SSRİ və ABŞ, Fələstin məsələsinin Birləşmiş Millətlər Təşkilatında müzakirə və həll olunmasına yaşıl işıq yandırdılar. Əlavə edək ki, BMT Təhlükəsizlik Şurasının İsrail dövlətinin yaradılması haqqında qərarı silahlı dəstələri olan bir sıra yəhudi təşkilatlarına qabaqcadan bəlli idi və yəhudi milli dövlətinin yaradılması ilə bağlı hərbi hazırlıq işləri artıq görülmüşdü.

1947-ci ilin noyabrın 29-da BMT Baş Məclisinin 128-ci sessiyası işə başladı. Sessiyada Fələstində ərəb və İsrail dövlətlərinin yaradılması məsələsi müzakirə olunurdu. İclasda iştirak edən müsəlman dövlətlərinin nümayəndələri Fələstin ərazisinin bölüşdürülməsinin əleyhinə çıxaraq, burada ümumiyyətlə yəhudi dövlətinin yaradılmasına qəti etiraz etdilər. Bu etirazlara məhəl qoymayan BMT aşağıdakı qərarı qəbul etdi: 1948-ci ilin avqustun 1-ə qədər Fələstində ingilis mandatı ləğv edilməli və həmin müddətdə bu ölkənin hərbi birləşmələri Fələstini tərk etməlidir. Bundan iki ay sonra, yəni 1948-ci il oktyabrın 1-də Fələstin ərazisində iki suveren dövlət - ərəb Fələstin və yəhudi İsrail dövlətləri yaradılmalı idi. Bu qərara görə Qüds BMT-nin Qəyyumluq Şurası tərəfindən xüsusi rejimlə idarə olunmalı idi.



Birləşmiş Millətlər Təşkilatının qərarı ilə Fələstin ərazisinin 14,1 min kv. kilometri İsrail üçün, 11,1 min kv. kilometri Fələstin ərəb dövləti üçün ayrılırdı, Qüds üçün isə 177 kv. kilometr nəzərdə tutulurdu (Ətraflı bax: 26, 28, 39, 44, 46, 48, 67, 73, 75, 121, 140 və s.). Bu qərara əsasən yeni yaradılmış dövlətlər arasında sərhədlərin delimitasiyası BMT-nin sərhəd məsələləri üzrə Xüsusi komissiyasına həvalə edilirdi.

1948-ci il mayın 14-dən 15-ə keçən gecə, ingilis silahlı birləşmələri Fələstini tərk edəndən bir neçə saat sonra İsrail dövlətinin yaradılması elan edildi. Elə o gündən də birinci İsrail-Ərəb müharibəsi başlandı. Bu dövrdən başlayaraq beynəlxalq münasibətlərə Yaxın Şərq böhranı adı altında İsrail-Ərəb münaqişəsi daxil oldu. Bu münaqişə yarandığı gündən ərəb-yəhudi münasibətlərinin faciəsi olmaqla yanaşı, bütün beynəlxalq münasibətlər sisteminin və dünya siyasətinin son dərəcə kəskin probleminə çevrildi.

Yaxın Şərq böhranının yaranması səbəblərini ancaq yəhudilərin Fələstində dövlət yaratmaq planları ilə bağlamaq düzgün olmazdı. Bu və buna bənzər regional münaqişələrin kökündə böyük dövlətlərin maraqları gizlənir. Münaqişə ocaqları kimi tanınan mübahisəli ərazilərdə qondarma dövlətlər qüdrətli böyük qüvvələrin əlində oyuncağa çevrilir, onlar üçün bu və ya digər regionda strateji müttəfiq və dayaq nöqtəsi rolunu oynayırlar. Fələstin torpağında yaradılan İsrail də məhz bu yolla həyata vəsiqə almış, Yaxın Şərqdə bəzi böyük dövlətlərin, ilk növbədə ABŞ-ın strateji müttəfiqi rolunu öhdəsinə götürmüşdü. Aydındır ki, ABŞ-ın və digər Qərb dövlətlərinin hərtərəfli yardımı və diplomatik himayəsi olmadan kiçik bir ərazidə yaradılan yəhudi dövləti ərəb dünyasına meydan oxuya bilməzdi.

Bu münaqişənin nəticə və fəsadları təkcə Yaxın Şərq regionu ilə məhdudlaşmır. Bu böhran nəticəsində bütöv bir xalqın - Fələstin ərəblərinin hüquqları tapdalanmış, onlar milli ərazilərindən və dövlət yaratmaq hüquqlarından zorla məhrum edilmişlər. Bu böhranın yaradılmasına görə təkcə böyük dövlətlər məsuliyyət daşımırlar. Fələstin faciəsinin yaranmasında *həm də Qərblə geniş iqtisadi əlaqələri olan bir sıra* mühafi-

zəkar ərəb dövlətlərinin də klan və şəxsi maraqlar siyasəti az rol oynamayıb. Bəzi ərəb dövlətləri Fələstinin müdafiəsində nəinki passiv iştirak etmiş, hətta Fələstin torpaqlarının bölüşdürülməsində yəhudilərlə gizli sövdələşməyə girmişlər. Belə ki, İngilislərin Fələstini tərk etməsindən 2 ay əvvəl o zamankı İordaniya kralı Abdulla ilə İngilis hərbi komandanlığı arasında imzalanmış gizli sazişə görə, İordaniya İsrail dövlətinin yaradılmasına qarşı çıxmamağı öhdəsinə götürürdü, bunun müqabilində İordan çayının Qərb sahillərini almalı idi. İordaniyanın Birinci Ərəb-İsrail müharibəsində iştirakı bu məqsədə nail olmaq idi (44, s.21).

Fələstin ərəbləri üçün ayrılmış torpaqların İordaniya, Livan, Suriya, Misir və İsrail arasında "bölüşdürülməsi", Yaxın Şərqin siyasi vəziyyətinə və bütövlükdə ərəblərarası münasibətlərə yeni element gətirdi. Bu proses bir tərəfdən fələstinli ərəblərin dövlət yaratmaq səviyyəsində hələ formalaşmaması və bu ciddi işə hazır olmamaları ilə izah olunurdusa, digər tərəfdən də İsrail dövlətinin yaradılmasının özünəməxsus cəhətləri ilə əlaqəli idi. Məsələ bundadır ki, Fələstində İsrail dövlətinin yaradılmasında əsasən Avropadan, Amerikadan və qismən də Sovet İttifaqından buraya köçən yəhudilər iştirak edirdilər. İsrail yəhudi dövlətinin yaradılmasının spesifik xüsusiyyətlərindən biri də bu idi ki, bu dövlət heç də Fələstində yaşayan yəhudilərin milli-azadlıq hərəkatı nəticəsində həyata vəsiqə almamışdı və əslində bu dövlət ABŞ, İngiltərə və Sovet İttifaqının iqtisadi, siyasi və hərbi yardımı ilə Fələstin torpaqlarına axışan yəhudilər tərəfindən yaranmışdı. Buna görə də belə bir dövlətin yaradılmasına İkinci dünya müharibəsindən sonra laxlamağa başlamış müstəmləkə sisteminin dağılmasının tərkib hissəsi kimi baxmaq düzgün olmazdı. Buradan da belə bir nəticə əldə olunur ki, İsrail dövlətinin yaradılması təbii bir proses olmayıb, əslində müqtədir xarici qüvvələrin və iri yəhudi kapitalının maraqlarının təminatçısı rolunu oynayan element kimi siyasi səhnəyə gətirilmiş bir proses idi.

Fikrimizi əsaslandırmaq üçün Fələstində İsrail dövlətinin yaradılmasında iştirak edən xarici qüvvələrin bu məsələdə



maraqlarına ötəri nəzər salaq. Əlavə edək ki, bu qüvvələri təmsil edən böyük dövlətlər o dövrdə beynəlxalq münasibətlərin aparıcı elementləri idilər.

- Böyük Britaniyanın Yaxın və Orta Şərqdə mövqeyi zəifləmişdi və bu ölkə Aralıq dənizi hövzəsində öz mövqeyini yaradılacaq İsrail və mühafizəkar ərəb rejimləri vasitəsilə qorumaq niyyətində idi.

- ABŞ-ın bu məsələ ilə bağlı planları geniş və perspektivli idi. Vaşinqton Aralıq dənizi hövzəsindən öz rəqiblərini sıxışdırmaq və bu regionda aparıcı mövqeyə çıxmaq üçün etibarlı dayaq nöqtəsi axtarırdı. Belə bir strateji müttəfiq yəhudi dövləti ola bilərdi. ABŞ-İsrail əlaqələrinin bərqərarına və hərtərəfli inkişafına təsir göstərən amillərdən biri də Amerikada güclü yəhudi lobbisinin olması idi. Əlavə edək ki, yəhudi kapitalı seçkilər zamanı prezident kreslosu uğrunda gedən mübarizədə həlledici rol oynayır.

- İsrail dövlətinin yaradılmasında Sovet İttifaqının xüsusi maraqları vardı. Moskva Fələstin üzərində İngiltərənin mandat sisteminin ləğvinə Londonun Aralıq dənizi regionunda mövqeyinin laxlaması kimi baxırdı. Sovet İttifaqından Fələstinə köçən yəhudi mənşəli insanlar arasında sol təmayüllü şəxslər də vardı və onların iştirakı ilə bu ölkədə sovet lobbisi yaratmaq nəzərdə tutulurdu. Lakin soltəmayüllü vətəndaşlar azlıqda qaldıqlarından sonralar İsrailin ictimai-siyasi həyatında həlledici mövqeyə çıxa bilmədilər. Buna görə də artıq 50-ci illərin əvvəllərindən etibarən İsrailin xarici siyasətində qərbyönlü istiqamət aparıcı mövqe qazandı.

Qeyd edildiyi kimi, Yaxın Şərq böhranı təkcə Fələstin ərəbləri ilə İsrail arasında kəskin qarşıdurma və mübarizə ilə məhdudlaşmırdı. Bu düşmənçilikdə bütün ərəb dünyası iştirak etsə də, zərbə altında qalan əsasən Fələstində yaşayan və bu diyarın köklü sakinləri sayılan ərəblər oldular. Birinci İsrail-Ərəb müharibəsində ərəblərin məğlub olması, BMT-nin məlum qərarı ilə nəzərdə tutulmuş Fələstin ərəb dövlətinin yaradılmaması Yaxın Şərqdə siyasi vəziyyəti və beynəlxalq münasibətləri kəskinləşdirdi. Fələstindən qonşu ərəb ölkələrinə

qaçqınların kütləvi axını başlandı. Bununla da Fələstin qaçqınları problemi meydana gəldi. Mövcud ədəbiyyatdan məlum olur ki, 1950-ci ildə qaçqın sifətilə Fələstini tərk etmiş ərəblərin sayı təxminən 960.000 nəfər olmuşdur. İllər keçdikcə problem nizama salınmadığından qaçqınların sayı ilbəil artmışdır. Belə ki, 1959-cu ildə yurd-yuvasından didərgin salınmış ərəblərin sayı 1.088.000-ə, 1964-cü ildə 1.247.000-ə, 1967-ci ildə isə 1.345.000-ə çatmışdır. 1967-ci ilin mayına olan məlumata görə qaçqınlar əsasən aşağıdakı ərəb ölkələrində - İordaniyada 723.000, Qəzza bölgəsində 317.000, Livanda 161.000, Suriyada 144.000 nəfər məskunlaşmışlar. Bundan əlavə, digər ərəb ölkələrində də fələstinli qaçqınlara rast gəlmək olar.

Fələstin ərəblərinin hüquqlarını tanımaq əvəzinə, İsrail hakim dairələri yeni torpaqlar zəbt etmək planları hazırlayırdılar. Belə ki, 1967-ci ilin ortalarında İsrail ildırım sürətli yeni bir müharibəyə başlamaq üçün hazırlıq gördü. Təsdiq edilmiş plana görə qısa müddətdə həmsərhəd ərəb ölkələrinin hərbi potensialı məhv edilməli, ərəb dünyasının lideri kimi tanınan Camal Əbdül Nasir (15, 26) ya fiziki məhv edilməli, ya da siyasi səhnədən uzaqlaşdırılmalı idi. Növbəti müharibəyə əl atmaqda İsrailin başqa bir məqsədi isə yeni ərazilər qəsb etməklə öz ətrafında təhlükəsizlik zonasını genişləndirmək idi. Bu aksiyanın hədəflərindən biri də ərəb-sovet əlaqələrini mürəkkəbləşdirib Moskvanı ərəblərin gözündən salmaqla bağlı idi. Əlavə edək ki, İsrailə qarşı kəskin mövqedən çıxış edən ərəb dövlətlərinin ordusu əsasən sovet silahı və sursatı ilə təchiz olunmuşdu. Göründüyü kimi, "Altıgünlük müharibə" adi savaş deyil, Yaxın Şərqdə beynəlxalq münasibətlərin durumu və fövqəldövlətlərin maraqları ilə birbaşa bağlı bir hadisə idi.

Üçüncü İsrail-ərəb müharibəsi kimi tarixə daxil olan bu savaş ərəb dövlətlərinin məğlubiyyətilə başa çatdı. Nəinki ərəb dünyasında, bütövlükdə bir çox müsəlman ölkələrində çaşqınlıqla qarşılanan bu hadisə ərəb dünyasında çoxlu suallara səbəb oldu. Bu məğlubiyyətin ləkəsini necə yumaq olar? İsraillə münasibətdə ciddi dəyişikliklər edilməlidir, lakin hansı istiqamətlərdə?



Qərbin strateji mərkəzlərində aparılan tədqiqat işlərində ərəblərin məğlub olmalarının əsas səbəbi onların yararsız və köhnəlmiş sovet hərbi texnikası və silahları ilə təchiz olunması ilə izah olunurdu. Qeyd etmək lazımdır ki, faktlar belə bir nəticəyə gəlməyə əsas verir: Sovet İttifaqından ərəb ölkələrinə, xüsusilə Misirə satılmış silahlar və texnika köhnə modellər idi. Bu tipli silah və hərbi texnika ilə Qərbin müasir silahı və hərbi texnikası ilə təchiz edilmiş İsrail ordusu ilə mübarizə aparmaq əslində qeyri-mümkün idi. Ancaq bu tədqiqatların başqa bir məqsədi sovet-ərəb münasibətlərinə kölgə salmaqla Moskvanı Yaxın Şərq böhranının nizama salınması prosesindən kənarlaşdırmaq idi.

"Altıgünlük müharibə"nin beynəlxalq həyatda yaratdığı təşviş və nigarançılıq, BMT tərəfindən bu hadisəyə dərhal münasibət bildirməyi tələb edirdi. Təhlükəsizlik Şurasının 242 saylı məlum Qətnaməsində münaqişədə iştirak edən tərəflərdən tələb edilirdi ki, atəşi dərhal dayandırıb problemi danışıqlar yolu ilə həll etsinlər. Sənəddə qeyd edilirdi ki, İsrail dövləti müharibə nəticəsində işğal etdiyi torpaqlardan ordusunu qeyd-şərtsiz geri çəkməlidir. Göründüyü kimi, qətnamə Yaxın Şərqdə sülhün və təhlükəsizliyin bərpasını nəzərdə tuturdu. Lakin bu qərar da icra mexanizmi ilə təmin olunmadığından havadan asılı qaldı və İsrail hakim dairələri tərəfindən qulaqardına vuruldu*. Təhlükəsizlik Şurası tərəfindən İsrailə təcavüzkar bir dövlət kimi iqtisadi və ya hərbi sanksiya tətbiq edilməməsi üzündən, Yaxın Şərq böhranının ömrü yenə də uzandı.

Qeyd olunduğu kimi, yarandığı ilk gündən İKT-nin diqqət mərkəzində Yaxın Şərq münaqişəsinin nizama salınması və Fələstin Ərəb dövlətinin yaradılması ilə bağlı məsələlərin həlli durur. Amma istər bu təşkilat çərçivəsində və istərsə də Ərəb Ölkələri Liqası xəttilə Yaxın Şərq münaqişəsinin həllində ərəb dövlətləri vahid cəbhədən deyil, bir-birinə zidd iki qütbdən çıxış etmişlər. Birinci dəstəyə daxil olan və radikal

* 1947-1967-ci illər ərzində ərəb-İsrail qarşıdurması və Fələstin problemilə bağlı BMT Baş məclisi 657 dəfə iclas keçirib. Bax: 66, s.106.

mövqedən çıxış edən dövlətlər ümumiyyətlə İsrail dövlətini tanımamaq, onunla heç bir əlaqə yaratmamaq və Fələstin ərazisində yalnız bir dövlətin - Fələstin ərəb dövlətinin yaradılması xəttini dəstəkləyirlər. Bu xəttin tərəfdarları Təhlükəsizlik Şurasının 242 saylı məlum qərarını da rədd edirlər. Bu mövqe Ərəb Ölkələri Liqasının 1967-ci il avqustun 31-də Xartum toplantısında qəbul etdiyi Bəyannamədə də öz əksini tapmışdır. Bu sənəddə ərəb dövlətlərinin İsraillə bağlı ümumi mövqeyi aşağıdakı cümlə ilə ifadə olunmuşdu: "Nə sülh, nə birbaşa danışıqlar və nə də tanımaq!" (35, s.448).

İkinci xəttin tərəfdarları isə əsasən qərbyönlü mühafizəkar ərəb dövlətləridir. Qərb ölkələri ilə münasibətlərdə şəxsi maraqlara üstünlük verən bu dövlətlərin hakim dairələri, İsrailin tamamilə məhv edilməsinin əleyhinə çıxaraq, bu dövləti BMT qərarı ilə təyin olunmuş hüdudlarda tanımaq təklifini müdafiə edirlər. Bir-birinə zidd olan bu iki xətt, bu problemə İKT çərçivəsində baxılanda da özünü göstərir. Qərb diplomatiyası isə ikinci xətt vasitəsilə İslam Konfransı Təşkilatının bu problemlə bağlı mövqeyinə təsir göstərir və İsrailə qarşı radikal addımların atılmasının qarşısını almağa müvəffəq olur.

Ümumiyyətlə, İKT-nın ali orqanlarının toplantılarında müzakirə olunan məsələləri iki qismə bölmək olar: Birinci qismə müsəlman ölkələrinin aktual problemləri daxildir. İkinci qismə isə cari və ya gözlənilməz məsələlər şamil olunur. Özünün kəskinliyi ilə seçilən Yaxın Şərq böhranı əhəmiyyət və aktuallığına görə birinci qism məsələlərdəndir və İslam Konfransı Təşkilatının Nizamnaməsində də öz əksini tapmışdır.

Fələstin ərəb dövlətinin yaradılmaması və İsrailin 1967-ci ildə işğal etdiyi ərazilərdən geri çəkilməməsilə bağlı problemlər Zirvə toplantılarında və xarici işlər nazirlərinin konfranslarında hər il müzakirə və diskussiya obyektinə çevrilir və müvafiq qətnamələr qəbul edilir. 1974-cü ilin fevralın 22-24-də İKT-nin Lahorda (Pakistan) çağrılmış Zirvə toplantısında qəbul edilmiş qətnamədə qeyd edilirdi ki, İsrail işğal etdiyi bütün torpaqlardan geri çəkilməli; Fələstin xalqının mübarizəsi müdafiə olunmalı; Fələstin Azadlıq Təşkilatı Fələstin xalqının



azadlıq mübarizəsinə başçılıq edən yeganə təşkilat kimi tanınmalı; Üzv dövlətlər öz ölkələrində Fələstin Azadlıq Təşkilatının nümayəndəliyinin açılmasına şərait yaratmalıdırlar; Qətnamədə İsrailə yardım edən dövlətlərdən xahiş olunurdu ki, bu yardımı dayandırsınlar, İsraillə diplomatik və başqa əlaqələri kəssinlər. Zirvə toplantısı Yaxın Şərq böhranının həll olunmasının açarını, Fələstin ərəblərinin qanuni hüquqlarının tanınmasında və Qüds üzərində ərəblərin idarəçiliyinin bərpa və qəbul olunmasında görürlər.

Böhranın kompleks halında nizama salınmasını nəzərdə tutan bu sənəddə ərəblərin maraqları müdafiə olunsa da, İsrailin tanınmaması üzərindən sükutla keçilmişdi (138, s.38-43).

İKT-nin Üçüncü Zirvə toplantısında (Məkkə-Taif, 25-28 yanvar 1981-ci il) İslam dünyası ilə bağlı müxtəlif problemləri, o cümlədən Qüdsün azad olunması, Fələstin ərəb dövlətinin yaradılması, İraq-İran müharibəsi, Əfqanıstanın sovet ordusu tərəfindən işğalı, Livan böhranı, İslam məhkəməsinin yaradılması, Afrikanın sahilyanı ölkələrinin problemləri, İslam ölkələrində insan hüquqları və s. məsələlər müzakirə olundu. Gündəlikdə duran bu məsələlər mürəkkəb idi və onların bir çoxunun həlli müsəlman ölkələrinin imkanlarından kənarda olub, böyük dövlətlərin maraqları ilə əlaqəli idi. Qətnamənin "Fələstin" bölməsində qeyd edilmişdi ki, Fələstin probleminin nizama salınması "bütün İslam ümmətinin əsas vəzifəsidir" (84, 1983, №4, s.102) və tələb olunurdu ki, İsrail işğal etdiyi ərazilərdən geri çəkilməlidir.

İKT-nin Dördüncü Zirvə konfransında (Kasablanka, 16-19 yanvar 1984-cü il) Ərəb Ölkələri Liqasının XII Konfransında (1982-ci ildə Mərakeşin Fes şəhəri) Yaxın Şərq böhranına dair qəbul edilmiş qətnamə müzakirəyə çıxarıldı. Qətnamənin layihəsi Səudiyyə Ərəbistanının kralı Fəhd tərəfindən təqdim edildi. Bu sənəddə regionda mövcud olan bütün dövlətlərin beynəlxalq birlik tərəfindən qəbul olunmuş sərhədlər çərçivəsində təhlükəsizliyinin təmin olunması təklif olunurdu. Bu ölkələr cərgəsində İsrail də vardı. Göründüyü kimi, layihənin müəllifləri Qərb dövlətlərilə hərtərəfli əlaqələri olan mühafizə-

kar ərəb rejimləri idilər. Yaxın Şərq böhranının nizama salınmasında yeni element kimi təzahür edən bu təklif, təbii ki, konfrans iştirakçıları tərəfindən birmənalı qarşılanmadı. Çünki bu sənəddə Fələstin ərəb dövlətinin yaradılmasından söz getmirdi. Bu sənədlə bağlı ortaya çıxan əsas sual İsrailin hansı sərhədlər daxilində tanınması və onun təhlükəsizliyinin təmin olunması ilə bağlı idi. Bu suala İKT-nın qətnaməsində cavab tapmaq, əslində qeyri-mümkün idi.

Yaxın Şərqdə gərgin vəziyyətin davam etdiyi şəraitdə, 1987-ci ilin yanvarın 26-28-də Küveytdə İKT-nin növbəti - V Zirvə toplantısı işə başladı (50, 1988, s.433-434). Küveyt yığıncağında iştirak edən hökumət və dövlət başçıları yenə də İsraildən tələb etdilər ki, işğal etdiyi ərazilərdən geri çəkilsin və Fələstin ərəblərinin müstəqil dövlət yaratmaq hüquqlarını rəsmən tanısın. Qəbul olunmuş qətnamədə Fələstin ərəb dövlətinin paytaxtı Qüds şəhəri qeyd olunurdu. Əlavə edək ki, Fələstinlə bağlı qəbul edilmiş ilk qətnamədən artıq 18 il keçirdi! Bundan qabaq çağırılmış Zirvə toplantılarında buna bənzər qətnamələr qəbul edilsə də, problem həll edilməmiş qalırdı.

Bütün Zirvə toplantılarında Fələstin məsələsinin müzakirə obyektinə çevrilməsi, İslam dünyasının bu problemə ciddi yanaşdığından xəbər verirdi. Lakin bu məsələnin ədalətli həlli mümkün olmadığından ərəb dövlətləri yeni yollar axtarırdı. Nəticədə İsrailə qarşı sərt mövqeyi bir qədər yumşaltmağı nəzərdə tutan təklif ortaya çıxdı. Belə ki, dövrün reallıqlarını nəzərə alan bəzi ərəb dövlətləri Qüdsün cihad yolu ilə azad edilməsindən əl çəkib, problemin Yaxın Şərq böhranına həsr edilmiş beynəlxalq konfrans çərçivəsində danışıqlar yolu ilə həllinə üstünlük verdilər. Əslində sovet diplomatiyası tərəfindən irəli sürülmüş bu təklifdə problemin həllində maraqlı olan bütün tərəflərin - İsrailin, Səudiyyə Ərəbistanının, İordaniyanın, Livanın, Suriyanın, Misirin və Fələstin Azadlıq Təşkilatının iştirakı nəzərdə tutulmuşdu. Bu təklifə əsasən BMT Təhlükəsizlik Şurasının beş daimi üzvü konfransda müşahidəçi qismində iştirak etməli idilər. ABŞ tərəfindən irəli sürülmüş variantda isə Fələstin Azadlıq Təşkilatı isisna olmaqla digər



dövlətlərin bu toplantıda iştirakına razılıq verilirdi. ABŞ-ın təklifi İsrailin problemin həllindəki mövqeyi ilə üst-üstə düşürdü. Cihaddan beynəlxalq konfransın çağırılmasına keçid problemin danışıqlar müstəvisinə çıxarılmasına doğru bir addım idi. Digər tərəfdən problemin bu yolla nizama salınmasına üstünlük verilməsi, İKT-nin Nizamnaməsinin pozulması demək idi, çünki bu sənəddə Fələstinin yalnız cihad yolu ilə azad olunması qeyd edilmişdi.

1991-ci ilin dekabrın 5-də Seneqalın paytaxtı Dakarda İKT-nin VI Zirvə toplantısı işə başladı. İslam dünyası ilə bağlı üç mühüm hadisə Zirvə görüşünün gedişinə təsir etdi. Belə ki, bu dövrdə Fələstin məsələsini həll etmək üçün beynəlxalq konfrans çərçivəsində ərəb-İsrail dialoqu başlanmışdı və bu müzakirələr davam edirdi. Fars körfəzində başlanan müharibə ABŞ və onun müttəfiqlərinin qələbəsilə başa çatmışdı. Əfqanıstandan sovet qoşunları geri çağırılmış, bu ölkənin suverenliyi bərpa edilmişdi. Keçən iclaslarda olduğu kimi bu dəfəki toplantıda da Fələstin problemini müzakirə edən yığıncaq, Yaxın Şərq böhranına həsr edilmiş beynəlxalq konfransın gedişini alqışlasa da, qəbul etdiyi qətnamədə böhranın yeganə, düzgün və ədalətli həlli yolunun İsrailin işğal etdiyi ərazilərdən sözsüz geri çəkilməsinə bağlı olduğu qeyd edilmişdi. İsraillə müzakirələrə münasib şərait yaradılsın deyə "cihad" sözü qətnamənin mətnindən çıxarıldı. Görünür İKT-nin bu məsələ ilə bağlı mövqeyində yumşaqlıq meyllərinin təzahürü, Fars körfəzində baş vermiş son hadisələrlə bağlı idi. Lakin bu Zirvə toplantısı da mübahisəsiz keçmədi. «Cihad» sözünün Qətnamədən çıxarılması İran xarici işlər naziri Vilayəti tərəfindən kəskin narazılıqla qarşılandı. Mətbuat nümayəndələrinə verdiyi müsahibəsində Vilayəti bildirdi ki, "İran Yaxın Şərqə aid Madriddə davam edən sülh konfransının tanınmasının əleyhinədir" (133, 15.XII.1991). Lakin buna baxmayaraq, Siyasi Komitənin qəbul etdiyi qərarda qeyd edilirdi ki, Madrid konfransının çağırılmasına yönəlmiş səyləri alqışlayır və BMT TŞ tərəfindən qəbul edilmiş 242, 238 və 497 saylı qətnamələrin yerinə yetirilməsini, işğal olunmuş ərazilərdən İsrail silahlı

qüvvələrinin çıxarılmasını, zəbt edilmiş ərazilərə yəhudilərin köçürülməsinin və bu yerlərdə yəhudi məskənlərinin tikilməsinin dayandırılmasını tələb edir.

1994-cü ilin dekabrın 13-14-də Mərakeşin Əl-Bəyaz şəhərində VII Zirvə toplantısı çağırıldı. Konfrans İKT-nin 25 illiyinə həsr olunduğu üçün onun işində 50 müsəlman ölkəsindən 26 dövlət başçısı, 7 baş nazir, 6 xarici işlər nazirləri iştirak edirdilər. Zirvə toplantısı tərəfindən qəbul edilmiş Siyasi Bəyannamədə, Yaxın Şərq böhranının əsas elementləri olan Qüds problemi, Fələstin məsələsi və bütövlükdə Ərəb-İsrail qarşıdurması kimi məsələlər öz əksini tapmışdı. Bu sənəddə qeyd edilmişdi ki, Yaxın Şərqdə ədalətli sülhün bərqərar olunması İsrailin işğal etdiyi torpaqlardan çıxıb getməsi şəraitində mümkündür. Bu dövlət 1967-ci ildə zorla ələ keçirdiyi ərazilərin hamısını, o cümlədən Qüdsü, Colan yüksəkliklərini və Livanın cənubunu sözsüz tərk etməlidir. Bu bəyannamədə Təhlükəsizlik Şurasının «sülh-ərazi mübadiləsi»ni nəzərdə tutan 242, 238 və 425 saylı qətnamələrinin icrasının zəruriliyi qeyd edilmişdi.

İKT-nin VIII Zirvə toplantısında da (Tehran, dekabr 1997-ci il) Yaxın Şərq böhranı ciddi müzakirə obyektinə çevrildi. Burada da keçmişdəki qətnamələrə bənzər sənədlər qəbul edildi. Lakin böhran və onun özəyi olan Fələstin ərəb dövlətinin yaradılmasına aidiyyatı olan məsələlər yenə də öz qəti həllini tapmadı.

İslam Konfransı Təşkilatı əsasən Fələstinin azad olunması və İslam dünyasının müqəddəs ziyarətgahlarının qorunması məqsədilə yaradıldığından, ilk gündən bu iki məsələ həm də xarici işlər nazirlərinin konfranslarında müzakirə olunaraq, müvafiq qərar və qətnamələr qəbul edilmişdir. Əgər zirvə görüşlərində bu məsələlərə ümumi planda baxılaraq istiqamətverici sənədlər qəbul edilirdisə, xarici işlər nazirlərinin konfranslarında problemlə bağlı geniş müzakirələr aparılmış və əhatəli qətnamələr qəbul edilmişdir. Xarici işlər nazirlərinin ilk iclasında təşkilati məsələlərlə yanaşı, Fələstinin və müqəddəs Qüdsün mühafizəsi problemləri ümumi halda müzakirə edildi.



II konfransda Fələstinin azad olunması məsələsinə yenə də toxunuldu. III toplantıda xarici işlər nazirləri məsələni daha konkret qoyaraq İsraildən tələb etdilər ki, 1967-ci il iyun ayında işğal etdiyi bütün torpaqları qısa bir zamanda azad etsin.

İKT Xarici işlər nazirlərinin IV konfransında qəbul edilmiş Qətnamədə yeni elementlər diqqəti cəlb edir. Bu qətnamədə konfrans qərara alırdı:

1. İKT üzvlərindən xahiş olunur ki, öz ölkələrində Fələstin Azadlıq Təşkilatının nümayəndəliyinin açılmasına şərait yaratsınlar.*

2. Üzv dövlətlərdən xahiş olunurdu ki, İsrail dövlətilə öz münasibətlərini müəyyən edib onunla siyasi və iqtisadi əlaqələri kəssinlər.

3. Konfrans bir sıra dövlətlərə müraciət edərək xahiş edirdi ki, öz ölkələrindən yəhudilərin Fələstinə köçməsinin qarşısını alsınlar.

4. Fələstinin azad olunmasına maliyyə yardımı göstərmək məqsədilə cihad fondu yaradılsın (bax: 138, s.139).

İKT xarici işlər nazirlərinin IX konfransında bəzi üzv dövlətlərin İsraillə ikitərəfli əlaqələri ayrıca məsələ kimi gündəmə gətirildi. Qəbul edilmiş Qətnamədə qeyd edilirdi ki, bu dövlətlərin İsraillə bütün sahələrdə əlaqələri kəsilməlidir. Bu bəndin yerinə yetirilməsinə nəzarət Baş Katibə həvalə olunurdu və ondan xahiş edilirdi ki, qərarın necə yerinə yetirilməsi barədə hesabatı X konfransa təqdim etsin (138, s.110-115). Bu qətnamədə İsraillə əlaqələrinin kəsilməsi tələb olunan dövlətlər deyərkən, əsasən Misir Ərəb Respublikası, Türkiyə və İran nəzərdə tutulurdu.

* Qərarın bu bəndinin çox mühüm siyasi əhəmiyyəti vardı, çünki Fələstin ərəb xalqının mübarizəsinə ayrı-ayrı ərəb dövlətləri deyil, artıq mütəşəkkil Fələstin Azadlıq Təşkilatı rəhbərlik edirdi. Bu təşkilatın İslam dövlətləri tərəfindən tanınması, Fələstin ərəblərinin çoxmilyonlu müsəlmanlar tərəfindən müdafiə olunması demək idi. Fələstin ərəbləri üçün bunun həm də mənəvi əhəmiyyəti vardı.

70-ci illərin əvvəllərindən etibarən ABŞ-ın Yaxın Şərq siyasətində əsaslı dəyişiklik edildi. Belə Ki, ABŞ İsrailə qarşı ərəb müqavimət hərəkatının önündə gedən Misirin bu cəbhədən ayrılmasını planlaşdırırdı. Xeyli davam edən hazırlıqlardan sonra, ABŞ-ın vasitəçiliyi ilə 1979-cu ilin martın 27-də Misirlə İsrail arasında sülh müqaviləsi imzalandı və beləliklə Misir Ərəb Respublikası ərəb dünyasında İsrail dövlətini tanıyan ilk ölkə oldu (67, s.155). Bununla da ərəb dünyasında onsuz da mövcud olan parçalanma bir az da dərinləşdi.

Yaranmış əlverişli şəraitdən istifadə edən İsrail hökuməti Qüdsün yəhudiləşdirilməsi və burada müsəlmanlara məxsus müqəddəs yerlərin dağıdılması və onların yerində yeni tikililərin inşası prosesini sürətlə davam etdirirdi. İKT xarici işlər nazirlərinin V konfransında bu məsələyə də münasibət bildirildi, İsrail hakim dairələrinin bu addımları pislənildi və bu işlərin dayandırılması tələb olundu (138, s.154-155).

Misir Ərəb Respublikası ilə İsrail arasında dilomatik əlaqələrin yaradılması, bütövlükdə Yaxın Şərqdə və Ərəb-İsrail qarşıdurmasında yeni vəziyyət yaratdı. Ərəb dünyasının ən qüdrətli ölkəsi olan Misirin antiisrail cəbhədən çıxması bu cəbhənin zəifləməsinə və Yaxın Şərq böhranının keyfiyyətcə yeni mərhələyə daxil olmasına səbəb oldu. Yaranmış yeni vəziyyətlə bağlı çoxlu suallar ortaya çıxdı: Misiri İsraillə barışdırmağa aparan Kissincerin "mərhələli diplomatiyası"ndan ərəb liderləri xəbərsiz idilərmi? Bir neçə il arasıkəsilmədən davam etdirilən bu diplomatik gediş-gəlişin qarşısı vaxtında alına bilərdimi? Yəhudi dövlətinin tanınmasında Qahirənin məqsədi nə idi?

Misir rəhbərliyinin bu addımı ilə bağlı qoyulmuş bu suallara cavab tapmaq xüsusi tədqiqat tələb edir. Lakin bir məsələ aydın idi — Misir hökuməti özünün bu addımı ilə İKT-nin Nizamnaməsini pozmuşdu və buna görə xarici işlər nazirlərinin IX və X konfranslarında bu məsələyə kəskin münasibət bildirildi. X konfransda qəbul edilmiş qərarda qeyd edilirdi ki, İsraillə diplomatik və digər əlaqələri kəsmək haqqında IX konfransın qərarını yerinə yetirmədiyinə görə, Misirin İKT-də



üzvlüyü dondurulsun (138, s.110-115; 50, 1983, s.431; 34, s.83). Qətnamədə göstərilirdi ki, Misirin bu təşkilatda üzvlüyünün bərpası İsraillə sülh müqaviləsinin ləğvindən asılıdır. Ancaq belə bir sənədin qəbul edilməsinə baxmayaraq, İslam dünyasına daxil olan dövlətlərin əksəriyyəti Qahirə ilə diplomatik və başqa əlaqələrin kəsilməsi barədə qərar qəbul etmədilər. Əlavə edək ki, Kemp-Deviddə Misirlə İsrail arasında müqavilə imzalanan kimi Bağdadda ərəb ölkələrinin xarici işlər, iqtisadiyyat və maliyyə nazirlərinin təcili müşavirəsi çağırılmışdı və orada Misirlə bütün əlaqələri kəsmək, onun Ərəb Ölkələri Liqası və İKT-da üzvlüyünün dondurulması haqqında qərar qəbul edilmişdi (67, s.155).

Qeyd edildiyi kimi, XX əsrin 80-ci illərinin əvvəllərində İsrail hökuməti tərəfindən atılan bir sıra addımlar Yaxın Şərqdə vəziyyəti son dərəcə kəskinləşdirdi. Qüdsün İsrailin "əbədi paytaxtı" elan edilməsi Yaxın Şərq böhranına yeni element gətirdi. Təl-Əvivin bu addımı Qüds şəhəri ilə bağlı beynəlxalq qanunların, o cümlədən BMT-nin məlum qərarının pozulması demək idi. Yaranmış vəziyyət İKT-ın Xarici işlər nazirlərinin XII konfransında ətraflı müzakirə edildi və aşağıdakı bəndlərdən ibarət qərar qəbul edildi:

- İsrail tərəfindən Qüdsün paytaxt elan edilməsi pislənilir və qətiyyətlə rədd edilir;
- Üzv dövlətlər tərəfindən İsrailin BMT və ona bağlı olan qurumlarda üzvlüyünün dondurulmasını nəzərdə tutan tədbirlər görülsün;
- BMT Nizamanaməsinin VIII maddəsinə uyğun olaraq İsrail hökuməti cəzalandırılsın.

ABŞ prezidentinin Kemp-Deviddəki iqamətgahında imzalanmış müqavilə İsrail-Misir münasibətlərini qismən normal məcraya qaytardı, ancaq bu sənəd heç də Yaxın Şərq böhranının hərtərəfli nizama salınmasına təkan vermədi. Hüquqları tapdalanmış Fələstin ərəbləri mübarizələrini davam etdirir, qonşu ərəb ölkələri ərazisindən İsrailə qarşı mübarizənin bir növü kimi terror əməliyyatlarına əl atırdılar. Belə bir vəziyyətdə İsrail hökuməti də öz növbəsində işğalçılıq siyasətindən

əl çəkmir, silah gücünə zəbt etdiyi ərəb torpaqlarından geri çəkilmək istəmirdi.

ABŞ və digər qüdrətli dövlətlərin hərbi-siyasi yardımından istifadə edən və bu dairələrə güvənən İsrail, 1982-ci ilin iyun ayında Livana hərbi basqın etdi. Beləliklə, ərəblərlə yəhudilər arasında sayca 5-ci müharibə başlandı. Cəmi 78 gün davam edən bu savaş nəticəsində Beyrut və onun ətrafı dağıdıldı, çoxlu insan həlak oldu. İsrail hərbçiləri tərəfindən Fələstin qaçqınlarının sığındığı Der-Yasin kəndində qətliam törədildi. 1982-ci il müharibəsi onu göstərdi ki, İsrail ərəblərlə yalnız zor mövqeyindən danışmaq siyasəti yeritmək niyyətindədir və bunu əməldə bir daha sübut etdirdi.

İsrailin ərəblərə qarşı yeni hərbi təcavüzü xarici işlər nazirlərinin XIII konfransında geniş müzakirə olundu. Yekun sənədi kimi qəbul edilmiş qətnamədə İsrailin bu hərəkəti qətiyyətlə pislənildi və ondan tələb olundu ki, Livana qarşı həyata keçirdiyi hərbi təcavüzə son qoysun, qoşunlarını təcili və qeyd-şərtsiz Livan ərazisindən geri çəksin (138, s.318). İslam Konfransı Təşkilatı əslində tövsiyə xarakteri daşıyan bu qərarından başqa İsrailə qarşı heç bir radikal addım atmadı. Livan bu təşkilatın üzvü olsa da ona İKT tərəfindən heç bir iqtisadi və hərbi yardım göstərə bilmədi. İsrailin tələbilə Fələstin Azadlıq Təşkilatı (FAT) özünün hərbi birləşmələrini Livandan çıxarmalı oldu. FAT belə bir qərara gəlməyin səbəblərini dinc əhalinin qırılmasının və Beyrutun dağıdılmasının qarşısını almaq istəyilə izah edirdi.

BMT-nin Yaxın Şərq böhranı ilə bağlı məlum qərarlarına və İKT-nin tələblərinə heç bir məhəl qoymayan İsrail isə Ərəb Şərqinə qarşı zorakılıq siyasətini davam etdirməkdə idi. Bunun əsas səbəbi bir tərəfdən qüdrətli dövlətlərin Tel-Əvivlə strateji əməkdaşlığı idisə, digər tərəfdən də BMT xəttilə təcavüzkar dövlətə qarşı heç bir iqtisadi və hərbi sanksiyanın tətbiq edilməməsi idi.

1982-ci il hadisələrindən sonra əslində Fələstin Azadlıq Təşkilatı İsraillə mübarizə meydanında təkbətək qalmışdı. Artıq bu təşkilat ərəb dünyası və bəzi qeyri-ərəb dövlətləri tərəfindən rəsmən tanınır və mübarizəsi dəstəklənirdi. Moskvada FAT-ın nümayəndəliyi açılmışdı. İranda şahlıq rejimi devriləndən sonra Fələstin Azadlıq Təşkilatı rəsmən tanındı və İsrailin Tehrandakı səfirliyinin binası bu təşkilata verildi. İranda inqilabın qələbəsindən sonra Tehrana rəsmi səfərlə gələn ilk ərəb lideri Yasir Ərəfat oldu. 1984-cü ildə Kasablankada keçirilən İKT-nin IV Zirvə toplantısında isə Ərəfat rəyasət heyətində sədr müavini üçün ayrılmış fəxri yerdə əyləşdirildi (73, s.122).

1988-ci ilin noyabrında Fələstin ərəb dövlətinin yaradılması rəsmən elan edildi və elə həmin ay bu dövlət İKT tərəfindən tanındı (73, s.105). İslam dünyası tərəfindən bu xəbər rəğbətlə qarşılansa da, bu dövlətin yerləşdiyi ərazi və onun hüdudları aydın müəyyən olmadığından, onun müsəlman dövlətləri tərəfindən de-yure tanınması istiqamətində əməli addım atılmadı. Lakin bununla belə, Fələstin Azadlıq Təşkilatı özünü suveren bir dövlət kimi dünya birliyinə təqdim edir və 1988-ci ilin noyabrında Fələstin Milli Məclisinin fövqəladə sessiyasında Qüds şəhəri Fələstin Ərəb dövlətinin paytaxtı elan edildi (68, s.173).

Ümumiyyətlə, keçən əsrin 80-ci illərinin birinci yarısından etibarən Yaxın və Orta Şərqdə baş vermiş bir sıra hadisələr İslam Konfransı Təşkilatının fəaliyyətinə, o cümlədən bu qurumun Yaxın Şərq böhranının nizama salınmasındakı mövqeyinə təsir göstərdi. Misir tərəfindən İsrailin de-yure tanınması və onunla diplomatik əlaqələrin yaradılması, 1980-ci ildə İraqın İrana həbi təcavüzü və iki qonşu müsəlman dövləti arasında müharibənin davam etməsi, Əfqanıstana sovet hərbi təcavüzü və s. bu kimi faciəli hadisələr, İKT-nin İslam dünyası problemlərilə bağlı fəaliyyətində müəyyən dəyişikliklərə gətirib çıxardı. Bu dövrdə həmçinin Misirin bu təşkilatda üzvlüyünün bərpası gündəliyə çıxarıldı. XVIII konfransda qərara alındı ki, müsəlman ölkələrində "Nüsrət ül-Filəstin" adlı xüsusi komitələr yaradılsın. Komitələr "İslam ümməti" arasında izahat işləri aparmaqla, müsəlmanların diqqətini Fələstin ərəblərinin faciəsinə cəlb etsinlər. Bu hadisələrlə eyni vaxtda Fələstin Azad-

lıq Təşkilatının İsraillə bağlı mövqeyində də müəyyən dəyişikliklər baş verdi. Qərb diplomatiyasının tövsiyəsi ilə FAT-İsrail əlaqələrində təzahür edən dəyişikliklər, bütövlükdə o dövrdə dünya siyasətində baş verən proseslərlə bağlı idi. Yaxın Şərqdə Qərb dövlətlərinin mövqeyi getdikcə möhkəmlənməkdə idi. M.Qorbaçovun "yenidənqurma" siyasəti FAT-İsrail münasibətlərində də təsirsiz qalmadı. Belə ki, 1988-ci ilin sonunda Əlcəzairdə Fələstin Şurası tərəfindən açıqlanan Bəyannamədə, *BMT-nin İsraillə* bağlı 242 və 338 saylı qətnamələrinin qəbul olunması bəyan edildi. Bu qərar əslində İsraili tanımamaq haqqında FAT-ın əvvəllər dəstəklədiyi mövqedən geri çəkilməsi demək idi. Yasir Ərəfatın növbəti addımı onun 1989-cu ilin aprelində Fransaya rəsmi səfəri zamanı atıldı. Fransanın prezidenti ilə görüşündə Ərəfat, İsrailin devrilməsini nəzərdə tutan "Fələstinin Nizamnaməsi" adlı sənədin ləğv edildiyini elan etdi. 1993-cü ildə isə Osloda (Norveç) aparılmış Ərəb-İsrail danışıqları nəticəsində Fələstin Milli Muxtariyyəti yarandı və işğal olunmuş torpaqların idarəsi bu muxtariyyətə tapşırıldı. 1996-cı ildə Fələstində prezident və qanunverici orqana seçkilər keçirildi. Seçkilərdə FAT sədri Y.Ərəfat və Fəth partiyası qalib gəldi. Bütün bunlar Yaxın Şərq böhranının həllinə doğru atılan barışdırıcı müsbət addımlar idi. Lakin münaqişə tərəfləri bu müsbət təmayüldən və əlverişli şəraitdən istifadə etmədilər.

2000-ci ildə Fələstin ərəblərinin azadlıq hərəkatının yeni mərhələsi - «İkinci intifada» (İntifada əl-əqsa) başladı. İKT-nin 12-13 noyabr 2000-ci il tarixdə keçirilmiş IX Zirvə toplantısında eyniadlı («İntifada əl-əqsa») Bəyannaməsi qəbul olundu və İsraildən BMT Təhlükəsizlik Şurasının 242, 338 və 425 saylı qətnamələrə əməl etməsi tələbi irəli sürüldü (143).

2001-ci il dekabrın 3-də Yasir Ərəfat müsəlman ölkələrinə müraciət edərək İsrailin təcavüzünü pisləmək və dünya ictimaiyyətinin diqqətini bu məsələyə yönəltmək üçün İKT-nin təcili yığıncağının çağrılmasını tələb etdi.

İKT-nin Fələstin problemi ilə bağlı növbəti Bəyannaməsi 16-17 oktyabr 2003-cü ildə Putrajavada keçirilmiş Zirvə



toplantısında qəbul edildi (143). Bu Bəyannamədə, həmçinin İsrailin Suriya ərəblərinə qarşı təcavüzü də pislənərək ondan İKT Xarici işlər nazirlərinin qəbul etdiyi 2/20-P saylı qətnaməyə əməl etməsi də tələb olunurdu.

Y.Ərəfatın vəfatından sonra Fələstin muxtariyyətində hakimiyyətə Mahmud Abbas gəldi (2004-cü il). 2005-ci ildə İsrail öz qoşunlarını Qəzzə bölgəsindən tamamilə çıxardı. Güman etmək olardı ki, münaqişənin həlli üçün, nəhayət, real imkanlar yaranıb. Lakin 2006-cı ilin yanvarında Fələstində keçirilən seçkilərdə «Həmas»ın qələbəsi və İsrailin baş naziri Ehud Olmertin Fələstinin yeni hökuməti ilə hər cür danışıqların dayandırıldığını elan etməsi (145) bölgədəki vəziyyəti yenidən gərginləşdirdi.

İKT ölkələri vəziyyəti diqqətlə izləyir və Ərəb-İsrail danışıqlarının bərpasına çalışırdılar.* Səudiyyə Ərəbistanı kralı Abdallahın vasitəçiliyi ilə 2007-ci ilin yanvarında Fəth-Həmas qarşıdurmasının dayandırılması ilə bağlı qəbul olunmuş qərar da bu məqsədlə idi. Lakin 2007-ci ilin iyununda atəşkəs pozuldu və Fələstinin daxilindəki bu qarşıdurma İsrailin bölgədə yenidən fəallaşmasına imkan verdi.

Beləliklə, tədqiqatın xronoloji çərçivəsi dövründə İKT Fələstin probleminin həlli naminə çox ciddi və konkret addımlar atmış, onun Fələstin dövlətinin yaranması xeyrinə yekunlaşması uğruna mübarizə aparmışdır. Bunlara baxmayaraq, Yaxın Şərq böhranı davam etməkdədir.

### 2.3. Ərəb ölkələrinin birliyi və İKT

Tədqiqat dövründə İKT-nin beynəlxalq fəaliyyətinin diqqət mərkəzində ərəb dünyasının birliyi problemi əsas bir problem kimi dayanırdı. Düzdür, İslam Konfransı Təşkilatı tarixinin tədqiqi göstərir ki, onun Nizamnaməsində ərəb ölkələrinin birliyi probleminin həllinə yönəldilən xüsusi maddə

---

* Ərəb-İsrail münaqişəsi ilə bağlı İKT-nin sonuncu XI Zirvə toplantısında da (Dakar,13-14 mart 2008-ci il) Bəyanamə qəbul olunmuşdur (143).

nəzərdə tutulmamışdır və bu təşkilat müsəlman dövlətləri arasında əməkdaşlığın inkişafına kömək etmək, onların müasir beynəlxalq münasibətlər sistemində mənafeyini müdafiə etmək məqsədilə birgə mövqedən çıxışlarını təşkil etmək naminə təsis edilmişdir. Lakin onun siyasi fəaliyyəti istiqamətləri sübut edir ki, Ərəb ölkələri birliyi problemi onun əsas məqsədlərindən birinə çevrilmişdir. Odur ki, bu mövzu ilə bağlı mühakimə yürüdülərkən, məsələyə mənəvi-psixoloji baxımdan yanaşmağı da diqqətdən kənara qoymaq olmaz.

İslam dini hazırda ərəb dünyasının aparıcı ölkələrindən sayılan Səudiyyə Ərəbistanında ərsəyə gəlmiş, Məhəmməd peyğəmbər isə milliyyətcə ərəb olmuşdur. Bu insanın böyüklüyü və əzəməti həm də onunla ölçülür ki, o, mifik bir obraz olmayıb, tarixdə dərin iz qoymuş dahi və böyük tarixi şəxsiyyətdir. Tanınmış bəşər övladlarından heç biri böyük bir ərazidə insanların şüuruna təsir etmək baxımından Məhəmməd Peyğəmbərin fəth etdiyi zirvəyə ucala bilməyib. 1 mlrd. 250 milyona yaxın insanı öz ardınca aparan bu böyük şəxs dünya korifeylərinin zirvəsində durur. Onun yaratdığı din humanizmi, paklığı, ədaləti və sosial bərabərliyi təbliğ etdiyindən, ona sitayiş edənlərin sayı günü-gündən çoxalmış və sıraları indi də artmaqdadır. İslam dininin müqəddəs ziyarətgahları, milyonlarla müsəlmanın sitayiş etdiyi yerlər ərəb torpaqlarında yerləşir. Çoxsaylı müsəlmanlar namaz qılarkən üzü qibləyə - peyğəmbərin anadan olduğu yerə durur, əllərini Allah-taalanın dərgahına qaldırır. Başqa sözlə desək, İslamın gücü və əzəməti müəyyən mənada ərəb dünyasında gedən proseslərdən, bu dünyanı təşkil edən ölkələrin birliyi ilə bağlıdır.

Əlavə edək ki, Ərəb dünyası dedikdə, qərbdə Atlantik okeanından tutmuş şərqdə Qırmızı dəniz və Fars körfəzi arasında 21 ərəb ölkəsinin yerləşdiyi böyük bir ərazi nəzərdə tutulur. Ümumi sahəsi 12 mln. kv. km-dən artıq olan bu ərazidə təxminən 200 mln. insan yaşayır. Geosiyasi baxımdan Ərəb dünyası Yer Kürəsinin ən həssas və əlverişli regionu hesab olunur. Bir çox beynəlxalq əhəmiyyətli kommunikasiya xətləri — dəniz, quru və hava yolları ərəb ölkələrindən keçir.



Bura faydalı qazıntılarla zəngindir. Dünyada aşkar edilmiş neftin təxminən 60% ərəb ölkələrinin payına düşür. Ərəb dünyasının müasir beynəlxalq həyatda çəkisini artıran amillərdən biri də dünyanın üç aparıcı dininin — islamın, xristianlığın və iudizmin müqəddəs ziyarətgahlarının Fələstində yerləşməsidir. Bütün bu amillər ərəb dünyasının müasir beynəlxalq münasibətlər sistemində mövqeyini və aparıcı dövlətlərin diplomatiyasında yerini müəyyən edir. Ərəb dünyasını təşkil edən ölkələri bir-birilə bağlayan güclü tellər - dil, din, adət-ənənə, həyat tərzi, mədəniyyət və vahid ərazi kimi güclü amillər bu dünyanın bütövlüyünə və burada yaşayan insanların vahid bir xalqın övladları olduğuna dəlalət edir və bu amillər onların birliyi üçün əsaslı zəmin yaradır. Lakin bununla belə bu vahid millətin bütöv ərazisi 21 yerə parçalanmış, bu ərazi müxtəlif ictimai-siyasi və iqtisadi quruluşa malik dövlətlər arasında bölünmüşdür. Ərəb dünyasında ictimai-siyasi və iqtisadi inkişaf baxımından orta əsrlərlə müasir dövr üz-üzə dayanmışdır. Burada keçmişdən müasir dövrə yadigar qalmış mütləqiyyət üsul-idarəli rejimlər, demokratiyanın və insan hüquqlarının qorunmasını deklarativ şüar edən respublika quruluşların mövcud olması bu ölkələr arasında səmərəli əməkdaşlıq yolunda ciddi maneələr törədir.

Ərəblər arasında nifaq toxumunun cücərməsini təkcə daxili amillərlə bağlamaq, obyektivlikdən uzaq olardı. Ərəb birliyinin təşəkkül tapa bilməməsində xarici amilin də rolu və iştirakı güclüdür. "Parçala və hökmranlıq et" bədnam prinsipi ərəblərə də tətbiq edilmiş, onların vahid bir dövlətdə birləşmələrinə mane olmuşdur. Ərəb dünyasının aydın düşüncəli, mütərəqqi şəxsiyyətləri "bir millətin 21 dövləti" problemi ətrafında vaxtaşırı düşünmüş, ərəb dünyasının bir yerə yığışmasına çarə axtarsalar da, real bir yolun tapılması indiyəcən heç bir ərəbə nəsib olmamışdır.

XX əsr ərəblər qarşısında yeni problemlər qoydu. Əsrin əvvəllərində başdan-başa müstəmləkəyə çevrilmiş ərəb ölkələri, bu sistem dağılmağa başlayanda, onların taleyilə bağlı problemlər Ərəb dünyasının siyasi və dini mərkəzləri əvəzinə, yenə

də Avropanın və ABŞ-ın paytaxtlarında həll olunmaqda idi. Aydındır ki, xarici qüvvələr bu məsələyə öz maraqları baxımından yanaşırdılar. Beləliklə vahid ərəb dünyasında 21 ərəb dövləti siyasi arsəyə qədəm qoydu. Bunların vahid cəbhədə birləşməsi Ərəb dünyasının düyünlü problemlərindən birinə çevrildi.

Ərəb ölkələrində belə bir vəziyyətin olmasına baxmayaraq, İkinci dünya müharibəsi qurtarandan sonra Ərəb dünyasının birliyi yolunda ilkin addımlar atıldı. Belə ki, 1945-ci ilin martında Qahirədə çağırılmış konfransda Ərəb Ölkələri Liqası yaradıldı (91, cild I, s.677). Liqanın məramı Ərəb dünyasının problemlərini birgə həll etmək, xarici siyasətlə bağlı məsələlərdə vahid mövqedən çıxış etmək idi. Ərəblərin birliyi yolunda atılan bu ilk addım, bütün nöqsanlarına baxmayaraq, müsbət hadisə idi. Ancaq bu Liqanın daimi fəaliyyətdə olan birlik mexanizminə çevrilməsi üçün çox iş görmək lazım idi.

1948-49-cu illərdə baş vermiş birinci Ərəb-İsrail müharibəsində ərəblərin məğlubiyyəti və Fələstin ərəb dövlətinin yaradılmaması, Ərəb Ölkələri Liqasının bu hadisələrin gedişinə təsir göstərə bilməməsi onun zəif bir qurum olmasını göstərdi. Gözlənilməz hadisə bu idi ki, Liqanın üzvü olan İordaniya, bu müharibədə Fələstin ərəblərini müdafiə etmək yolunda deyil, əslində öz maraqları uğrunda savaş meydanına atılmışdı. İordaniya əmiri Abdulla yəhudilərlə gizli danışıq aparmaqla Fələstin ərəbləri üçün ayrılmış torpaqların bir qismini ələ keçirməyə nail oldu. Onun bu hərəkəti Fələstinli ərəblər tərəfindən satqınlıq kimi qiymətləndirildi və əmir 1951-ci ilin iyununda əl-Əqsa məscidinə girərkən qətlə yetirildi (66, I cild, s.459).

Ərəb dünyasının birliyindən daha çox ərəb millətçiliyi yolunda addım 1949-cu ildə Suriyada Bəəs partiyasının yaradılması ilə atıldı. Partiyanın proqramında "islam ümməti" prinsipi əvəzinə "ərəb milləti" ifadəsi işlənirdi. Proqramda həm də ərəb millətçiliyi təbliğ edilirdi. Bu sənəddə İsrail və ona kömək edən xristian ölkələrilə yanaşı, İran və Türkiyə də ərəb millətinin düşməni kimi qeyd olunurdu (Ətraflı bax: 19). Proqramın əsas müəllifi Suriya xristianlarından olan Mişel Əflakın



məqsədi, görünür İslam dünyasında parçalanmağı dərinləşdirmək idi. Ərəb ölkələrində gedən proseslərdən yaxşı xəbərdar olan Əflak, görünür belə bir qənaətə gəlirdi ki, ərəblərin bir yerə yığılması müşkül məsələdir, xristianlar üçün əsas təhlükə mənbəyi ancaq müsəlman ölkələrinin vəhdətidir. Buna görə də bu birliyin fəal və aparıcı ünsürləri sayılan İran, Türkiyə və ərəblərin birliyinə imkan verilməməlidir. Bu işdə uğur ərəb millətçiliyinin dirçəlməsindən keçirdi.

XX əsrin 50-ci illərinin əvvəllərində Misirdə baş vermiş hadisələr yenə də ərəb ictimaiyyətinin diqqətini ərəblər arasında birliyin zəruriliyinə cəlb etdi. Bu ölkədə 1952-ci ildə dövlət çevrilişi nəticəsində kral Faruqun "imperializmin əlaltısı" kimi ölkədən qovulması, ərəb dünyasında milli dirçəliş üçün detonator rolunu oynadı. Bu prosesin qarşısını almaq məqsədilə Qərb diplomatiyası, Misirdə hakimiyyətə gəlmiş milli hökuməti ələ almaqla onu iqtisadi-siyasi baxımdan özündən asılı vəziyyətə salmaq üçün planlar cızdı. Beləliklə, Fələstin problemi hələ nizama salınmamış Ərəb dünyası üçün yeni bir problem - Süveyş kanalı böhranı baş qaldırdı. Süveyş kanalının milliləşdirilməsi yeni müstəmləkəçilərin Ərəb Şərqilə bağlı ekspansiya xəttinin pozulması üçün nümunə ola bilərdi. Buna imkan verməmək məqsədilə Misirə qarşı Fransa, İngiltərə və İsrailin iştirakı ilə üçtərəfli hərbi təcavüzə əl atıldı. İqtisadi cəhətdən zəif, hərbi qüdrəti olmayan bir ölkəyə qarşı yaxşı silahlanmış və təlim görmüş üç ölkənin birləşmiş ordu hissələri yeridildi. Belə bir hadisənin baş verməsinin əsas səbəblərindən biri də ərəblərin parçalanmış halda olması idi. Bir çox ərəb dövlətləri ancaq bəyanatlar verməklə öz vəzifələrini bitmiş hesab etdilər. Yaxın Şərqdə yaranmış vəziyyətdən əsasən Sovet İttifaqı, özünün maraqları baxımından istifadə etdi. Amma həqiqət naminə qeyd etmək lazımdır ki, Moskvanın qəti və kəskin mövqeyi atəşin dayandırılmasına səbəb oldu. Süveyş böhranı nəticəsində Misirə qarşı üçtərəfli təcavüzdən Ərəb dünyasının qabaqcıl insanları belə bir nəticə çıxartdılar ki, buna bənzər hadisələr gələcəkdə də baş verə bilər və ona hazır olmaq lazımdır.

Keçən əsrin 60-cı illəri Ərəb ölkələri tarixində gərgin hadisələrin "bolluğu" ilə səciyyələndirilir. Bu dövrdə Ərəb Şərqində çoxlu dövlət çevrilişləri edilir, ərəb dövlətləri bir-birinə qarşı ərazi iddiaları ilə çıxış edirlər. Səudiyyə Ərəbistanı həmsərhəd qonşularına ərazi iddiası irəli sürür. İraq Küveytin müstəqilliyini tanımır, buranın İraqa məxsus olması iddiası ilə çıxış edir və arabir onu müharibə ilə hədələyir. Uzun mübarizədən sonra müstəqillik əldə edən Əlcəzairlə Mərakeş arasında ərazi üstündə münaqişə qızışır. Ərəb dünyasında "hamının hamıya qarşı" mübarizə aparmasından istifadə edən İsrail, "6 günlük müharibə" ilə cəbhə xəttində onunla üz-üzə dayanmış ərəb ölkələrini məğlub edir. Problemlər diyarına çevrilən Ərəb Şərqində hökm sürən bu ziddiyyətlərdən yeni müstəmləkəçi dövlətlər və İsrail məharətlə istifadə edirdi. Sürətlə davam edən bu hadisələr burulğanında ciddi problemlərlə üzləşən Ərəb Ölkələri Liqası vəziyyəti normallaşdırmaqda acizlik göstərir. Bu təşkilatın xəttilə çağrılan fövqəladə toplantılarda ərəb ölkələrindən iştirak edən dövlət və hökumət başçıları tövsiyə xarakterli çıxışlarla kifayətlənirlər. İsrail isə yeni torpaqlar qəsb edir, işğal etdiyi ərazilərdə İslam dünyasının müqəddəs yerlərini ya yanğın, ya mərmilərlə dağıtmaqda davam edirdi. Belə bir vəziyyətin hökm sürdüyü bir şəraitdə bəzi ərəb liderləri çıxış yolunu nəinki ərəblərin birliyində, həm də bütün müsəlmanların bir araya gəlməsində axtarırlar. Beləliklə, qeyd edildiyi kimi "İslam ümməti" şüarı ilə İslam Konfransı Təşkilatı siyasi həyata vəsiqə aldı. Lakin bu şüarın özündə də ərəb hegemonluğu ideyasının təsirini inkar etmək olmaz. Bu prinsipin özəyində bütün müsəlmanların ərəb millətinin ətrafında birləşməsi ideyası gizlənmişdir. Buna görə də müsəlmanları birliyə çağıran İKT eyni zamanda ərəb ölkələrinin vəhdətinə xidmət edirdi.

Birinci fəsildə qeyd olunduğu kimi, İKT-nin strukturu 3 region qrupu əsasında formalaşıb: Ərəb, Afrika və Asiya qrupları. Asiya və Afrika qrupları vahid din ətrafında müxtəlif xalqların və etnik qrupların konqlomeratından yaranmışdısa, Ərəb qrupu həm soykök və həm də din baxımından vahid bir



birlikdən ibarət idi. Bu qrupun İKT-nin idarə olunmasına və fəaliyyətinə təsir gücünü artıran amillərdən biri də, qrupu təşkil edən ərəb dövlətlərinin geniş maliyyə imkanlarına malik olmasıdır. Bu imkanlardan istifadə edən Ərəb qrupu, İKT-də qoyulan və müzakirə olunan məsələlərə istiqamət verir və zəruri hallarda ərəblərin xeyrinə qərarların qəbul olunmasına da nail olurlar. Təbii ki, Ərəb qrupunun bu təşkilat çərçivəsində belə tərzdə fəaliyyəti, Ərəb birliyinin təşəkkülündə təsirsiz deyildi. Beləliklə, Ərəb ölkələri arasında birliyə can atan qüvvələr öz məqsədlərinə nail olmaq üçün İKT-nın imkanlarından istifadə edirdilər.

Ərəblərin birləşmə prosesini diqqətlə izləyən Qərb diplomatiyası bu vəhdətin qarşısını almaq üçün müxtəlif vasitələrdən istifadə edirdi. Pərakəndəlik Ərəb ölkələrinin İsrailə qarşı mübarizəsini zəiflədir, xarici kapitalın ərəb iqtisadiyyatına soxulması üçün əlverişli şərait yaradırdı. Bu proses daha qabarıq bir formada ABŞ diplomatiyasında təzahür etmişdi. 1973-cü ildə dördüncü Ərəb-İsrail müharibəsində ərəblərin cəbhədə nisbi qələbəsindən sonra ABŞ-ın Yaxın Şərqlə bağlı siyasətində əsaslı dəyişiklik edildi. Ağ Evin Yaxın Şərq siyasətinin əsasında bir tərəfdən İsrailin hərbi-iqtisadi baxımdan dəstəklənməsi və digər tərəfdən də ərəb ölkələrini parçalamış halda saxlamaq dururdu. Bu taktiki xətt Kissincerin "mərhələli diplomatiya" konsepsiyasında öz ifadəsini tapdı. Əsas məqsəd bir tərəfdən Yaxın Şərq böhranının nizama salınma prosesindən Sovet İttifaqını uzaqlaşdırmaq, digər tərəfdən də Misir Ərəb Respublikasını İsrailə qarşı ön cəbhədə vuruşan ərəb dövlətlərindən ayırmaq idi. ABŞ özünün bu məqsədinə 1979-cu ildə Misirlə İsrail arasında sülhün və diplomatik əlaqələrin bərqərarını nəzərdə tutan müqavilənin imzalanması ilə nail oldu. Bu müqavilə ilə Ənvər Sədat hökuməti öhdəsinə götürürdü:

- İsrailə qarşı hər cür təbliğatdan əl çəkəcək;
- Mübahisəli məsələlərin həllində gücdən istifadə etməyəcək;
- İsrail gəmilərinin Süveyş kanalından keçməsinə icazə verəcək;

- Ərəb ölkələri tərəfindən İsrailin blokadaya alınmasının ləğvinə kömək edəcək (75, s.81).

Misir tərəfindən atılan bu addım Ərəb dünyasında birmənalı qarşılanmadı. Ərəb ölkələrinin əksəriyyəti Misir prezidenti Sədatın bu siyasətini "xəyanət" adlandırıb, ərəblərin milli mənafeyinə zərbə kimi qiymətləndirdilər. Sədatın bu siyasəti İslam Konfransı Təşkilatında da güclü əks-sədaya səbəb oldu. Bu məsələ 1979-cu ildə İKT xarici işlər nazirlərinin Mərakeşdə çağırılmış X konfransında müzakirə olundu və qəbul edilmiş qərarla Misirin bu təşkilatda üzvlüyü donduruldu. Qərara əsasən bu ölkənin təşkilatda üzvlüyü o zaman bərpa oluna bilərdi ki, Kemp-Deviddə imzalanmış müqavilə ləğv edilmiş olsun (138, s.226-227). Xarici işlər nazirlərinin XI konfransında qəbul edilmiş qətnamədə isə üzv dövlətlərdən Misirlə diplomatik əlaqələrin kəsilməsi tələb olunurdu (138, s.240). Ərəb dünyasında Misirin bu addımı ilə yaranmış dərin parçalanma əslində İsrailin qələbəsi idi. Formalaşmaqda olan ərəb birliyi artıq nə İsrail üçün və nə də ABŞ və Avropa ölkələrinin Yaxın və Orta Şərqlə bağlı maraqları yolunda təhlükə mənbəyi ola bilməzdi. Yeni mərhələdə Qərb diplomatiyası qarşısında duran növbəti vəzifə bu parçalanmanı daha da dərinləşdirmək və İslam ölkələri tərəfindən təzyiqə məruz qalan Misirə yardım göstərmək idi.

Dövlət başçılarının IV Zirvə toplantısında Misirin İKT-də üzvlüyünün bərpası haqqında məsələ qaldırıldı. Bununla bağlı hazırlanmış layihə haqqında Qvineya Respublikasının prezidenti Əhməd Seku Ture məruzə edərək, Misirin təşkilatda üzvlüyünün bərpasını məqbul saydı. Zirvə toplantısının açılışında Səudiyyə Ərəbistanının kralı Fəhd bəyan etdi ki, Yaxın Şərq münaqişəsinin yeganə həlli yolunu, 1982-ci ildə qəbul edilmiş qərarın yerinə yetirilməsində görür (133, 2.I.1984). Bu qərarın həyata keçirilməsi əslində Misirlə İsrail arasında imzalanmış sülh müqaviləsinin tanınması demək idi. Zirvə görüşündə ərəb mühafizəkar rejimlərinin ciddi təkidlərinə baxmayaraq, Misirin təşkilatda bərpası heç də yekdilliklə keçmədi. Bu qərarın əleyhinə ərəb ölkələrindən Suriya, Əlcəzair, Liviya və



Cənubi Yəmən səs verdilər. İran nümayəndəsi isə Misiri separatçılıqda günahlandırdı və onun təşkilata üzvlüyünün bərpa olunmasının əleyhinə çıxdı. Lakin bununla belə Misir Ərəb Respublikasının təşkilatda üzvlüyünün bərpası səs çoxluğu ilə qəbul olundu. Bu məsələnin uğurlu həll olunmasında Ərəb qrupunda aparılmış qızğın müzakirələr də müəyyən rol oynadı.

Parçalanmış Ərəb birliyi 80-ci illərin sonunda Fars körfəzində baş vermiş bir sıra hadisələrlə daha da dərinləşdi. 1989-cu ilin fevralın 16-da İraqın prezidenti Səddam Hüseynin təşəbbüsü ilə yeni regional bir qurum - Ərəb Əməkdaşlıq Şurasının yaranması haqqında müqavilə imzalandı (106, s.399). Fars körfəzində hegemonluq uğrunda mübarizə aparan İraq bununla kifayətlənmədi. 1989-cu ilin ikinci yarısından etibarən Bağdad mətbuatında bəzi ərəb dövlətlərinin OPEK xəttilə "İraqa qarşı iqtisadi müharibə" aparmaları haqqında məlumatlar dərc olundu. 1990-cı ilin mayın 30-da Ərəb Ölkələri Liqasının növbəti toplantısında çıxış edən Səddam Hüseyn bəyan etdi ki, Küveytin İraqa qarşı "iqtisadi müharibəsi dözülməz olub". Həmin ilin iyunun 17-də Səddam Hüseyn OPEK tərəfindən İraqın neft payının azaldılmasında və onun ölkəsinə dəyən iqtisadi ziyanda Küveyti günahkar sayaraq, 10 mlrd. dollar məbləğində kompensasiya tələb etdi. Əlbəttə, bütün bunlar bəhanə idi. İraq prezidentinin əsas məqsədi Küveytdən kompensasiya qoparmaq deyil, buranı İraqa ilhaq etmək idi*. Beləliklə 1990-cı ilin avqustun 2-də İraq ordusu Küveytə hərbi təcavüz etdi (106, s.400). Bir ərəb dövləti tərəfindən başqa bir ərəb dövlətinin sərhədləri pozuldu. Bir neçə saat ərzində Küveyt işğal olundu.

İraq və Küveyt - hər ikisi Ərəb Ölkələri Liqasının, İslam Konfrası Təşkilatının üzvü idilər. Bu hadisə bütün islam dünyasında ciddi narazılıqla qarşılandı. Ərəb dövlətlərinin bu

---

* XX əsrin 60-cı illərin əvvəllərində də İraq belə bir addımı atmaq istəmişdi. İngilislərin hərbi müdaxiləsi nəticəsində Bağdadın bu planı o zaman baş tutmamışdı.

hadisə ilə bağlı mövqeyi müxtəlif idi. İraqın Küveyti işğal etməsilə əlaqədar Ərəb Ölkələri Liqası Qahirədə fövqəladə sessiya çağırdı. Fars körfəzi regionunun Ərəb dövlətləri İraqın bu hərəkətini açıq təcavüz adlandırıb pislədilər. Bu regionun mühafizəkar rejimləri İraqın güclənməsindən ehtiyat edirdilər. Toplantıda Səddamın tərəfini saxlayan Yasir Ərəfat Fars körfəzi ərəblərinə müraciət edərək buradakı "satqın rejimlərin devirməsini" məsləhət gördü. Sessiyada iştirak edən 21 ərəb dövləti başçılarından yalnız 12-si Səddamın bu addımına qəti etirazlarını bildirərək, İraq ordu birləşmələrinin geri çağırılmasını tələb etdilər (82, s.402-403). 1980-ci ildə İrana və 1990-cı ildə Küveytə qarşı hərbi təcavüzə əl atan Səddam hökuməti, bütün qonşuları ilə gərgin münasibətdə idi. Küveytin işğalı Fars körfəzində vəziyyəti daha da gərginləşdirdi. Əslində bu aksiya ümumiyyətlə, beynəlxalq sülh və əmin-amanlığın pozulması demək idi. Yaranmış vəziyyəti nəzərə alan BMT TŞ-nin qəbul etdiyi 660 saylı qətnamədə İraqdan tələb olunurdu ki, qısa bir müddətdə öz ordusunu Küveytdən geri çəksin. Lakin İraq hökuməti bu qərarı rədd etdi. Avqustun 6-da növbəti 661 saylı qərarla BMT Təhlükəsizlik Şurası İraqa iqtisadi sanksiya tətbiq etdi. İraqın Küveytə hərbi basqını Ərəb Ölkələri Liqasının 1990-cı il 2 və 10 avqust tarixli iclaslarında bir daha geniş müzakirə olundu. Bu mübahisələr göstərdi ki, ərəb dünyasının birliyindən danışmaq hələ tezdir. Noyabr ayında TŞ bu məsələyə bir daha qayıtdı və 678 saylı qətnaməsi ilə İraqa qarşı hərbi sanksiya tətbiq etmək haqqında qərar qəbul etdi. 1991-ci il fevralın 26-da Səddam hökuməti BMT TŞ-nin butun qətnamələrini qəbul etdi. 1994-cü ilin noyabrında isə İraq Küveytin suverenliyini və ərazi bütövlüyünü tanıdı. Qeyd etmək lazımdır ki, İraqa qarşı hərbi sanksiyanı həyata keçirən çoxmillətli silahlı qüvvələrin tərkibində, bir sıra ərəb ölkələrinin hərbi birləşmələri də iştirak edirdi.

İraqın Küveyti ilhaq etmək aksiyası İslam Konfransı Təşkilatında da ciddi müzakirə obyektinə çevrildi. Xarici işlər nazirlərinin XIX konfransında İraqın Küveytə qarşı hərbi təcavüzü müzakirə olundu. Toplantıda çıxış edən nümayəndələrin əksəriyyəti bu hərbi aksiyanı kəskin pisləyərək, Səddam hökumətini İKT Nizamnaməsini pozmaqda günahlandırdılar. İstanbulda çağırılmış XX Konfransda qəbul edilmiş qətnamədə isə Səddam hökumətindən tələb olunurdu ki, Küveyt məsələsi ilə bağlı BMT TŞ tərəfindən qəbul edilmiş qətnamələrə əməl etsin və ümumiyyətlə qonşu ölkələrə təcavüz niyyətlərindən və ərazi iddialarından əl çəksin. Karaçidə keçirilmiş XXI iclasda da İraqın Küveytə silahlı basqını pislənildi və Səddam hökumətindən tələb olundu ki, beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qərarların icrasına hörmətlə yanaşsın (141, s.169, 137, 221-225).

Göründüyü kimi, Ərəb ölkələrinin birliyi problemi ayrıca bir məsələ kimi ümumiyyətlə İKT-nın gündəliyinə çıxarılmamış və bu təşkilatda müzakirə obyektinə çevrilməmişdir. Bu problem ancaq təşkilatın nəzdində formalaşan ərəb ölkələri qrupu xəttilə lobbiçilik fəaliyyətində təzahür etmişdir. Ərəb qrupunun lobbizmi əsasən İKT-ın rəhbər orqanlarının seçilməsi zamanı və bir də İraq-İran münaqişəsinə qiymət verməsində özünü göstərmişdir. İslam Konfransı Təşkilatının Ərəb dünyasının problemlərini həll edə bilməməsinin səbəbləri hər şeydən öncə bu təşkilatın qəbul etdiyi qərar və qətnamələrinin tövsiyə xarakteri mahiyyət daşıması ilə izahat olunur. Bununla belə, Ərəb dünyasını təşkil edən dövlətlərin İKT-yə üzv olmaları bu ölkələr arasında birliyin formalaşmasında təsirsiz deyil.

# III FƏSİL

## İKT – REGİONAL KONFLİKTLƏR VƏ DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏR

### 3.1. İKT: İraq-İran müharibəsi, sovet ordusunun Əfqanıstana hərbi təcavüzü və Kəşmir problemi

İKT tarixinin tədqiqi göstərir ki, onun fəaliyyəti təkcə ərəb üzvü dövlətlərinin problemlərini yox, eyni zamanda qeyri-ərəb üzv ölkələri məsələlərini də əhatə edir. Yeri gəlmişkən qeyd edək ki, İslam Konfransı Təşkilatının 55 üzvündən 34-ü qeyri-ərəb dövlətləridir. Əsasən Asiya və Afrikada yerləşən bu dövlətlər, milli etnik baxımdan müxtəlif olsalar da, İslam dini vasitəsilə bir-birinə bağlı olub, bütövlükdə İslam dünyasını təşkil edirlər. Bu ölkələrin əksəriyyəti uzun müddət Avropanın müstəmləkəçi dövlətlərinin əsarəti altında olduqlarından milli sərvətləri üzərində yiyəlik hüququndan və siyasi müstəqillikdən məhrum olmuşlar. Əsarət və asılılıq dövründən bu ölkələrə çoxsaylı mürəkkəb sosial-iqtisadi məsələlər, o cümlədən ərazi iddiaları, mübahisəli sərhədlər və s. problemlər "yadigar" qalmışdır ki, bunlardan bəziləri hazırda ciddi münaqişə və qarşıdurma mənbəyinə çevrilmişdir. Bir sıra dövlətlər bu problemlərin həllini və nizama salınmasını İKT-yə üzv olmaqda və bu təşkilatla əməkdaşlıqda axtarırlar.

XX yüzillikdə İslam dünyasının faciəli hadisələrindən biri də 1980-ci ilin sentyabrın 22-də İraq ordusunun İrana hücumu ilə iki qonşu və müsəlman ölkəsi arasında müharibənin başlanması oldu (ətraflı bax: 19, 85, 128). Bütün savaşlarda olduğu kimi bu təcavüzün də siyasi, iqtisadi və başqa səbəbləri var idi. Məsələyə aydınlıq gətirmək üçün İraqla İran arasında o zaman və indi də mövcud olan problemlərə ötəri nəzər salaq. Əlavə edək ki, başqa müsəlman ölkələrinə nisbətən İranla İraq bir-birinə daha yaxındır. Hər iki ölkənin əhalisinin əksəriyyəti şiədir və bu məzhəbə sitayiş edənlərin müqəddəs saydıqları yerlər, İraq ərazisində və İrandadır. Bütün bunlara baxmayaraq, çoxlu insan tələfatı, iqtisadi dağıntı və mənəvi sarsıntılarla nəticələnmiş bu faciənin qarşısı alınmadı, Fars körfəzi və ümumən Yaxın və Orta Şərqdə sülh və əmin-amanlıq üçün ağır nəticələri ola bilən təhlükəli vəziyyət yarandı.



İraq-İran müharibəsinin səbəbləri çoxdur. Bu problemlərə sərhəd xəttinin tənzimlənməməsi, Şətt əl-Ərəb çayında sərhəd xəttinə görə mübahisələr, İraqın dini mərkəzlərində yaşayan yarım milyona yaxın İran vətəndaşının statusunun müəyyən olunmaması və s. daxildir (19, s.99-113). Müharibənin başlanmasını yalnız göstərilən səbəblərlə mühdudlaşdırmaq düzgün olmazdı. Bu faciəni törədən amillərin üzə çıxarılması üçün onun sistemli yanaşma metodu ilə əhatəli tədqiqi tələb olunur. Yalnız bu yolla İraq-İran müharibəsinin mahiyyəti və obyektiv səbəbləri müəyyən oluna bilər.

Sərhəd çayı olan Şətt əl-Ərəbdə İraq İranın hüquqlarını talvej sistemi əsasında tanımaq istəmirdi, iki ölkənin sərhəddinin çayın İran sahilləri ilə keçdiyini iddia edirdi (85, s.69, 76). Bundan əlavə, Bağdadın fikrincə, quru sərhədlər boyu bir sıra yaşayış məntəqələrində aşkar edilmiş neft strukturları ancaq İraqa məxsus olmalı idi. İranın Xuzistan ostanı (vilayəti) *Səddam hökumətinin fikrincə, İraq ərazisi idi, çünki oranın* yerli əhalisinin təxminən 80%-i ərəblərdir. İraqın dini mərkəzlərində uzun illər boyu yaşayan çoxsaylı İran diasporu ya İraqın vətəndaşlığını qəbul etməli, ya da ölkəni tərk etməlidirlər və s. Bütün bu kimi iddialar dəfələrlə yüksək səviyyədə təşkil edilmiş ikitərəfli rəsmi görüşlər zamanı və ya diplomatik kanallarla müzakirə olunaraq müvafiq sənədlər imzalanmışdır. Lakin bununla belə şahlıq rejimi zamanı kiçik miqyaslı sərhəd toqquşmaları baş versə də, hər iki tərəfdən müharibə vəziyyətinin yaranmasına imkan verilmirdi. İranda 1978-79-cu il inqilabının qələbəsindən sonra isə vəziyyət dəyişdi və iki dövlətin əlaqələri gərginləşdi. Münasibətlərdə yaranmış böhranın səbəbi bir tərəfdən ruhanilər tərəfindən İran inqilabını bütün Yaxın və Orta Şərqə yaymaq kimi populist çıxışlar idisə, digər tərəfdən də Səddam hökumətinin Tehrandan səslənən bu çıxışlardan istifadə edərək İrandan bir sıra ərazilərin zəbt

edilməsilə bağlı planları idi. Yaxşı təlim görmüş və təchiz edilmiş İraq ordusu Səddamın bu planını qısa bir müddətdə həyata keçirə bilərdi. İraq hökumətinin bu hərbi kampaniyasını asanlaşdıran məsələlərdən biri də bu idi ki, islam inqilabı nəticəsində şah ordusu darmadağın edilmişdi, ölkənin sərhədləri faktiki qorunmurdu.

Müharibənin qızışdırılmasında bir sıra xarici dövlətlərin də iqtisadi, siyasi və hərbi maraqları vardı. Əvvəla, müharibə başlandığı təqdirdə dünya bazarına silah çıxaran ölkələr silah və sursat satmaq üçün əlverişli bazar əldə edirdilər. İkinci bir tərəfdən, istər İraq və istərsə də İran İsrailə qarşı kəskin mövqedən çıxış edirdilər. Müharibə başlanandan sonra isə "İsrail problemi" yaddan çıxacaqdı.

Bununla yanaşı müharibəni dayandırmaq üçün bir sıra dövlətlər, beynəlxalq təşkilatlar, görkəmli dövlət və ictimai-siyasi xadimlər vasitəçilik missiyası ilə çıxış edərək, münaqişəni danışıqlar yolu ilə həll etməyi irəli sürdülər (85, s.113-123). Lakin İran tərəfi üzün müddət bu çağırışlara müsbət cavab vermədi.

İraq-İran müharibəsinin başlanmasına maraq göstərən ölkələrdən biri də İsrail idi. Əlavə edək ki, İranla İsrail arasında münasibətləri iki dövrə bölmək olar: Şah rejimi zamanı və İranda İslam İnqilabından sonrakı dövr. Bu iki ölkə əlaqələrində ilk addım 40-cı illərin sonunda atılmışdı. 1948-49-cu il Ərəb-İsrail müharibəsi zamanı bir sıra ərəb ölkələrindən didərgin düşmüş yəhudilərə İranda sığınacaq verilmişdi (66, I cild, s.455). İki ölkənin münasibətləri 1953-cü ildə həyata keçirilən dövlət çevrilişindən sonra yeni mərhələyə daxil oldu. Belə ki, şah İsraili de-fakto tanıdı və iki ölkə arasında iqtisadi, siyasi və hərbi sahələrdə əlaqələr yarandı. İkinci Ərəb-İsrail müharibəsi günlərində İsrailin neft ehtiyacları Akaba körfəzi yolu ilə İran tərəfindən təmin olunurdu (140, s.10). İran İsraildə istehsal olunmuş sənaye və kənd təsərrüfatı malları üçün sərfəli bazara çevrilmişdi. Bu ölkədən əsasən ərzaq malları idxal olunurdu (10, s.119). İsraillə əlaqələrdən bəhs edən Məhəmməd Rza Pəhləvi 1960-cı ildə mətbuat konfransında açıq bildirmişdi ki.



İran İsraili de-fakto tanıyır. Məhz bu etirafdan 24 saat sonra Misirin prezidenti Camal Əbdül Nasir şah hökumətilə diplomatik əlaqələri kəsdi (141, s.12). Nasir İran şahını israilpərəst siyasət yeritməkdə günahlandırırdı (65, s.462).

Ərəblərlə İsrail arasında 1967 və 1973-cü illərdə baş vermiş müharibələr zamanı şah özünü zahirən bitərəf göstərsə də əslində İsrail ordusunu neft məhsulları ilə təmin edirdi (132, s.245-246). İran-İsrail əlaqələrinin yaranması və inkişafına səbəb bu ölkələrlə ərəblər arasında ciddi ərazi və saire problemlərin olması idi. Bu iki dövlətin yaxınlaşmasına ABŞ diplomatiyası da təkan verirdi.

Lakin İranda islam inqilabının qələbəsindən sonra Təl-Əvivlə münasibətlərdə əsaslı dəyişiklik baş verdi və bu istiqamətdə ilk addım kimi İsraillə diplomatik əlaqələrin kəsilməsində atıldı. Hələ inqilabın qələbəsinə qədər Xomeyni özünün bəyanat və çıxışlarında şah rejimini İsraillə münasibətlər yaratmaqda günahlandırır və bu əlaqələri İslama xəyanət kimi izah edirdi. İraqda sürgündə olan zaman Xomeyni bəyanatlarının birində bildirmişdi ki, "İsraillə və onun himayədarları ilə hər cür əlaqə haram və İslama ziddir. Müsəlmanlar İsraildən mal almaqdan çəkinməlidirlər" (132, s.289). Bu bəyanatla eyni vaxtda ayətulla Xomeyni o zaman İranın baş naziri Əmir Abbas Hoveydaya açıq məktubunda yazmışdı: "...İsrail və onun xain əlaltılarının əllərini müsəlmanların bazarlarına açmayın, ölkə iqtisadiyyatını İsrail və onun əlaltılarının xatirinə təhlükəyə atmayın..." (10, s.118).

Xatırladaq ki, İran İslam Konfransı Təşkilatını təsis edən ölkələrdən biri idi. Buna görə də bu ölkənin təşkilatda aparıcı və nüfuzlu mövqeyə malik olmaq iddiası və İraq-İran müharibəsində bu təşkilatın obyektiv mövqedən çıxış edəcəyilə bağlı ümidi, heç də qeyri-adi bir məsələ deyildi. Hərçənd ki, bu ölkənin İKT ilə münasibətləri hamar yolla inkişaf etməmiş, enişli-yoxuşlu olmuşdur.

İranın İKT-də fəaliyyətini də iki dövrə bölmək olar:

1. Şah rejimi vaxtı.
2. İslam İnqilabının qələbəsindən sonra.

Pəhləvilər dövründə İranın Qərb ölkələri və İsraillə yaxın münasibətlərinə baxmayaraq İKT ilə əlaqələrində ciddi problemlər olmamışdır. İsraillə ikitərəfli əlaqələrin yaradılması ilə bağlı İKT-nin qəbul etdiyi tənqidi qətnamələr İrana aidiyyatı olsa da, bu təşkilatla əlaqələrdə ciddi çətinlik yaranmırdı.

İranda islam hökuməti bərqərar olandan sonra bu ölkənin təşkilatla əlaqələrində problemlər baş qaldırdı. Buna səbəb bir tərəfdən inqilabdan sonra bəzi ali rütbəli ruhanilərin islam inqilabını başqa müsəlman ölkələrinə ixrac etmək haqqında düşünülməmiş bəyanatları idisə, digər tərəfdən də bəzi ərəb dövlətlərinin qərbpərəst siyasətindən Tehranın narazılığı idi.

1980-ci ildə İraq-İran müharibəsi başlayan kimi Fars körfəzi regionunda gərgin vəziyyət yarandı. Müsəlman ölkələrinin diqqətini özünə cəlb edən bu gözlənilməz hadisə, İslam Konfransı Təşkilatından atəşin dayandırılması və münaqişənin sülh yolu ilə həlli üçün təcili tədbirlər görməyi tələb edirdi. Müharibə başlanandan bir neçə gün sonra İKT-ın xəttilə yaradılmış Xüsusi Komitənin əsas vəzifəsi, iki dövlət arasında müharibəni dərhal dayandırmaq və münaqişənin həllini danışıqlar müstəvisinə keçirməyə nail olmaq idi. Komitəyə Pakistanın o zamankı prezidenti Ziya ül-Həqq və İKT-nin Baş Katibi Həbib Şətti başçılıq edirdi (85, s.116). Komitənin üzvləri münaqişəni "islam həmrəyliyi ruhunda" nizama salmaq məqsədilə Bağdadla Tehran arasında səfərlər etsələr də, müsbət nəticə əldə olunmadı. Belə ki, atəşin dayandırılması ilə bağlı vasitəçilərin təklifləri İran tərəfindən rədd edildi. Tehran təcavüzə görə İraqın cəzalandırılmasını, işğalçı qoşunların qeyd-şərtsiz İran ərazisindən çıxarılmasını və müharibənin səbəbkarı kimi Bağdaddan təzminat ödəməsini tələb edirdi. Komitənin ciddi səylərinə baxmayaraq İranın bu mövqeyi üzündən tərəflər atəşkəs rejiminin bərqərar olunması haqqında razılığa gələ bilmədilər.

Problemin nizama salınmasına Ərəb Ölkələri Liqası qarışsa da müsbət nəticə əldə olunmadı.

Əlcəzairin başçılığı ilə 1983-cü ildə yaradılmış Yeddilər Komitəsi İraqla İranın barışdırılması ilə bağlı yeni təkliflərlə



çıxış etdi. Bu komitə də məsələyə birtərəfli yanaşaraq ancaq atəşin dayandırılması təklifləri ilə Bağdadla Tehran arasında çoxsaylı səfərlər etdi. Göstərilən hər iki təşkilat tərəfindən irəli sürülmüş təkliflər məzmunca oxşar idi və müharibəni başlayan bir dövlət kimi Səddam hökumətinin məsuliyyət daşımasını müzakirəyə çıxarmırdı.

Bu arada Ərəb Ölkələri Liqası müharibənin şiddətlə davam etməsinin səbəblərini İran tərəfinin qeyri-konstruktiv mövqeyində görür, atəşin dayandırılmasında İranı günahlandıran qətnamələr qəbul edirdi. Mərakeşdə çağırılmış fövqəladə kofransda İran hökuməti tənqid hədəfinə çevrildi. Burada qəbul edilmiş qətnamədə müharibənin davam etdirilməsinə görə İran hökumətinin mövqeyi pisləndi. Konfrans bəyan etdi ki, müharibənin davam etdirilməsində İranın israr etməsi ərəb dövlətlərini məcbur edəcək ki, bu ölkə ilə münasibətlərinə yenidən baxsınlar və müvafiq tədbirlər görsünlər (142, s.125-126). Bu qərar qəbul edilən vaxt cəbhə bölgələrində gedən döyüşlərdə üstünlük İranın tərəfində olduğundan ərəb ölkələri İraqın tərəfini saxlamış, problemin həllinə tam bitərəf və qərəzsiz mövqedən yanaşmaqdan uzaqlaşmışdılar.

1987-ci ilin yanvarında Küveytdə keçirilmiş İKT-nin V Zirvə toplantısında da ərəb ölkələri İraqla həmrəylik nümayiş etdirdilər. Ərəb mühafizəkar rejimləri İraqda da İranda olduğu kimi İslam üsuli-idarəli bir rejimin bərqərarından ehtiyat edirdilər. Zirvə konfransında qəbul edilmiş Q-3/6 saylı qətnamədə tərəflərdən tələb olunurdu ki, problemi beynəlxalq hüquq normaları əsasında həll etsinlər. Konfrans iştirakçıları bu sənəddə özgə torpaqlarının işğalını beynəlxalq hüquq normalarının pozulması kimi qiymətləndirir və bunu qətiyyətlə rədd edirdilər (141, s.126).

Göründüyü kimi, müharibə başlayandan sonra Tehranın İKT ilə münasibətləri soyuqluğa doğru üz qoymuş, 1980-ci ildən 1990-cı ilə qədər dövrdə isə bu əlaqələr əslində dondurulmuş halda olmuşdur. 3, 4 və 5-ci Zirvə toplantılarında iştirak etməməklə İran hökuməti təşkilatla bağlı boykot taktikasını seçmişdir. Ərəbistanın Taif şəhərində keçirilən III Zirvə

konfransında Səddam Hüseyn iştirak etdiyinə görə İran prezidenti buraya getməkdən imtina etdi. IV Zirvə konfransında iştirak etməyi bu toplantının Mərakeşdə keçirilməsilə əsaslandırdı. İran prezidenti Küveytdə V Zirvə konfransında iştirak etməməsinin səbəbini isə bu ölkənin İraqa maliyyə və hərbi yardım göstərməsilə əlaqələndirdi. Göründüyü kimi, müharibənin əvvəlindən sonuna kimi İran etiraz əlaməti olaraq Zirvə toplantılarında iştirak etməkdən imtina etmiş və bu yolla da İKT-nı İraq-İran müharibəsində qərəzli mövqe seçməkdə ittiham etmişdir.

Müharibə İranın İKT-nin xarici işlər nazirlərinin konfranslarında iştirakına da kölgə salmış, bu illərdə Tehranın təşkilatın bu orqanı ilə əlaqələri də qənaətbəxş və səmərəli olmamışdır. Xarici işlər nazirlərinin konfranslarının İran tərəfindən boykot olunması İraqın hücumundan sonra başlandı.

İran hökuməti istər İKT ilə və istərsə də bu təşkilata üzv olan dövlətlərlə əlaqələri onların müharibə ilə bağlı mövqelərinə görə tənzimləyirdi. Bu dövrdə İranın bəzi ərəb dövlətlərilə, o cümlədən Səudiyyə Ərəbistanı, İordaniya, Küveyt və Mərakeşlə münasibətləri gərgin olmuşdur. Bu gərginlik hətta Səudiyyə Ərəbistanı ilə diplomatik əlaqələrin kəsilməsilə nəticələnmişdi. Tehranın İKT-nin tədbirləri zamanı təqdim etdiyi açıqlamalara görə, bu ölkələr İraqa maddi və mənəvi yardım göstərir, İslam Konfransı Təşkilatının xəttilə təşkil olunmuş müxtəlif tədbir və yığıncaqlarda Bağdadı açıq və dolayı yolla müdafiə edirdilər. İran mənbələrinin verdiyi məlumata görə, müharibənin şiddətli vaxtlarında Səddam hökumətinin maliyyə ehtiyacları əsasən neft ixrac edən ərəb ölkələri vasitəsilə təmin olunurdu. Belə ki, bu dövrdə Səudiyə Ərəbistanı 34 mln. doll., Küveyt 982 mln. doll., İordaniya 94 mln.dol., və Misir 36 mln. doll. məbləğində İraqa əvəzsiz yardım etmişlər (140. №27. s.7-8). Bir sıra Qərb ölkələrindən, həmçinin Sovet İttifaqından İraqa idxal olunan hərbi texnika və müasir silahlar bu pullar hesabına alınırdı. Qeyd edilmiş dövlətlər həm də İslam Konfransı Təşkilatının tədbirlərini İraqın diplomatik yolla müdafiə olunması səhnəsinə çevirmişdilər. Müharibə ilə bağlı hazırlanmış qətnamələrin layihəsi Ərəb qrupu vasitəsilə İraqın xeyrinə əsaslı düzəliş və redaktədən sonra üzə çıxarılır, sonra isə təşkilatın ali orqanlarında qəbul olunurdu. Buna görə də İran diplomatiyası dövlət başçılarının toplantılarını boykot etmək taktikasını seçərək, bu yolla təşkilata öz etirazını bildirirdi. Lakin bu taktika özünü doğrultmadı, çünki İran nümayəndəsinin iştirak etməməsindən istifadə edən İraq və ona dəstək verən mühafizəkar ərəb dövlətləri İraq-İran münaqişəsi müzakirə edilərkən, bu yığıncaqları antiiran səhnəsinə çevirməklə İraqın xeyrinə diplomatik üstünlük əldə edirdilər. İKT-də İranla bağlı davam edən bu proseslər Tehranın bu təşkilatla əlaqələrinə ciddi ziyan vurdu və əslində bu mötəbər İslam təşkilatının sıralarında parçalanmaq toxumunun cücərməsi üçün əlavə əlverişli zəmin yaratdı.

İraqla müharibə illərində İranın İKT ilə əlaqələrinin gərgin olmasına baxmayaraq bu ölkənin nümayəndələri xarici işlər nazirlərinin konfranslarında yaranmış vəziyyətdən asılı olaraq iştirak edir və bir sıra müşavirələrdə Tehranın xeyrinə qətnamələrin qəbuluna nail olurdular. Məsələn, Xarici İşlər Nazirlərinin XI Konfransı ərəfəsində girov götürülmüş ABŞ diplomatlarını azad etmək üçün Pentaqon İranın Təbəs rayonuna desant çıxarmağa təşəbbüs etmişdi və bu məsələ xarici işlər nazirlərinin XI Konfransda müzakirə olunmuşdu, İKT tərəfindən Vaşinqtonun bu hərəkəti "suveren bir dövlətin ərazi bütövlüyünə qəsd" kimi qiymətləndirilmişdi. Belə bir qətnamənin yekdilliklə qəbul edilməsi Tehranda İran diplomatiyasının müvəffəqiyyəti kimi qiymətləndirilmişdi.

Ümumiyyətlə İKT-nin tədbir və toplantılarında İranın iştirakı, ərəb-İran münasibətlərinin xarakterindən birbaşa asılı idi. Məsələn, Xarici İşlər Nazirlərinin XVII Konfransı İran nümayəndəliyi üçün gərgin bir şəraitdə keçmişdi. İraqa qarşı müharibənin davam etdirilməsi və Məkkəyə həcc zamanı iranlılar tərəfindən bu ziyarətin siyasi səhnəyə çevrilməsilə bağlı qəbul edilmiş sənədlərdə İran tənqid olunurdu. Qeyd edək ki, İran nümayəndə heyəti buna etiraz əlaməti olaraq Konfransı tərk etmişdi.

Ümumiyyətlə Səddam hökumətinin İrana hücumundan sonra Tehranın İKT ilə əlaqələri gərgin olmuşdur. Buna əsas səbəb ərəb ölkələrinin İraqı müdafiə etmələri və münaqişənin həllinə "İslam ümməti" prinsipindən deyil, ərəb millətçiliyi mövqeyi nəzərindən yanaşmaları olmuşdur.

**Sovet ordusunun Əfqanıstana hərbi təcavüzü.** Tədqiq etdiyimiz dövrdə İKT-nin beynəlxalq siyasi fəaliyyətinin mərkəzində duran məsələlərdən biri də Əfqanıstan problemi idi. Bildiyimiz kimi, XX yüzilliyin gərgin hadisələrindən biri də Sovet İttifaqının zəif və sosial-iqtisadi cəhətdən geri qalmış bir ölkə olan Əfqanıstana hərbi təcavüzü oldu. 1979-cu ilin dekabrın 27-də Sovet hərbi birləşmələri etibarlı müdafiə sistemi olmayan Əfqanıstanın dövlət sərhədlərini qəfildən pozaraq, ölkənin içərilərinə doğru irəlilədilər. Səbəb nə idi? Doğrudanmı Əfqanıstan Sovet İttifaqı kimi qüdrətli və hərbi-super bir dövlət üçün təhlükə mənbəyi idi?

Əfqanıstana hərbi təcavüz beynəlxalq hüquq normalarına zidd olub, BMT Nizamnaməsinin kobudcasına pozulması demək idi. Əfqanıstana hərbi təcavüz Sovet Rusiyası ilə Əfqanıstan arasında 1921-ci ildə imzalanmış Dostluq və mehriban qonşuluq haqqında və 1927-ci ildə bağlanmış bitərəflik barədə müqavilələrinin pozulması demək idi. Bu hərbi təcavüzün çalarlarını dərk etmək üçün Sovet-Əfqanıstan münasibətlərinə ötəri nəzərdən keçirək.

1917-ci il Oktyabr çevrilişindən sonra Sovet dövlətini tanıyan ilk xarici ölkə məhz Əfqanıstan olmuşdu. Dostluq və mehriban qonşuluq haqqında 1921-ci il müqaviləsi iki dövlət arasında əlaqələrin gələcək inkişafı üçün əsaslı hüquqi zəmin yaratmışdı (Ətraflı bax: 20, 105, 111, 25 və s.). İkinci dünya müharibəsi ərəfəsində əfqan hökuməti rəsmən özünü bitərəf elan etsə də, Sovet İttifaqı ilə dostluq və mehriban qonşuluqnasibətlərini davam etdirirdi. İkinci Dünya müharibəsindən sonra Əfqanıstanda xarici ölkələrdən alınan texniki-iqtisadi yardımın miqdarına və sərfəli olmasına görə Sovet İttifaqı birinci yerə çıxmışdı. Sovet İttifaqı aşağı faizli kreditlərlə Əfqanıstan bazarında bütün rəqiblərini sıxışdırıb çıxara bilmişdi.



O dövrdə Sovet diplomatiyasının Əfqanıstanla bağlı taktikası əsasən bu ölkənin antisovet hərbi-siyasi bloklara qoşulmasına imkan verməmək, iki dövlət arasında normal qonşuluq əlaqələrini qoruyub saxlamaq idi. 1956-cı ildə bu ölkəyə 100 milyon doll. məbləğində ən aşağı faizli* kreditin verilməsi də bu məqsədlərə xidmət edirdi.

Əfqanıstanda hakimiyyət uğrunda çəkişmələr həmişə olmuşdur və bu vəziyyətdən xarici qüvvələr daim öz məqsədləri üçün istifadə etməyə cəhd göstərmişlər. Bu proses XX əsrin 60-cı illərindən etibarən daha qabarıq bir formada təzahür etdi. Bu dövrdə Əfqanıstanın daxili vəziyyətinin səciyyəvi xüsusiyyətlərindən biri, ölkənin siyasi həyatında müxtəlif təmayüllü cəmiyyət və partiyaların yaranması idi. Çoxsaylı bu qurumlar sırasında həm İslam təmayüllü və həm də marksizm-leninizm tərəfdarları, çinpərəstlər, "Müsəlman qardaşları" ilə əlaqəsi olanlar və s. vardı. Bu dövrdə tez-tez baş verən hökumət böhranları siyasi səhnədə bir-birilə didişən bu qurumların hakimiyyət uğrunda mübarizəsinin məntiqi nəticəsi idi. Nəhayət, 1973-cü ildə həyata keçirilmiş dövlət çevrilişilə bu ölkədə Respublika üsul-idarəsi bərqərar oldu. Dövlət çevrilişini həyata keçirən Məhəmməd Davudun sosial dayağı Sovet İttifaqının təhsil ocaqlarında təhsil almış zabitlər və bir də puştu millətçiləri idi. Bu zabitlərin bir çoxu 1965-ci il yanvarın 1-də yaradılmış marksist təmayüllü Əfqanıstan Xalq Demokrat Partiyasının üzvü idilər. 1978-ci ilin aprelində isə həmin partiya Məhəmməd Davudu devirərək özü hakimiyyətə gəldi və bu dövrdən etibarən Əfqanıstan artıq müstəqil bir dövlət kimi sərbəst daxili və xarici siyasət yeritmək hüququndan demək olar ki, məhrum oldu. Yeni dövlətin Sovet İttifaqı ilə münasibətlərinin inkişafı üçün hüquqi zəmin yaradılsın deyə, 1978-ci ilin dekabrın 5-də "Dostluq və qarşılıqlı yardım" haqqında

* Qərb dövlətlərinin Əfqanıstana verilmiş kreditləri 5 və 7 faizli olduğu halda, Sovet İttifaqından verilən kreditin faizi 2,5 və ya 3% təşkil edirdi. SSRİ-nin inkişaf etməkdə olan ölkələrlə texniki-iqtisadi əməkdaşlığı məhz Əfqanıstandan başlanmışdır.

sovet-əfqan müqaviləsi imzalandı. Müqavilənin VI maddəsinə əsasən Sovet İttifaqı Əfqanıstana lazım olduğu hallarda hərbi yardım etmək hüququ əldə edirdi. Məhz bu müqaviləyə əsasən 1979-cu ilin dekabrın 27-də Sovet ordusu bu ölkəyə yeridildi.

Bu hərbi təcavüzə dünya birliyinin qəti etiraz edəcəyini əvvəlcədən bilən Sovet hökuməti, Əfqanıstanı işğal etməklə hansı məqsədləri güdürdü? Bu hadisəni törədən səbəblər o dövrdə iki fövqəldövlətin dünya hegemonluğu uğrunda mübarizəsi ilə birbaşa bağlı idi. Əfqanıstanı sosializm cəbhəsinə qatmaq niyyətində olan Sovet İttifaqı, Fars körfəzinə və Hind okeanına doğru can atır, öz mövqeyini bu regionlarda möhkəmlətməyə çalışırdı. Moskvanın əlaltısı olan Bəbrək Karmal hakimiyyətə gələndən sonra Pakistanın Puştunistan ilə bağlı verdiyi bəyanatlar təsadüfi deyildi.

Bu dövrdə sovet diplomatiyasının hədəfində həm də İran idi. Demokratik Əfqanıstan xəttilə Moskva nəinki İranın, həm də Pakistanın daxilində gedən ictimai-siyasi proseslərə nəzarət etmək imkanı əldə etmək niyyətində idi. Əfqanıstanın hərbi-strateji mövqeyilə yanaşı onun zəngin təbii sərvətləri də diqqət mərkəzində idi. Sovet hökumətinin xarici siyasətinin strategiyasını müəyyən edən məsul şəxslər bütün bu parametrləri diqqətlə ölçüb-biçsələr də, bir mühüm məsələni yaddan çıxarmışdılar. O da Əfqan xalqının mübarizliyi və İslama möhkəm bağlılığı idi. Bu iki amil ilk gündən düşmənə qarşı mübrizənin ümumixalq səviyyəsində təşkilinə təkan verdi. Buna görə də sovet-əfqan vuruşmalarında ön-arxa cəbhə məfhumu yox idi. Əfqanıstanın bütün ərazisi cəbhəyə, vuruş meydanına çevrilmişdi. Bu mübarizədə bütün xalqın iştirak etməsi müharibənin əfqanların xeyrinə bitməsində həlledici rol oynadı.

Sovet hərbi təcavüzünə dərhal münasibət bildirən ilk beynəlxalq qurum İslam Konfransı Təşkilatı oldu. Buna səbəb əvvələn Əfqanıstanın bu təşkilata üzv olması, digər tərəfdən də Sovet silahlı birləşmələrinə söykənən yeni rejimin İslama qarşı xətti dövlət siyasəti səviyyəsinə qaldırması idi.

Suveren Əfqan dövlətinə qarşı həyata keçirilmiş bu təcavüzü müzakirə etmək, bu hadisəyə təcili və kəsgin münasibətini



bildirmək məqsədilə İKT 1980-ci ilin yanvar ayında İslamabad da Xarici İşlər nazirlərinin fövqəladə konfransını çağırdı (50, 1981, s.432). Bu toplantıda yalnız bir məsələ - sovet ordusunun Əfqanıstana hərbi təcavüzü nəticəsində yaranmış vəziyyət və rus ordusunun ölkədən çıxarılması ilə bağlı tədbirlər planı müzakirə olundu. Konfrans iştirakçıları məsələnin BMT-də müzakirə olunmasına tərəfdar çıxaraq, bu təşkilatın Nizamnaməsini pozduğuna görə Sovet İttifaqına qarşı sanksiya tətbiq etməyi təklif etdilər. Bu yığıncağda həm də əfqanlara humanitar yardım göstərmək barədə qərar qəbul edildi. Bu məsələnin Konfransda müzakirə olunmasını Əfqanıstanın daxili işlərinə qarışmaq kimi qiymətləndirən Əfqanıstanın o vaxtkı hökuməti, bu toplantıda iştirak etməkdən imtina etdi. Hökumətin bu məsələ ilə bağlı Kabildə yayılmış bəyanatında, sovet qoşunlarının Əfqanıstana müdaxiləsinin 1978-ci il dekabr tarixli Sovet-əfqan müqaviləsinə uyğun həyata keçirilməsi qeyd edildi.

Konfransda Əfqanıstanın yeni dövlətinin dinsiz olması və İslama zidd siyasəti nəzərə alınaraq onun İKT-da üzvlüyünün dondurulması haqqında qərar qəbul edildi. İKT-nin bu qərarı obyektiv faktlara əsaslanırdı. Həqiqətən 1978-ci ilin aprelində hakimiyyətə gələn qüvvələr ateist siyasət yeridir. İslam dininə qarşı qəti çıxışlar edirdilər. Bu ölkənin tanınmış ruhaniləri və din xadimləri fiziki məhvə və sürgünlərə məruz qalırdılar və bir çoxu da Pakistanda və İranda sığınacaq tapmışdılar. Göründüyü kimi, Əfqanıstanın sovetpərəst rejiminə qarşı ruhanilərin başçılıq etmələri heç də təsadüfi hal deyildi.

İslam Konfransı təşkilatının bu kəskin mövqeyi Moskvada narazılıqla qarşılandı. Bu qərarın təsir qüvvəsini azaltmaq və gələcəkdə də belə qərarların qəbul olunmasının qarşısını almaq məqsədilə Sovet İttifaqı ilə əməkdaşlıq edən bir sıra ərəb dövlətlərilə danışıqlar aparılsa da, gözlənilən nəticə əldə olunmadı və heç bir müsəlman dövləti bu açıq təcavüzü müdafiə etməyi öhdəsinə götürmədi. Əksinə, bütün ərəb ölkələri sovet ordusunun Əfqanıstana təcavüzünə mənfi münasibət bildirərək (92, s.301) nəinki İKT-nin xəttilə, hətta ikitərəfli danışıqlarda da bu aksiyaya öz narazılıqlarını bildirir və sovet

hökumətindən ordusunun Əfqanıstan ərazisindən çıxarılması tələb olunurdu (16, s.312).

Əfqanıstanın özündə başlanan müqavimət hərəkatına, qeyd edildiyi kimi, bu ölkədə güclü nüfuza malik din xadimləri rəhbərlik edirdilər. 1978-ci ilin aprel hadisələrindən sonra hakim rejim tərəfindən İslam dinilə bağlı buraxılan ciddi səhvlər* Respublika üsuli-idarəsinə qarşı güclü İslam müxalifətinin formalaşmasına səbəb oldu. 1978-ci ilin yayında tanınmış ruhani Mücəddədinin rəhbərliyilə "Əfqanıstan Milli Azadlıq Cəbhəsi" (16, s.276) fəaliyyətə başladı və bu cəbhə, bütün müxalif qüvvələrin İslam bayrağı altında birləşməsi şüarı ilə çıxış etdi. Lakin o dövrdə müəyyən səbəblər üzündən müxalif qüvvələrin bir cəbhədə birliyi yaranmadı. Bir-biriylə zəif əlaqəsi olan müxtəlif təşkilatlar pərakəndə halda mübarizəni davam etdirir və bu da mövcud rejim üçün ciddi təhlükə hesab olunmurdu. Bu təşkilatların vahid cəbhədə birləşərək məqsədəyönlü fəaliyyətlərinə sovet ordularının Əfqanıstana hücumu təkan verdi. Müsəlman ölkələrindən küllü miqdarda maliyyə yardımı (106, s.417) alan müxalifət, Sovet hərbi müdaxiləsinə qarşı mübarizə aparmağın kəsərli yolunu könüllülərdən ibarət çevik silahlı dəstələrin təşkilində görürdü. Əfqanıstanda xarici hərbi müdaxiləyə qarşı təşəkkül tapmaqda olan ümumimilli hərəkatın genişlənməsində İslam Konfransı Təşkilatı xəttilə qəbul edilən qərar və qətnamələr də az rol oynamadı. Əfqan mücahidləri öz mübarizələrində İKT-yə və onun üzvü olan dövlətlərin mənəvi, siyasi və iqtisadi yardımına güvənirdilər. Əgər bu yardım olmasaydı, Sovet İttifaqı kimi qüdrətli bir ölkə ilə təkbaşına mübarizə aparmaq qeyri-mümkün idi*.

---

* Moskvanın köməyilə 1978-ci ilin aprelində hakimiyyətə gəlmiş Əfqanıstan Xalq Demokrat Partiyasının liderləri ölkədə ateist bir rejim yaratmışdılar. Məscidlər bağlanmış, tanınmış din xadimlərindən bəziləri repressiya olunmuş, bəziləri isə ölkəni tərk etməyə məcbur olmuşdular. İş o yerə çatmışdı ki, kütləvi mitinqlərdə bu partiyanın liderləri N.İ.Tərəki, B.Karməl və b. Qurani-Kərimə belə hörmətsizlik edirdilər.

* Bu mübarizənin uğurla aparılmasında ABŞ-ın siyasi, iqtisadi və hərbi yardımı həlledici rol oynadı.



Əfqanıstana sovet təcavüzü ilə bağlı məsələlər İKT-nin ali orqanında-Zirvə konfranslarında dəfələrlə müzakirə olundu. Əlavə edək ki, yarandığı ilk gündən Əfqan nümayəndə heyəti bu təşkilatın tədbir və yığıncağlarında fəal iştirak etmişdir. 1969-cu ildə ilk Zirvə toplantısında iştirak edən 25 dövlət başçısından biri də, Əfqanıstanın o zamankı kralı Məhəmməd Zahir Şah olmuşdur. Bu təşkilatla daima və bir çox sahələrdə səmərəli əməkdaşlıq edən Əfqanıstan, indi bu qurumdan ölkədə islam dəyərlərinə söykənən milli bir hakimiyyətin bərqərar olunması məqsədilə yardım istəyirdi. Qarşıda duran əsas vəzifə ölkəni qeyri-milli hökumətdən və Sovet ordusunun əsarətindən xilas etmək idi.

Dövlət başçılarının 1981-ci ildə Məkkədə - Taifdə keçirilən III Zirvə Konfransına Əfqan mücahidləri də dəvət olunmuşdular. Burada Əfqanıstanın işğalı ilə bağlı məsələ müzakirə olundu. Konfransın yekun sənədində Əfqan xalqının mübarizəsilə həmrəylik ifadə olundu və bu mübarizənin İKT tərəfindən müdafiə olunduğu bir daha bəyan edildi (140, s.141-142). Qəbul olunmuş qətnamədə Sovet İttifaqından tələb olunurdu ki, Əfqanıstanın suverenliyinə hörmətlə yanaşsın, işğal etdiyi ərazilərdən öz ordusunu çıxarsın. Bu Zirvə konfransının Əfqan-İKT əlaqələrində mühüm əhəmiyyəti oldu. Əvvələn, ilk dəfə idi ki, müsəlman ölkələrinin dövlət başçıları səviyyəsində "Əfqan problemi" müzakirə olunurdu və problemlə bağlı sənəd qəbul edilmişdi. İkincisi, Zirvə toplantısına mücahidlərin dəvət olunması Əfqanıstanda 1978-ci ildə hərbi çevriliş yolu ilə hakimiyyətə gəlmiş rejimin legitimliyinin tanınmaması demək idi. İKT tərəfindən belə bir addımın atılması Əfqan mücahidləri üçün mənəvi dəstək demək idi.

Küveytdə 1987-ci ildə keçirilən Zirvə toplantısında da Əfqanıstanla bağlı hadisələr geniş müzakirə olundu. Qəbul edilmiş qətnamədə sovet dövlətindən bir daha təkidlə tələb olunurdu ki, silahlı qüvvələrini Əfqanıstandan geri çəksin və bu ölkədə İslam dəyərlərinə söykənən bir hakimiyyətin bərqərar olmasına şərait yaratsın.

Sovet İttifaqının Əfqanıstana hərbi təcavüzü İKT xarici işlər nazirlərinin bütün konfranslarında müzakirə olunaraq, müvafiq qərar və qətnamələr qəbul olunmuşdur. XI Konfransda yenə də SSRİ-dən təkidlə tələb olunurdu ki, ordusunu heç bir qeyd-şərt irəli sürmədən bu ölkədən geri çəksin. Konfrans təsdiq edirdi ki, Əfqanıstanın dövlət və ictimai-siyasi quruluşunun forması əfqan xalqının iradəsilə, heç bir xarici dövlətin müdaxiləsi olmadan müəyyən olunmalıdır. Konfrans bütün dövlətlərə müraciət edərək onları Əfqanıstanın ərazi bütövlüyünə, suverenliyinə, bitərəfliyinə və islam mənəviyyatına hörmət etməyi xahiş etmişdi. Konfrans qəbul etdiyi qətnamənin icrasına nəzarət etmək üçün İranın, Pakistanın xarici işlər nazirləri və İKT-nın Baş Katibindən ibarət Komissiya yaratmışdı (140, s.197-198). Komissiya qətnamədə nəzərdə tutulmuş işləri icra etmək məqsədilə yollar axtarmalı və bu istiqamətdə ilk addım kimi əfqan probleminin həllinə həsr olunmuş beynəlxalq konfransın çağırılmasını təşkil etməli idi. Bu konfrans BMT-nin, ya da başqa bir mötəbər beynəlxalq təşkilatın nəzarəti və iştirakı ilə keçirilməli idi (138, s.258-259).

Göründüyü kimi, Əfqan probleminin əməli həllinə kömək etmək üçün yaradılmış Komissiyanın üç üzvündən ikisi - Pakistan və İran Əfqanıstanla həmsərhəd qonşular idi və bu ölkədə əmin-amanlığın yaradılması və işğalçı ordularının geri çağırılmasında maraqlı idilər. Əfqanıstanda cərəyan edən hadisələr bu iki ölkə üçün təhlükə mənbəyi olduğundan, Tehran və İslamabad bu hadisələrə laqeyd qala bilməzdilər və Əfqan məsələsinin tezliklə nizama salınmasına yardım etməli idilər. Hər iki dövlətin Əfqan problemində mövqeyini anlamaq üçün, onların Əfqanıstan hadisələrində iştirakına ötəri nəzər salmaq zəruridir.

1979-cu ilin dekabrın 27-də sovet qoşunlarının Əfqanıstana hərbi təcavüzündən dərhal sonra bu ölkə qaçqınlar problemilə üzləşdi. Mövcud rejimin təzyiqindən və xarici qoşunların ölkədə özbaşınalığından dəhşətə gələn yüz minlərlə insan Pakistana və İrana sığındı. Evsiz-eşiksiz qalan bu insan seli, hər iki ölkə üçün ciddi sosial-iqtisadi problemlər yaratdı. Sonralar Əfqan müxalifətinin sosial bazasını əsasən bu qaçqınlar təşkil etmişdi. Əfqanıstanı tərk edənlərin ön cərgəsində ruhanilər və onlarla əlaqəsi olan təbəqələr gedirdi.



70-ci illərin sonunda Pakistanda fəaliyyətə başlayan 6 təşkilat və cəmiyyət, 1980-ci ilin yanvarın 27-də "Əfqanıstan Milli İslam Cəmiyyəti" adlı qurumda birləşərək, Kabil rejiminə və sovet qoşunlarına qarşı mübarizə aparacaqlarını rəsmən bəyan etdilər. Cəmiyyət İKT-yə müraciət edərək onlara maliyyə, silah və sairə ilə yardım etməyi xahiş etdi (98, s.43). 1982-ci ilin martında Pakistan ərazisində yeddilərin iştirakı ilə yaranan cəbhə fəaliyyətə başladı (Ətraflı bax: 108, s.44; 107. 1986. №5, s.99-105, 116-118, 163-165). Cəbhəyə 60-cı illərin ortalarından Əfqanıstanın ictimai-siyasi həyatında fəal rol oynayan ziyalılar və ruhanilər rəhbərlik edirdilər (136, s.328-339, 108, s.16-17). Göründüyü kimi, Pakistanın ərazisi tədricən Əfqanıstan İslam müxalifətinin əsas sığınacaq və hərbi hazırlıq bazasına çevrilirdi.

İKT tərəfindən yaradılan Komissiya üzvlərindən biri də İran idi. Bu ölkə istər çar Rusiyası və istərsə də Sovetlərlə münasibətlərində daha çox zərər görmüşdü. İranla həmişə hədə və təzyiq dililə danışan bir dövlət tərəfindən Əfqanıstanda oyuncaq və həm də marksist əqidəli bir rejimin yaradılmasının, İran üçün gələcəkdə nə kimi problemlər törədəcəyini dərk etmək, Tehran üçün bir o qədər də çətin deyildi. Deyilənləri nəzərə alan İran sovet ordusunun bu ölkəyə təcavüzünə kəskin münasibət bildirdi və sovet hökumətinin bu aksiyasını beynəlxalq hüquq normalarının kobudcasına pozulması kimi qiymətləndirdi. Əfqanıstanda qaçqın problemi baş qaldıran kimi İranın bu ölkə ilə sərhədləri Əfqan qaçqınlarının üzünə açıldı. Beləliklə, İranın şərq vilayətləri bir milyona yaxın Əfqan qaçqınlarının müvəqqəti sığınacaq zonalarına çevrildi. İran ərazisində məskunlaşmış əfqanlar burada mücahid dəstələrində təşkilatlanır, hərbi-hazırlıq mərhələsini keçəndən sonra Əfqanıstanda sovet ordu hissələrinə və Tərəki-Babrək rejiminə qarşı silahlı mübarizəni davam etdirirdilər. Mücahidlərə İran ərazisində

yaradılmış İslamyönlü 8 partiya və cəmiyyətlər rəhbərlik edirdi (108, s.104-113).

Göründüyü kimi, bu iki ölkənin Komissiyaya üzv seçilmələri heç də təsadüfi bir hal deyildi. Əfqanıstan böhranının şiddətlə davamı və bu ölkədə sovet hərbi birləşmələrinin qəddarlığını nəzərə alan İKT, daha ciddi addımlar atmağı qərara aldı. Xarici işlər nazirlərinin XIII Konfransında bu məsələ ilə bağlı yeni bir Komitə yaradıldı. Bu Komitəyə İranın, Pakistanın, Qvineyanın, Tunisin xarici işlər nazirləri və İKT-nin Baş Katibi seçildilər. Komitənin əsas vəzifəsi Əfqanıstanın sovet işğalından azad olunması yollarını axtarmaq və bu işə yaxından köməklik göstərmək idi (138, s.258-259). Beləliklə, Komitənin tərkibinə Asiya ölkələrilə yanaşı, Afrika dövlətlərinin nümayəndələrinin də seçilməsi, "Əfqan probleminin" həllini sürətləndirmək məqsədi daşıyırdı. Komitənin vəzifəsi həm də Əfqan mücahidlərilə İKT arasında əlaqələrin inkişafını nəzarətə götürmək idi.

Yeni Komitənin tövsiyəsilə Xarici İşlər Nazirlərinin XVIII Konfransında Əfqan məsələsi ilə bağlı çıxarılmış qərarın mücahidlər üçün xüsusi əhəmiyyəti vardı. Konfransda mücahidlərin mühacirətdə təşkil etdikləri müvəqqəti hökumət Əfqanıstanın qanuni hakimiyyəti kimi tanındı və ona İslam Konfransı Təşkilatında təmsil olunmaq mandatı verildi (140, s.198). Qəbul olunmuş qətnamədə Əfqanıstanın Müvəqqəti hökumətinin və Məşvərət Şurasının yaradılması müsbət bir hadisə kimi qiymətləndirilirdi. İKT-nin Əfqanıstan böhranı ilə bağlı bu qətiyyəti, Əfqanıstan-İKT əlaqələrində yeni mərhələnin başlanğıcı demək idi.

Əfqan xalqının azadlıq uğrunda mübarizəsinin İKT tərəfindən dəstəklənməsi, sovet ordusu üzərində qələbənin əldə olunmasında mühüm rol oynadı. Bu dəstəkdə İKT-da nüfuzlu üzv olan Pakistanın, İranın və Səudiyyə Ərəbistanın fəal iştirakı, əfqan mücahidlərinin qələbəsini təmin edən mühüm amillərdən biri oldu.

Xarici İşlər Nazirlərinin XVIII Konfransında "Əfqan probleminin" müzakirəsi zamanı üzv dövlətlər arasında fikir



ayrıcı üzə çıxdı. Pakistan ərazisində yaradılması nəzərdə tutulan Müvəqqəti hökumətin və Məşvərət Şurasının tərkibi təsdiq olunmalı idi. Müvəqqəti hökumət və Məşvərət Şurası Səudiyyə Ərəbistanı və Pakistan tərəfindən himayə olunan puştular tərəfindən yaradıldığından burada etnik azlıqların nümayəndələri və xüsusilə İran tərəfdən müdafiə olunan şiələr iştirak etmirdilər. Bu qurumda İran ərazisində fəaliyyət göstərən "səkkizlər" ümumiyyətlə təmsil olunmamışdı. Müvəqqəti hökumətin və Şuranın bu tərkibdə yaradılması Səudiyyə Ərəbistanı və Pakistandan başqa Küveyt, Birləşmiş Ərəb Əmirlikləri, pərdə arxasından isə ABŞ tərəfindən dəstəklənirdi. Müvəqqəti hökumətin və Şuranın yaradılması səsə qoyularkən "səkkizləri" müdafiə edən İran bitərəf qaldı. Belə bir qərarın çıxarılması həm də İranın bu prosesdən uzaqlaşdırılması demək idi. Sovet İttifaqı ilə müxtəlif tellərlə bağlılığı olan İraq, Cənubi və Şimali Yəmən, Suriya ümumiyyətlə Müvəqqəti hökumətin yaradılmasına qarşı çıxdılar. Beləliklə, Əfqanıstan məsələsilə bağlı səsvermə İKT-də yekdil bir mühitin olmadığını üzə çıxardı.

Əfqanıstan Müvəqqəti hökumətinin İKT-də təmsil olunması ilə bağlı keçirilmiş səsvermənin nəticələri göstərdi ki, bu məsələdə bir sıra dövlətlər hər şeydən əvvəl özlərinin iqtisadi, ideoloji və geosiyasi maraqlarını güdürlər. Bu maraqların nə dərəcədə təmin oluna bilməsi, təməli qoyulmaqda olan Əfqanıstan dövlət quruluşundan və onun gələcək fəaliyyətindən asılı olacaqdı. Səsvermə bir də onu göstərdi ki, Əfqanıstan böhranı, faciəli hadisələrlə yüklənmiş vətəndaş müharibəsi müstəvisinə keçmək ərəfəsindədir. Bu hadisələrin arxasında həmin səsvermədə iştirak edən xarici qüvvələrin iqtisadi, siyasi və ideoloji maraqları gizlənmişdi. Lakin bununla belə Müvəqqəti hökumətin İslam Konfransı Təşkilatında təmsil olunması barədə qərar qəbul olundu. Əslində belə bir qərarın qəbulu müsəlman dövlətləri tərəfindən bu hökumətin faktiki tanınması demək idi.

1989-cu ildə sovet qoşunları Əfqanıstandan çıxarıldı. 1992-ci ildə Əfqanıstan İslam Respublikası elan edildi (106, s.417). Lakin əfqan xalqının həyatına əmin-amanlıq, sülh və

sakitlik gəlmədi. Əfqanıstanda vətəndaş qarşıdurmasının davam etməsini izləyən İKT, dəfələrlə bu problemə öz münasibətini bildirdi. İstər 1997-ci il Tehran Zirvə Konfransında və istərsə də xarici işlər nazirlərinin hər il keçirilən toplantılarında Əfqanıstanda davam edən böhran müzakirə edilir, qardaş qırğınına son qoyaraq problemin danışıqlar yolu ilə həlli tövsiyə olunurdu. Məlum 11 sentyabr 2001-ci il hadisələrindən sonra Əfqanıstana ABŞ hərbi qüvvələrinin yeridilməsi bölgədə vəziyyəti xeyli dəyişdirmiş oldu. 2004-cü ilin avqustunda Əfqanıstanda təhlükəsizliyin təmin olunmasına nəzarət edən Beynəlxalq qüvvələr Avrokorpusla əvəz olundu (145). Həmin ilin oktyabrında ölkədə keçirilən prezident seçkilərində H. Kərzay qalib gəldi.

Lakin bu ölkədə faciəli hadisələr hələ də davam etməkdədir. Qüdrətli dövlətlər Əfqanıstanda öz mövqelərini möhkəmləndirmək uğrunda mübarizəni indi başqa vasitələrlə davam etdirirlər. 2006-cı ilin oktyabrında bütün ölkə ərazisinin NATO qüvvələrinin nəzarəti altına keçməsi (145) bunu təsdiqləyir.

**Kəşmir problemi.** İKT-nin başqa bir fəaliyyət dairəsi Kəşmir problemi olmuşdur. Kəşmir məsələsi Pakistanın və həm də bütün İslam dünyasının ağrılı problemlərindən birinə çevrilmişdir. Bu problemin yaranmasında da keçmiş müstəmləkə sisteminin dərin izləri var. Böyük dövlətlər istila etdikləri ölkələrdən məcburən geri çəkilsələr də, özlərindən sonra müxtəlif mürəkkəb münaqişələr "yadigar" qoyublar. Çox vaxt sərhəd xəttinin tənzimlənməsi, ərazi, etnik və dini zəmində baş qaldıran bu münaqişələr məkan baxımından məhəlli xarakter daşısalar da, baş qaldırdıqları regionun coğrafi hüdudları çərçivəsində sabitliyin və təhlükəsizliyin qorunması yolunda əngələ çevrilirlər.

Kəşmir problemi Hindistanla Pakistanın münasibətlərini daima gərginlikdə saxlayan faciəli bir hadisədir. Bu problemin törətdiyi fəsadların ölçüsünü təsəvvür etmək və İslam Konfransı Təşkilatı tərəfindən bu məsələnin diqqət mərkəzində saxlanmasının səbəblərini dərk etmək üçün, onun yaranma



tarixini və iki dövlətin münasibətlərinə necə təsir etməsini ötəri nəzərdən keçirək.

Kəşmir problemi 1947-ci ildə Hindistanda ingilis müstəmləkə sisteminə son qoyulduqdan sonra baş qaldırdı. Hindistanın iki müstəqil dövlətə - Hindistana və Pakistana bölünməsindən sonra bir sıra problemlər, o cümlədən bu iki dövlət arasında sərhədd xəttinin delimitasiyası ilə bağlı məsələlər ortalığa çıxdı. Sərhəd boyu yerləşən bəzi ərazilərə hər iki tərəfin iddiası, problemin həllini və nizama salınmasını mürəkkəbləşdirdi. Kəşmirin bütövlükdə kimə mənsub olması da bu problemlərdən biri sayılır. Əlavə edək ki, Kəşmirdə yaşayan insanların əksəriyyəti müsəlmandır. Mütəmadi dini və etnik zəmində bu ölkədə insan tələfatı ilə nəticələnən toqquşmalar baş verir və hazırda da bu qarşıdurma davam etməkdədir.

BMT Təhlükəsizlik Şurasında ilk müzakirə olunan məsələlərdən biri də Kəşmir problemi olmuşdu. BMT-də keçirilən iclaslarda hər iki tərəf Kəşmirin məhz ona məxsus olduğunu əsaslandırmağa çalışır və 1948-ci ildə müharibənin başlanmasında qarşı tərəfi ittiham edirdi. Təhlükəsizlik Şurasının işə müdaxiləsindən sonra atəşkəs haqqında razılıq əldə edildi. Lakin problem tam və əhatəli nizama salınmadı. BMT-nin nəzarətilə sərhəd xəttinin demarkasiyası, münaqişədə iştirak edən tərəfləri yenə də razı salmadı.

Hindistan Pakistanı günahlandırırdı ki, İslamabad ona qarşı elan olunmamış müharibə aparır, Kəşmirə təxribatçılar göndərir və s. Pakistan da öz növbəsində Kəşmirdə müsəlmanların hüquqlarının tapdalanmasında və sıxışdırılmasında, onlara qarşı soyqırımı aparmaqda Hindistanı ittiham edirdi. Münasibətlərin belə gərgin həddə saxlanılması, mövcud problemlərin nizama salınması üçün kompromiss variantların tətbiq edilməsinə imkan vermir və bu da son anda, hərbi toqquşmalarla başa çatırdı (Ətraflı bax: 83, 89 və s.).

Münasibətlərdə xeyrixahlıq və mehriban qonşuluq prinsiplərindən uzaqlaşaraq "güc nümayiş etdirməyə" üstünlük verilməsi, 1965-ci ildə iki ölkə arasında növbəti müharibəyə gətirib çıxardı. İki ölkə arasında hərbi toqquşma hər iki fövqəl-

dövlətin maraqlarına zidd olduğundan, sovet diplomatiyası Hindistanla Pakistanı barışdırmaq təklifilə çıxış etdi. Problemin həllini döyüş meydanlarından danışıqlar müstəvisinə keçirmək məqsədilə irəli sürülən bu təklif öz bəhrəsini verdi; Daşkənddə başlanan və gərginliklə* müşayiət olunan danışıqlar, Pakistan-Hindistan Birgə Bəyannaməsinin imzalanması ilə qurtardı və nəticədə atəşkəs rejimi bərqərar olundu. Amma atəşin dayandırılması barədə əldə edilmiş bu razılıq heç də problemin tam və əhatəli nizama salınması demək deyildi.

1971-ci ildə baş verən irimiqyaslı növbəti müharibədə Pakistan məğlub oldu. Nəticədə Banqladeş Pakistandan ayrılaraq öz müstəqilliyini elan etdi. Bir sıra dövlətlərin və beynəlxalq təşkilatların işə qarışması nəticəsində atəşkəs haqqında razılıq əldə edildi və 1972-ci ildə Simle müqaviləsi imzalandı. Lakin Simle müqaviləsinin preambulası dəqiq tərtib edilmədiyindən ondan hər iki tərəf öz marağlarına uyğun şəkildə istifadə etməyə başladı. Hindistanın fikrincə, Kəşmir problemi daxili məsələ olduğundan onun beynəlmiləlləşdirilməsi düzgün deyil, çünki Simle müqaviləsinin preambulasında bu nəzərdə tutulmayıb, Pakistan isə preambulanın belə qadağan qoymadığını israr edir, problemin nizama salınmasını vaxtaşırı beynəlxalq təşkilatlarda qaldıraraq onu "beynəlmiləlləşdirməyə" çalışır. Pakistan diplomatiyasının problemin həllinə belə yanaşması, onun nizama salınmasında beynəlxalq birliyin yardımından istifadə etmək istəklərilə bağlıdır. Bu məqsədlə də Kəşmir problemi İKT-nın gündəliyinə çıxarılıb üzv dövlətlərin diqqəti bu məsələyə cəlb olundu.

Xarici İşlər Nazirlərinin III Konfransı Hindistanla Pakistan arasında davam edən münaqişəli məsələləri hərtərəfli təhlil edəndən sonra qəbul etdiyi qətnamədə, Pakistanın ərazi bütövlüyünün və suverenliyinin İKT tərəfindən müdafiə olunması barədə bəyanatla çıxış etdi (140, s.196). Konfrans eyni

* Daşkənd danışıqlarında Hindistan nümayəndə heyətinə başçılıq edən baş nazir Ləl Bahadır Şastri Birgə Bəyannamə imzalanan günü qəflətən vəfat etdi.



zamanda vuruşan tərəflərdən təkidlə tələb etdi ki, BMT-nin 7 dekabr 1971-ci il tarixli 26/2396 saylı qərarına uyğun olaraq, öz silahlı qüvvələrini tanınmış beynəlxalq sərhədlər arxasına çəksinlər, əsir düşənləri Cenevrə Konvensiyasına uyğun olaraq azad etsinlər, mübahisəli məsələləri ancaq danışıqlar yolu ilə həll etsinlər. Əks təqdirdə, İKT-nin üzvü olan dövlətlər Hindistanla münasibətlərinə yenidən baxmalı olacaqlar. Qətnamənin mətni "İslam həmrəyliyi" prinsipinə uyğun tərtib olunmuşdu. Atəşin dayandırılmasında BMT ilə İKT-ın mövqeyi üstüstə düşürdü və bu da danışıqlara başlamağa tərəflərin razılığa gəlmələrində təsirsiz deyildi. İki ölkə arasında müharibənin şiddətlə davam etməsi, regionda beynəlxalq sülh üçün təhlükəli idi və onun lokal çərçivədən kənara çıxaraq geniş miqyas alması ehtimalı vardı. İstər Hindistan və istərsə də Pakistan Sovet İttifaqı, ABŞ və Çinlə əlaqəli idilər. Hərbi toqquşmalar davam etdiyi təqdirdə, bu ölkələrin münaqişəyə müdaxilə edəcəkləri istisna olunmurdu. Müharibənin uzadılmasına təsir edən amillərdən biri də müharibə nəticəsində sərfəli silah alveri üçün şəraitin yarana biləcəyi ehtimalı idi. Müharibənin əhatə etdiyi ərazi genişləndikcə, silah satışı bazarı da rövnəq tapırdı. Buna görə də hər iki mötəbər beynəlxalq təşkilatın - BMT və İKT-nın səyləri atəşin dayandırılmasına yönəlmişdi.

Kəşmir problemi bütün bu dövr ərzində İslam Konfransı Təşkilatı xəttilə keçirilən bir çox toplantılarda ənənəvi müzakirə obyekti olmuşdur. İKT-nın fəal üzvlərdən sayılan Pakistan bütövlükdə İslam dünyasının aparıcı dövlətlərindən biridir. Təşkilatın fəaliyyətində yaxından iştirak edən İslamabad, müsəlman ölkələrinin problemlərinin həllinə heç zaman laqeyd qalmamış, onların beynəlxalq hüquq normaları əsasında nizama salınmasına imkanlarını əsirgəməmişdir. Pakistanın təşkilatda bu prinsipial mövqeyi ona hörmət qazandırmışdır.

Hindistanla münasibətlərdə mövcud olan ərazi və digər problemlər nəinki xarici işlər nazirlərinin vaxtaşırı çağrılmış konfrans və toplantılarının, həm də Zirvə müşavirələrinin diqqət mərkəzində olmuş, problemlə bağlı müzakirələr keçirilərək müvafiq qərarlar qəbul edilmişdir. Məsələn, Kəşmir

problemini daima diqqət mərkəzində saxlayan İKT, 1994-cü ilin dekabrında Mərakeşdə çağrılmış VII Zirvə konfransında bu barədə geniş müzakirə apararaq S-7/8 saylı qətnamə qəbul etdi. Bu sənəddə də Cammu və Kəşmir problemlərinin BMT-nin qəbul etdiyi qətnamələr çərçivəsində nizama salınması bir daha tövsiyə olundu (140, s.197). Konfrans Kəşmirdə insan hüquqlarının pozulmasını pisləyərək, Hindistandan bu hüquqlara hörmətlə yanaşmağı tələb etdi.

Kəşmir məsələsi İKT-nin 2000-ci il Doha Bəyannaməsində və 2003-cü il Putrajava Bəyannaməsində öz əksini tapdı. Bundan əlavə, problem İKT xarici işlər nazirlərinin hər il keçirilən konfranslarında (143) da müzakirə olunaraq müvafiq qərarlar və kommunikelərin qəbulu ilə müşayiət olunmuşdur.

Kəşmir məsələsinin nizama salınmasında Pakistanın mövqeyi İKT tərəfindən birmənalı dəstəklənməsinə baxmayaraq, bu məsələ hələ də həll olunmamış qalır. Buna əsas səbəb bir tərəfdən İKT xəttilə qəbul edilmiş qərar və qətnamələrin tövsiyə xarakter daşıması, digər tərəfdən də problemin son dərəcə mürəkkəb olmasıdır.

### 3.2. İKT-nin siyasətində Azərbaycan Respublikası

Azərbaycanın xarici siyasətinin başlıca istiqamətlərindən biri də universal və reqional beynəlxalq təşkilatlarla əlaqələr yaratmaq və onlarla dövlətimizin maraqlarına cavab verən və milli mənafeyimizə uyğun səmərəli əməkdaşlıq etməkdir. Bu əlaqələr müxtəlif sahələri əhatə edə bilər. Bundan başqa beynəlxalq ictimai rəyin formalaşmasında da bu təşkilatların imkanları genişdir. Ermənistanın ölkəmizə qarşı hərb təcavüzü haqqında həqiqətləri dünya birliyinə çatdırmaq üçün, bu təşkilatlardan bir vasitə kimi istifadə etmək, heç şübhəsiz müsbət nəticə verə bilər. Bu təşkilatların maliyyə imkanlarından isə sosial-iqtisadi problemlərin həllində istifadə etmək olar. İslam Konfransı Təşkilatına üzv olmaq göstərilən problemlərin həlli üçün əlverişli imkan yaradır. Əsas məsələ bu şərait və imkanlardan erməni təcavüzünün dəf edilməsində, işğal edilmiş torpaqlarımızın azad olunmasında və sosial-iqtisadi problemlərin həlli istiqamətlərində səmərəli istifadə etməkdir.



Azərbaycan öz suverenliyini elan edəndən və ölkəmiz ateizm rejimindən xilas olandan sonra İslam dünyasına qayıtmaq və bu dünyada təmsil olunmuş dövlətlərlə əlaqələr yaratmaq üçün imkan yarandı. Müstəqillik haqqında Akt qəbul ediləndən sonra bu istiqamətdə atılan addımlardan biri də İslam Konfransı Təşkilatı ilə birbaşa əlaqələrin yaradılması oldu. 1991-ci ilin dekabrın 8-də Respublikamız bu təşkilatın üzvlüyünə qəbul olundu (7, s.97). Yeri gəlmişkən qeyd edək ki, hətta Sovet dövründə də Azərbaycanın bu təşkilatla əlaqəsi olmuşdur. Belə ki, 1986-cı ilin oktyabrın 1-də Bakıda İKT-nin xəttilə "Müsəlmanlar sülh uğrunda mübarizədə" adlı Beynəlxalq Konfrans keçirilmişdir. Konfransın işində dünyanın 60 ölkəsindən 600-ə yaxın nümayəndə iştirak edirdi. O zaman Sovet hökumətinin belə bir toplantının Bakıda keçirilməsinə razılıq verməsində hədəfi bu təşkilatdan öz məqsədi üçün istifadə etmək niyyətlərinə bağlı idi. Amma belə bir toplantının Bakıda yüksək səviyyədə təşkili və keçirilməsi, İslam dünyasından təcrid edilmiş ölkəmizin müsəlman ölkələrində tanınması baxımından əhəmiyyəti vardı. Sovet hakimiyyəti dövründə bu tədbirin Bakıda keçirilməsi sonrakı illərdə öz bəhrəsini verdi. Belə ki, 1991-ci ilin mayında İKT-nın və Ümumidünya İslam Konqresinin nümayəndə heyəti qeyri-rəsmi səfərlə Bakıya gələrək, Respublikamızın ictimai-siyasi həyatı ilə yaxından tanış oldular. Bu səfər əsnasında və 1991-ci ilin mayında dindarların həcc ziyarəti vaxtı İKT ilə qeyri-rəsmi əlaqələr yaradıldı. Növbəti addım 1991-ci ilin avqustunda İKT Xarici İşlər nazirlərinin İstanbulda keçirilən Konfransında atıldı. Azərbaycanın bu təşkilata hələ üzv olmadığından, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə toplantıya qonaq sifətilə dəvət olundu. Paşazadə həmin konfransda çıxış edərək bildirmişdi: "Həyata hər hansı bir qəsd - istər təbiəti məhv etmək, istər adamlar arasında ədavət toxumu səpmək, istər irqi ayrıseçkilik, istər təcavüzkarlıq, istərsə də ərazi iddiası, Böyük Yaradana məxsus varidata qəsd

deməkdir. Bütün bunlar zülmə və ədalətsizliyə boyun əymək deməkdir, ona görə də ciddi şəkildə pislənilməlidir. Azərbaycanlı qardaşlarımıza qarşı uzun müddət əsil müharibə aparan, torpaqlarımızı zorla zəbt etmək istəyən Ermənistanın hərəkətlərini biz məhz belə qiymətləndiririk" (12, 8.VIII.1991. Sitat İbayevin göstərilən əsərindən götürülmüşdür: 12, s.29).

Ermənilər tərəfindən Azərbaycanın ətrafında yaradılmış informasiya blokadasının yarılması baxımından Şeyxin bu çıxışının böyük əhəmiyyəti olmuşdu. Müsəlman dövlətlərinin xarici işlər nazirləri ilk dəfə idi ki, belə mötəbər bir tribunadan ölkəmizə qarşı elan olunmamış müharibə aparan, ancaq özünü hiyləgərcəsinə "məzlum" kimi təqdim etməyi bacaran erməni təcavüzkarlarının məkrli siyasəti haqqında obyektiv informasiya əldə edirdilər.

1991-ci ilin dekabrın 5-də Seneqalın paytaxtı Dakarda VI Zirvə konfransı işə başladı. Toplantıda 45 ölkənin dövlət və hökumət başçıları və xarici işlər nazirləri iştirak edirdi. Respublikamız Şeyx A.Paşazadə tərəfindən təmsil olunmuşdu. Azərbaycan Respublikası İKT-nin Nizamnaməsinin 8-ci maddəsinə uyğun olaraq təşkilata üzv olmaq üçün rəsmən müraciət etmişdi. İranın o zamankı xarici işlər naziri Əli Əkbər Vilayəti Konfransda çıxış edərək, Respublikamızın təşkilatın üzvlüyünə qəbulunu təklif etdi. Vilayətinin bu təklifinə Türkiyə, Pakistan, Fələstin Azadlıq Təşkilatı və b. tərəfdar çıxdılar. Nümayəndələr həm də postsovet məkanında öz müstəqilliyini bəyan etmiş bütün müsəlman respublikalarının İKT üzvlüyünə qəbul olunmalarını arzuladılar. Səs çoxluğu ilə Azərbaycan və postsovet məkanının digər müsəlman respublikaları bu təşkilata üzv seçildilər.

Azərbaycanın bu təşkilata üzv seçilməsinin ölkəmiz üçün mənəvi və siyasi əhəmiyyəti vardı. Əvvələ, bu təşkilata üzv olan müsəlman dövlətləri bu təşkilat çərçivəsində də respublikamızın suverenliyini tanıdılar, ikincisi bu təşkilatın iqtisadi-maliyyə imkanlarından xalqımızın rastlaşdığı iqtisadi çətinlikləri həll etmək imkanı əldə olundu. Bundan başqa erməni təcavüzünə qarşı bu təşkilatın dəstəyinin mənəvi-siyasi əhəmiyyəti



vardı. Ateist əqidəli və totalitar bir rejimin məngənəsindən xilas olan xalqımız özünün soykökünə və mənəvi dəyərlərinə qayıtmaq yolunda addımlayırdı. İslam dəyərlərinin ölkəmizdə bərpası baxımından da bu təşkilatın üzvlüyünə qəbul olunmağın əhəmiyyəti vardı. Bundan sonra İKT-nin imkanlarından istifadə etmək Azərbaycan diplomatiyasının məharətindən və məqsədyönlü fəaliyyətindən asılı idi. Lakin o dövrdə ölkənin mürəkkəb ictimai-siyasi durumu, erməni təcavüzü və s. problemlər hələ təşəkkül çağlarında yaşayan və formalaşmaqda olan Azərbaycan diplomatiyasına bu istiqamətdə səmərəli və cəsarətli addımlar atmağa imkan vermirdi. Bununla belə erməni təcavüzü ilə bağlı İKT tərəfindən Azərbaycanın haqq işinin müdafiəsi istiqamətində ilk addımların atılması təqdirəlayiq bir hal idi. Belə ki, İKT-nin Baş Katibi Həmid əl-Qabid 1992-ci ilin aprelin 1-də Dağlıq Qarabağda vəziyyətlə bağlı bəyanatla çıxış edərək, problemin danışıqlar yolu ilə, Azərbaycanın ərazi bütövlüyünə ciddi riayət olunmaqla həll olunmasını bəyan etdi.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü genişləndirməsi, Azərbaycan hökuməti qarşısında yeni vəzifələr qoyurdu. Milli diplomatiyamız bu problemi beynəlxalq təşkilatlarda qaldırmalı, dünya ictimaiyyətinin diqqətini bu açıq təcavüzə cəlb etməli idi. Bu kanallardan biri də İslam Konfransı Təşkilatı ilə səmərəli əməkdaşlıq idi. 1992-ci ilin iyun ayında Xarici İşlər Nazirlərinin İstanbulda çağrılmış növbədənkənar konfransında bu məsələ müzakirə olundu və bununla bağlı qəbul edilmiş qətnamədə qeyd edildi ki, müsəlman dövlətləri Azərbaycanla həmrəy olduqlarını bəyan edir və Ermənistandan işğalçılıq siyasətinə son qoymağı tələb edirlər. Konfransda qəbul olunmuş qətnamənin müddəalarını aşağıdakı kimi xülasə etmək olar:

- Konfrans qonşu dövlətlərin - İranın və Türkiyənin Dağlıq Qarabağ probleminin sülh yolu ilə həllinə yönəlmiş vasitəçilik səylərin bəyənir.

- Konfrans Ermənistandan tələb edir ki, işğal etdiyi ərazilərdən ordusunu dərhal geri çəksin, Azərbaycanın ərazi bütövlüyünə hörmət etsin.

- Konfrans bütün dövlətlərdən, xüsusilə ATƏT-dən problemin danışıqlar yolu ilə həlli istiqamətində səylərini sürətləndirməyi xahiş edir.

- Konfrans BMT Baş Katibindən və Təhlükəsizlik Şurasından Ermənistanı təcavüzkar bir dövlət kimi tənbeh etmək üçün səlahiyyətlərindən istifadə etməyi xahiş edir (140, s.209-210).

1992-ci ilin sentyabrında Nyu-Yorkda BMT Baş Məclisində iştirak edən İKT xarici işlər nazirlərinin əlaqələndirmə komitəsinin iclasında, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü müzakirə edildi. İclasın yekun sənədində qeyd edilirdi ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünə və hamı tərəfindən tanınmış dövlət sərhədlərinə hörmət etməlidir (11, s.209-210).

Ermənistanın Respublikamıza qarşı hərbi təcavüzü 1993-cü il aprelin 25-29-da Pakistanın Karaçi şəhərində çağrılmış XXI konfransında müzakirə olundu. Qəbul edilmiş qətnamədə əsasən deyilirdi ki, konfrans:

"1. Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzünü kəskin şəkildə pisləyir;

2. Erməni qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən təcili çıxarılmasını və Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət bəsləməyi Ermənistandan ciddi surətdə tələb edir;

3. Qarabağ məsələsini dövlətlərin ərazi bütövlüyü və beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmət əsasında ədalətlə və sülh yolu ilə həll etməyə çağırır..." (3, 1994).

Qeyd etmək lazımdır ki, Respublikamızda gedən ictimai-siyasi proseslərlə bağlı olaraq 1993-cü ilin mayından 1994-cü ilin mayınadək olan dövrdə Azərbaycanın bu təşkilatla əlaqələri lazımi səviyyədə olmamışdı. Amma əlaqələrin zəif olmasına baxmayaraq, erməni təcavüzünün davam etdirilməsilə



bağlı İKT-nin kəskin mövqeyi Baş Katib Həmid əl-Qabidin 1993-cü il sentyabr tarixli bəyanatında öz ifadəsini tapdı. Bu sənəddə Ermənistanın hərbi təcavüzü pislənilmiş, erməni hərbi birləşmələrinin dərhal çıxarılması tələb olundu.

Ermənistanın ölkəmizə qarşı işğalçılıq müharibəsinin şiddətlə davam etdiyi bir vaxtda, bu təşkilatla əlaqələr və məsləhətləşmələr genişləndirilməli idi, onun imkanlarından məkrli düşmənin ifşası üçün geniş istifadə olunmalı idi. Lakin Azərbaycan diplomatiyası həmin illərdə bu istiqamətdə fəal iş aparmadı, yaranmış imkandan istifadə etməyi unutdu. Halbuki İKT-yə üzv olan dövlətlərin ermənilərə birbaşa təsir etmək imkanları var idi. Bu ölkələrin bəzilərində (İran, İraq, Suriya, Türkiyə, Livan) çoxsaylı erməni icması məskunlaşmış, onların maddi-mənəvi yardımından isə nəinki Ermənistan, həm də Dağlıq Qarabağ separatçıları indiyədək bəhrələnirlər. İslam Konfransı Təşkilatının qəti tədbirilə bu kanalları təcavüzkar Ermənistanın üzünə qapatmaq olardı. Bu istiqamətdə adı çəkilən ölkələrin rəsmi dairələrilə danışıqlar aparılmalı və onların diqqəti bu məsələyə cəlb olunmalı idi.

1994-cü ilin ortalarından etibarən bu təşkilatla əlaqələri canlandırmaq məqsədilə, Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfirinə ölkəmizi İKT-də təmsil etmək səlahiyyətləri verildi. Yalnız bundan sonra respublikanın xarici işlər nazirliyi bu təşkilatın Baş Katibliyi və ona tabe olan qurumlarla birbaşa əlaqələr qura bildi. Prezident Heydər Əliyevin 1994-cü ilin iyulunda Səudiyyə Ərəbistanına səfəri və Kəbəyə ümrə ziyarəti zamanı krallığın rəsmi şəxsləri, o cümlədən bu ölkənin dövlət başçısı Fəhd bin Əbdüləziz əl-Səudlə görüş və söhbətləri, Azərbaycan-İKT əlaqələrinin canlanmasına və inkişafına təkan verdi. Bu səfər nəticəsində İslam ziyarətgahlarının qoruyucu olan Səudiyyə Ərəbistanın Azərbaycan haqqında təsəvvürləri genişləndi, ölkəmizin İslam aləminin bir üzvü olması yüksək səviyyədə bir daha təsdiqləndi (3, 1994).

1994-cü ilin noyabrında İKT-nin Baş Katibi Həmid əl-Qabid Bakıya rəsmi səfərlə gəldi. Səfərdə məqsəd respublika rəhbərliyilə geniş əlaqələr yaratmaq idi. Görüş və söhbətlər

zamanı Baş Katib Ermənistanın hərbi təcavüzü haqqında obyektiv məlumat əldə etdi.

Azərbaycanın İslam Konfransı Təşkilatında Səudiyyə Ərəbistanındakı səfirimiz səviyyəsində təmsil olunması, dövlət başçısının və xarici işlər nazirinin bu təşkilatın ali orqanlarının toplantılarında iştirak etmələri, ölkəmizin bu təşkilatla əlaqələrinin inkişafına təsir göstərdi. Diplomatiyamızın bu dövrdə əsas vəzifəsi Ermənistanı bu təşkilat xəttilə təcavüzkar bir dövlət kimi müsəlman ölkələrinin ictimaiyyətinə tanıtdırmaq, Asiya və Afrikanın müsəlman ölkələrini xalqımızın haqq işinin müdafiəsinə cəlb etmək idi. Bu vəzifələrin yerinə yetirilməsi baxımından 1994-cü ilin dekabrında Kasablankada keçirilmiş VII Zirvə konfransında prezident Heydər Əliyevin iştirakı (ətraflı bax: 4), onun çıxışı və müsəlman ölkələrindən gəlmiş dövlət başçıları ilə görüş və söhbətləri (8, s.754-755) əhəmiyyətli addım hesab olunmalıdır. Prezident öz çıxışında Ermənistanın ölkəmizə təcavüzündən bəhs edərkən demişdir: "Münaqişənin tamamilə aradan qaldırılması üçün ermənilərin bütün silahlı birləşmələrinin işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılmasını, qaçqınların doğma yurdlarına qaytarılmasını, Azərbaycanın bütün ərazisi üzərində onun suveren hüquqlarının bərpa edilməsini nəzərdə tutan siyasi saziş bağlanmalıdır" (8, s.753). Zirvə toplantısında qəbul edilmiş qətnamədə İKT-nin Ermənistanın hərbi təcavüzü ilə bağlı məlum mövqeyi sənəddə də öz əksini tapdı, problemin ancaq danışıqlar yolu ilə nizama salınması tövsiyə olundu. Qətnamədə qeyd edilirdi ki, VII Zirvə Konfransı:

"- Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünü kəskin şəkildə pisləyir;

- Təcavüz nəticəsində Azərbaycan ərazisində mülki Azərbaycanın mülki vətəndaşlarına qarşı edilən hərəkətləri bəşəriyyətə qarşı törədilən cinayət kimi qiymətləndirir;

- BMT-nin Təhlükəsizlik Şurasınan 822, 853, 874 və 884 saylı qətnamələrinin dönmədən yerinə yetirilməsini, Ermənistan Respublikası silahlı qüvvələrinin işğal edilmiş bütün Azərbaycan torpaqlarından, o cümlədən Laçın və Şuşa rayonlarından dərhal, tamamilə və şərtsiz çıxarılmasını qəti surətdə tələb edir..." (3, 1999).



Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü xarici işlər nazirlərinin bir çox konfrans və toplantılarında daima müzakirə mövzusu olmuş, problemlə bağlı müvafiq qətnamələr qəbul edilmişdir. Toplantılarda iştirak edən bəzi ölkələrin nümayəndələri məsələ ilə bağlı çıxış edərək bu təcavüzə öz qiymətini vermişlər. Xarici işlər nazirlərinin 1993-cü ilin aprelində Kəraçidə keçirilmiş XXI Konfransı, 1994-ci ilin sentyabrında İslamabadda çağrılmış VII növbədənkənar Konfransı, 1994-cü ilin dekabrında Kasablankda keçirilmiş XXII, 1995-ci ilin dekabrında Konakridə çağrılmış XXIII, 1996-cı ilin dekabrında Cakartada keçirilmiş XXIV, 1998-ci ilin martında Dahada çağrılmış XXV və 1999-cu ilin iyun ayında Yaqaduquda çağrılmış XXVI Konfranslarında Ermənistanın ölkəmizə hərbi təcavüzü geniş müzakirə olunmuş və müvafiq sənədlər qəbul edilmişdir. Bu sənədlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasət aparması vurğulanmış, ondan silahlı qüvvələrinin dərhal geri çağrılması tələb olunmuşdur (3, 1999).

Bundan başqa, bu məsələ Xarici İşlər nazirlərinin növbədənkənar VI və VII Konfranslarında da geniş müzakirə edilmişdir. Artıq müsəlman ölkələrinin rəsmi dairələrində erməni təcavüzü haqqında obyektiv təsəvvür yaranmışdır. Azərbaycanda gedən daxili çəkişmələrdən və Rusiyanın hərbi-siyasi dəstəyindən istifadə edən Ermənistan, ölkəmizin 11 rayonunu işğal etmiş, burada yaşayan insanları yurd-yuvalarından didərgin salmışdır. Xalqımız öz keşməkeşli tarixində ilk dəfədir ki, XX əsrin ən faciəli hadisələrindən sayılan qaçqınlar problemi ilə üzləşib. Bir tərəfdən itirilmiş torpaqların dərdi, digər tərəfdən də qaçqın və məcburi köçkünlərin faciəsi, ölkəmiz üçün olduqca mürəkkəb sosial-iqtisadi və siyasi problemlər yaratmışdır. Bu məsələlərin həlli xalqımızdan qətiyyət, diplomatiyamızdan isə çeviklik və məqsədyönlü addımlar tələb edir. Qarşıda duran əsas vəzifələrdən biri də beynəlxalq ictimaiyyətdə Ermənistan-Azərbaycan əlaqələri haqqında obyektiv təsəvvür yaratmaq, ermənilərin ölkəmizə qarşı əsassız torpağ

iddiaları barədə dünya birliyinə, beynəlxalq təşkilatlara düzgün və əhatəli məlumat verməklə, Ermənistanın təcavüzkar bir dövlət olduğunu sübut etməkdir.

Azərbaycan diplomatiyası tərəfindən İKT-də bu istiqamətdə aparılan məqsədyönlü iş bu təşkilat çərçivəsində öz bəhrəsini verdi. Belə ki, 1996-cı ilin dekabrında Xarici İşlər nazirlərinin Cakartada keçirilmiş XXIV Konfransında ilk dəfə idi ki, İKT-nin Ermənistan-Azərbaycan münaqişəsilə bağlı qəbul etdiyi qətnamələrin adında düzəliş aparıldı və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" kimi yazıldı (3, 1999). Adı çəkilən qətnamədə qeyd edilmişdi ki, Konfrans "bütün üzv dövlətləri Azərbaycan ərazisinin işğalını davam etdirən Ermənistana silah və hərbi sursat verməkdən imtina etməyə çağırır. İKT-yə üzv dövlətin ərazisi bu kimi yüklərin tranziti üçün istifadə edilməməlidir: Ermənistanın təcavüzə və Azərbaycan torpaqlarının işğalına son qoyması üçün İKT bütün üzv dövlətlərə və beynəlxalq birliyin digər dövlətlərinə müraciət edərək, hər cür təsirli iqtisadi və siyasi tədbirlərdən istifadə etməyə çağırır..." (3, 1999). Bu sənədin 16-cı bəndinə əsasən İKT-nin baş katibi İzzəddin Laraki ATƏT-in sədrinə göndərdiyi məktubda qeyd edirdi ki, "İKT-nin fikrincə, münaqişənin sülh yolu ilə ədalətli həlli dövlətlərin ərazi bütövlüyü və beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərin toxunulmazlığı prinsipinə əsaslanmalıdır. Biz ATƏT-in Minski qrupunun münaqişənin siyasi yolla həllinə təşviq edən cəhdlərini alqışlayırıq...

Mən bildirirəm ki, İKT Minsk qrupunun üzvlərindən Ermənistanın təcavüzünə son qoyulması və Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması yolunda fəaliyyətini sürətləndirməsini təkidlə xahiş edir" (11, s.210).

Xarici işlər nazirlərinin VII Konfransı BMT Təhlükəsizlik Şurasına müraciət edərək bildirdi ki, "Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü etiraf edilməlidir və BMT Nizamnaməsinin VII maddəsinə əsasən lazımi tədbirlər görülməlidir" (140, s.210).

Xarici İşlər Nazirlərinin XXIV konfransı tərəfindən Azərbaycanla bağlı qəbul edilmiş qərar və qətnamələr əhəmiyyətinə görə diqqəti cəlb edir. Bu sənədlərdə təcavüzkar dövlətin silahlı qüvvələrinin işğal edilmiş torpaqlarımızdan qeyd-şərtsiz çıxarılması, məcburi qaçqınların öz yurdlarına qayıtması, əzəli Azərbaycan torpağları olan Şuşa və Laçın rayonlarının azad edilməsi və s. bir daha tələb olunurdu. Qəbul edilmiş iqtisadi qətnamədə üzv dövlətlərdən Azərbaycana təcili humanitar yardımın göstərilməsi xahiş olunurdu.

1997-ci ilin martın 23-də Pakistan xalqı müstəqilliyinin 50 illik yubileyini qeyd etdi. Pakistanın yarım əsrlik yubileyi bir çox müsəlman ölkələrində. o cümlədən İslam Konfransı Təşkilatı xəttilə təntənəli şəraitdə qeyd edildi. Bu əlamətdar hadisə ilə bağlı qəbul edilmiş İslamabad Bəyannaməsində müsəlman dövlətləri qarşısında duran vəzifələr, qlobal və regional mahiyyətli problemlərin həlli yolları, müsəlman ölkələri arasında hərtərəfli əlaqələrin inkişaf etdirilməsi ətraflı şəhr edilmişdir. Bəyannamənin 10-cu bəndi Azərbaycana həsr edilmişdir. Orada deyilir ki, "Azərbaycana qarşı edilmiş təcavüz ciddi şəkildə pislənilir. Azərbaycan əraziləri işğaldan azad edilməlidir" (3, 1997, №2, 25.III.1997).

Ölkəmizə qarşı Ermənistanın hərbi təcavüzündə erməni diasporu ilə yanaşı, bir sıra dövlətlər də iştirak edir. Ermənilərin döyüşlərdə qələbəsini şərtləndirən və münaqişənin danışıqlar yolu ilə həllinə mane olan amillərdən biri də budur. Bu antiazərbaycan kampaniyada Rusiya yaxından iştirak edir. Rusiyadan gətirilmiş hərbi texnika və silah müharibənin aparılmasında, torpaqlarımızın işğal edilməsində həlledici rol oynamışdır. 1997-ci ildə Rusiyadan Ermənistana 1 mlrd. doll. məbləğində silah və sursatın ötürülməsi, bütövlükdə Cənubi Qafqazda vəziyyəti daha da gərginləşdirdi. Halbuki Rusiya BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi dünyada sülhün və təhlükəsizliyin qorunması üçün məsuliyyət daşıyır və bu ölkə həm də Minski qrupunun həmsədridir. Azərbaycan diplomatiyasının vəzifəsi Rusiyanın diqqətini bu antiazərbaycan siyasətdən əl çəkməyə cəlb etməkdir. Bu məsələ ilə bağlı Rusiya ilə danışıqlar aparılmaqla yanaşı, problemin İKT-nin

müvafiq strukturlarına çıxarılması Rusiya və Ermənistana dolayısı yolla təsir göstərmək baxımından da əhəmiyyət kəsb edir. Azərbaycan Milli Məclisinin Rusiya Federasiyasının keçmiş prezidenti B.Yeltsinə 14 mart 1997-ci il tarixli müraciəti İKT-nin sənədi kimi üzv dövlətlər arasında yayıldı.

Dağlıq Qarabağda qondarma "prezident seçkilərinin" keçirilməsinə beynəlxalq birlik tərəfdən heç bir hüquqi əsası olmayan aksiya kimi qiymət verildi. Bu məqsədlə istifadə olunan mötəbər kanallardan biri də İslam Konfransı Təşkilatı idi. Bu problemlə əlaqədar Milli Məclisin və Dağlıq Qarabağın azərbaycanlı icmasının birgə bəyanatı Baş Katibə təqdim edildi. Məsələyə dərhal münasibət bildirən Baş Katib özünün 1997-ci il 15 sentyabr tarixli bəyanatında Dağlıq Qarabağ separatçılarının bu addımını "beynəlxalq hüquq normalarına zidd bir provakasiya" kimi qiymətləndirdi (3, 1997).

4 oktyabr 1997-ci ildə BMT Baş Məclisinin 52-ci sessiyası çərçivəsində Nyu-Yorkda keçirilmiş İKT Xarici İşlər nazirlərinin ənənəvi əlaqələndirmə müşavirəsinin yekun sənədində, İslam dünyasının problemləri ilə yanaşı, Ermənistanın ölkəmizə qarşı işğalçılıq müharibəsinə bir daha qiymət verildi. Bu qətnamənin respublikamız üçün əhəmiyyəti bir də onunla ölçülür ki, o, BMT-nin sənədi kimi katiblikdə qeydə alınaraq üzv dövlətlər arasında yayıldı. 57 ölkənin rəyini özündə təcəssüm etdirən bu sənədə dünya birliyi təbii ki, diqqət verməli oldu. Erməni təcavüzünün mahiyyəti haqqında obyektiv məlumatın İKT xəttilə BMT üzvlərinə çatdırılması informasiya baxımından da əhəmiyyətli idi.

1997-ci il dekabrın 9-11-də Tehranda VIII Zirvə konfransında prezident Heydər Əliyev çıxış edərək toplantı iştirakçılarının diqqətini Azərbaycana qarşı davam etməkdə olan erməni işğalına cəlb etdi (4, VIII kitab; 2, 9.XII.1997). Zirvə görüşündə "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında qətnamə" adlı sənəd qəbul edildi.

1998-ci il dekabrın 30-da İKT Baş katibi İzzəddin İraqi ATƏT sədri B.Qeremikə Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı İKT-nin mövqeyi haqqında məlumat verdi (5a, s.535)



1999-cu il 28 iyun - 1 iyulda Burkina-Fasonun paytaxtı Uaqaduquda keçirilmiş xarici işlər nazirlərinin XXVI Konfransında Respublikamızla bağlı üç sənəd - "Ermənistanın hərbi təcavüzü", "Azərbaycana iqtisadi yardım göstərilməsi haqqında" və "hərbi təcavuz nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında" qətnamələr qəbul edildi (3, 1999). Eynilə bu məzmunda IX Zirvə müşavirəsində də üç qətnamə qəbul edildi və bu sənədlərdə də Azərbaycanın haqq işi, İslam dünyasının dövlət başçıları tərəfindən bir daha dəstəkləndi. Burada qəbul edilmiş "Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında qətnamə" adlanan üçüncü sənəd preambula və 7 bənddən ibarətdir (3, 1999). Qətnamədə "erməni təcavüzkarlarının Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam sivilizasiyasının tam məhv edilməsinə yönəldilmiş vəhşi hərəkətləri" pislənir, "aldığı zərərlərə görə Azərbaycanın təzminat almaq hüququnun olduğu və bu zərərin ödənilməsi üçün Ermənistan Respublikasının tam məsuliyyət daşıdığı" vurğulanır (3, 1999).

İKT Baş Katibinin Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair hesabatını dinləyən Konfrans işğal olunmuş ərazilərdə İslam dəyərlərinin məhv edilməsini pislədi. Müşavirə Ermənistandan BMT TŞ-nin 822, 853, 874 və 884 saylı qətnamələrinin yerinə yetirilməsini tələb etdi.

İKT dövlət və hökumət başçılarının 2000-ci il 11-13 noyabrda Dohada (Qətər) keçirilmiş IX Zirvə toplantısı da qeyd etdiyimiz üç qətnaməni qəbul etdi. Bu toplantıda Azərbaycanın mövqeyinin dəstəkləndiyi bəyan edildi.

X Zirvə toplantısı 2003-cü ilin oktyabrında Putracayada (Malayziya) keçirildi. Toplantıda Azərbaycan nümayəndə heyəti tərəfindən hazırlanaraq təqdim edilmiş üç qətnamə layihəsi heç bir düzəliş olunmadan qəbul edildi (5a, s.536). Bu isə,

Azərbaycan diplomatiyasının, ən başlıcası isə Heydər Əliyev kursunun məqsədyönlülüyündən xəbər verirdi.

İlham Əliyevin prezidentliyi ilə bu kurs öz ənənəvi davamını tapdı. Azərbaycanın beynəlxalq aləmdə möhkəmlənmiş mövqeyi İKT ölkələrinin də respublikamızla sıx əlaqələrə can atmasını şərtləndirir. Elə İKT xarici işlər nazirlərinin 33-cü konfransının da məhz Bakıda (19-21 iyun 2006-cı il) keçirilməsi bu inteqrasiyadan xəbər verir.

Bakıda İKT-nin daha bir tədbiri müsəlman ölkələrinin turizm nazirlərinin 2006-cı ilin 11-12 sentyabrında çağrılan konfransı oldu. Konfrans turizm sektorunda təşkilat üzvü olan ölkələrin əlaqələri, bu sahədə mövcud problemləri və tədbirlər planını müzakirə etdi. Turizm nazirlərinin toplantısında qəbul olunan sənədlər içərisində «İraqla bağlı Qətnamə» və «Bakı Bəyannaməsi» xüsusi qeyd oluna bilər. Bu sənədlərdə Yaxın Şərqdəki gərginliyin və hərbi-siyasi hadisələrin turizm sahəsinə vurduğu böyük ziyan ön plana çəkilir (144).

Azərbaycan-İKT münasibətləri daima yüksələn xətt boyu inkişaf etməkdədir. İlk dəfə bu təşkilat tərəfindən Ermənistan təcavüzkar bir dövlət kimi tanınmış, ondan işğal olunmuş torpaqların qeyd-şərtsiz çıxması, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşması tələb olunmuşdur. İslam Konfransı Təşkilatı ilə Respublikamızın əlaqələrinin gələcəkdə daha da inkişaf edəcəyi, diplomatiyamızın bu istiqamətdə işinin canlandırılmasından və bir də ölkə daxilində islama qayıdışda əsaslı dönüşün yaradılmasından asılıdır. İslam dini həm mənəviyyatımızın əsasıdır və həm də həyat tərzimizdir.

### 3.3. İKT və xarici ölkələrdə məskunlaşmış müsəlman icmaları

İslam Konfransı Təşkilatının qarşısında duran mühüm vəzifələrdən biri də qeyri-müsəlman ölkələrində yaşayan müsəlmanların hüquqlarının müdafiəsidir. Dünyanın 70 ölkəsində icma halında məskunlaşan bu insanlara hakim təbəqənin



münasibəti eyni deyildir. Bir çox ölkələrdə onların hüquqları tapdalanır, müxtəlif təzyiqlərə və irqi ayrı-seçkiliyə məruz qalırlar. Bəzi ölkələrdə isə müsəlmanlara qarşı etnik təmizləmə siyasəti tətbiq edildiyindən, yaşadıqları yerləri məcburən tərk etməli olurlar. Bu insanların müdafiə olunması İKT-nin Nizamnaməsində nəzərdə tutulmuşdur. Bu sahədə təşkilatın fəaliyyətini təcəssüm etdirən bir neçə problemi xülasə formasında nəzərdən keçirək.

**Bosniya-Hersoqovina böhranı.** Balkanlarda etnik və dini zəmində münaqişələrin baş qaldırması üçün həmişə münbit zəmin olmuşdur. Bu regionda gah nisbi sakitlik hökm sürmüş, gah da "hamı hamıya qarşı vuruşmuşdur". XX yüzilliyin sonu da istisna olmadı. 1992-ci ildə Yuqoslaviyanın dağılmasından sonra burada süni şəkildə bir-birilə peyvənd edilmiş xalqlar və etnik qruplar sanki qəflət yuxusundan oyandılar, bu da bölgədə şovinizm və millətçilik meyllərinin güclənməsində təzahür etdi. Beləliklə, bir vaxtlar sakit və sosialist ölkələri içərisində nisbətən inkişaf etmiş Yuqoslaviya, qarşıdurma və silahlı toqquşmalar meydanına çevrildi. Bu ziddiyyətlər burulğanında ən çox zərər çəkən və fiziki məhvə məruz qalan, ilk növbədə burada yaşayan müsəlmanlar oldu. Qısa bir müddətdə Bosniya-Hersoqovina müsəlmanlarından 10 minlərlə insan serb millətçiləri tərəfindən qətlə yetirildi. Etnik mənsubiyyətinə və əqidəsinə görə insanların məhvinə dünya birliyi, o cümlədən İslam Konfransı Təşkilatı dərhal reaksiya verməli oldu. Bu problemlə bağlı İKT özünün Nizamnaməsinə uyğun hərəkət edir, Balkanlarda insan hüquqlarının kobudcasına pozulmasına qarşı çıxaraq burada baş verənlərə dünya ictimaiyyətinin diqqətini cəlb etməyə çalışırdı.

Yuqoslaviyada 1992-ci ildə başlanan vətəndaş müharibəsinin törətdiyi faciələr İKT Xarici işlər nazirlərinin iki növbəti və üç növbədənkənar iclaslarında müzakirə olundu və qəbul olunmuş qətnamələrdə problemlə bağlı təşkilatın qəti mövqeyi öz ifadəsini tapdı.

Dövlət başçılarının VII Zirvə Konfransında Bosniya-Hersoqovina Respublikasının prezidenti Əli İzzət Bekoviç

iştirak edirdi. Bosniya-Hersoqovina Respublikasında baş verən faciələr haqqında ətraflı danışan Bekoviç, İslam dövlət başçılarına ölkəsini müdafiə etdiklərinə görə təşəkkürünü bildirdi. Konfransın qəbul etdiyi yekun Bəyannaməsində Serbiyanın Bosniya-Hersoqovinaya qarşı hərbi təcavüzü kəskin pislənildi, bu müsəlman ölkəsinə İKT tərəfindən bundan sonra da hər cür yardım ediləcəyi vəd edildi (141, 15.XII.1994).

Xarici İşlər nazirlərinin növbədənkənar V iclasına qədər Bosniya- Hersoqovinanın hələ təşkilata üzv olmamasına baxmayaraq, burada müsəlmanların açıq zorakılığa məruz qaldığını nəzərə alan İKT, bu problemi təxirə salmadan ayrıca iclasda müzakirə olunacağı barədə qərar qəbul etdi. Serbiyanın ara vermədən davam etdirilən hucumlarını nəzərə alan İranın xarici işlər naziri Vilayəti Baş katibə yazılı müraciətində qeyd edirdi ki, müsəlman ölkələri Belqrada qarşı iqtisadi sanksiya tətbiq etməli, müsəlman dövlətlərinin səfirləri buradan geri çağırılmalı, Yeni Yuqoslaviya ilə heç bir əlaqə yaradılmamalı, Bosniya müsəlmanlarına humanitar yardım edilməlidir (140, s.203). İran diplomatının bu məsələ ilə bağlı ayrıca iclas çağırmaq haqqında təklifi qəbul edildi və 1992-ci ilin iyunun 17-də İstanbulda toplantı öz işinə başladı.

Bu arada Balkanlarda vəziyyətin getdikcə gərginləşməsini nəzərə alan BMT Təhlükəsizlik Şurası problemlə bağlı 757 və 758 saylı qətnamələri qəbul etdi. Birinci qətnamədə Serbiyanın iqtisadi blokadaya alınması tövsiyə edilir, ikinci qətnamədə isə Baş katibə icazə verilirdi ki, 1000 nəfərdən ibarət hərbi müşahidəçilərin Sarayevoya ezam olunmasını həyata keçirsin. Bu qətnamələrin qəbulundan sonra İstanbulda işə başlayan İKT-nin Konfransı, Bosniya böhranını ətraflı müzakirə edərək, 24 maddədən ibarət ayrıca qətnamə qəbul etdi. Bu sənəddə müsəlman dövlətlərinin Balkan hadisələrinə birbaşa hərbi müdaxiləsi nəzərdə tutulmamışdı, yalnız BMT tərəfindən qəbul edilmiş qərarlarla razılıq ifadə olunmuşdu. İstanbul Konfransı tərəfindən qəbul edilmiş qətnamə, həmçinin müşavirə iştirakçılarının çıxışları, Bosniya-Hersoqovina müsəlmanlarına mənəvi dayaq oldu. Konfransın nəticələri



göstərdi ki, İslam dünyasının vəhdəti müsəlmanların hər hansı təcavüzdən qorunması üçün əsas şərtlərdən biridir.

Bosniya-Hersoqovina böhranının getdikcə şiddətlənməsini nəzərə alaraq Baş Katiblik, İKT-nin qərar və qətnamələrini təxirə salınmadan BMT Təhlükəsizlik Şurasına çatdırılması üçün Əlaqə qrupu yaratdı. Qrupa İran, Seneqal, Səudiyyə Ərəbistanı, Türkiyə və Misir daxil idilər. İKT-nin fəaliyyətini BMT ilə əlaqələndirmək üçün Əlaqə qrupu çox iş gördü. Qeyd etmək lazımdır ki, Əlaqə qrupunun işində İran və Türkiyə nümayəndələri daha fəal iştirak edirdilər*.

Xarici işlər nazirlərinin V iclasında Bosniya böhranının nizama salınması istiqamətində irəliləyiş əldə olunmadığından Ciddə şəhərində VI növbədənkənar konfrans işə başladı. Yığıncaqda 47 ölkənin nümayəndəsi iştirak edirdi. Bu toplantıda BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin Serbiya tərəfindən necə yerinə yetirilməsi və BMT-nin Bosniyaya silah satmağa qadağa qoyması ilə bağlı məsələlər müzakirə olundu. 29 maddədən ibarət qəbul edilmiş sənəddə Bosniya böhranının həlli yolları göstərilir və BMT-dən xahiş olunurdu ki, 752 saylı qətnamənin icrasına nəzarəti gücləndirilsin (140, s.207).

İstər BMT xəttilə və istərsə də İslam Konfransı Təşkilatı vasitəsilə əsaslı qərar və qətnamələrin qəbul olunmasına baxmayaraq, Balkanlarda hadisələr Serbiyanın xeyrinə cərəyan etməkdə idi. 1995-ci ilin iyulun 12-də serblərin geniş miqyaslı növbəti hərbi əməliyyatları başlandı. Dinc əhali və mülki obyektlər üçün ciddi təhlükənin yarandığını nəzərə alan İranın xarici işlər naziri, Əlaqə qrupunun fövqəladə müşavirəsinin çağırılmasını tələb etdi. Təcili tədbirlər görmək məqsədilə təşkil edilmiş bu görüşün ilk yığıncağı 1995-ci ilin iyulun 21-də Cenevrədə çağırıldı. Müşavirədə qeyd edildi ki,

* Bosniya-Hersoqovina problemlərilə İranın görkəmli din və dövlət xadimi ayətulla Cənnəti məşğul olurdu. Beynəlxalq məsələlər üzrə ixtisaslaşmış bu şəxs, dəfələrlə İslam dünyasının qaynar nöqtələrinə, o cümlədən Balkanlara səfər etmişdir.

Bosniya-Hersoqovinanın özünü müdafiə hüququ var, TŞ tərəfindən bu ölkəyə silah satmağın qadağan olunması isə ədalətsiz bir qərardır və bu qərar bundan sonra müsəlman dövlətləri tərəfindən icra olunmayacaq (110, 23.VII.1995). Konfransda iştirak edən xarici işlər nazirləri Bosniya-Hersoqovinaya hərbi yardım etmək haqqında razılığa gəldilər. VII fövqəladə iclasda Bosniyaya hərbi yardım haqqında əldə edilmiş razılıq BMT Nizamnaməsinin 51-ci maddəsilə* əsaslandırıldı. Bosniya-Hersoqovina problemi 12-13 noyabr 2000-ci ildə keçirilən Doha Zirvə toplantısında təkrar müzakirəyə çıxarıldı və böhranın həlli istiqamətində İKT-nin üzv ölkələrinin səyləri alqışlandı. Bosniya-Hersoqovinaya yardım göstərilməsi məsələsi Doha Bəyannaməsində öz əksini tapdı (143).

Bosniya-Hersoqovina böhranının həllilə bağlı İKT çərçivəsində müsəlman dövlətlərinin yekdil mövqedən çıxış etmələri, problemin nizama salınmasına öz təsirini göstərdi. Bu məsələdə İKT-nin öz fəaliyyətini BMT-nin bu sahədə gördüyü işlərlə əlaqələndirməsi, problemin həllilə bağlı görülən tədbirlərin səmərəli olmasına kömək etdi.

Qeyd etməyi vacib bilirik ki, İKT-nin son Zirvə toplantılarında və İKT xarici işlər nazirlərinin ayrı-ayrı konfranslarında keçmiş Yuqoslaviyanın müsəlman ölkələri ilə – konkret Kosovo ilə bağlı da müzakirələr aparılmışdır. Məsələn, elə yuxarıda qeyd etdiyimiz Doha Zirvə toplantısında (12-13 noyabr 2000-ci il) Kosovo ilə bağlı İKT-nin ilk Yekun Bəyannaməsi qəbul olunmuşdur (143). Tədqiqatın xronoloji çərçivəsindən kənar olsa da, qeyd edirik ki, Kosovanın öz müstəqilliyini elan etməsi ilə bağlı İKT Baş katibi E.İhsanoğlu Dakarda keçirilən XI Zirvə toplantısında (13-14 mart 2008-ci il) xüsusi bəyanatla çıxış etdi və «Müstəqil Kosovo – İslam dünyasının böyük qələbəsidir» fikrini səsləndirdi (143). Təşkilat yekdilliklə Kosovanın müstəqilliyinin elanını alqışladı və Kosova xalqı ilə həmrəy olduğunu bildirdi.

* BMT Nizamnaməsinin 51-ci maddəsinə görə təşkilata üzv olan dövlətlərin fərdi və ya kollektiv müdafiə olunmaq hüququ var.



**Kipr problemi.** Bu problemin İslam Konfransı Təşkilatında qoyuluşu və müzakirəsi nəinki türk-ərəb münasibətləri ilə, bütövlükdə Türkiyənin İslam dünyası ilə əlaqələrilə sıx bağlıdır. Atatürkün dövründə özünü dünyəvi dövlət elan edən Türkiyə, getdikcə müsəlman ölkələrindən uzaqlaşaraq, xarici siyasətində Avropa dövlətlərilə əlaqələrin inkişafına üstünlük vermişdir. Türkyənin beynəlxalq əlaqələrində təzahür edən və getdikcə dərinləşən bu proses, Ankaranın İslam dünyası dövlətlərilə əlaqələrinin inkişafında müəyyən problemlərin baş qaldırılmasına səbəb olmuşdur. Lakin 70-ci illərin əvvəllərindən etibarən "İslam amilinin" beynəlxalq münasibətlərin gedişinə təsir göstərməsi, Türkiyənin xarici siyasət xəttindən də yan keçmədi. Bu proses ilk növbədə 1973-cü ildə OPEK təşkilatına üzv olan dövlətlər tərəfindən neft sənayesinin milliləşdirilməsi və dünya bazarında neftin qiymətinin artması nəticəsində ərəb ölkələrində küllü miqdarda valyuta ehtiyatlarının toplanması ilə bağlı idi. Neftdən və ondan əldə olunmuş gəlirdən dünya siyasətində bir silah kimi istifadə olunması, beynəlxalq münasibətlərin formalaşmasına təsir edən yeni bir element idi.

"6 günlük" İsrail-ərəb müharibəsindən sonra Türkiyənin hakim dairələri həssas bir məsələ ilə qarşılaşdılar: İsrailin açıq təcavüzünə göz yummaq, ya bu təcavüzün qurbanı olmuş ərəbləri müdafiə etmək? Türkiyə işğal olunmuş ərəb torpaqlarının azad olunmasını müdafiə etməklə, ərəb ölkələrilə yaxınlaşmağa üstünlük verdi. Ankaranın ərəblərlə bağlı mövqeyində təzahür edən bu dəyişiklik, aşağıdakı məqsədlərlə bağlı idi:

- Ərəb ölkələrindən nisbətən ucuz qiymətə neft idxal etmək.
- Getdikcə inkişaf etməkdə olan Türkiyənin yüngül sənaye mallarını ərəb ölkələrinin sərfəli bazarlarına ixrac etmək.
- Kipr probleminin həllində ərəblərin dəstəyindən bəhrələnmək.

Bu məqsədlərə çatmaq üçün Türkiyə müsəlman ölkələrindən təcrid olunmağa son qoymalı, İslam ölkələri arasında əlaqələrdə fəal iştirak etməli idi. Bu istiqamətdə atılan ilk addımlardan biri, İslam Konfransı Təşkilatına üzv olmaqla bu

qurumun işində yaxından iştirak etmək oldu. Hərçənd ki, təşkilatın yaradılması ilə bağlı çağrılmış Rabat Konfransında Türkiyənin iştirak etməsi, bu ölkənin ictimai-siyasi və rəsmi dairələrində birmənalı qarşılanmadı. Amma son nəticədə ərəb ölkələrilə və bütövlükdə İslam dünyası ilə münasibətləri gərginləşdirməmək naminə o zamankı baş nazir S.Dəmirəl hökumətin bu qərarı ilə bağlı bəyanatında bildirdi ki, Türkiyə yalnız əl-Əqsa məscidinin yandırılması və Qüds problemi ilə bağlı müzakirələrdə iştirak edəcəkdir (117, 19.IX.1969). Bu bəyanatın əsas məqsədi Türkiyə-İsrail münasibətlərində problem yaratmamaq idi. Rabat konfransının gedişində İsraillə diplomatik əlaqələri olan Türkiyə ilə İran əlbir hərəkət edərək, konfransın antiisrail səhnəyə çevrilməsinin qarşısını almağa çalışırdılar.

Xatırladaq ki, Türkiyənin İslam dünyası ilə yaxınlaşmasına səbəb olan amillərdən biri də, müsəlman dövlətlərinin imkanlarından Kipr probleminin nizama salınmasında istifadə etmək məqsədi olmuşdur. Xarici siyasətinin ağrılı probleminə çevrilən Kipr böhranında Qərb dövlətlərinin ikili mövqeyi, Türkiyənin milli maraqlarını təmin etmirdi. İslam Konfransı Təşkilatında fəal iştirak etməklə Türk diplomatiyası ərəblərin diqqətini bu problemə cəlb etmək niyyətində idi. Ankaranın xarici siyasətində özünü göstərən bu yeni və həm də nisbi müstəqillik xətti hər şeydən öncə regional məsələləri nizama salınmasında təzahür edirdi. İKT yaranandan sonrakı ilk illərdə əgər Kipr problemi qətnamələrdə sözarası qeyd edilirdisə, 70-ci illərin ortalarından etibarən təşkilatın bu problemin nizama salınmasında mövqeyi, əlahiddə sənədlərin qəbul edilməsi formasında öz ifadəsini tapdı.

Xarici işlər nazirlərinin İstanbulda keçirilən VII Konfransının (may 1976-cı il) gündəliyinə Kipr məsələsinin salınması, Türkiyə-İKT əlaqələrində yeni mərhələnin başlanğıcı oldu. Bu dövrdə türk diplomatiyası tərəfindən atılan iki addım - bu ölkənin İKT-yə tam üzv olması və Türkiyədə Fələstin Azadlıq Təşkilatının nümayəndəliyinin açılması Kipr probleminin ayrıca bir məsələ kimi İKT-nin gündəliyinə çıxarılma-



sına şərait yaratdı. Bütün bu addımlar öz müsbət nəticəsini verdi. Belə ki, xarici işlər nazirlərinin Mərakeşdə çağırılan X Konfransında (may 1979-cu il) Kipr problemi ayrıca bir məsələ kimi gündəliyə salınaraq müzakirə olundu və qəbul edilmiş qətnamədə Kiprli türklərin mübarizəsi müdafiə edildi, adanın türk mənşəli əhalisinə "beynəlxalq iqtisadi yardımın" zəruriliyi qeyd edildi (120, 17.V.1979).

1979-cu ilin martında adanın türklər yaşayan hissəsində İslam ölkələri jurnalistərinin beynəlxalq konfransının və 1980-ci ilin mart ayında Beynəlxalq İslam Konqresinin VIII qurultayının keçirilməsi, müsəlman ölkələrinin Kipr türklərinin mübarizəsilə həmrəy olduqlarını bir daha nümayiş etdirdi. Bu tədbirlərin Kiprdə təşkili Kipr türklərinin milli-azadlıq hərəkatına başçılıq edən Rauf Denktaş tərəfindən yüksək qiymətləndirildi (55, s.127).

Keçən əsrin 80-ci illərinin əvvəllərində Yaxın Şərq böhranı ilə bağlı Türkiyənin mövqeyində dəyişiklik baş verdi. Ankara Kemp-Devid sövdələşməsinə qiymət verməkdə və Qüds şəhərilə bağlı müsəlman ölkələrinin formalaşan vahid cəbhəsində çıxış etdi. İslam dünyası ilə yaxınlaşma kursunun gələcəkdə də davam etdiriləcəyi 1980-ci ilin sentyabrın 12-də həyata keçirilmiş hərbi çevrilişdən sonra rəsmən bəyan edildi. Bu mövqe Türkiyənin İslam Konfransı təşkilatının fəaliyyətində yaxından iştirakı ilə müşayət olunurdu.

1983-cü ilin noyabr ayında Şimali Kipr Türk Respublikası elan edildi. Bu dövrdən etibarən türk diplomatiyasının səyləri bu dövlətin dünya birliyi tərəfindən tanınmasına yönəlmişdi. Bu məsələnin həllində Ankara daha çox müsəlman ölkələrinin, o cümlədən İKT-nin dəstəyinə ümid bəsləyirdi. Xarici işlər nazirlərinin 1983-cü ilin dekabrında Dakkada keçirilən növbəti Konfransında Şimali Kipr Türk Respublikasının xarici işlər naziri K.Atakol müşahidəçi qismində iştirak edirdi (117, 6.XII.1983). Müşavirədə müzakirə edilən əsas məsələlərdən biri də Kipr Türk Respublikasının tanınması idi. Müzakirələrdə iştirak edənlərin çoxu bu respublikanın rəsmən tanınmasının və onun təşkilata tam hüquqlu üzv kimi qəbul

olunmasının əleyhinə çıxdılar (117, 7.XII.1983). İKT-nin Baş Katibi Həbib Şətti Konfrans iştirakçılarının ümumi fikrini ifadə edərək adada yaşayan iki icma - türklərlə yunanlar arasında danışıqların başlanmasını arzuladı (117, 7.XII.1983). Konfrans iştirakçıları Kiprdə yaşayan türklərə öz hüquqlarını müdafiə etməkdə uğurlar arzuladılar.

Şimali Kipr Türk Respublikasının tanınması və İKT-yə üzv seçilməsi məsələsində təşkilatın məlum mövqeyi IV Zirvə toplantısında (yanvar 1984-ci il, Kasablanka) bir daha təsdiq edildi. İKT-nin Kipr türklərilə bağlı mövqeyinin formalaşmasına bir tərəfdən Türkiyənin ABŞ və İsraillə yaxın münasibətləri, digər tərəfdən, ərəb dövlətlərinin Yunanıstanla münasibətləri gərginləşdirməmək istəkləri, təsir göstərən amillərdən idi.

Eyni mövqe 12-13 noyabr 2000-ci ildə Dohadakı Zirvə toplantısının Bəyannaməsində də öz əksini tapdı. Bəyannamədə tövsiyə xarakterli qeydlər üstünlük təşkil edirdi.

Bununla bərabər, son illər İKT Kipr problemi ilə bağlı daha fəal addımları ilə seçilir. Burada həm Türkiyənin ABŞ-la münasibətlərinin xeyli sərinləşməsi və İslam dünyasına daha sıx inteqrasiya etməsi böyük rol oynayır; həm də unutmaq olmaz ki, İKT Baş Katibi Ekmeleddin İhsanoğlu Türkiyə nümayəndəsidir. İKT xarici işlər nazirlərinin Bakıda keçirilən konfransında (19-21 iyun 2006-cı il) Türkiyənin o zamankı xarici işlər naziri A.Gül Kipr probleminin İKT çərçivəsində müzakirəsinin böyük əhəmiyyət daşıdığını bildirdi (145).

**İKT və öz müqəddəratını təyin etmə hüququ.** Qeyd edildiyi kimi, İslam Konfransı Təşkilatının Nizamnaməsində İslam dünyasından kənarda yaşayan müsəlmanların hüquqlarının qorunması da əsas vəzifə kimi qeyd edilmişdir. Bəzi ölkələrdə müsəlmanların hüquqları həqiqətən tapdalanır, onlar müxtəlif təzyiqlərə məruz qalırlar, dini ayinlərinin icrasında müxtəlif məhdudiyyətlərlə üzləşirlər və s. İKT tərəfindən bu insanların hüquqlarının müdafiə olunması o demək deyildir ki, təşkiat separatizmi dəstəkləməklə suveren dövlətlərin daxili işlərinə qarışır. Söhbət beynəlxalq qanunlarda təsbit edilmiş adi insani hüquqlara hörmət etməkdən gedir. Belə ölkələrdən



biri də Filippindir. Burada uzun müddət hökm sürən qeyri-sabitlik, etnik və dini azlıqda qalan insanlara qarşı irqi ayrı-seçkilik tətbiq olunmuş, müsəlmanlara "ikinci növ" adam kimi baxılmış, onların dini ayinlərinin yerinə yetirilməsi əleyhinə süni maneələr törədilmişdir. Öz vətəndaşlıq hüquqlarını qorumaq üçün Filippinin cənubunda yaranmış "Mororo Azadlıq cəbhəsi" adlı təşkilatın rəhbərliyilə hökumətə qarşı çıxan Filippin müsəlmanlarının mübarizəsi, İslam Konfransı Təşkilatı tərəfindən müdafiə olundu. Xarici işlər nazirlərinin IX Konfransında xüsusi məsələ kimi müzakirə olunan bu problemlə bağlı qəbul edilmiş qətnamədə, Filippin müsəlmanlarının mübarizəsinə dəstək öz ifadəsini tapdı və Filippindəki iqtidardan onların tələblərinə qayğı ilə yanaşmaq xahiş olundu. Konfrans eyni zamanda problemin danışıqlar yolu ilə həllini tövsiyə etdi (138, s.212).

Buna bənzər hadisələr Həbəşistanda da baş verirdi. Uzun müddət Eritreya müsəlmanları ilə mərkəzi hökumət arasında davam edən çəkişmələr, silahlı toqquşmalara gətirib çıxardı. Həbəşistanda hökumət tərəfindən müsəlmanlara qarşı həyata keçirilən ayrı-seçkilik, İKT-nin diqqətindən kənarda qalmadı və ona münasibət bildirildi. Xarici işlər nazirlərinin IV konfransından başlayaraq Həbəşistanda cərəyan edən proseslər dəfələrə müzakirə olunub, müvafiq qətnamələr qəbul edilmişdir. Sonuncu qətnamədə İKT-nin Eritreya müsəlmanları ilə həmrəyliyi ifadə olunmuşdur. Həbəşistan hökumətindən xahiş olunmuşdur ki, müsəlmanların problemlərinin həll olunmasına yardım etsin, onlara qarşı hərbi əməliyyatlar dayandırılsın (138, s.142-143).

İslam Konfransı Təşkilatının müsəlman icmalarının hüquqlarını müdafiə etməsi BMT-nin İnsan hüquqları haqqında 10 dekabr 1948-ci il tarixli Bəyannaməsinin tələbləri çərçivəsindədir.

Göründüyü kimi, İKT öz fəaliyyətində xarici ölkələrdə məskunlaşmış müsəlman icmalarının hüquqlarının qorunması istiqamətində də xeyli iş görmüş və bu iş məqsədyönlü xarakter daşıyaraq həmin icmaların fəaliyyətinin canlanmasına əhəmiyyətli təsir göstərmişdir.

# NƏTİCƏ

Problemin tədqiqi aşağıdakı ümumiləşdirmələrə və nəticələrə gəlməyə imkan verir:

Müasir dövrdə beynəlxalq münasibətlər sisteminin elementlərindən biri kimi fəaliyyət göstərən İslam Konfransı Təşkilatının yaranmasına müxtəlif amillər səbəb olmuşdur. Beynəlxalq həyatda baş verən proseslər müəyyən qanunauyğunluqların məhsuludur, müxtəlif ölkələrin daxili ictimai-siyasi həyatı ilə əlaqəli olduğu kimi, regional və qlobal səviyyədə baş verən proseslərlə də bağlıdır. İslam Konfransı Təşkilatının yaranmasına səbəb olan amilləri ancaq "islam həmrəyliyi" və müsəlmanlara məxsus "müqəddəs ziyarətgahlar"ın qorunması ilə məhdudlaşdırdıqda, problemin tədqiqinə birtərəfli yanaşmış olarıq. Bu səhvə yol verməmək üçün hazırda dünyanın 57 müsəlman dövlətini özündə birləşdirən bu təşkilatın yaranma səbəblərinin obyektiv öyrənilməsi ona sistemli təhlillə yanaşmağı tələb edir. Problemin tədqiqinə sistemli yanaşma metodunun tətbiqi, bu təşkilatın meydana gəlməsi tarixinin şərhinə, onun yaranmasına təkan verən daxili və xarici amillərin işıqlandırılmasına imkan yaradır.

Mürəkkəb strukturu olan İKT üç qitədə - Asiyada, Afrikada və Avropada yerləşən müsəlman dövlətlərinin təşkilatıdır. Bu qitələrdə yaşayan müsəlmanlar uzun illər boyu beynəlxalq imperializm, II Dünya müharibəsindən sonra isə yeni müstəmləkəçilər tərəfindən istismara məruz qalmış, ekspansiya və diplomatiya hədəfinə çevrilmişdir.

İslam Konfransı Təşkilatının yaranması II Dünya müharibəsindən sonra beynəlxalq münasibətlər sistemində gedən proseslərlə birbaşa bağlı olmuşdur. Müharibədən sonrakı dövrdə iki fövqəldövlət - Sovet İttifaqı və ABŞ dünya siyasətində aparıcı mövqeyə çıxmaqla planetin mühüm siyasi, iqtisadi və güc mərkəzlərinə çevrilərək dünya hegemonluq uğrunda kəskin mübarizə aparmışlar.

İki fövqəldövlət arasında qlobal səviyyədə gedən bu mübarizə müsəlman ölkələrilə bağlı siyasətdə daha kəskin təzahür



edirdi. 1956-cı ildə Süveyş kanalı böhranı zamanı Misirin müdafiə olunması, 1958-ci ildə İraqda dövlət çevrilişinin Sovet İttifaqı tərəfindən dəstəklənməsi Ərəb Şərqində Moskvanın nüfuz qazanmasına doğru yönəlmiş taktiki addımlar idi. Keçən əsrin 60-cı illərinin əvvəllərində sovet diplomatiyası tərəfindən hazırlanmış yeni konsepsiyaya görə müsəlman dövlətlərilə yaxınlaşmaq üçün ən əlverişli yol – onlarla texniki-iqtisadi sahədə əməkdaşlığın yaradılması idi. Qeyd olunan konsepsiyaya görə, sovet diplomatiyasının bu sahədə uğur qazanmasını şərtləndirən əsas amillərdən biri üçüncü dünya ölkələri üçün nəzərdə tutulmuş kreditlərin aşağı faizli olması idi. Bu konsepsiya həqiqətən Sovet İttifaqının müsəlman ölkələrilə texniki-iqtisadi əməkdaşlığı üçün yol açdı və tədricən bir çox ölkələr sovet xarici siyasətinin təsir dairəsinə cəlb olundu. Yeni konsepsiya Sovet İttifaqının İran, Pakistan və Türkiyə ilə münasibətlərində mövcud gərginliyi azaltdı, bir sıra ərəb ölkələrilə, o cümlədən Misir, İraq, Suriya, Yəmən, Əlcəzairlə əməkdaşlıq üçün şərait yaratdı. Beləliklə, 60-cı illərin əvvəllərində Yaxın və Orta Şərq, həmçinin Aralıq dənizi hövzəsi artıq ABŞ-ın tam nüfuz dairəsindən çıxdı, bir sıra ərəb ölkələri isə sosializmə istiqamət yolunu seçdilər.

Bu proseslərin qarşısını almaq məqsədilə ilk addım kimi sosializm təmayüllü dövlətlərin devrilməsi və ya onların xarici siyasətində əsaslı dəyişikliyə nail olmaq Qərbin xüsusi orqanları tərəfindən gündəliyə çıxarıldı ki, "6 günlük müharibə"nin səbəblərindən biri də bu idi. Lakin 1967-ci il "6 günlük müharibə"də ərəb ölkələrinin məğlubiyyəti, bu regionun beynəlxalq münasibətlərində əsaslı dəyişikliyə səbəb olmadı, əksinə bir sıra ərəb ölkələrində sosializmə meyl prosesi daha da gücləndi.

Yaxın və Orta Şərqdə, həmçinin Aralıq dənizi hövzəsində beynəlxalq vəziyyətin daha da kəskinləşməsinə əl-Əqsa məscidinin yandırılması da təkan verdi. Belə bir şəraitdə İslam Konfransı Təşkilatının yaradılması ideyası ortalığa atıldı. Zahirən bu təşkilat müsəlmanlar arasında həmrəyliyin möhkəmləndirilməsi və İslamın müqəddəs ziyarətgahlarının qorunması məqsədilə təsis edilmişdi. Bu işdə diqqəti cəlb edən məqam bir

də bu idi ki, İKT-nin yaradılması təşəbbüsü ilə çıxış edən Səudiyyə Ərəbistanı, İran və Mərakeş Qərbin aparıcı dövlətlərilə iqtisadi-siyasi tellərlə bağlı olan, xüsusilə Vaşinqtonun xarici siyasət orbitində gedən dövlətlər idi. Dini zəmində bütün müsəlman dövlətlərini bir araya gətirməklə ABŞ diplomatiyasının başlıca məqsədi - İslam dünyasında getdikcə özünə cığır açan sosializm ideyaları qarşısında sədd çəkmək idi. Beləliklə, İslam Konfransı Təşkilatının yaradılmasında ABŞ diplomatiyasının maraqları ilə mühafizəkar müsəlman rejimlərinin maraqları çarpazlaşırdı.

İslam Konfransı Təşkilatının tarixini tədqiq olunan illərdə aşağıdakı mərhələlərə bölmək olar:

1. 1969-cu ilin sentyabrından 1981-ci ilə qədər;
2. 1981-ci ilin yanvarından 1991-ci ilin sonuna qədər;
3. 1992-ci ilin əvvəllərindən 2001-ci ilin sonuna qədər;
4. 2001-ci il 11 sentyabr hadisələrindən sonrakı dövr.

Birinci mərhələdə İKT özünün təşəkkül dövrünü keçirir, hüquqi sifətdə fəaliyyət göstərməsi üçün zəruri məsələləri, o cümlədən Nizamnaməsini qəbul edir, ali və icra orqanlarını yaradır, müvəqqəti mənzil qərargahını müəyyən edir. Göstərilən məsələlərin həlli onun təşəbbüsçülərindən məqsədyönlü iş, təşkilatı həm İslam dünyasının ictimaiyyətinə və həm də dünya birliyinə tanıtdırmaqla bağlı vəzifələrin operativ icrasını tələb edirdi. Qarşıda İKT-nin Nizamnaməsində nəzərdə tutulmuş işlərin yerinə yetirilməsi, Nizamnaməyə ciddi riayət etməklə, təşkilatın fəaliyyətinə hər hansı müdaxilənin qarşısının alınması, onun hər cür təxribatlardan və aşınmalardan qorunması kimi vəzifələr dururdu. Bu mərhələdə təşkilat öz işini Nizamnamə əsasında quraraq, 3 zirvə toplantısı və xarici işlər nazirlərinin 14 konfransını çağırmış, müxtəlif qərar və qətnamələr qəbul etmişdir. Bu dövrdə İKT İslam dünyasının ən kəskin və ağrılı problemləri sayılan Yaxın Şərq böhranını, Sovet İttifaqının Əfqanıstana hərbi təcavüzü ilə bağlı məsələləri müzakirə etmişdir. Təşkilata üzv olan dövlətlərdən bəzilərinin Sovet İttifaqı ilə, mühafizəkar ərəb rejimlərinin isə ABŞ-la əməkdaşlıq etmələrinə baxmayaraq, İKT adı çəkilmiş problemlərin müzakirəsində prinsipiallıq nümayiş etdirmiş, Nizamnamənin tələblərinə əməl etməyi əsas götürmüşdür. Xarici işlər nazirlərinin Mərakeşin Fes şəhərində keçirilmiş X konfransında və İslamabadda çağırılmış XI konfransında ABŞ-ın İslam dünyası ilə bağlı siyasəti kəskin tənqid olunaraq onun həyata keçirdiyi bu xətt müsəlman ölkələrinin daxili işlərinə qarışmaq kimi qiymətləndirilmişdi. Bu konfranslarda hətta mühafizəkar ərəb rejimləri tərəfindən Misirin İsraillə separat danışıqlar aparıb sülh müqaviləsi imzalaması, ərəb ölkələrinin milli mənafeyinə xəyanət adlandırılmışdı.



Təşkilatın Sovet İttifaqının Əfqanıstana hərbi təcavüzü ilə bağlı prinsipial mövqeyi, xarici işlər nazirlərinin XI konfransında qabarıq şəkildə nümayiş etdirildi. Toplantıda iştirak edənlərin hamısı bu açıq təcavüzə qəti etirazlarını ifadə edərək, sovet ordusunun Əfqanıstandan dərhal çıxarılmasını tələb etdilər.

İkinci mərhələdə bütövlükdə İslam dünyası birliyinə, o cümlədən İKT-nin fəaliyyətinə ciddi zərbə vuran İraq-İran və İraq-Küveyt müharibələri baş verdi. İraq hökumətinin bu iki ölkəyə hərbi təcavüzü İslam Konfransı Təşkilatının Nizamnaməsinin kobud surətdə pozulması demək idi. Qonşu ölkələrə qarşı ərazi iddiaları ilə çıxış edən Səddam Hüseyn hökuməti, Fars körfəzi regionunda hegemonluq iddiasında idi. 1978/79-cu il İran inqilabı nəticəsində hakimiyyətə gələn ruhanilər, bu inqilabı həm də bütün müsəlman ölkələrinə ixrac etmək şüarları ilə çıxış edirdilər. Düşünülməmiş bu iddialar müsəlmanların birliyinə deyil, onların parçalanmasına səbəb oldu. İran ruhani dairələrinin bu siyasətindən müsəlman ölkələri arasında nifaq toxumu səpmək istəyən xarici qüvvələr məharətlə istifadə edə bildilər və bu da öz bəhrəsini verdi; Səddam ordusu İrana hücum etdi. Bu müharibə təkcə vuruşan tərəflər üçün deyil, həm də bütün region ölkələri üçün problemlər yaratdı. Bu müharibənin törətdiyi faciələr İKT-nin III, IV və V zirvə toplantılarında, xarici işlər nazirlərinin XII-XVIII konfranslarında ətraflı müzakirə edildi, tərəflərdən atəşin dərhal dayandırılması tələb olundu. Təşkilatın iki ölkəni barışdırmaq

səyləri Tehran tərəfindən rədd edildiyindən müsbət nəticə vermədi. Nəticədə İran müharibəni davam etdirən tərəf kimi ərəb ölkələrinin tənqidinə məruz qaldı. İran isə öz növbəsində İKT tərəfindən İraqın müharibənin əsl səbəbkarı kimi tanınmasını və Nizamnamə çərçivəsində bu ölkəyə qarşı sanksiya tətbiq etməyi tələb edirdi. Problemin həllinə panərəbizm mövqeyindən yanaşan bir sıra ərəb dövlətləri isə müharibənin uzadılmasında ancaq İranı günahlandırırdılar. İrana qarşı sərt mövqedən çıxış edən mühafizəkar ərəb rejimləri, İKT çərçivəsində ərəblərin milli maraqlarına üstünlük verdiklərini büruzə verdilər.

1991-ci ildə İraqın Küveyti işğal etməsi İslam Konfransı Təşkilatını ümumiyyətlə dağılmaq təhlükəsilə üzləşdirdi. Müharibəni dayandırmaq və təcavüzkar dövlətə qarşı sanksiya tətbiq etmək imkanına malik olmayan İKT və onun varlığı sual altına düşdü. Təcavüzü dəf etmək və ölkənin suverenliyini bərpa etmək üçün istər Ərəb Ölkələri Liqasının və istərsə də İslam Konfransı Təşkilatının imkansızlığını dərk edən Küveyt, BMT-yə və Qərb dövlətlərinə müraciət etməli oldu. Yaranmış vəziyyətdən əsasən ABŞ diplomatiyası bəhrələndi. "Səhrada tufan" adı altında həyata keçirilən hərbi əməliyyat nəticəsində İraqın silahlı qüvvələri Küveytdən çıxarıldı, bu ölkənin hərbi potensialına ciddi zərbə endirildi və nəticədə ABŞ hərbi birləşmələri Fars körfəzi regionunda yerləşdirildi.

İslam Konfransı Təşkilatı hüquqi simadır, bütün beynəlxalq təşkilatlara xas atributlara malik olub, üzv dövlətlər tərəfindən qəbul edilmiş əsas sənəd - Nizamnamə əsasında beynəlxalq hüquq normaları və BMT Nizamnaməsinin prinsiplərinə uyğun fəaliyyət göstərir. Lakin İslam dünyasının problemlərinin həllində İKT-nin qətiyyətsizliyi, Nizamnamənin üzv dövlətlər tərəfindən pozulması adi hal aldı. İslam dünyasının həmrəyliyi prinsipi əsasında istər daxili və istərsə də xarici siyasət sahəsində baş qaldıran problemlərin həllinə yardım etmək kimi əsas vəzifələr, təşkilatın nizamnaməsində təsbit edilmişdir. Yaxın Şərq böhranının nizama salınmaması, Kəşmir probleminə, Əfqanıstanda vətəndaş qarşıdurmasına son qoyulması, İraqın İrana və sonra Küveytə hərbi təcavüzü, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti və s. məsələlərlə bağlı təşkilat geniş müzakirələr aparsa da, yalnız müxtəlif qərar və qətnamələr qəbul etməklə kifayətlənmiş, bu problemlərin həllində nizamnamədə nəzərdə tutulmuş səviyyədə həmrəylik və prinsipiallıq nümayiş etdirə bilməmişdir. İKT-nin fəaliyyətində özünü göstərən bu passivlik onun beynəlxalq imicinə xələl gətirir, müsəlmanlar arasında nüfuzuna kölgə salır.



Soyuq müharibənin başa çatması və Sovet İttifaqının dağılması İKT-nin fəaliyyətində yeni bir mərhələnin başlanğıcı oldu. Bu dövr onunla səciyyəlidir ki, postsovet məkanında müstəqilliyini elan edən Orta Asiya, Qazaxıstan və Azərbaycanın bu təşkilatın üzvlüyünə qəbul olunmaları ilə İKT, bütün İslam dünyasını özündə birləşdirən bütöv bir quruma çevrildi.

Nəhayət, dördüncü mərhələ qeyd olunmalıdır ki, bu mərhələ də beynəlxalq münasibətlərin özü üçün dönüş gətirən məşhur 11 sentyabr hadisəsi ilə başlayır. Beynəlxalq terrorizmə, əslində isə daha çox islam təmayüllü hesab olunan təşkilatlara qarşı elan olunmuş antiterror mübarizəsi şəraitində İKT-nin üzərinə daha böyük vəzifələr və məsuliyyət düşür. Müsəlman dünyasının nüfuzuna böyük xələl gətirmiş 2001-ci il 11 sentyabr hadisəsindən sonra İKT-də gedən modernləşmə prosesləri də bu vəzifələrin tərkib hissəsidir.

Tədqiqat illərində İslam Konfransı Təşkilatının 10 Zirvə toplantısı, xarici işlər nazirlərinin 34 növbəti və 12 növbədənkənar konfransları* çağrılmışdır. Təşkilatın bu ali orqanlarında islam dünyası ilə bağlı müxtəlif problemlər müzakirə olunmuş, müvafiq qərar və qətnamələr qəbul edilmişdir. Lakin icra üzərində nəzarətin olmaması üzündən, qərar və qətnamələr tövsiyə çərçivəsindən kənara çıxa bilməmiş, əksər hallarda formal xarakter daşımışdır. Buna görə də təşkilatın qarşısında duran ən mühüm vəzifələrdən biri də, qəbul olunmuş qərarların icra mexanizmini işləyib hazırlanmasıdır. İcra mexaniz-

* Yığıncaqların sayı 1969-2007-ci illər çərçivəsində göstərilir.

minin olmaması ucbatından təşkilatın fəaliyyəti bir növ "klub" səviyyəsinə enib və nəticədə İKT islam dünyasının ən ağrılı problemlərinin əsaslı həllinə kömək edə bilmir. İKT-nin səmərəli fəaliyyətinə və onun çərçivəsində inteqrasiya prosesinin inkişafına mane olan problemləri aşağıdakı kimi xülasə etmək olar:

1. Üzv ölkələrin müxtəlif sosial-iqtisadi inkişaf səviyyəsinə və dövlət quruluşuna malik olmaları onlar arasında səmərəli və hərtərəfli əməkdaşlığa mane olur. Bu kəskin fərq təşkilatın fəaliyyəti yolunda əsas şərt sayılan iqtisadi bərabərlik prinsipindən istifadə etmək yolunda ciddi əngələ çevrilir.

2. Sosial-siyasi strukturun müxtəlifliyi və müsəlman dövlətlərinin beynəlxalq münasibətlərdə müxtəlif təmayüllü olmaları, İKT-nin dünya problemlərilə bağlı vahid cəbhədən çıxış etməsinə mane olan faktor kimi təzahür edir. Təşkilatın üzvü olan dövlətlərdən bəziləri orta əsrlərə xas strukturlu rejimlər, bəziləri isə müasir demokratik prinsiplərə söykənən dövlətlərdir. Dövlət quruluşunda mövcud olan bu anaxronizm və müxtəliflik üzv dövlətlərin xarici siyasətində və beynəlxalq əlaqələrində təmayül fərqlərinə gətirib çıxarır. Neft ixrac etməklə əldə olunmuş gəlir "neft dolları" formasında əsasən Avropa və ABŞ banklarında saxlandığından, neft ixrac edən ölkələri Qərbdən asılı vəziyyətə salıb. Bu mühüm amil İKT-nin bəzi üzvlərinin tam müstəqil xarici siyasət yeritmək imkanlarını məhdudlaşdırır.

3. İqtisadiyyatın qloballaşması prosesinə müsəlman ölkələrinin də tədricən cəlb olunmaları, daxili bazarların imkanlarını bir az da azaldır. Üzv ölkələrin iqtisadi strukturunda mövcud oxşarlıq və bir çox istehsal sahələrindəki eynilik, üzv dövlətlər arasında ticarət əlaqələrinin inkişafını məhdudlaşdırır. İqtisadiyyatda özünü göstərən bu amil beynəlxalq bazarlarda oxşar malların satışı uğrunda üzv dövlətlər arasında rəqabətə səbəb olur.

4. Milli dövlətçilik maraqlarının "İslam ümməti" prinsipindən üstün tutulması, müsəlman dövlətləri arasında vəhdətin zəifləməsinə doğru aparan bir proses kimi nəinki ərəblərlə



qeyri-ərəblər, hətta ərəb ölkələrinin özləri arasında da təzahür edir. Belə bir vəziyyətin davam etməsi İKT-nin İslam dünyasının mənafeyini qoruyan nüfuzlu bir beynəlxalq təşkilat kimi fəaliyyət göstərməsinə mənfi təsir göstərir.

5. Bəzi üzv dövlətlərin iqtisadi imkanlarının zəifliyi üzündən təşkilatın normal fəaliyyəti üçün zəruri şərtlərdən sayılan maliyyə təminatı yolunda ciddi problemlər yaradır. İstənilən beynəlxalq təşkilatın fəaliyyəti isə üzvlük haqqı formasında maliyyə ödənişlərinin vaxtında verilməsindən asılıdır.

6. Müsəlman ölkələrində müasir texnologiyanın bir çox sahələrinin olmaması və bu sahədə çalışa bilən ixtisaslı kadrların kəskin çatışmamazlığı, İKT-nin ümumi problemi kimi təzahür edir və bu da, üzv dövlətlər arasında müasir səviyyəli sənaye və texnoloji proseslər sahəsində əməkdaşlığa imkan vermir, onları inkişaf etmiş qeyri-müsəlman dövlətlərindən asılı vəziyyətə salır.

İslam Konsransı Təşkilatının səmərəli fəaliyyət göstərməsi üçün tövsiyyə xarakterli aşağıdakı təkliflərin nəzərdə tutulmasını məsləhət bilirik:

1. Təşkilatın səmərəli fəaliyyət göstərməsi hər şeydən əvvəl İslam dünyasının vəhdətinə mane olan ümummüsəlman problemlərinin nizama salınmasından asılıdır. Müxtəlif sahələrdə təzahür edən bu problemlər "İslam ümməti" prinsipi əsasında bərabərlik və qarşılıqlı hörmət ruhunda nizama salına bilər. Müasir dövrdə dünya siyasətində baş verən proseslər ümummüsəlman problemlərinin nizama salınmasına belə yanaşmanı gündəmə çıxarıb.

2. İKT xəttilə qəbul edilmiş qərar və qətnamələrin icrası üzərində ciddi nəzarətin olması zəruridir. Bu nəzarət mexanizminin işə salınması Təşkilatın fəaliyyətində səmərəliliyi artırar, onun "danışıqlar klubundan" ciddi bir beynəlxalq təşkilat səviyyəsinə yüksəlməsinə təkan vermiş olar.

3. Qeyri-müsəlman ölkələrilə müsəlman ölkələri arasında baş qaldıran münaqişələrin tənzimlənməsində "islam həmrəyli" prinsipi əsasında yekdillik nümayiş etdirilməlidir. Bu

məqsədə nail olmağın kəsərli yolu hər hansı müsəlman ölkəsilə münaqişədə olan dövlətə qarşı islam dünyasının birgə iqtisadi sanksiyasının tətbiq olunmasıdır. Qeyri-müsəlman dövlətlərinin siyasi nüfuzu və hərbi imkanlarından bir müsəlman ölkəsinin başqa müsəlman dövlətinə qarşı istifadə cəhdlərinə son qoyulmalıdır. Bu məsələ ilə bağlı İKT-nin Nizamnaməsində müvafiq dəyişikliklər edilməlidir.

4. Müsəlman ölkələri arasında əməkdaşlığı genişləndirmək məqsədilə Ümumislam iqtisadi bazarının yaradılması zəruridir. "Qarşılıqlı faydalanma" prinsipi əsasında öz işini quran bu bazar, iqtisadiyyatın qloballaşmasının məhsulu kimi təzahür edən neqativ proseslərin zərərsizləşdirilməsində faydalı bir vasitə rolunu oynaya bilər.

5. İKT-ni beynəlxalq nüfuzunun daha da artırılması yollarından biri də bu Təşkilatla BMT arasında əməkdaşlığın genişləndirilməsidir. Bu məqsədlə hər iki qurum arasında əlaqələri tənzimləyən və bu əlaqələrin inkişafı üçün əsaslı hüquqi zəmin yaradan yeni müqavilə imzalanmalıdır.

6. Baş Katibliyin işində ciddi dönüş yaradılmalıdır. Bu aparatın səmərəli fəaliyyəti üçün əsas şərtlərdən sayılan çeviklik və peşəkarlıq müasir beynəlxalq münasibətlər sistemində baş verən proseslərə və yeniləşməyə uyğun qurulmalıdır.

Bütün bu nöqsanlara baxmayaraq İslam Konfransı Təşkilatının yaradılması və fəaliyyəti müsəlmanların birliyi yolunda atılan mühüm addım kimi dəyərləndirilməlidir. Onun fəaliyətində nəzərə çarpan çatışmamazlıqlar aradan qaldırıldığı təqdirdə İKT, bütün dünya müsəlmanlarının maraqları keşiyində dura bilən nüfuzlu bir təşkilata çevrilə bilər. Buna nail olmaq üçün üzv dövlətlərin özləri tərəfindən hazırlanmış və təsdiq edilmiş Nizamnamənin bütün müddəa və tələbləri vicdanla yerinə yetirilməlidir.



## İSTİFADƏ EDİLMİŞ QAYNAQLAR VƏ ƏDƏBİYYATIN SİYAHISI

### Azərbaycan dilində

1. Azərbaycan beynəlxalq aləmdə (Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin 1993-1998-ci illərdə xarici ölkələrə səfərlərinə dair materiallar). I-II cildlər, Bakı, Göytürk, 1996-1999. I cild – 267 səh.; II cild – 761 səh.

2. "Azərbaycan" qəzeti. Bakı, 1991-2000-ci illər.

3. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Beynəlxalq Təşkilatlarla əlaqələr idarəsinin cari arxivi (İslam Konfransı Təşkilatı) (1994-2000-ci illər).

4. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I-VIII kitablar, Bakı, «Azərbaycan» nəşriyyatı, 1997-1998-ci illər. I - 597 səh.; II - 588 səh.; III - 479 səh.; IV - 513 səh.; V – 490 səh.; VI – 501 səh.; VII – 509 səh.; VIII – 472 səh..

5. İslam. Qısa məlumat kitabı. Bakı, Səhər, 1989, 156 səh.

5a. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. -Bakı: «Azərbaycan» nəşriyyatı, 2005. -752 s.

6. Qasımov Musa. Azərbaycan Respublikası dünya meridianlarında. Bakı, Gənclik, 1992. – 87 səh.

7. Qasımov Musa. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı, Mütərcim, 1997. – 124 səh.

8. Qəndilov S. Azərbaycanın xarici siyasətinin başlıca istiqamətləri (iyun 1993-1997-ci illər) // Bakı Universitetinin xəbərləri. Sosial-siyasi sənədlər seriyası. 1998, №1.

9. Qətiyyətin təntənəsi. Bakı, Səhər, 1995. – 846 səh.

10. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, Tuna, 1998. – 137 səh.

11. Ənsari Həmid. Oyanış hədisi. Tehran, 1996. – 189 səh.

12. İbayev V. İslam Konfransı Təşkilatı. Bakı, Gənclik, 1998. – 87 səh.

13. Rəcəbov H. BMT-nin ixtisaslaşmış qurumları və Azərbaycan. Bakı, Azərbaycan, 1997. – 78 səh.

### Rus dilində


14. Аббасбейли А., Гасанов А. Азербайджан в системе международных и региональных организаций. Баку, Азернешр, 1999. – 181 стр.

15. Агарышев А.А. Гамаль Абдель Насир. М., Молодая гвардия, 1979. – 208 стр.

16. Актуальные проблемы Афганской революции. М., Наука, 1984. –660 стр.

17. Актуальные проблемы деятельности международных организаций. М., Прогресс, 1982. – 351 стр.

18. Актуальные проблемы стран Ближнего и Среднего Востока. М., Наука, 1970. – 183 стр.

19. Алибейли Г.Д. Иран и сопредельные страны Востока (1946-1978). М., Наука, 1989. –254 стр.

20. Алибейли Г.Д., Таривердиев Л.Г. Роль Советского Азербайджана в укреплении добрососедских взаимоотношений с Афганистаном, Ираном и Турцией // Сб.: «Советский Азербайджан и Зарубежный Восток». Баку, Азернешр, 1980. – 25 стр.

21. Алибейли Г.Д. Основные проблемы внешней политики Афганистана (1946-1973). М., Наука, 1978. – 185 стр.

22. Арабская Республика Египет. М., Наука, 1990. – 355 стр.

23. Арабские страны. М., Восточная литература, 1986. – 278 стр.

24. Арабский мир: три десятилетия независимого развития. М., Наука, 1996. – 372 стр.

25. Бабаходжаев А.Х. Очерки по истории советско-афганских отношений. Ташкент, Фан, 1970. – 91 стр.

26. Беляев И.П. Примаков Е.М. Египет: время президента Насера. М., Наука, 1981. – 368 стр.

27. Бзежинский З. Великая шахматная доска. М., Международные отношения, 1998. – 254 стр.

28. Ближный Восток и международное право. М., Наука, 1992. – 263 стр.





29. Бодянский В.Л. Современный Кувейт. М., Наука, 1971. – 327 стр.

30. Борисов Л.Б. ОИК: политические аспекты деятельности // Народы Азии и Африки. М., 1983, №4.

31. Борисов Р.В. США: ближневосточная политика в 70-е годы. М., Наука, 1982. – 216 стр.

32. Брунков А.Ф. Дипломатический протокол в России. М., Международные отношения, 2000. – 239 стр.

33. Валькова Л.В. Саудовская Аравия в международных отношениях. М., Наука, 1979. – 224 стр.

34. Валькова Л.В. Саудовская Аравия: нефть, ислам, политика. М., Наука, 1987. – 254 стр.

35. Васильев А.М. История Саудовской Аравии. М., Наука, 1982. – 612 стр.

36. Васильев А.М. Египет и египтяне. М., Мысль, 1986. – 253 стр.

37. Внешняя политика стран Ближнего и Среднего Востока. М., Международные отношения, 1984. – 287 стр.

38. Ганюшкин Б.В. Дипломатическое право международных организаций. М., Международные отношения, 1972. – 191 стр.

39. Государство Израиль. Иерусалим, 1991. I – 308 стр; II – 591 стр.

40. Государство Израиль в 80-е годы. М., Наука, 1992. – 284 стр.

41. Государство Израиль: Экономика и политика. М., Наука, 1982. – 197 стр.

42. Государство Кувейт. М., Наука, 1990. – 144 стр.

43. Давыдов Р. Палестинская проблема. М., Международные отношения, 1984. – 163 стр.

44. Демченко П.Е. Там, за рекой. М., Международные отношения, 1989. – 126 стр.

45. Дипломатия развивающихся государств. М., Международные отношения, 1976. – 320 стр.

46. Дмитриев Е.Д. Палестинская трагедия. М., Международные отношения, 1986. – 156 стр.

47. Дмитриев Е.Д. Палестинский узел. М., Международные отношения, 1978. – 303 стр.

48. Дмитриев Е.Д., Ладейкин В.П. Путь к миру на Ближнем Востоке. М., Международные отношения, 1974. – 247 стр.

49. Егорин А.З. Война и мир на Ближнем Востоке. М., Международные отношения, 1995. – 216 стр.

50. Ежегодник Большой Советской Энциклопедии. 1971-1988. М., БСЭ, 1972-1989.

51. Зайцева О.Г. Международные межправительственные организации. М., Международные отношения, 1983. – 168 стр.

52. Захаров А.М. и Фомин О.И. Политика, обреченная на провал. М., Международные отношения, 1982. – 271 стр.

53. Звягельская И.Д. Роль военной верхушки в формировании государственной политики Израиля. М., Наука, 1982. – 160 стр.

54. Иванов М.С. Иран в 60-70-х гг. XX века. М., Наука, 1977. – 271 стр.

55. Иванова И.И. Турецко-арабские отношения и их место в системе международных связей на Ближнем Востоке (1945-1983). М., Наука, 1985. – 152 стр.

56. Иванова И.И. и др. Межгосударственные региональные организации Азии в международных отношениях. М., Наука, 1991. – 222 стр.

57. Игнатенко А.А. Халифы без халифата. М., Прогресс, 1988. –206 стр.

58. Ислам. Краткий справочник. М., Наука, 1986. – 137 стр.

59. Ислам в истории народов Востока. М., Наука, 1981. – 197 стр.

60. Ислам в современной политике стран Востока. М., Наука, 1986. – 278 стр.



61. Ислам и современность. М., Наука, 1985. – 141 стр.

62. Ислам и проблемы национализма в странах Ближнего и Среднего Востока. М., Наука, 1986. – 234 стр.

63. «Исламский фактор» в международных отношениях в Азии. М., Наука, 1987. – 189 стр.

64. Ислам. Энциклопедический словарь. М., Наука, 1991. – 311 стр.

65. История Ирана. М., Наука, 1977. – 488 стр.

66. Кальвокорессы Питер. Мировая политика после 1945 года. М., Прогресс, 2000, т.1. – 588 стр.

67. Киселев В.И. Палестинская проблема и ближневосточный кризис. Киев, Политиздат Украины, 1983. – 215 стр.

68. Киселев В.И. Палестинская проблема в международных отношениях. Региональный аспект. М., Прогресс, 1988. – 239 стр.

69. Киссинджер Г. Дипломатия. М., Международные отношения, 1997. – 848 стр.

70. Князев А.Г. Египет после Насира. М., Наука, 1986. – 299 стр.

71. Коваленко И.И. Международные неправительственные организации. М., Международные отношения, 1976. – 167 стр.

72. Краткий политический словарь. М., Политиздат, 1989. – 623 стр.

73. Кудряцев А.В. Исламский мир и палестинская проблема. М., Наука, 1990. – 131 стр.

74. Ладейкин В.П., Дмитриев Е. Путь к миру на Ближнем Востоке. М., Международные отношения, 1974. – 247 стр.

75. Лосев С.А., Тыссовский Ю.К. Ближневосточный кризис: нефть и политика. М., Советская Россия, 1980. – 256 стр.

76. Медведко Л.И. К востоку и западу от Суэца. М., Политиздат, 1980. – 368 стр.

77. Медведко Л.И. Этот Ближний бурлящий Восток. М., Политиздат, 1985. – 335 стр.

78. Журнал "Международная жизнь". М., 1975-1998.

79. Международные отношения на Ближнем и Среднем Востоке. М., Наука, 1974. – 200 стр.

80. Меликов Р.Н. Видные исламские фундаменталисты. Баку, Элм, 2000. – 130 стр.

81. Мишо Г. История крестовых походов. М., Советская Россия, 1999. – 366 стр.

82. Морозов Г.И. Международные организации. Некоторые вопросы теории. М., Мысль, 1974. – 332 стр.

83. Москаленко В.Н. Проблемы современного Пакистана. М., Наука, 1970. – 283 стр.

84. Журнал "Народы Азии и Африки". М., 1975-1998.

85. Ниязматов Ш.А. Ирано-Иракский конфликт. Исторический очерк. М., Наука, 1989. – 174 стр.

86. Новейшая история арабских стран Азии. М., Наука, 1988. –636 стр.

87. Оксфордская иллюстрированная энциклопедия. Всемирная история. Том 4. М., Наука, 2000.

88. Орлов Е.А. Внешняя политика Ирана после второй мировой войны. М., Наука, 1975. – 224 стр.

89. Пакистан. Справочник. М., Наука, 1991. –424 стр.

90. Палестинская проблема. Документы ООН, международных организаций и конференций. М., Наука, 1984. – 239 стр.

91. Политическая энциклопедия. Т.1, М., Наука, 2000. – 750 стр.

92. Попов В.И. Современная дипломатия. Теория и практика. М., Международные отношения, 2000. – 574 стр.

93. Примаков Е.М. Анатомия ближневосточного конфликта. М., Наука, 1978. – 374 стр.

94. Примаков Е.М. История одного сговора. М., Политиздат, 1985. – 319 стр.

95. Протопопов А.С. Советский Союз и Суэцкий кризис. М., Наука, 1969. – 252 стр.

96. Речь Саддама Хусейна на III мусульманской конференций в верхах. Багдад, 1981. – 14 стр.

97. Россия и Афганистан. М., Наука, 1989. – 205 стр.

98. Саудовская Аравия. Справочник. М., Наука, 1980. – 271 стр.

99. Саядов С.А. Азербайджан: международные связи и взаимопонимание. Баку, Азернешр, 1991. – 221 стр.

100. Саядов С.А. Интернационализм – наше знамя. Баку, Гянджлик, 1985. – 199 стр.

101. Саядов С.А. Интернационализм и борьба за мир. М., Мысль, 1987. – 345 стр.

102. Саядов С.А. По законам интернационализма. М., Мысль, 1983. – 269 стр.

103. Саядов С.А. Азербайджан в системе международных отношений Советского государства в 1971-1986 годах (Отношения со странами Азии, Африки и Латинской Америки). Автореф. дисс. док. ист. наук. Баку, 1992. – 26 стр.

104. Саядов Э.С. Азербайджан-Украина: Взаимосвязи и сотрудничество по законам международного права. История и современность (1945-2003 гг.). Баку, ААНДМ, 2003, (50-66). – 17 стр.

105. Советско-афганские отношения (документы). М., Международные отношения, 1971. – 439 стр.

106. Современные международные отношения. М., Международные отношения, 2000. – 581 стр.

107. Специальный бюллетень Института. Востоковедения. АН СССР. М., Наука, 1986, №5.

108. Спольников В.Н. Афганистан: исламская оппозиция. М., Наука, 1990. – 192 стр.

109. Стоклицкий. С.Л. Ливан: бремя событий. М., Мысль, 1990. – 173 стр.

110. Теплинский Л.Б. 50 лет советско-афганских отношений. М., Наука, 1971. – 237 стр.

111. Турецкая Республика. Справочник. М., Наука, 1975. – 568 стр.

112. Турсунов Р.М. Саудовская Аравия в международных отношениях в период 1964-1975 гг. Ташкент, Издательство «Ташкент», 1987. – 120 стр.

113. Что есть что в мировой политике. Словарь. Справочник. М., Прогресс, 1987. – 479 стр.

114. Шарипова Р.М. Панисламизм сегодня. М., Наука, 1986. –137 стр.

115. Шреплер Х.А. Международные экономические организации. М., Наука, 1999. – 456 стр.

116. Шукуров И. Дипломатия мира. Баку, Издательство «Азербайджан», 1997. – 392 стр.

### *Türk dilində*

*117. "Cümhuriyyət" qəzeti.*

*118. Dikerdem M. Orta Doğuda Devrim Yolları. İstanbul, 1997. – 168 səh.*

*119. Ehsan V. Orta Doğuda Savaş. Ankara, 1977. 218 səh.*

*120. "Milliyyet" qəzeti, müxtəlif illər.*

*121. «İslam Ölkələri Ticarət və Sənaye Odaları Konfransı». Ankara, 1978. – 115 səh.*

*122. Olaylarda Türk dış politikası (1919-1973). Ankara, 1975. –116 səh.*

### *İngilis dilində*

*123. Lenezowski Ç.U.S. Interests in the Middle East. N.Y. 1973. - 218 səh.*

*124. Middle East North Afrika. 1977-78. London., 1978.*

*125. Mortimes E. The politics of Islam. 1982, №4.*

*126. «Pakistan Times» qəzeti, müxtəlif illər.*

*127. Robinson. Israil et les Refukues Arabes. P., 1968, 192 səh.*



*128. The Iraq-Iran Conflict. Baqdhad. 1981, 218 səh.*

*128a. «The İvning star» (ABŞ) qəzeti, müxtəlif illər.*

*128b. «The Waşington post» (ABŞ) qəzeti, müxtəlif illər.*

*129. Vatikiotis P. Conflicts in the Middle East. L.,1971, 201 səh.*

### *Ərəb və fars dillərində*

130. الجحاد فی اسلام ، قاهیره ، ١٩٦٦

131. شتون فلاسطتنه (بدون ممل)، سال ١٩٧٩

132. ژارات المجل الوطنننه فی العلطنیه، ١٩٧۴

133. فیتاق الوطنه القل سلطنته، ١٩٨٨

134. حراتما حرکات ... المقام النفلسطننت بیردد،

135. وزارت امرخانر سازمان کنفرانس اسلامی، تهران، ١٩٩٨

136. منشور سازمان کنفرانس اسلامی، تهران، ١٩٧۴

137. روابط خارج ایران. کتاب سبز، تهران، ١٩٧١-١٩٧٧

138. غلام رضا نجاحامی، ؟؟؟ اسرائل، تهران، ١٩٧۴

139. عبدالرضا موشنگ مهدوی، تاریخ رواوایط خارجه ایان، تهران، ١٩٨٩.

140. سید حمید روعانی، نحضرت امام خمینی. تهران، ١٩٨۵

141. حمایون اسد نتایج کنزاس اسلامی، اباط، واشنگتون، ١٩٧٠

142. سر آنتونی پار سنز، غرورو سفوطه، تهران، ١٩٨۵

### VII. Internet resursları

143. http: // www. oic-oci. org

144. http: // www. oic-oci. org/english/conf

145. http: // ru. wikipedia. org

**ЭЙЮБОВА С.Э.**

# ОРГАНИЗАЦИЯ ИСЛАМСКОЙ КОНФЕРЕНЦИИ В СИСТЕМЕ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ (1969 – 2007 гг.)

## РЕЗЮМЕ


Монография посвящена одной из актуальных тем международных отношений – теме «Организация Исламской Конференции в системе международных отношений (1969-2007 гг.)».

Она состоит из введения, трёх глав, заключения и библиографии.

Во введении обосновывается актуальность темы, её политическая и научная ценность, дается анализ историографии, характеристика источниковой базы, определяются цели и задачи работы, её научная новизна, практическая значимость, раскрываются методы и способы исследования, обосновываются хронологические рамки диссертации.

В первой главе освещаются вопросы создания «Организации Исламской Конференции», пути её развития, основные направления организационного укрепления, место в системе общественно-политической жизни мирового сообщества, а также ее роль в решении глобальных проблем современных международных отношений.

Во второй главе анализируются насущные проблемы арабского мира, в том числе, проблемы его общественно-политической, экономической, социальной и культурной, научно-технической и духовной жизни, с научно-исторической точки зрения оценивается положение, складывающееся в этих областях. Показывается роль арабского мира в системе международных отношений, в решении актуальных проблем сотрудничества народов во имя мира





на Земле, а также значение деятельности ОИК в этом мировом процессе.

В третьей главе обобщается опыт работы ОИК, направленный на устранение региональных конфликтов и нормализацию межгосударственных отношений, в частности рассмотрены вопросы: ОИК и война между Ираком и Ираном, ввод Советской Армии в Афганистан, проблемы Кашмира, ОИК и Азербайджан, конфликт в Нагорном Карабахе, а также проблемы мусульман, проживающих в неарабских странах.

В заключении диссертации обобщены результаты исследования, выражена их суть и сделаны научные выводы. Вместе с тем, здесь даются конкретные предложения по рассмотренным проблемам.

**EYYUBOVA S.E.**

# THE ORGANIZATION OF ISLAMIC CONFERENCE IN THE SYSTEM OF INTERNATIONAL RELATIONS (1969-2007)

## S U M M A R Y

The present research is dedicated to one of the current themes of international relations – to the theme of "The Organization of Islamic Conference in the System of International Relations (1969-2007)".

It consists of Introduction, three chapters, conclusion and bibliography.

Introduction is based on the topicality of the theme, its political and scientific values, is given the analysis of historiography, the characteristics of source basis, are determined the aims and duties of the work, its scientific novelty, practical significance, are revealed the methods and ways of research, are based on the chronological frames of the dissertation.

In the First chapter are illuminated the issues of the establishment of the Organization of Islamic conference, the ways of its development, major directions of organized strengthening, its place in the system of social-political life of the world community, as well as its role in the decisions of global problems of the modern international relations.

The Second chapter analyses the vital and urgent problems of Arabic world, also the problems of its social-political, economic, social and cultural, scientific-technical and divine life, are evaluated the situations of these spheres in the scientific-historical view-points. In the present research are also reflected the role of Arabic world in the system of the international relations, in the decision of the topical problems, such as the cooperation of the nations for the OIC on the peaceful process.



In the Third chapter is generalized the experience of the work of OIC that is directed to the removement of regional conflicts and normalization of the interstate relations, especially are examined the issues: OIC and the war between Iraq and Iran, input of Soviet Army into Afghanistan, the Kashmir problem, OIC and Azerbaijan, the Nagorny-Garabagh conflict, and also the problems of Muslims that live in non-Arabic countries.

In the Conclusion are generalized the results of the research, is expressed its essence and is make scientific consequences. At the same time, here are given concrete suggestions about the examination of the problem.

| | |
|---|---|
| **Mətbəə müdiri:** | *Əvəz İdrisoğlu* |
| **Dizayner:** | *Vəfa Nağıyeva* |
| **Texniki redaktorlar:** | *Şahin Abbasov* |
| | *Ramin Abbasov* |
| **Operator:** | *Şahin Salmanov* |

Çapa imzalanıb 16.01.2009-cu il
Sayı 500.
Həcmi 10,85 çap vərəqi
Formatı 60x84 $^1/_{16}$. Əla növ kağız.

***Hazır diapozitivlərdən AzTU-nun mətbəəsində çap olunmuşdur.***